**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## ON DÖRDÜNCÜ KİTAB

## OKTYABR 2005 - DEKABR 2005

AZƏRNƏŞR
BAKI - 2013

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2013

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2013, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin oxuculara təqdim olunan bu cildində Azərbaycanın bütün sahələrdə sürətli inkişafına, insanların sosial həyat şəraitinin yaxşılaşmasına, ölkəmizin daha müasir dövlətə çevrilməsinə aid çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, müraciətləri və s. toplanmışdır.

Kitabda Prezidentin Səudiyyə Ərəbistanına səfərindən, İslam Konfransı Təşkilatının 3-cü zirvə toplantısında nitqi, bir sıra dövlət və hökumət başçıları ilə görüşləri zamanı ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi və genişləndirilməsindən bəhs edən materiallar da öz əksini tapmışdır.

Bu cildə, həmçinin İlham Əliyevin Naxçıvan Muxtar Respublikasında olduğu müddətdə Naxçıvan MR-in sürətli iqtisadi tərəqqisi və yüksəlişinə, sosial və mədəni inkişafına dair çıxış və nitqləri, Naxçıvana gələn İran prezidenti Mahmud Əhmədnejadla görüşləri, dərin məzmunlu söhbətlərin materialları, İran ərazisi ilə Naxçıvana təbii qazın verilməsinə həsr olunmuş təntənəli mərasimdə prezidentlərin çıxışları, mətbuat orqanlarına verdikləri bəyanatları, müsahibələri geniş yer almışdır.

**İSBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{\mathbf{0801000000}}{\mathbf{M-651(07)-2012}}$$

**ББК - 32**

© Azərnəşr, 2013

## ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏNİN MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ AÇDIĞI İFTAR SÜFRƏSİ MƏRASİMİNDƏ NİTQ

*26 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında açdığı iftar süfrəsinə dəvət olunmuşdur.*

*Quran oxunub qurtarandan sonra Şeyxülislam Hacı Allahşükür Paşazadə çıxış edərək Azərbaycan prezidentini, dövlət və hökumət nümayəndələrini, xarici ölkə səfirlərini, ölkəmizdə fəaliyyət göstərən dini qurumların rəhbərlərini, elm və din xadimlərini salamladı.*

*Ramazan ayında dövlətimizin başçısına uğurlar, Azərbaycan xalqına sülh və əmin-amanlıq dilədi. Şeyxülislam dedi ki, Azərbaycan prezidentinin xalqla birliyi dövlətimizin başçısının mənəviyyatımıza sadiq qalmasını bir daha göstərir. Ulu öndərimizin ruhunun həmişə bizimlə olduğunu söyləyən Allahşükür Paşazadə Heydər Əliyevin tarixi xidmətlərini xatırladaraq dedi ki, ümummilli liderimiz Azərbaycanın müstəqilliyi, xalqımızın xoşbəxtliyi üçün çoxlu işlər görmüşdür.*

*İndi onun yolunu prezident İlham Əliyev uğurla davam etdirir. Ölkəyə rəhbərlik etmək çətin olsa da, bu iş həm Allah, həm də xalq qarşısında çox şərəflidir. Biz xalqına, Vətəninə sadiq prezidentimizlə həmrəy olsaq, müstəqilliyimiz daha da möhkəm və əbədi olacaqdır.*

*Dövlətimizin başçısının apardığı islahatlara, onun quruculuq işlərinə əngəl yaratmaq istəyən bəzi qüvvələrin heç nəyə nail olmayacağını bildirən Şeyxülislam dedi ki, vaxtilə mən Əbülfəz Elçibəyin öz otağından telefonla Heydər Əliyevlə*

*danışaraq «Tez gəl, bizi qurtar» deməsinin şəxsən şahidi olmuşam. İndi prezidentlik iddiasında olan adamlar heç vaxt dövlət idarə edə bilməzlər. Biz din xadimləri əsl həqiqəti bilirik. Hələ 10 il bundan əvvəl ulu öndərimiz peygəmbərin mövlud günü Təzəpir məscidində olanda ona demişdim ki, biz din xadimləri həmişə Sizin tərəfinizdəyik, çünki Siz haqqın tərəfdarısınız.*

*Şeyxülislam dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, Sizə bir daha söz verirəm ki, dindarlarımız həmişə Sizinlədir və həmişə Sizin tərəfinizdə olacaqlar. Ulu öndərimiz Heydər Əliyev Azərbaycanı necə görmək istəyirdisə, biz artıq bunu görürük. Sizin atdığınız bugünkü addımlarınız bəyənilir və bundan sonra da bəyəniləcəkdir.*

*Sonra Şeyxülislam xalqımızın ümummilli lideri Heydər Əliyevin dini tolerantlıq, ölkənin yüksəlişi ilə bağlı istək və arzularını xatırlatdı, ulu öndərin İlham Əliyev haqqında söylədiyi «Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm» sözlərini yada saldı, dövlətimizin başçısına ürəkdən inandıqlarını bildirdi.*

*O, Qafqaz Müsəlmanları İdarəsinin Qazilər Şurası və Elmi-Dini Şurasının yekdilliklə qəbul etdiyi qərarını oxudu: «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, dini, milli-mənəvi dəyərlərin dirçəldilməsi, ölkədə tolerantlığın bərqərar olması sahəsində misilsiz xidmətlərinə görə ümummilli lider Heydər Əlirza oğlu Əliyev vəfatından sonra «Şeyxülislam» ordeni ilə təltif olunsun».*

*Hacı Allahşükür Paşazadə ordeni prezident İlham Əliyevə təqdim edərək dedi: «Mən çox heyfsilənirəm ki, bu ordeni Heydər Əliyevə verə bilmədim. Ancaq mən daha çox sevinirəm ki, onun oğlu var, davamçısı var. Mən bu gün «Şeyxülislam» ordenini onun oğluna təqdim edirəm». Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli şeyx həzrətləri!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə hamının qəlbində böyük ehtiram var, böyük hörmət var. Bugünkü Azərbaycan Heydər Əliyevin əsəridir. Hamımızın yadındadır ki, ölkəmiz müstəqilliyini əldə edəndə çox böyük problemlərlə, çətinliklərlə üzləşmişdi. Faktiki olaraq, Azərbaycanın dövlətçiliyinin taleyi şübhə altında idi. Ölkə parçalanma ərəfəsində idi. Ölkədə gedən mənfi proseslər, xaos, anarxiya, özbaşınalıq, vətəndaş qarşıdurması Azərbaycanı faktiki olaraq dünya xəritəsindən silə bilərdi. Heydər Əliyevin qətiyyəti, xalqın ona olan inamı, onun siyasi bacarığı, təcrübəsi və biliyi bizim xalqımızı böyük bəlalardan qurtardı.

1993-cü ildən başlayaraq Azərbaycan inamla irəliləyib, inkişaf edib, ölkəmizin bütün sahələri inkişafdadır. İlk növbədə, iqtisadi inkişaf göz qabağındadır. Məhz 1990-cı illərin ortalarında bağlanmış köklü iqtisadi islahatlar bu gün Azərbaycanın hərtərəfli inkişafına möhkəm zəmin yaratmışdır. Bu əsaslı, möhkəm təməl üzərində bu gün çox inkişaf etmiş iqtisadiyyat irəliləyir. İqtisadi inkişaf sürətinə görə Azərbaycan bu gün dünyada ən qabaqcıl ölkədir.

Azərbaycanda siyasi proseslər, vətəndaş cəmiyyətinin formalaşması prosesləri də uğurla gedir, ölkədə demokratiyanın inkişafı, qanunun aliliyi təmin olunur. Biz, Azərbaycana indi rəhbərlik edən şəxslər bu böyük məsuliyyəti dərk edirik. Bizə əmanət kimi verilən bu ictimai ab-hava, bu gözəl şərait, milli birlik gərək saxlanılsın. Gərək bu sabitlik möhkəmləndirilsin, asayiş qorunsun. Ona görə biz bu böyük məsuliyyəti dərk edirik. Prezident kimi, mən çalışıram əlimdən gələni edim ki, Azərbaycanın davamlı inkişafı təmin olunsun, ölkədə vətəndaşlar rahat şəraitdə yaşasınlar, sabitlik qorunsun. Hesab edirəm, iki il ərzində görülən işlər deməyə əsas verir ki, biz bu yoldan dönməmişik.

Mən prezident vəzifəsinə seçilən zaman və andiçmə günündə çıxışımda da qeyd etmişdim ki, biz bu mövqedə möhkəm dayanacağıq və bu yoldan dönməyəcəyik. Bu gün həyat onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında vəhdət, birlik var.

Heydər Əliyev siyasəti bu gün yaşayır və yaşamalıdır. Ölkəmizin normal inkişafı üçün başqa yol yoxdur. Həm iqtisadi inkişafda əldə edilmiş nailiyyətlər, həm Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsi, həm sosial məsələlərə böyük diqqətin göstərilməsi, həm Azərbaycanda demokratik proseslərin inkişafı, həm də sabitliyin qorunması təmin olunur. Bu sabitliyi pozmaq istəyən qüvvələr bilirlər ki, buna nail ola bilməzlər. Bizim gücümüzü sınamaq istəyən qüvvələr var, bəlkə də bundan sonra da olacaqdır. Amma biz gücümüzü göstərmişik. Lazım olan anda tam qətiyyətlə, cəsarətlə bütün addımları atırıq.

Mən sülhün tərəfdarıyam. Mən cəmiyyətdə normal əlaqələrin, o cümlədən siyasi müstəvidə normal əlaqələrin tərəfdarıyam və öz işimlə, qəbul edilmiş qərarlarla çalışıram ki, buna nail olum. Ancaq əgər kimsə Azərbaycanda vəziyyəti gərginləşdirmək istəyirsə, qeyri-qanuni yollara əl atırsa, bilməlidir və bilir ki, bizim tərəfimizdən çox ciddi addımlar atılacaqdır. Ən cəsarətli addımlar atılmalıdır və atılıbdır ki, Azərbaycanda sabitlik qorunsun, insanlar normal yaşasınlar. Heç kimə icazə verilməyəcək ki, burada qeyri-qanuni hərəkətlərə yol versinlər. Yaxud da ki, Azərbaycan yenidən 1990-cı illərin əvvəllərində yaşadığı o mühitə sürüklənsin. Bu, artıq tarixdir.

Azərbaycanın inkişafı imkan verəcək ki, ölkədə hər bir vətəndaş normal yaşasın, ölkəmiz inkişaf etsin və Azərbaycan Dünya Birliyində yerini daha da möhkəm tuta bilsin.

Bu işdə biz hamımız həmrəyik. Mən çox şadam ki, Azərbaycanda dövlətlə din arasında münasibətlər gündən-günə möhkəmlənir, çox yüksək səviyyədədir. Bunun səbəbi haqqında keçən il burada olarkən öz fikirlərimi bildirdim. Hesab edirəm ki, ulu öndər Heydər Əliyev ilə şeyx həzrətləri arasında olan

səmimi dostluq münasibətləri buna çox gözəl təkan verirdi. Bu gün bu münasibətlər davam edir. Şəxsi münasibətlərimiz çox səmimidir, eyni zamanda, dövlətlə din arasında bağlılıq çox möhkəmdir.

Azərbaycan dünyəvi dövlətdir. Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq buna baxmayaraq, dövlətlə din arasında əlaqələr, münasibətlər çox möhkəmdir. Mən də öz fəaliyyətimdə çalışıram ki, bu əlaqələri daha da möhkəmləndirim. Biz hamımız çalışırıq, o cümlədən Azərbaycan dindarları çalışırlar ki, Azərbaycan möhkəmlənsin, zənginləşsin və qüdrətli dövlətə çevrilsin.

Əlbəttə, ölkəmizin hərtərəfli inkişafı üçün iqtisadi potensial əsas rol oynayır. Hər şey buna bağlıdır. Bizim göstəricilərimiz də göz qabağındadır. Büdcəmiz artır, maaşlar artır, iqtisadi inkişaf sürəti artır. Eyni zamanda, hər bir ölkənin normal inkişafı üçün ümummilli həmrəylik mühüm rol oynayır. Azərbaycanda bu da var və gündən-günə möhkəmlənir. Azərbaycanda bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və mən çox şadam ki, ölkəmizdə dözümlülük, tolerantlıq çox yüksək səviyyədədir. Bizim ölkəmiz başqa ölkələr üçün də nümunə ola bilər və olmalıdır. Bilirsiniz ki, xüsusilə indiki zəmanədə dünyada sivilizasiyalar arasında gedən dialoqa böyük önəm verilir. Dünyanın bir çox yerlərində bu dialoq ya aparılmır, yaxud da konfessiyalararası münasibətlər lazımi səviyyədə deyildir. Azərbaycanda isə bu, ən yüksək səviyyədədir. Bizim ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bunu hiss edirlər. Prezident kimi, mən də çalışıram ki, Azərbaycanda yaşayan bütün millətlər, bütün dinlərin nümayəndələri bu qayğını hiss etsinlər. Bunun əyani sübutları da kifayət qədərdir.

Mən xatırlayıram, Roma Papasının vəfat etdiyi günlərdə şeyx həzrətləri ilə birlikdə biz Romada dəfn mərasimində iştirak etmişdik. Papanın xatirəsinə öz hörmət və ehtiramımızı bildirmişdik. Ondan sonra mənim Vatikana rəsmi səfərim olmuşdu və səfər zamanı Azərbaycanda tikiləcək yeni katolik kilsəsinin torpaq sənədləri təqdim edilmişdir. Mən çox şadam ki,

artıq kilsənin tikintisinə başlanmışdır və təməl daşının qoyulması mərasimi keçirilmişdir.

Ümumrusiya Patriarxı II Aleksi Azərbaycanda səfərdə idi və çox səmimi görüşümüz oldu. Bildiyiniz kimi, II Aleksi məni Rus Pravoslav kilsəsinin ən yüksək ordeni ilə təltif etmişdir. Bunlar lazımdır və vacibdir. Çünki bu bizi daha da birləşdirir. Bilirsiniz ki, mənim Azərbaycanda yaşayan yəhudi icması ilə – həm onların yığcam yaşadıqları yerlərdə, eyni zamanda, Bakıda və ölkəmizin digər yerlərində – mütəmadi görüşlərim olur. Bütün bunlar Azərbaycanın normal inkişafı üçün əsas şərtlərdir. Mən çox şadam ki, Azərbaycanda biz ümummilli həmrəyliyə nail olmuşuq. Çox şadam ki, Azərbaycanda millətlərarası münasibətlər yüksək səviyyədədir. Bu sahədə mənim tərəfimdən bütün lazımi addımlar atılır və gələcəkdə də atılacaqdır.

Mən çox şadam ki, bu gün biz yenidən birlikdəyik. Müqəddəs Ramazan ayında birlikdəyik. Artıq bu, gözəl ənənəyə çevrilibdir. Mən keçən il də burada idim və birlikdə biz iftar süfrəsini açdıq, bu gün də buradayam. Bu, Azərbaycanın inkişafı üçün lazımdır. Şeyx həzrətləri ilə çox səmimi münasibətlərimiz var, biz tez-tez görüşürük, müxtəlif məsələləri müzakirə edirik. Bu bağlılıq həm bizə lazımdır, həm də ölkəyə lazımdır. Bütün dindarlara lazımdır, bütün vətəndaşlara lazımdır.

Mən bir daha şeyx həzrətlərinə öz hörmətimi ifadə etmək istəyirəm. Məni bu məclisdə iştirak etmək üçün dəvət etdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Yadımdadır, keçən il burada çıxış edərkən demişdim ki, əgər dəvət etsəniz, gələn il də gələcəyəm və həmişə sizinlə birlikdə olacağam. Sağ olun.

* * *

*Şeyxülislam Hacı Allahşükür Paşazadə prezident İlham Əliyevə öz adından, din xadimləri, Elmi-Dini Şuranın üzvləri, bütün dindarlar adından bir daha dərin minnətdarlığını bildirərək dedi ki, gələn il Ramazan ayında Sizi yenidən burada görməyimizdən çox şad olacağıq.*

*Sonra iftar süfrəsi açıldı.*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Əlcəzair inqilabı günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da möhkəmlənəcək və inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Əlcəzair xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 oktyabr 2005-ci il*

## TÜRKİYƏ JURNALİSTLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*28 oktyabr 2005-ci il*

**İ l h a m  Ə l i y e v:** Sizi – qardaş Türkiyənin mətbuat nümayəndələrini səmimi-qəlbdən salamlayıram. Bu görüşümüzdən məmnun olduğumu bildirirəm.

**S u a l: Mən hörmətli Cümhur başqanına sual vermək istəyirəm. Türkiyə–Azərbaycan əlaqələrinin vəziyyəti son dərəcə yaxşıdır. Ölkələrarası əlaqələrdə şəxsi münasibətlər nə dərəcədə mühüm rol oynayır? Bu barədə nə düşünürsünüz?**

**C a v a b:** Əlbəttə, şəxsi əlaqələr mühüm rol oynayır və çox sevindirici haldır ki, bizim ölkələrimiz arasında əlaqələr və ölkələrə rəhbərlik edən şəxslər arasında əlaqələr eyni səviyyədədir. Hörmətli prezident Əhməd Necdət Sezərlə çox səmimi dostluq münasibətlərimiz mövcuddur. Eyni zamanda, Baş nazir cənab Rəcəb Tayyib Ərdoğanla da biz çox yaxından əməkdaşlıq edirik, dostuq. Biz bir-birimizlə daim əlaqə saxlayaraq, telefonla danışırıq, müxtəlif beynəlxalq tədbirlərdə görüşürük və bu çox önəmlidir. Mən hesab edirəm ki, indiki bu dostluq əlaqələri ən yüksək zirvədədir.

**S u a l: Hörmətli Cümhur başqanı, Siz son dəfə Kazanda Ermənistan prezidenti ilə görüşdünüz. İndi vəziyyət necədir, sizcə, sülhə doğru ümidiniz varmı? Yəni Ermənistan bu yöndədirmi?**

**C a v a b:** Hər halda, biz bu sülh danışıqlarını aparırıq. Bu o deməkdir ki, ümidlər hələ var, tükənməyibdir. Ancaq bu danışıqlar 10 ildən artıqdır ki, aparılır və ortada bir nəticə yoxdur. Bizim

mövqeyimiz həmişə birmənalı olmuşdur və bu, beynəlxalq hüquqa əsaslanan bir mövqedir. Yəni ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, Ermənistanın işğalçı qüvvələri torpaqlarımızdan çıxmalıdır və bizim soydaşlarımız, bir milyondan artıq qaçqın, köçkün öz doğma torpaqlarına qayıtmalıdır. Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusunun verilməsi də müzakirə oluna bilər. Bu mövqe beynəlxalq normalara əsaslanır və bu normaların tətbiq olunması hər bir münaqişənin nizama salınmasında başlıca şərtdir. Ermənistanın mövqeyi beynəlxalq hüquqa tamamilə zidd bir mövqedir. Heç bir beynəlxalq hüquq normalarına əsaslanmayan mövqedir. Onlar Dağlıq Qarabağa müstəqillik istəyirlər.

**S u a l: Onlar tərəfindən göstərilən əsas səbəb də odur ki, Dağlıq Qarabağda yaşayan ermənilər öz müqəddəratını təyin etməlidirlər. Ancaq biz bilirik ki, ermənilər müxtəlif ölkələrdə yaşayırlar. Təsəvvür edin, əgər onlar yaşadıqları bütün ölkələrdə müstəqillik statusu tələb etsələr, nələr baş verər?**

**Ca v a b:** Mən ümid edirəm ki, danışıqların müsbət nəticələri ola bilər. Əgər bütün tərəflər beynəlxalq hüquq normalarına riayət etsələr və bu məsələ ilə məşğul olan, vasitəçilik missiyasını üzərinə götürən qurumlar daha da fəal olsalar, sülh sazişinə nail oluna bilər.

**S u a l: Hörmətli Cümhur başqanı, təxminən bir həftədən sonra parlament seçkiləri keçiriləcəkdir. Ötən həftə Sizin əhəmiyyətli sərəncamlarınız oldu. Bəzi nazirlər vəzifəsindən azad olundu, bəziləri haqqında müəyyən ittihamlar ortaya çıxdı. İcazənizlə, bununla bağlı iki sual vermək istəyirəm. Birincisi, vəzifədən bu cür azadolunmalar, həbslər davam edəcəkmi? İkincisi, bir neçə ildir indi vəzifədən azad olunan insanlarla çalışırdınız. Barələrindəki ittihamlar ortaya indimi çıxdı, yəni bu cür işlərə onlar təzə başlamışlar?**

**C a v a b:** Bunu demək çətindir ki, onlar bu işlərlə bu yaxınlarda məşğul olmağa başladılar, yoxsa bundan əvvəl. Hər halda,

istintaq orqanları onların əməllərini üzə çıxardı və lazımi tədbirlər görüldü.

Azərbaycanda qanunun aliliyi başlıca şərtdir. Biz hüquqi dövlət qururuq və qanun hamı üçün qanun olmalıdır. İstər o, adi vətəndaş olsun, nazir olsun, yaxud da siyasətçi olsun. Ona görə bütün bu məsələlərə həmin prizmadan yanaşmaq lazımdır. Artıq verilən ifadələr deməyə əsas verir ki, Azərbaycanda seçkilərlə bağlı və seçkilər ərəfəsində nəzərdə tutulan proseslər ölkəmizi çətin duruma sala bilərdi. Ölkədə qarşıdurma yarada bilərdi. Bunun qarşısı alındı. Gələcəkdə də əgər kimsə Azərbaycanda qanunazidd hərəkətlər edərsə, şübhəsiz ki, bunun da qarşısı alınacaqdır. Qanun hamı üçün eyni olmalıdır. Ümid edirəm ki, Azərbaycanda parlament seçkiləri normal şəraitdə keçiriləcəkdir. Seçkilərin ədalətli və demokratik keçirilməsi üçün bütün əsaslar var. Seçki kampaniyası uğurla gedir. Ümid edirəm ki, seçki günü də normal keçəcək və Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapacaqdır.

**S u a l: Hörmətli Cümhur başqanı, Dağlıq Qarabağla bağlı fərqli mövqelər var. Bu sahədə bir addım atıldımı?**

C a v a b: Bilirsiniz, indi danışıqlar Praqa prosesi çərçivəsində aparılır. Praqa prosesi məsələnin mərhələli həlli deməkdir. Yəni, ilk növbədə, Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları – qaçqınlar, köçkünlər oraya qaytarılmalıdırlar. Ondan sonra Dağlıq Qarabağın statusu müzakirə olunmalıdır. Statusun müzakirəsində, əlbəttə, həm Ermənistan, həm Azərbaycan, həm indi Dağlıq Qarabağda yaşayan insanlar, həm də vaxtilə Dağlıq Qarabağda yaşamış, lakin oradan qovulmuş azərbaycanlılar da iştirak etməlidirlər. Yəni, biz bu prinsip üzərində indi danışıqlar aparırıq. Hesab edirik ki, bu çox böyük bir irəliləyişdir, sülh danışıqlarında əldə edilmiş böyük nailiyyətdir. Çünki bütün zamanlarda Ermənistan tərəfi məsələnin paket şəklində həll olunmasına çalışırdı. Yəni, onların fikrincə, onlar işğal olunmuş torpaqlardan çıxacaqlar, ancaq bununla eyni vaxtda Dağlıq

Qarabağın statusu müəyyən edilməlidir. Praqa prosesi artıq buna son qoydu.

Bir şeyi də demək istəyirəm. Azərbaycan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll etmək niyyətindədir. Bundan kənarda heç bir məsələ müzakirə mövzusu deyildir. Dağlıq Qarabağ nə Ermənistana birləşəcək, nə də müstəqil bir qurum olacaqdır. Orada yaşayan ermənilər Azərbaycanın tərkibində yüksək muxtariyyət statusuna malik ola bilərlər və bunu dünya təcrübəsi də göstərir. Avropaya nəzər salsaq görərik ki, orada muxtariyyətlər mövcuddur və onların təcrübəsi çox uğurludur. İndi biz Avropaya inteqrasiya siyasəti aparırıq. Ona görə həmin müsbət təcrübəni öyrənirik və bu məsələdə onu Azərbaycanda da tətbiq etməliyik.

**S u a l: Ermənistan məsələsi, sadəcə, Azərbaycanın problemi deyil, Türkiyənin və Azərbaycanın ortaq bir problemidir. Hətta bunu ortaq düşmən kimi də ifadə edə bilərik. Ermənilər diasporunun dəstəyi ilə, «soyqırımı» iddiaları ilə dünyaya yalan yayırlar.**

**Birincisi, Azərbaycanla Türkiyə dövlətinin bu diaspora cavab verə biləcək bir diaspor yaratması, bunun üçün dövlətin, mədəni təşkilatların dəstəyi ilə müştərək hərəkət etməsi mümkündürmü, belə bir şey düşünülürmü?**

**İkincisi, Azərbaycanla Türkiyə arasında hərbi, təhsil, mədəniyyət, siyasi – bütün sahələrdə əlaqələr önəmli bir səviyyəyə çatmışdır. Sizcə, bu əlaqələrdən ən çox hansı daha yaxşı bir nöqtəyə, səviyyəyə qaldırılmalıdır?**

**C a v a b:**Bizim aramızda bütün istiqamətlərdə çox səmərəli, işgüzar münasibətlər mövcuddur. İstər iqtisadi SAhədə, istərsə də siyasi müstəvidə ən yaxın müttəfiqik və bəlkə də dünyada ikinci belə ölkələr yoxdur ki, bir-birinə bu qədər sıx bağlı olsunlar. Ona görə bu əlaqələr həm Türkiyə və Azərbaycanın indiki inkişafına, regiondakı rolumuzun artmasına, həm də ölkələrimizin gələcək inkişafına xidmət edir.

Hesab edirəm ki, bu əlaqələr arasında iqtisadi əlaqələr bir az geridə qalır. Çünki siyasi sahədə bizim münasibətlərimiz ən yüksək səviyyədədir. Regional əməkdaşlıq baxımından Türkiyə və Azərbaycan bu gün həm bölgə, həm də dünya üçün çox önəmli layihələrlə məşğuldur. Aramızda olan ticarət əlaqələri, mal dövriyyəsi bizim potensialımızı tam əks etdirmir. Çünki indi həm Türkiyə, həm də Azərbaycan çox dinamik şəkildə inkişaf edən ölkələrdir. Bizdə 2005-ci ilin 9 ayında iqtisadi artım 21 faiz, sənayenin artımı 27 faiz təşkil edibdir. Bu, dünyada ən yüksək göstəricidir. Yəni bu potensialdan biz ikitərəfli iqtisadi əlaqələrin inkişafı üçün daha da səmərəli istifadə etməliyik. Bu sahədə də müəyyən addımlar atılır. Bir müddət bundan əvvəl Azərbaycanda Türkiyə–Azərbaycan biznes forumu keçirilmişdir. Mən də o forumda iştirak etmişdim. Mən çox istəyirəm ki, bizim iş adamlarımız bir-biri ilə daha da sıx əlaqədə olsunlar.

O ki qaldı erməni diasporunun fəaliyyətinə, əlbəttə, Ermənistanın əsas güc mənbəyi onun diasporudur. Çünki bir dövlət kimi, Ermənistan iqtisadi cəhətdən, siyasi baxımdan o qədər də inkişaf etməyib və onun özünün potensialı, əlbəttə, nə Azərbaycanın, nə də Türkiyənin potensialı ilə müqayisə edilə bilməz. Amma onların dünyada mövcud olan dayaqları, müxtəlif ölkələrdə mütəşəkkil şəkildə fəaliyyət göstərən diasporu, əlbəttə, onlara böyük dəstəkdir, eyni zamanda, bizə qarşı istifadə olunan ən güclü alətdir.

Azərbaycan müstəqilliyini 1991-ci ildə əldə edibdir. Əlbəttə, bizim keçmişdə diasporumuz, belə bir təcrübəmiz yox idi. Amma indi biz müstəqilik, çalışırıq və çalışmalıyıq ki, dünyada öz mövqelərimizi möhkəmləndirək. Türklər, azərbaycanlılar dünyanın müxtəlif yerlərində yaşayırlar və əlbəttə, onlar birgə fəaliyyət göstərməlidirlər. Bizim müxtəlif ölkələrdə icmalarımız formalaşır, möhkəmlənir. Azərbaycanda xüsusi bir qurum – Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi var. Bu yollarla biz dünyada öz mövqelərimizi möhkəmləndirməliyik və həqiqəti çatdırmalıyıq. Ermənistanın

təbliğatı yalan, böhtan, uydurma üzərində qurulubdur. Dırnaqarası soyqırımı məsələsində də onlar Dünya Birliyinin ictimai rəyini çaşdırırlar və tarixi təhrif etməyə çalışırlar, bəzi hallarda da buna nail olurlar. Bizim isə buna qarşı öz arqumentlərimiz olmalıdır. Bizim arqumentlərimiz həqiqətə, reallığa, faktlara söykənir. Əlbəttə, bu sahədə səylərin birləşdirilməsi çox böyük əhəmiyyət kəsb edir.

**S u a l: Hörmətli Cümhur başqanı, Sizə iki sualla müraciət etmək istəyirəm. Türkiyə ilə Azərbaycanın münasibətlərinin bu səviyyədə olmasından son dərəcə məmnunuq. Bunu burada olduğumuz zaman təmaslarımızda da gördük, küçədə də hiss etdik. İnşallah, daha da yaxşılaşacaqdır. Ancaq Azərbaycan Türkiyə üçün Qafqazda qapıbir qardaş ölkədir. Digər tərəfdə Orta Asiyanın türkdilli respublikaları da var. Azərbaycanın Türkiyə ilə münasibətləri çox gözəldir. Digər türkdilli respublikalarla münasibətləriniz necədir?**

**İkincisi, burada daha çox iki məsələ üzərində dayanılır. Biri seçkilər, digəri isə Qarabağ problemidir, inşallah, tezliklə çözülər. Bunlardan savayı, Azərbaycanın ciddi, böyük problemləri nələrdir?**

**C a v a b:** Əslində, seçkilər bizim üçün böyük məsələ deyil və problem də deyildir. Seçkilər bir prosesdir və hər bir ölkənin normal inkişafı üçün demokratik seçkilərin keçirilməsi şərtdir. Bizim qarşımızda əsas problem yalnız Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Çünki başqa problemlər öz həllini ya tapıbdır, ya da tapacaqdır. Bizim çox gözəl perspektivlərimiz var, gələcəyimiz var, təbii ehtiyacımız var. Gördüyümüz işlər nəticəsində neft, qaz kəmərləri tikilir. Ölkəmizin iqtisadi potensialı ildən-ilə artacaq və Azərbaycan çox zəngin və qüdrətli dövlətə çevriləcəkdir.

Eyni zamanda, ölkədə milli həmrəylik, xalqla iqtidar arasında birlik var. Ölkədə sabitlik möhkəm şəkildə təmin olunur. Sosial məsələlərin həlli işində böyük addımlar atılır, maaşlar, təqaüdlər artırılır və s.

Ermənistan–Azərbaycan münaqişəsi məsələsi həm bizim üçün, həm də bütün bölgə üçün başlıca təhlükədir, problemdir. Çünki bu münaqişə, bu müharibə sona yetməyibdir. Sadəcə olaraq, atəşkəs rejimi mövcuddur, ancaq sülh sazişi yoxdur. Bu, bütün regionun normal inkişafı üçün böyük əngəldir. Ermənistanın özü üçün də böyük problemdir. Çünki Ermənistan indi bütün beynəlxalq regional layihələrdən kənarda qalıbdır. İndi burada heç bir layihənin onların iştirakı ilə baş tutması mümkün deyildir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilməsi, ümid edirəm ki, bu yaxınlarda başlayacağımız Qars–Tbilisi–Bakı dəmir yolunun çəkilməsi – bütün bu layihələr Ermənistandan yan keçir. Bu belə də olmalıdır. Ermənistan bizim torpaqlarımızdan çıxmayanadək heç bir regional layihədə iştirak etməyəcəkdir. Çünki biz buna razılıq verməyəcəyik. Ona görə münaqişənin həlli bölgədə yaşayan bütün insanlar üçün önəmlidir.

O ki qaldı bizim digər türkdilli dövlətlərlə münasibətlərimizə, bu münasibətlər yüksək səviyyədədir. Biz qarşılıqlı səfərlər edirik, çox fəal çalışırıq, beynəlxalq təşkilatlarda – həm Birləşmiş Millətlər Təşkilatında, İslam Konfransı Təşkilatında, həm də başqa qurumlarda türkdilli dövlətlərdən dəstək görürük. Xüsusilə Ermənistan–Azərbaycan münaqişəsi məsələsində. Fəqət, o da sirr deyil ki, türkdilli dövlətlərin daha səmərəli, qaşılıqlı surətdə faydalı əməkdaşlığına daha da böyük ehtiyac var. Bu potensial tam şəkildə işə salınmayıbdır. Azərbaycan Türkiyəni Orta Asiya ilə birləşdirən bir ölkədir. Bizim ərazimizdən bütün dəhlizlər, enerji, nəqliyyat infrastrukturları keçir. Coğrafi-siyasi vəziyyətimiz, əlbəttə, yeni imkanlar yaradır. Yuxarıda qeyd etdiyim Qars–Tbilisi–Bakı dəmir yolunun çəkilişi, eyni zamanda, Orta Asiyanı Türkiyə ilə birləşdirəcəkdir.

**S u a l: Müxalifətin ABŞ-dan və Qərbdən, Avropa Birliyi ölkələrindən ciddi dəstək aldığı barədə deyilənləri, Gürcüstanda və Ukraynada olduğu kimi, eyni turuncu rəngi istifadə etməsini necə dəyərləndirirsiniz?**

**C a v a b:** Mən buna gülürəm. Siz buna turuncu deyirsiniz, biz narıncı deyirik. Hesab edirəm, bir halda ki, onlar burada böyük planlar həyata keçirmək iddiasındadırlar, bir başqa rəng seçə bilərdilər. Başqa ölkədə gedən prosesləri yamsılamaq, təkrarlamaq heç kimə şərəf gətirməz. Mən ümid edirəm ki, Azərbaycanda bütün siyasi qüvvələr, partiyalar qanun çərçivəsində hərəkət edəcək və fəaliyyət göstərəcəklər. Ən əvvəl, prezident kimi, mən buna çalışıram. Dəfələrlə müxtəlif məqamlarda, öz çıxışlarımda, bəyanatlarımda bütün siyasi qüvvələri dialoqa çağırmışam. Təklif etmişəm ki, siyasi münasibətlər masa arxasında, əldə qələmlə çözülsün, cibdə daşla yox, küçədə yox, meydanda yox. Azərbaycanda meydan dövrü artıq bitdi. 1990-cı illərin əvvəllərində Ukraynada, Gürcüstanda baş verən hadisələr Azərbaycanda da yaşandı. Artıq o tarixdir, bitdi və heç vaxt təkrarlanmayacaqdır. Çünki Azərbaycan güclü dövlətdir. Biz iqtidar olaraq xalqın dəstəyinə, xalqın iradəsinə arxalanırıq.

Bizim partiyamız – Yeni Azərbaycan Partiyası seçkilərdə ən şanslı partiyadır. Bəzən belə bir rəy yaranır, guya xaricdən müxalifəti kimsə dəstəkləyir. Mən buna da münasibət bildirmək istəyirəm. Belə hallar bizim tərəfimizdən müşahidə olunmur. Daha çox müxalifət öz reytinqini qaldırmaq üçün belə qeyri-dəqiq məlumatlar yayır ki, guya onları xaricdən kimsə dəstəkləyir. Birincisi, Azərbaycanın gələcəyi, siyasəti Azərbaycanda həll olunmalıdır və həll olunur. Bizim siyasətimiz tam şəkildə müstəqil siyasətdir. Müstəqillik təkcə rəsmi atributlarla – bayraq, himn (siz dövlət marşı deyirsiniz) ilə ölçülmür. Müstəqillik o deməkdir ki, ölkə öz müstəqil siyasətini tam şəkildə apara bilsin və bu siyasət xalqın mAraqlarına cavab versin. Biz bu siyasəti aparırıq. Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çalışırıq.

**S u a l: Siz neft sahəsini bilən bir insansınız. Dünyada neftin qiymətinin artmasını nə ilə izah edirsiniz? Hətta qiymətlər getdikcə artacaqdır. Bu, dünya mətbuatını çox**

**maraqlandıran bir mövzudur. Bu barədə fikirlərinizi bilmək istərdik.**

**C a v a b:** Bunun, əlbəttə, müxtəlif səbəbləri var və müxtəlif fərziyyələr də ola bilər. Hansısa bir səbəb göstərilmir. Nə OPEK ölkələri, nə də böyük həcmdə neft hasil edən başqa ölkələr bu barədə heç bir vahid mövqeyə malik deyillər. Azərbaycanda hasil olunan neft dünya neft bazarına təsir göstərmir. Çünki bizim böyük hasilatımız hələ 2–3 ildən sonra başlanacaqdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra Azərbaycandan gündə minimum bir milyon barel neft ixrac olunacaqdır. Ancaq onu da bilirik ki, dünyada neftə tələbat artır. Ölkələr, iqtisadiyyat inkişaf edir, xüsusilə Asiya ölkələrində neftə tələbat çox kəskin şəkildə artmışdır. Tələbat artdıqca, deməli, qiymətlər də artır. Bu qiymətlərin artımı bir tərəfdən, əlbəttə, neft çıxaran ölkə üçün sərfəlidir. Çünki bizim gəlirlərimiz artır. Digər tərəfdən, sirr deyil ki, o, bütün malların qiymətinə də təsir göstərir.

Azərbaycanda istehlak mallarının böyük hissəsi xaricdən gətirilir. Ona görə istər-istəməz, qiymətlərin artımı müşahidə olunur. Bu il inflyasiya artmışdır. Gələcək göstərəcək ki, qiymətlər necə olacaqdır. Hər halda, yəqin ki, bu səviyyə hələ uzun illər qalacaqdır.

**S u a l: Azərbaycanın NATO-ya üzvlüyü ilə bağlı dünya mətbuatında müxtəlif yazılar olur. ABŞ-ın Azərbaycana 15 min əsgər yerləşdirmək məqsədi barədə dünya mətbuatında materiallar yazılır. Bu haqda nə düşünürsünüz?**

**Fürsətdən istifadə edib, bu kitabımı da Sizə təqdim edirəm.**

**C a v a b:** Təşəkkür edirəm, Azərbaycanda heç bir xarici dövlətin qoşunu, yaxud əsgəri yoxdur.

Biz gələcəkdə də bunu nəzərdə tutmuruq. Mən bilmirəm nə üçün mətbuatda bəzən belə məlumatlar müşahidə olunur ki, buraya hansısa əsgəri kontingent gətiriləcək, yaxud burada hərbi baza yerləşdiriləcəkdir. Mən bu barədə dəfələrlə rəsmi şəkildə bəyanat vermişəm ki, belə planlar yoxdur, bu məsələ müzakirə

olunmur. Amerikanın yüksək vəzifəli şəxsləri də bu məsələyə dair eyni mövqedən çıxış edirlər. Sadəcə olaraq, yəqin kimsə, bu mövzu ilə maraqlanan tərəflər onu süni şəkildə qabartmaq istəyirlər. Yenə deyirəm, bu məsələ müzakirə olunmur.

NATO ilə bizim əməkdaşlığımız da çox uğurludur. Biz, demək olar ki, on il ərzində «Sülh naminə tərəfdaşlıq» proqramının iştirakçısı idik və indiki dövrdə yeni bir əməkdaşlıq proqramına qədəm qoyduq. «Fərdi tərəfdaşlığın fəaliyyət planı» artıq təqdim olunubdur. NATO ilə Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsi başlanacaqdır. Biz bütün bu məsələlərə çox realist baxımdan yanaşırıq. İmkanlarımızı bilirik, bölgədə gedən prosesləri bilirik. Bilirik ki, bizim başqa mötəbər təşkilatlara üzv olmağımız bu gün həll edilən məsələ deyildir. Amma normal əməkdaşlığın yaranması üçün Azərbaycan çox böyük addımlar atır. Avropa İttifaqı ilə, NATO ilə əlaqələrimiz çox yüksək səviyyədədir və bizi qane edir.

**S u a l: Cənab Prezident, ABŞ Rəsul Quliyev məsələsində nə etmək istəyir? O orada sığınacaq aldıqdan sonra buraya gəlməsinə icazə verildi. Quliyev burada Sizin gücünüzü və müxalifətin zəifliyini görüb geri dönmək məcburiyyətində qaldı. İnterpolun axtardığı bir adamı Amerika hansı anlamda mühafizə edir və buraya göndərmək istədi? Lakin alınmadı və o, geri qayıtdı. Siz Quliyevin gəlməsi üçün qapıları açmadınız? Onun burada siyasi gücünün olmadığı halda – biz bunu burada gördük – niyə çəkinirsiniz?**

**C a v a b:** Biz heç nədən çəkinmirik. Mən demişdim ki, Rəsul Quliyev beynəlxalq mafiyanın nümayəndəsidir. Azərbaycan dövlətini talayıb, dövlətdən 100 milyon dollardan çox pul oğurlayıbdır. Bütün bunlar sübuta yetirilmiş faktlardır, sənədlərdir. Onun iqtisadi cinayətləri haqqında hamı bilir, bu heç kimə – nə Azərbaycan vətəndaşlarına, nə də başqa ölkələrin müvafiq orqanlarına sirr deyildir. Ona görə biz Rəsul Quliyevin Azərbaycana qayıtmaq istədiyini eşidəndə çox sevindik ki, nəhayət, o törətdiyi cinayətlərə görə Azərbaycan xalqı qarşısında və ədalət məhkəməsi qarşısında cavab verəcəkdir.

Bəyan etdik ki, gəlsin. Sadəcə olaraq, siz qeyd etdiyiniz kimi, həm müxalifətin gücsüzlüyünü gördü, həm də özündə cəsarət tapmadı və yoldan geri döndü.

Hər şey qanun çərçivəsində həll olunmalıdır. Partiya rəhbəri olmaq heç kimə immunitet verməməlidir. Əgər kimsə qanunu pozubsa, ölkənin malını talayıbsa, oğurluqda idtiham olunursa və onun cinayətləri sübuta yetirilibsə, istər partiya sədri olsun, istər millət vəkili olsun – hamı cavab verməlidir. Gəlsin, cavab versin. Məhkəmə öz qərarını çıxarsın, qərar nə olacaqsa, o da olacaqdır. Onun burada heç bir nüfuzu yoxdur. Nə özünün, nə də partiyasının seçkilərdə uğur ehtimalı, ümumiyyətlə, yoxdur. Çünki o, Azərbaycanda bir oğru kimi tanınır və kimdən soruşsanız, bunu təsdiqləyər.

Bəzi hallarda cinayət törətmiş insanlar gedib hansısa partiya yaradırlar, partiyaya daxil olurlar və deyirlər ki, artıq biz siyasətçiyik, bizə toxunmaq olmaz. Quliyev o cinayətləri törədən zaman heç bir partiyanın üzvü deyildi və 1996-cı ildə Azərbaycandan qaçanda da partiya üzvü deyildi. Ondan sonra yəqin belə bir fikrə gəldi ki, bir partiyanın üzvü olum, bu mənə toxunulmazlıq versin. Amma bu, mümkün deyildir. Gəlsin, xalq qarşısında cavab versin, öz cinayətləri haqqında təmiz ürəklə ifadə versin, məhkəmə də qərarını çıxarsın.

**S u a l: Hörmətli Prezident, mərhum cümhur başqanı Heydər Əliyevin dövründə Azərbaycanın bir nömrəli vəzifəsi müstəqilliyini möhkəmləndirmək idi. Sizin son vaxtlar verdiyiniz açıqlamalarda isə demokratiyanın güclənməsi yolunda səyləriniz vurğulanır. Amma bir az əvvəl həmkarlarımın verdiyi sualların davamı kimi, soruşmaq istəyirəm: Sizcə, «beynəlxalq mafiya» kimi ifadəniz Azərbaycan demokratiyasına qarşı hansısa bir xarici qüvvənin olmasınımı göstərir? Bu bərəkətli ölkədən istədiyi iqtisadi səmərəni götürə bilməmiş qüvvələrmi var?**

**C a v a b:** Bilirsiniz, hər bir tarixi mərhələnin öz gündəliyi var. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndə ən geridə qalmış ölkə idi. İqtisadiyyat dağılmışdı, iqtisadi böhran, tənəz-

zül yaşanırdı. Sonra vətəndaş qarşıdurması var idi, vətəndaş müharibəsi gedirdi. Ölkə, demək olar ki, parçalanma ərəfəsində idi. Heydər Əliyevin Azərbaycan qarşısında ən böyük xidmətlərindən biri də o oldu ki, ölkəni bu parçalanmadan qurtardı. Müstəqilliyimizi qorudu, saxladı və Azərbaycanın inkişaf strategiyasının müəllifi oldu.

Baxın, 1995–96-cı illərdən sonra ölkənin iqtisadiyyatı sürətlə inkişaf etməyə başladı. Azərbaycana 25 milyard dollar sərmayə qoyuldu, neft kəmərləri tikildi, xarici şirkətlər buraya işləməyə gəldi və indi Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkədir. Mən bu barədə rəqəmləri artıq sizə çatdırdım. Heç bir başqa ölkə yoxdur ki, onun iqtisadiyyatı 9 ayda 21 faiz artsın.

Son iki il ərzində Azərbaycanda 300 mindən artıq yeni iş yerləri açılıbdır. Yeni fabriklər, zavodlar açıldı, minimum əməkhaqqı üç dəfə qaldırıldı. Bu gün isə Azərbaycanın qarşısında yeni çağırışlar, məsələlər var. Biz ölkəmizi Dünya Birliyinə daha da sıx inteqrasiya etməliyik. Avropa, Avroatlantik strukturlarına inteqrasiya etməliyik. Azərbaycanda vətəndaş cəmiyyətinin möhkəmlənməsi üçün gərək fəal işləyək. Demokratiyanın inkişafı istiqamətində fəal işləyək.

Biz neftlə, qazla zəngin olan, amma demokratik inkişafda bir o qədər uğur qazanmayan bəzi ölkələrin də təcrübəsini öyrənmişik. Görürük ki, harada şəffaflıq yoxdursa, ictimai nəzarət yoxdursa, nə qədər qazı, nefti olsa da, orada ölkə vətəndaşları bu böyük sərvətlərdən tam şəkildə istifadə edə bilməzlər. Bizim amalımız Azərbaycanı müasir dövlətə çevirmək, Dünya Birliyində həm iqtisadi cəhətdən, həm də siyasi baxımdan möhkəm, zəngin, qüdrətli dövlətə çevirməkdir.

Ancaq bununla yanaşı, Azərbaycan öz coğrafi, strateji vəziyyətinə, təbii sərvətlərinə görə çox cəlbedici ölkədir. Ola bilsin ki, burada bəzi ölkələrin müxtəlif dairələrinin maraqları toqquşur. Ola bilsin, onların öz maraqları var, bizim isə öz maraqlarımız var. Amma bura Azərbaycandır, Azərbaycan xalqının torpağıdır. Mən də bu xalqın cümhur başqanıyam,

ölkənin prezidentiyəm. Mənim üçün ən başlıcası bizim milli maraqlarımızdır. Azərbaycan xalqının normal inkişafı, Azərbaycanın möhkəmlənməsi bəlkə də kiminsə xoşuna gəlmir. Belə olan halda, əlbəttə, ixtilaflar yaranır. Xüsusilə seçkilər ərəfəsində buna daha da böyük rəvac verilir, çünki seçkilər bəzi dairələr tərəfindən əlverişli bir məqam hesab olunur. Yəni seçkilər ərəfəsində bəzi dairələrdə «nə etmək olar?» fikirləri doğur. Bu çox yanlış bir fikirdir. Azərbaycan dövləti kifayət qədər güclüdür. Azərbaycanda sabitlik qorunur və qanunun aliliyi mövcuddur. Hər şey qanun çərçivəsində olmalıdır. Azərbaycanda kim vəziyyəti gərginləşdirmək istəsə – istər daxili qüvvələr, istərsə də xarici dairələr–buna müvəffəq olmayacaqlar. Son hadisələr bunu bir daha sübut etdi.

**S u a l: Siz siyasətinizi ortaya qoyaraq Azərbaycanın Qərbə, Avropa ilə inteqrasiyasına addım-addım irəlilədiyini söylədiniz. Bilirsiniz ki, Türkiyənin də qarşısına Avropa Birliyinə üzv qəbul olunması üçün demokratikləşmə, hüquqi dövlət olmaqla bağlı bir çox prosedur qoyulmuşdu. Siz demokratikləşmə ilə bağlı problemin olmaması üçün seçkilərlə əlaqədar hansı yeniliklər etdiniz?**

**C a v a b:** Bir neçə yenilik oldu. Artıq beynəlxalq müşahidəçilər də qeyd etdilər ki, bu yeniliklər Azərbaycanda demokratiyanın inkişafında çox mühüm rol oynadı. İlk növbədə, Seçki Məcəlləsi yeniləşdi, ona yeni, mütərəqqi maddələr daxil edildi. May ayında və bir neçə gün bundan əvvəl, oktyabr ayında mənim tərəfimdən iki sərəncam imzalanmışdır, Azərbaycanda seçki praktikasının təkmilləşdirilməsinə dair çox mühüm qərarlar verilmişdir.

Azərbaycanda parlament seçkilərində 2 mindən artıq deputatlığa namizəd qeydiyyatdan keçdi. Müqayisə üçün deyə bilərəm ki, 2000-ci ildə parlament seçkilərində 400 namizəd vardı. Yəni 2 min adamın seçkilərə qatılması özlüyündə göstərir ki, insanlarda seçkilərin ədalətli keçiriləcəyinə inam var. Təbliğat kampaniyası da çox uğurla gedir. Dövlət televiziyasında, İctimai televiziyada və özəl kanallarda bütün namizədlər öz təbliğatlarını

aparırlar və heç bir məhdudiyyət qoyulmur. Yəni bu da bir yenilikdir. Azərbaycanın bütün bölgələrində namizədlər seçicilərlə sərbəst şəkildə görüşlər keçirirlər.

Azərbaycanda ilk dəfə olaraq, seçkilərdə «exit-poll» keçiriləcəkdir və bu da bizim üçün yenilikdir. Biz buna razılıq verdik ki, seçkilərin demokratik şəkildə keçiriləcəyinə heç kimdə şübhə olmasın. 1500 xarici müşahidəçi gələcək və minlərlə yerli müşahidəçi – onlar bütün siyasi partiyaları təmsil edirlər – seçkiləri müşahidə edəcəkdir. Azərbaycanda 4500-dən çox seçki məntəqəsi var. Yəni minlərlə müşahidəçinin olması seçkilərin gedişinə tamamilə nəzarət etməyə imkan verəcəkdir.

Bu yaxınlarda yeni bir qərar qəbul edildi. Seçkilər günü seçicilərin barmaqlarının görünməyən mürəkkəblə işarələnməsi məsələsi də öz həllini tapdı. Bizim niyyətimiz çox səmimidir. Görülən tədbirlər də onu göstərir ki, demokratik seçkilərin keçirilməsində, ilk növbədə, iqtidar maraqlıdır. İndi seçkiləri şübhə altında ala biləcək heç bir amil yoxdur. Mən ümid edirəm ki, seçkilər günü proses pozulmayacaq və ədalətli seçkilər keçiriləcəkdir.

Azərbaycanda parlament seçkiləri hakimiyyət məsələsini həll etmir. Azərbaycan prezident respublikasıdır. Burada hakimiyyət məsələsi prezident seçkilərində həll olunur. Prezident seçilir, hökumət formalaşır və ölkənin siyasi xətti müəyyənləşir. Parlament seçkilərinin Azərbaycanın siyasi xəttinin müəyyənləşməsində böyük əhəmiyyəti yoxdur. Ancaq görün, bu parlament seçkilərinə nə qədər böyük maraq var? Bu da təbiidir. Çünki Azərbaycanın normal demokratik inkişafı həm bizə lazımdır, həm bizim dostlarımıza lazımdır, həm də Avropaya və bizim digər müttəfiqlərimizə lazımdır. Ona görə əlimizdən gələni etmişik və edirik ki, seçkilər demokratik keçirilsin, Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapsın.

**S u a l: Hörmətli Prezident, son qərarların Qərb tərəfindən dəstəkləndiyi açıq-aydın bildirilir. Sizin iqtidarın ABŞ, Avropa, ümumən Qərb dünyası ilə əlaqələri necədir?**

**C a v a b:** Bizim əlaqələrimiz çox yaxşıdır. Bütün sahələrdə çox uğurlu əməkdaşlıq edirik. Həm Avropa Birliyi, Avropa Şurası ilə, həm də Amerika Birləşmiş Ştatları ilə bizim bütün sahələrdə əlaqələrimiz çox yüksək səviyyədədir. Biz həm iqtisadi sahədə əməkdaşlıq edirik, enerji sahəsində, təhlükəsizlik məsələlərində əməkdaşlıq edirik, Azərbaycan antiterror koalisiyasında iştirak edir, həm də siyasi proseslərdə, demokratiyanın inkişafı istiqamətində bizim münasibətlərimiz çox yüksək səviyyədədir və bundan çox razıyıq. Ancaq qeyd etmək istəyirəm ki, bizim siyasətimizin əsas mənbəyi Azərbaycan xalqıdır. Prezident kimi, mən seçilən gündən indiyə qədər bu iki il ərzində hər bir addımımı yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarının təmin olunması üçün atmışam.

Azərbaycan müstəqil və gündən-günə güclənən, möhkəmlənən dövlətdir. Biz normal, qarşılıqlı hörmət əsasında qurulan əlaqələrin tərəfdarıyıq. Azərbaycan tərəfdaşdır, dostdur və bizim münasibətlərimiz yalnız bu prinsiplər – qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulur.

**S u a l: Azərbaycan Kipr türklərinə qarşı blokadanın aradan qaldırılması istiqamətində çox önəmli bir addım atdı. Bu yöndə yeni addımlar atacaqsınızmı və bu sahədə Sizə müxtəlif beynəlxalq təzyiqlər olurmu?**

**C a v a b:** Bilirsiniz, biz istəyirik ki, hər şey ədalətlə həll olunsun. Hamımız yaxşı xatırlayırıq ki, Kiprdə keçirilən referendumda Kipr türkləri ölkənin birləşməsinə səs verdilər, o biri tərəf isə əksinə. Belə olan halda, Birləşmiş Millətlər Təşkilatı və digər təşkilatlar tərəfindən təklif irəli sürüldü ki, bu təcridə son qoyulmalıdır. Əslində, belə də olmalıdır. Nə üçün xoş niyyət ifadə edən tərəf cəzalandırılmalıdır? Bu, ədalətli deyil.

Bu addımı kim atmalı idi? Əlbəttə, Azərbaycan – Türkiyə üçün ən yaxın olan ölkə bu addımı atmalı idi. Mən bunu vəd etmişdim və etdim. İndi çox önəmlidir ki, ilk növbədə, başqa

türkdilli dövlətlər, ondan sonra İslam Konfransı Təşkilatının üzvləri buna bənzər addımlar atsın.

O ki qaldı təzyiqlərə, elə məsələlər var ki, gərək bütün təzyiqlərə dözəsən. Elə məsələlər var ki, təzyiqlərə baxmayaraq, gərək öz sözünü deyəsən. Ən çətin anlarda biz həmişə Türkiyənin dəstəyini hiss etmişik və hiss edirik. Azərbaycan müstəqilliyini əldə edəndə bizi ilk tanıyan Türkiyə olmuşdur. Bu gün ölkələrimiz arasında əlaqələr ən yüksək səviyyədədir. Mən bir daha demək istəyirəm ki, dünyada başqa belə ölkələr yoxdur ki, onların həm siyasətçilər, həm dövlətlər, həm də adi vətəndaşlar arasında bu cür münasibətləri olsun. Azərbaycan sizin vətəninizdir, Türkiyə də bizim vətənimizdir. Ona görə Azərbaycan bunu etməli idi və etdi. İndi növbə başqa ölkələrin və beynəlxalq təşkilatlarındır.

**S u a l: Siz Süleyman Dəmirəllə görüşürsünüzmü?**

– Bəli, bəli, əlbəttə. Mən keçən il, 2004-cü ildə Türkiyədə rəsmi səfərdə olarkən hörmətli 9-cu prezident Süleyman Dəmirəllə görmüşdüm. Telefonla əlaqə saxlayırıq. Bilirsiniz ki, mənim atam Heydər Əliyev və Süleyman Dəmirəl çox yaxın dost idilər və biz Türkiyədə dəfələrlə bir yerdə olmuşuq. Bizim bu münasibətlərimiz saxlanılır. Xatırlayıram ki, hörmətli Süleyman bəy cümhur başqanlığı dövrünü bitirəndən sonra yenə də Heydər Əliyevlə daim telefonla əlaqə saxlayırdı. Yəni, bu çox səmimi dostluq münasibətləri idi.

Bizim möhtərəm prezidentə çox böyük hörmətimiz var və çox sıx-sıx əlaqə saxlayırıq, telefonla danışırıq. Bu lazımdır. Bu əlaqələr həm bizə lazımdır, həm də ölkələrimizə lazımdır. Ölkələrimizin daha da sıx olması üçün çox önəmlidir.

**C a v a b: Cənab Prezident, vaqonlarda yaşayan köçkünlərin daha gözəl binalarda yaşamasını diləyirik.**

Biz onu edirik. Mən prezident seçkiləri ərəfəsində proqramla çıxış etdim. Bu proqramda bütün çadır şəhərciklərinin ləğv olunması da öz yerini tapmışdır. Biz indi Ağdam rayonunun ərazisində böyük inşaat işləri aparırıq. Orada təxminən 4 minə qədər ailə yaşayacaqdır. Biz Azərbaycan Dövlət Neft

Fondundan vəsait ayırdıq və dedim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Biz onların hamısını ləğv edirik və yeni evlər tikilir. Bunlar üç-dördotaqlı evlərdir, öz həyətyanı sahəsi var, bütün lazımi avadanlıq, infrastruktur var, işıq, su, yol, rabitə, məktəb, xəstəxana – hamısı kompleks şəkildə var. Biz bu məqsədlərə yüz milyonlarla dollar vəsait ayırmışıq ki, bu insanlar müvəqqəti olaraq normal şəraitdə təmin olunsunlar. Ancaq, əlbəttə, bu, böyük vəsait tələb edir. Azərbaycanda 1 milyon adam qaçqın-köçkün həyatı yaşayır. Biz çalışırıq ki, onların həyatını yaxşılaşdıraq.

**S u a l: Cənab Prezident, beynəlxalq aləm qaçqınlar məsələsinə yetərincə diqqət göstərirmi? Yardım göstərirsə, həcmi nə qədərdir?**

**C a v a b:** Bilirsiniz, əlbəttə, göstərir, amma bu diqqət azalır. Bu münaqişə 15 ildən artıqdır ki, davam edir. Beynəlxalq ictimai rəy daha çox yeni münaqişələrə yönəlibdir. Müharibə gedən, yaxud yeni fəlakət baş verən yerə daha çox diqqət göstərilir. Mən yenə də deyirəm, mövqeyim belədir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq. O dövr bitdi. Biz müstəqilliyimizi əldə edəndə bəziləri düşünürdü ki, Azərbaycana kimsə gəlib yardım etməlidir. Biz dünyaya bu baxışlarla yanaşırdıq. Hesab edirik ki, bizim haqlı olmağımız dünya tərəfindən dərhal qəbul edilməlidir və təcavüzkar Ermənistan cəzalandırılacaqdır. Ümid edirdik ki, kimsə gəlib bizə yardım edəcək, kimsə bizim üçün nəsə tikəcək, nəsə edəcəkdir. Artıq bu yoxdur və lazım da deyil. Biz gərək özümüzə güvənək, öz imkanlarımız var, öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycanda insanlar çox savadlıdır, savadlılığın səviyyəsi, demək olar, 100 faizdir. İqtisadi imkanlar var və biz bu problemi həll edəcəyik. Ermənistanla məsələni özümüz həll edəcəyik.

Mən indi hərbi büdcəni kəskin şəkildə artırıram. Azərbaycanda hərbi xərclər 2004-cü ildə 170 milyon dollar idi, 2005-ci ildə 300 milyon dollardır. 2006-cı ildə 600 milyon dollar olacaqdır. Demişəm ki, bizim hərbi xərclərimiz Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır və buna da nail olacağıq. Özümüz güclü olmalıyıq. Güclü olsaq, hər şeyi həll edərik.

## MDB HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİ ƏLAQƏLƏNDİRMƏ ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 oktyabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev beynəlmiləlçi döyüşçülərin Bakıda keçirdikləri iclası yüksək qiymətləndirərək dedi ki, hər yerdə olduğu kimi, Azərbaycanda da veteranlara xüsusi diqqət və qayğı göstərilir. Böyük Vətən müharibəsinin veteranlarına, beynəlmiləlçi döyüşçülərə və Azərbaycanın müstəqilliyini müdafiə edərkən həlak olmuş döyüşçülərin ailələrinə xüsusi münasibət göstərilir. Öz sağlamlığını qurban vermiş, müharibələr nəticəsində əziyyətlər çəkmiş insanlara qayğıkeş münasibət nümunəsi yeni nəslin tərbiyə edilməsi işində çox vacibdir.*

*Prezident İlham Əliyev hərb tariximizin bizə bir çox dərsləri öyrətdiyini və gənclərə vətənpərvərlik hisslərinin aşılanmasında veteranların çox böyük xidmətləri olduğunu söylədi. Bu sahədə ümumi tariximizin bizi birləşdirdiyini xatırladan dövlətimizin başçısı müstəqillik dövründə yeni nəsil yarandığını və yeni şəraitdə yeni formada işləməyin zəruriliyini vurğuladı. Prezident bu istiqamətdə də konkret işlər görüldüyünü söylədi, beynəlmiləlçi döyüşçülərin təmsil etdikləri təşkilatın işini xalqlar arasında dostluğun və beynəlmiləlçiliyin nümunəsi kimi yüksək dəyərləndirdi. Azərbaycan rəhbəri dedi: Bakı həmişə beynəlmiləlçilik ruhu ilə fərqlənmişdir. Təşkilatımız Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsi adlanır.*

*Sizin hamınızda beynəlmiləlçilik, yoldaşlıq, qardaşlıq ruhu var və bu ruh möhkəmlənəcəkdir.*

*Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsi Əlaqələndirmə Şurasının sədri, Sovet İttifaqı Qəhrəmanı Ruslan Auşev onların tədbirinin Bakıda keçirilməsinə şərait yaratdığına görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Əlaqələndirmə Şurası iclası iştirakçılarının prezident İlham Əliyevə ünvanladığı müraciəti ona təqdim edərək dedi: Biz müraciətdə bildirmişik ki, Sizin fəaliyyətinizi dəstəkləyirik və Sizdən separatizmlə, terrorizmlə və onların bütün təzahürləri ilə mübarizə xəttindən dönməməyi xahiş edirik. Biz həqiqətən görürük ki, Azərbaycan tərəqqi edir.*

*Prezident İlham Əliyev Azərbaycanda terrorizm və separatizmlə mübarizə sahəsində də dəyərli işlər görüldüyünü bildirdi.*

*Ölkəmizin dünya miqyasında layiqli yer tutması üçün görülən tədbirlərdən danışan dövlətimizin başçısı dedi: Müstəqillik illərində biz vətəndaş müharibəsi, anarxiya və qarmaqarışıqlıq, quldurluq və qanunlara tam etinasızlıq dövrünü yaşadıq. Ancaq 1990-cı illərin ortalarında qayda-qanun bərpa edildi. Sonra sabitliyin pozulması üçün müxtəlif qüvvələr tərəfindən digər cəhdlər oldu, lakin bunların hamısının qarşısı qanun çərçivəsində qətiyyətlə alındı və ictimaiyyət bu tədbirləri dəstəklədi. Hər hansı ölkənin normal inkişafı üçün başlıca amil sakit, sabit şəraitin olmasıdır. İnsanlar gənginlikdən, münaqişələrdən, müharibələrdən, özbaşınalıqdan yorulmuşlar. Son iki ildə nail olduqlarımız sabitliyin nəticəsidir. Ölkəmizdə sabitlik olmasaydı, biz indiki nəticələri əldə edə bilməzdik. Bu il Azərbaycan iqtisadi inkişafın sürətinə görə dünyada birinci yeri tutur. Cari ilin doqquz ayı ərzində ümumi daxili məhsul 21 faiz, sənayenin inkişaf sürəti 28 faiz, əhalinin gəlirləri 26 faiz artmışdır. Son iki ildə üç dəfə minimum əməkhaqqı qaldırılmışdır.*

*Prezident İlham Əliyev gənclərin hərbi vətənpərvərlik tərbiyəsində idmanın böyük əhəmiyyəti olduğunu da vurğuladı, bu sahəyə göstərilən qayğıdan da danışdı.*

*Dövlətimizin başçısı bir vaxtlar ölkəmizdə veteranlara qarşı diqqətsizlik və etinasızlığın olduğunu da xatırladaraq dedi: Əvvəllər Böyük Vətən müharibəsinin tarixini təhrif etməyə, faşizmin əlaltılarına müəyyən dərəcədə haqq qazandırmağa cəhd göstərirdilər. Biz hamımız 1980-ci illərin axırlarını və 1990-cı illərin əvvəllərini xatırlayırıq. O vaxtlar müharibəyə münasibət müxtəlif cür idi. Əfqanıstanda adamlar sülh uğrunda vuruşurdular, ölkə uğrunda vuruşurdular, qəhrəmanlıq göstərirdilər. Kim buna təqsirkardır? Azərbaycanda biz buna yol vermədik. Hərçənd, SSRİ dağıldıqdan və Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra 9 Mayın bayram olunmasını ləğv etdilər. Hər şeyi unutdular, yazıq veteranlar, keçmiş cəbhəçilər gözümçıxdıya salındı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələn kimi 9 Mayın bayram olunmasını bərpa etdi. İndi biz hər il bu bayramı qeyd edirik. Təəssüf ki, veteranların sayı ildən-ilə azalır. Bu insanlar cəmiyyət üçün nümunədir. Bu eləcə də sizə, veteranların gənc nəslinə aiddir. Azərbaycanda Qarabağ müharibəsi veteranlarının nümunəsi də yaşayacaqdır. Biz Qarabağ müharibəsinin veteranlarına həm maddi, həm mənəvi cəhətdən, həm də işə düzəlməkdə öz imkanımız daxilində kömək edirik. Bizdə çoxlu müharibə əlili var. Mən onlarla görüşmüşəm. Biz milli qəhrəmanların hamısına ömürlük pensiya veririk. Əlbəttə, bu, kompensasiya və onların bütün məsələlərinin həlli ola bilməz. Lakin mən onları çox dəstəkləyirəm.*

*Xüsusi Bölmə Veteranları Assosiasiyasının prezidenti Boris Beskov xalqımızın ümummilli lideri Heydər Əliyev haqqında xatirələrini bölüşərək dedi: Mən sərhəd qoşunları məktəbini bitirdikdən sonra 9-cu idarədə işlədim. O vaxt Heydər Əliyeviç burada işləyirdi. Sonralar Siyasi Büroda müxtəlif tədbirlərdə iştirak etməli olurdum. Onun haqqında məndə ən nurlu, ən əziz xatirələr qalmışdır.*

*Tanınmış siyasi icmalçı Mixail Leşşinski Azərbaycanda dəfələrlə olduğunu, lakin indiki səfərin dərin iz buraxdığını qeyd etdi. O dedi: Mən Sizin atanızla – Heydər Əliyeviçlə tanış*

*olmağımdan böyük qürur duyuram. Mən Azərbaycanda tez-tez olur, əsasən iqtisadi inkişaf haqqında reportajlar hazırlayırdım. Bu, 1973-cü və 1974-cü illərdə olmuşdur. Onun bizə bağışladığı hədiyyə – büllur «armudu» stəkanlar ailəmizdə yadigar qalır. Arvadım Ada Petrova da jurnalistdir. O da Azərbaycanda tez-tez olurdu, ona görə də bu bizdə bir növ əziz yadigardır. Bakıya getdiyimi eşitdikdə mənə çox həsəd apardı. Bu gün yeni Bakını gördükdə könlüm açıldı. Mən bu şəhərdə ilk dəfə 1959-cu ildə olmuşam. Siz idmanın inkişafından danışdız. O vaxt mən buraya gənc dinamoçu kimi, gənc idmançı kimi gəlmişdim. Biz Qaraşəhərdəki hovuzda su polosu oynayırdıq. İndi şəhər sanki bambaşqadır. Son 15 ildə olduqca dəyişmişdir. Lakin başlıcası bu kranlar, bu qüvvələr deyil, başlıcası insanların əhval-ruhiyyəsi, əmin-amanlığıdır. Biz yarım saat Dənizkənarı parkda olduq, sakit və məmnun insanlar gördük. Onlardan cinayətkarlığın vəziyyəti barədə soruşdum. Dedilər ki, cinayətkarlıq yoxdur, onun nə olduğunu 1995-ci ildən unutmuşlar. Səhər saat 4-də burada qızla gedə bilərsən, qızlar tək-tənha gəzə bilərlər, problem yoxdur. Bu biz moskvalılar üçün xüsusilə vacibdir. Bir daha təşəkkür edirəm, Sizə uğurlar arzulayıram. Ümidvaram ki, biz Azərbaycanın və Bakının uğurlarına hələ çox sevinəcəyik.*

*Görüşün sonunda prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edildi.*

*Sonda dövlətimizin başçısı Prezident sarayı qarşısında qonaqlarla xatirə şəkli çəkdirdi.*

## BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNDƏ

*31 oktyabr 2005-ci il*

*Prezident İlham Əliyev əvvəlcə məsciddə İmam Rza əleyhissəlamın bacısı Həzrəti Hökumə xanımın və yeddinci imamın üç nəvəsinin dəfn olunduğu yerə gəldi, İslam aləminin mənəvi dəyərlərindən olan bu qəbirləri ziyarət etdi. Onların ruhuna dua oxundu.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə və Bibiheybət məscid-ziyarətgahının axundu Hacı Hikmət Əlizadə dövlətimizin başçısına məscidin tarixi, müqəddəs məzarlar üstündə tikilmiş baş ziyarətgah, kişilər və qadınlar üçün nəzərdə tutulan ibadətgahlar barədə məlumat verdilər. Bildirildi ki, ulu öndər Heydər Əliyev bu məscidi dörd dəfə ziyarət etmişdir. Burada 1257-ci ildə Şirvanşah II Fərruxzad tərəfindən ilk minarə ucaldılmışdı. 700 il ərzində burada Azərbaycan memarlığının nümunəsi qorunub saxlanılmışdı. Çox şükür olsun ki, ümummilli liderimiz Heydər Əliyev məscid-ziyarətgaha ikinci həyat verdi. Qədirbilən Azərbaycan xalqı da ulu öndərimizin şərəfinə burada «Heydər minarəsi»ni ucaltdı.*

*Din xadimləri «Heydər minarəsi»ndən azan verilməsinin vacibliyini də vurğuladılar, eyni zamanda bildirdilər ki, Qafqazda və keçmiş SSRİ məkanında bu cür minarə, mehrab heç yerdə yoxdur. Heydər Əliyevin əvəzsiz xidmətlərini unutmayan ustalarımızın əl işləri burada daim yadigar qalacaqdır.*

*Prezident İlham Əliyev vaxtilə ulu öndər Heydər Əliyevin göstərişi ilə burada görülən işləri, Azərbaycan ustalarının sənətkarlığını yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı dedi ki, mən buraya nə qədər lazımdırsa, vəsait ayıracağam, biz məscid-ziyarətgahı tezliklə yüksək səviyyədə tamamlamalıyıq. Burada başqa ölkələrdən və respublikamızdan gələn zəvvarları qəbul etmək üçün hər cür*

*şərait yaradılmalıdır. Bundan ötrü nə qədər vəsait lazımdırsa ayrılacaqdır.*

*Din xadimləri bildirdilər ki, vaxtilə ulu öndərimizə də məlumat verilmişdi, bu məscid islamın dörd müqəddəs ziyarətgahı sırasında üçüncü yeri tutur.*

*Üçmərtəbəli kompleksdə zəvvarları qəbul etmək və yerləşdirmək üçün otaqlar, qadınlar üçün ayrıca dəstəmazxanalar, ehsan otağı, mədrəsə və kibatxana nəzərdə tutulmuşdur. Eyni zamanda, məscidin tarixini əks etdirən muzeyin yaradılması, ümumiyyətlə, ən müasir səviyyəli kompleksə çevrilməsi, ərazinin genişləndirilməsi üçün köməyə ehtiyac duyulduğu bildirildi.*

*Xatırladıldı ki, neçə əsrlik tarixi olan qədim ziyarətgah ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində uzun fasilədən sonra yenidən dindarlara qaytarılmışdır. Bibiheybət məscidi sovet dövründə – 1934-cü ildə vəhşicəsinə partladılsa da, bütün müsəlman aləmində ən müqəddəs yerlərdən biri sayılan bu ziyarətgahın yolunu xalq unutmadı.*

*Şeyxülislam dedi ki, ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə gələndən sonra məscidin bünövrəsini qoydu. Bu o deməkdir ki, ulu öndər dinə bağlı idi, xalqın mənəviyyatının qorunmasına diqqətlə yanaşırdı. O vaxt bizə dedi ki, bir ildən sonra açılışa gələcəyəm. Bizdə narahatlıq yarandı ki, buna nail ola biləcəyik, yoxsa yox. Amma nə yaxşı ki, o bizə vaxt qoydu, tələsdirdi. Vaxtilə Azərbaycanın altı rəhbərinə müraciət edilsə də, heç biri məscidin yenidən tikilməsinə kömək etmədi. Amma Həzrət Əlinin mövludu günündə cənab Heydər Əliyevə müraciət edən kimi, işə başlanması barədə tapşırığını verdi. Burada onunla çəkilmiş şəkillərimiz də var.*

*Sonra prezident İlham Əliyev ölkəmizin, xalqımızın firavanlığı naminə nəzir verdi.*

*Hacı Hikmət Əlizadə dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, Allah balalarınızı sağ-salamat etsin, Sizdən razı olsun. Xalq Sizdən razıdır. Adi bir vətəndaş kimi deyirəm, Siz bəzi vicdansızlara layiqli cəza verdiniz, xalqın ürəyindən tikan çıxardınız. Qoy görsünlər ki, Həzrət Əlinin oğlu imam*

*Hüseyn olan kimi, cənab Heydər Əliyevin də oğlu İlham Əliyevdir. Biz onu dəstəkləyirik.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin müxtəlif illərdə məscidə ziyarətləri zamanı çəkilmiş fotoşəkillərinə və Azərbaycan Respublikasının prezidenti Heydər Əlirza oğlu Əliyev cənabları 21 may 1994-cü il Qurban bayramında burada çıxış edərək Bibiheybət ziyarətgahının bərpasına rəvac vermiş və bu işi öz himayəsinə götürmüşdür. Bu tarixi hadisəni əbədiləşdirmək və xalqın minnətdarlığını bildirmək üçün burada «Heydər minarəsi» ucaldılmışdır» sözləri yazılmış lövhəyə baxdı.*

*Azərbaycan prezidenti məscid-ziyarətgahla, əvvəlki məscidin fotoşəkilləri, yeni layihələrlə tanış oldu, üçüncü mərtəbədən ətrafı seyr etdi, kompleksin ərazisinin genişləndirilməsi üçün lazımi tədbirlər görülməsi barədə tapşırıqlarını verdi. Dövlətimizin başçısı dedi ki, mən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbova tapşırıram, ciddi məşğul olsun, ətrafda yaşayan sakinlərlə danışsın. Təklif verin, onlara ya torpaq, ya da mənzil ayrılsın.*

*Bildirildi ki, əvvəlki məscidin minarələrinin hündürlüyü 16 metr idi, indikilər isə 43 metr olacaqdır. Prezident İlham Əliyev ərazinin təmizlənməsindən, yolun genişləndirilməsindən sonra burada ən müasir səviyyədə məscid-ziyarətgah kompleksinin yaradılacağını bildirərək dedi ki, biz bütün işlərə kompleks şəkildə baxmalıyıq. Memarlıq baxımından çox gözəldir, gərək daxili interyeri, dizaynı da ən yüksək səviyyədə olsun. Ona görə ən yaxşı mütəxəssisləri cəlb etmək lazımdır. Lazım gələrsə, xaricdən də dəvət olunsunlar ki, kompleks gözəl və əzəmətli olsun. Bura tarixi yerdir və onu xalqa qaytarmaq bizim mənəvi borcumuzdur.*

*Şeyxülislam Allahşükür Paşazadə islamın mənəvi dəyərlərinin qorunmasına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirərək dedi ki, cənab Prezident, Allah Sizə cansağlığı versin. Bu bizə Ramazan ayında ən gözəl hədiyyə oldu. Müqəddəs Ramazan ayında Ulu Tanrıdan Sizə uğurlar diləyirik.*

## BBC KANALININ BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ MÜXBİRİ DEMİAN QRAMMATİKASA MÜSAHİBƏ VERMİŞDİR

*Prezident sarayı*

*31 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BBS kanalının beynəlxalq məsələlər üzrə müxbiri Demian Qrammatikasa müsahibə vermişdir.*

*Dövlətimizin başçısı qarşıdan gələn parlament seçkiləri, ölkəmizdə demokratik inkişaf, beynəlxalq təşkilatlarla əməkdaşlıq və digər məsələlər barədə suallara ətraflı cavab vermişdir.*

## RUSİYANIN «BİRİNCİ KANAL» TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

*Prezident sarayı*

*31 oktyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın «Birinci kanal» televiziyasının müxbirinə müsahibə vermişdir.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən sosial-iqtisadi inkişaf, ölkədəki sabitlik, qarşıdakı parlament seçkiləri, regionlarda həyata keçirilən tədbirlər və digər məsələlər barədə suallara ətraflı cavab vermişdir.*

## MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN BAŞÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 noyabr 2005-ci il*

**İ l h a m Ə l i y e v:** Hörmətli səfirlər, sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm ki, mənim təbriklərimi və xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Ramazan bayramı Azərbaycan xalqının qəlbində həmişə yaşamışdır. Ancaq Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayandan sonra bu bayram ölkəmizdə rəsmi bayram kimi qeyd olunur. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra müsəlman ölkələri ilə əlaqələrimiz çox sürətlə inkişaf etməyə başladı və bu gün bütün sahələrdə bizim çox uğurlu əməkdaşlığımız vardır. Biz bütün zamanlarda müsəlman ölkələrinin dəstəyini hiss etmişik və bu gün də hiss edirik. Həm ikitərəfli çərçivədə, həm də İslam Konfransı Təşkilatı çərçivəsində bizim çox uğurlu əməkdaşlığımız var. Xüsusilə Azərbaycanı ən çox narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli işində biz daim müsəlman ölkələrinin dəstəyini hiss etmişik, bu gün də hiss edirik və buna görə sizə minnətdarıq.

Mən prezident vəzifəsinə seçiləndən sonra müsəlman ölkələrinə çoxsaylı səfərlər etmişəm. Bizim çox gözəl əlaqələrimiz vardır. Təmsil etdiyiniz ölkələrin rəhbərliyi ilə də mənim çox səmimi münasibətlərim vardır. Səudiyyə Ərəbistanına,

Pakistana, Qazaxıstana, İran İslam Respublikasına, Türkiyəyə, Özbəkistana səfərlər etmişəm və bundan sonra da səfərlərim olacaqdır. Bu çox vacibdir. Bu səfərlər çərçivəsində həm çox vacib məsələlər müzakirə olunur, sənədlər imzalanır, həm də şəxsi əlaqələr yaranır. Bu əlaqələr də ölkələr arasında münasibətlərdə, əlbəttə, çox önəmlidir.

Fürsətdən istifadə edərək, dünyada yaşayan bütün müsəlmanlara müqəddəs Ramazan bayramı münasibətilə öz təbriklərimi çatdırmaq istəyirəm. Ümid edirəm ki, gələcəkdə də İslam həmrəyliyi möhkəmlənəcəkdir. Biz bir-birimizə həmişə dayaq olacağıq. Çətin anlarda həmişə bir-birimizin yanında olacağıq. Beləliklə, ölkələrimiz inkişaf edəcək, bizim aramızda olan dostluq əlaqələri möhkəmlənəcək, insanlarımız da sülh, rifah şəraitində yaşayacaqlar.

**Əli Həsən Əhməd Cəfər** *(Diplomatik nümayəndəliklərin başçıları adından müsəlman ölkələri səfirlərinin duayeni, Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri)***:** Cənab Prezident, dəyərli vaxtınızı ayırıb müsəlman ölkələrimizin səfirlərini müqəddəs Ramazan bayramı münasibətilə qəbul etdiyiniz üçün Sizə minnətdarıq. Zati-aliləri, öz səmimi salamlarımızı Sizə çatdırır və bu müqəddəs Ramazan ayının qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və tərəqqi gətirməsini arzulayırıq.

Hörmətli cənab Prezident!

Əsası son 10 ildə mərhum prezident Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin layiqli davamçısı olaraq Sizin yürütdüyünüz daxili və xarici siyasət nəticəsində biz Azərbaycanın gündən-günə inkişafı və tərəqqisinin şahidi olmuşuq.

May ayında Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təntənəli surətdə açılışı tarixi bir məqamdır və cənab Prezident, Sizi bu tarixi nailiyyətin əldə olunması münasibətilə bir daha təbrik edirik. İnanırıq ki, bu fakt ölkə üçün yeni iqtisadi uğurun müjdəsidir.

Azərbaycanın Cənubi Qafqazda mühüm coğrafi-strateji məkanda yerləşməsi böyük imkanlar vəd edir, regionda sülhün və

sabitliyin təməlini təşkil edir. Dağlıq Qarabağ probleminin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həll edilməsi regionda yeni iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaradacaqdır. Biz Azərbaycanın bu haqq işinə öz mənəvi və siyasi dəstəyimizi bir daha ifadə edərək sülh prosesinin Minsk qrupu çərçivəsində Azərbaycanın maraqlarına uyğun öz həllini tapacağına ümid edirik. İnanırıq ki, bu proses Azərbaycanı razı salacaq nəticə ilə bitəcəkdir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçən islahatlar beynəlxalq aləm tərəfindən dəstəklənir. Qərbə inteqrasiya cəhdləri ilə bərabər müsəlman ölkələri ilə yaxın dostluq əlaqələri qurması Azərbaycana Qərb və Şərq arasında körpü yaratmaq üçün geniş imkanlar açır.

Cənab Prezident, çıxışımın sonunda Səudiyyə Ərəbistanının səfiri kimi, öz adımdan və həmkarlarımın adından gələn ay Məkkə şəhərində müsəlman ölkələri rəhbərlərinin sammitinin keçiriləcəyini bir daha xatırladır və ümid edirəm ki, bu sammitdə digər müsəlman dövlətlərinin rəhbərləri ilə birlikdə Siz müsəlman dünyasını narahat edən məsələlərin müzakirəsində iştirak edəcəksiniz.

## AŞ PA-nın HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ EDUARD LİNTNER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AŞ PA-nın Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsi sədrinin müavini Eduard Lintneri qəbul etmişdir.*

*Dövlətimizin başçısı Strasburqda son dəfə cənab Eduard Lintner ilə keçirdiyi görüşü məmnunluqla xatırlatdı. Azərbaycanda cəmiyyətin demokratikləşməsi istiqamətində böyük işlər görüldüyünü qeyd edən prezident İlham Əliyev bir çox mühüm qanunların qəbul edildiyini, ölkəmizin bir sıra böyük əhəmiyyətli beynəlxalq konvensiyalara qoşulduğunu vurğuladı. Demokratikləşmənin çox zəruri bir proses olduğunu bildirən dövlətimizin başçısı ölkəmizdə bu sahədə lazımi işlər görüldüyünü nəzərə çatdırdı.*

*Ölkəmizin Avropa Şurası ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanın götürdüyü öhdəlikləri tam şəkildə yerinə yetirdiyini bildirdi. Dövlətimizin başçısı qarşıdan gələn parlament seçkilərinin azad və ədalətli keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradıldığını vurğuladı.*

*Azərbaycan prezidenti İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasındakı fəaliyyəti dövrünü xatırladan cənab Eduard Lintner həmin dövrdə AŞ PA-da cənab İlham Əliyevlə birgə çalışmalarından çox böyük məmnunluq duyduqlarını söylədi. Qonaq dedi: Cənab Prezident, ölkənizdə demokratik seçkilərin keçirilməsi, ümumiyyətlə, demokratikləşmə sahəsində Azərbaycanın göstərdiyi səyləri və nail olduğu uğurları görməkdən çox məmnunuq.*

## KAMBOCANIN KRALI ƏLAHƏZRƏT NORODOM SİAMONİYƏ

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Kamboca xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Kamboca arasında yaranan münasibətlər daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 noyabr 2005-ci il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ**

Hörmətli cənab Prezident!

Polşa Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Azərbaycan ilə Polşa arasında tarixi ənənələrə malik dostluq və əməkdaşlıq əlaqələri bu gün inkişaf etməkdədir. Ümidvaram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası münasibətlərimiz bundan sonra da bütün səviyyələrdə müvəffəqiyyətlə davam edəcək və dərinləşəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, qarşıdakı işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 noyabr 2005-ci il*

**ANQOLA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm. Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri əməkdaşlıq imkanlarımızın genişlənməsinə həmişə öz müsbət təsirini göstərəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Anqola xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 noyabr 2005-ci il*

# BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNDƏ ŞƏHƏRƏTRAFI KƏND VƏ QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*2 noyabr 2005-ci il*

**İ l h a m  Ə l i y e v:** Azərbaycanda son illər ərzində bütün sahələrdə tərəqqi var, inkişaf var. Həm ölkəmizin beynəlxalq müstəvidəki fəaliyyəti, həm də daxildə gedən siyasi proseslər və iqtisadi inkişaf çox uğurludur. İldən-ilə bizim gücümüz artır, potensialımız möhkəmlənir. Bu müsbət meyllər bu gün də davam edir. Xüsusilə iqtisadi sahədə nəticələr çox müsbətdir və görülmüş işlər konkret rəqəmlərdə öz əksini tapır. Azərbaycanda iqtisadiyyat ən yüksək templərlə artır. Ölkədə gedən quruculuq-abadlıq işləri göz qabağındadır. İqtisadi artımın nəticəsi olaraq, bölgələrin inkişafı da sürətlə gedir. Keçən ilin əvvəlində Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramı qəbul edildi və indi uğurla icra olunur. 300 mindən artıq yeni iş yerinin açılması, müxtəlif rayonlarda yeni fabriklərin, zavodların fəaliyyətə başlaması həm də onu göstərir ki, seçilmiş strategiya və siyasət düzgün idi və bu siyasət yerlərdə də uğurla icra olunur. Bölgələrə çoxsaylı səfərlərim mənə imkan yaradır ki, özüm şəxsən vəziyyətlə tanış olum, gedən proseslərə öz münasibətimi bildirim, mövcud olan problemləri elə yerindəcə həll edim ki, nəzərdə tutulmuş bütün proqramlar daha da uğurla icra olunsun.

İndi bölgələrdə gedən abadlıq-quruculq işləri, sürətli inkişaf artıq deməyə əsas verir ki, görülən işlər düzgün istiqamətdə atılmış addımların nəticəsidir. Ancaq Bakı kəndləri, qəsəbələri bu prosesdən bir qədər kənarda qalıbdır. Halbuki Bakının kənd və qəsəbələrində mövcud olan problemlər bölgədə olan

problemlərdən heç nədən fərqlənmir. Burada da iş yerlərinin açılması, yeni müəssisələrin yaradılması, elektrik, qaz xətlərinin çəkilməsi, su təchizatı, məktəblərin, səhiyyə ocaqlarının təmiri və yenidən tikilməsi problemləri var.

Mən vaxtaşırı Bakı kəndlərinə də baş çəkirəm və öz göstərişlərimi verirəm. Əlbəttə, ümid edirəm ki, görülən işlər gələcəkdə Bakı kəndlərində və qəsəbələrində uzun illər ərzində yığılmış problemlərin həllində kömək edəcəkdir. Ancaq hesab etdim ki, biz bu məsələyə gərək kompleks şəklində yanaşaq, kompleks şəklində baxaq, Bakı şəhərinin ətraf kənd və qəsəbələrinin sosial-iqtisadi inkişafına dair tədbirlər planı hazırlayaq. Bu məqsədlə mən bu gün bu müşavirəni keçirirəm.

Mən istəyirəm ki, burada həm görülmüş işlər haqqında danışaq, həm də ən başlıcası, mövcud olan problemlərin həlli yollarını birlikdə müzakirə edək, onları arayaq ki, qısa müddət ərzində proqram tərtib olunsun və icra edilsin.

Bildiyiniz kimi, mənim təşəbbüsümlə qəbul edilmiş bütün proqramlar reallığa əsaslanır. O proqramlarda konkret tədbirlər göstərilir. Yəni bu, hansısa bir bəyanat, yaxud da şüar xarakteri daşımır. Konkret olaraq harada nəyi etmək lazımdırsa, proqramlarda öz əksini tapır.

Məsələn, regionların sosial-iqtisadi inkişafı proqramına baxsanız görərsiniz ki, orada maddəbəmaddə yazılıb ki, harada hansı məktəb tikilməlidir, harada yol salınmalıdır, harada elektrik stansiyası tikilməlidir və s. Proqram üzrə icra mexanizmi də işə salınır. Əlbəttə, çox ciddi nəzarət olmalıdır. Çünki bizim iqtisadiyyatımız artdıcqa, maliyyə imkanlarımız da artır. Bilirsiniz ki, Azərbaycanda gələn ilin büdcəsi 4 milyard dollara çatacaqdır. Bu ilin büdcəsi ilə müqayisədə təxminən 70 faiz çoxdur. Biz bu vəsaitin xərclənməsinə ciddi nəzarət etməliyik. Həm dövlət, hökumət tərəfindən, həm də ictimai nəzarət olmalıdır. Belə olan halda, maliyyə imkanlarımız artdıqca qarşıda duran bütün planları, proqramları yerinə yetirmək daha da asan olacaqdır. Bizdə bu imkanlar var, maliyyə resursları var. İndi proqram qəbul olunmalı, ardıcıl,

məqsədyönlü və gərgin iş aparılmalıdır. Son müddət ərzində Bakı şəhərində abadlıq-quruculuq işləri sürətlə gedir, yeni yollar salınır. Bilirsiniz ki, büdcədən də bu məqsədlərə vəsait ayrılıbdır. Bu məsələ mənim xüsusi diqqətimdədir. Biz gözəl şəhərimizi daha da gözəlləşdirməliyik, abadlaşdırmalıyıq. Memarlıq görkəminə daha da böyük diqqət göstərməliyik. Bəzi hallarda Bakıda tikilən yeni evlər memarlıq baxımından çox zövqsüzdür və şəhərimizin ümumi görüntüsünü pozur. Mən Hacıbala Abutalıbova göstəriş verdim ki, buna çox ciddi diqqət verilməlidir. Bütün yeni tikilən binalar memarlıq baxımından yaraşıqlı olmalıdır.

Kəndlərdə, qəsəbələrdə, əlbəttə ki, proqramlar fərqlidir. Hesab edirəm ki, bugünkü müşavirə həmin problemlərin həllinə güclü təkan verəcək və biz birlikdə bu işləri görəcəyik.

İndi isə sözü Hacıbala Abutalıbova verirəm.

## Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun çıxışı

Möhtərəm Prezident!

2004-cü ildə və 2005-ci ildə Bakı şəhərində, paytaxtın ətraf kənd və qəsəbələrində yeni ab-hava yaranmışdır. Bu da şəxsən Sizin göstərişiniz, bilavasitə köməyiniz və qayğınız sayəsində görülən işlər nəticəsində mümkün olmuşdur. Buna görə də bütün Bakı şəhəri əhalisi adından və ətraf kənd və qəsəbələrin əhalisi adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, çoxdan arzulanan bugünkü müşavirədə qaldırılacaq problemlərin tez bir zamanda Sizin göstərişiniz əsasında yerinə yetirilməsi üçün Bakı Şəhər İcra Hakimiyyəti və rayon icra hakimiyyətləri bütün imkanlarını səfərbər edəcəklər.

Məlumat üçün bildirmək istəyirəm ki, Bakı şəhərində 1 milyon 851 min nəfər qeydiyyatdadır. Bunun 730 min 681 nəfəri şəhərətrafı kənd və qəsəbələrdə yaşayır. Kənd və qəsəbələrdə 161 məktəb, 135 uşaq bağçası, 88 poliklinika və xəstəxana fəaliyyət göstərir. Düzdür, 2004–2005-ci illərdə Sizin bilavasitə

ayırdığınız böyük vəsait hesabına bütün kənd və qəsəbələrə dünya standartına uyğun yollar çəkilmiş və işıqlandırma sistemləri ilə təmin edilmişdir. Məktəblərin, uşaq bağçalarının müəyyən hissəsi daxili imkanlar hesabına əsaslı təmir olunmuşdur.

Lakin bununla bərabər, Bakıətrafı kənd və qəsəbələrdə müəyyən problemlər də var. Əsas problem işsizlik, qaz təchizatıdır, kənd və qəsəbələrin daxilindəki yolların əsaslı təmiridir. Digər tərəfdən, elə kənd və qəsəbələrimiz var ki, məktəblərdə dərslər dörd növbədə keçilir. Bu, acınacaqlı vəziyyətdir. Ona görə də Sizdən çox xahiş edirik ki, bu problemlərin həllində bizə kömək göstərəsiniz.

2004-cü ildə Bakı şəhərinin özündə, kənd və qəsəbələrdə uzunluğu 214 kilometr, eni 15 metr olan yolun təmir işi başlanıb qurtarmışdır. Bunun 150 milometri kənd və qəsəbələrdədir. Bakı şəhərində 2004-cü ildə 5082 yeni elektrik dirəyi quraşdırılmışdır. 2005-ci ildə şəxsən Sizin qayğınız nəticəsində, əlavə vəsait ayrılması nəticəsində kənd və qəsəbələrimizdə və Bakı şəhərində 88 kilometr uzunluğunda 57 küçə əsaslı təmir olunmuşdur. Kənd və qəsəbələrimizdə əlavə 1155 elektrik dirəyi quraşdırılmışdır.

Möhtərəm Prezident, kənd və qəsəbələrin qaz problemi var, xüsusilə məktəblərin qızdırılması problemi var. Bununla əlaqədar olaraq məhz Sizin göstərişinizlə müəyyən yerlərdə müasir istilik sistemləri quraşdırmışıq və nəticələr müsbətdir. Yaxşı olardı ki, bütün kənd və qəsəbələrimizdə də, məktəblərdə, uşaq bağçalarında, xəstəxana və poliklinikalarda da istilik sistemləri olsun.

Möhtərəm Prezidentimiz, Sizin göstərişiniz bizim üçün qanundur və biz bunları yerinə yetiririk. Əlimizdən gələni edirik ki, bütün işlər ən yüksək səviyyədə görülsün. Əmin ola bilərsiniz ki, bu müşavirədən sonra verdiyiniz tapşırıqları tez bir zamanda yerinə yetirmək üçün əlimizdən gələni edəcəyik, kənd və qəsəbələrimiz yeni inkişaf dövrünü yaşayacaqdır.

* * *

**İ l h a m Ə l i y e v:** *Bugünkü müşavirədə Bakı şəhərinin bütün kənd və qəsəbələrinin nümayəndələri iştirak edirlər. Bakıda 50-yə yaxın kənd və qəsəbə var. Burada qəsəbə nümayəndələri, eyni zamanda, ağsaqqallar iştirak edirlər və istəyirəm ki, biz bu gün onların da sözünü eşidək.*

**Z ə k i İ s l a m y u s i f o v** *(Binəqədi rayonunun Rəsulzadə qəsəbəsi Ağsaqqallar Şurasının sədri)*: Ümummilli liderimiz Heydər Əliyev ölkənin bütün regionları kimi, Binəqədi rayonunun inkişafına böyük qayğı göstərmiş və bu qayğı indi də uğurla davam etdirilir. Bu ətrafda Biləcəri, Sulutəpə, Xocahəsən, Binəqədi qəsəbələri var. Allah Heydər babaya rəhmət eləsin, deyirdi ki, şimaldan gələndə Bakının ən birinci qapısı, girişi Binəqədi rayonudur. Doğrudan da belədir. Binəqədi rayonunda son vaxtlar gözəl işlər gözə çarpır. Məmmədyarov küçəsində 11 kilometrlik qaz xətti çəkilibdir. Yollar asfaltlanır, təmir olunur, kəndarası yollar salınıbdır. Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımını Allah xoşbəxt eləsin, əlil uşaqlar üçün gözəl hovuz tikdirmişdir. Bakının hər yanından uşaqlar valideynləri ilə birlikdə oraya gəlirlər, nə qədər sevinirlər. Yüz ildən çoxdur Biləcəri qəsəbəsindən dəmir yol xətti çəkilib. Biləcəri əvvəllər kiçik olubdur, indi böyüyübdür. Onu iki hissəyə bölən dəmir yol xəttində körpü var. Bunun altında piyadalar yolu qətiyyən olmayıb, vaxtilə fayton, araba üçün düzəlmiş bir yoldur. Sizin göstərişinizlə, binəqədililərin təşəbbüsü ilə onu söküb düzəldirlər. Əvvəlki körpünün uzunluğu 80 metrdir, təzə salınan körpünün uzunluğu 105 metr, eni 11 mert olacaqdır.

*Zəki İslamyusifov Binəqədi rayonunda aparılan geniş quruculuq işləri ilə yanaşı, mövcud problemlər barədə də dövlət başçısına məlumat verdi.*

**S ə x a v ə t N u r i y e v** *(Lökbatan qəsəbə nümayəndəsi)*: Cənab Prezident, Qaradağ rayonunun ictimaiyyəti, sakinləri bu

gün haqlı olaraq, Sizin adınızı böyük sevgi hissi ilə çəkir, rayonun iqtisadi və sosial tərəqqisində köməyinizlə əldə edilmiş nəzərəçarpacaq dəyişikliklər barədə iftixarla danışır. Rayonun Lökbatan, Qızıldaş, Müşfiqabad və Ələt qəsəbələrində nə qədər işlər görülmüşdür. Mədəniyyət və istirahət parkları və guşələri, Sahil qəsəbəsində 3 kilometrlik dənizkənarı park salınmışdır. Şəhid ailələri və Qarabağ əlilləri üçün Lökbatan qəsəbəsində iki 5 mərtəbəli yaşayış binası inşa olunmuşdur. 35 kilometrə yaxın qəsəbədaxili yollar təmir edilmişdir. 54 idman növü ilə məşğul olmağa imkan verən Qaradağ idman olimpiya məşq bazası, rayon uşaq-gənclər idman məktəbi kompleksi istifadəyə verilmişdir. Sahil, Qobustan və Buta qəsəbələrində xəstəxanalar müasir üslubda yenidən qurulmuş, tibb avadanlığı ilə təchiz olunmuşdur. Bir sıra ümumtəhsil məktəbləri əsaslı təmir edilmişdir. Rayon ərazisində məskunlaşmış məcburi köçkünlər üçün Ümid qəsəbəsi salınmış, rayonun əsas yaşayış massivlərinin elektrik enerjisi ilə fasiləsiz təminatı üçün yüksək və aşağı gənginlikli xətlər və yardımçı stansiyalar təmir olunmuşdur. Qızıldaş və Çeyildağ qəsəbələrinə ümumi uzunluğu 28 kilometrə yaxın olan yeni su xətti çəkilmişdir. Bütün bu və digər genişmiqyaslı işlərə görə, qədirbilən qaradağlılar Sizə dərin minnətdarlıqlarını bildirirlər.

Lökbatan qəsəbəsində 1930–32-ci illərdə inşa edilmiş qamış, taxta tipli evlərin sökülməsi və həmin evlərdə yaşayan əhalinin yeni mənzillərə köçürülməsi də başlanmışdır. Rayonun Səngəçal və Ümid qəsəbələrində 5 kilomert uzunluğunda kanalizasiya xəttinin çəkilməsinə və təmizləyici qurğuların inşasına başlanmışdır və bu işlər qısa müddət ərzində başa çatdırılacaqdır. Qeyd edim ki, bu işlər Sizin təşəbbüsünüzlə Qaradağ rayonunun Sosial İqtisadi İnkişafı Fondunun yaradılması sayəsində mümkün olmuşdur.

Möhtərəm cənab Prezident, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun vəsaiti hesabına son vaxtlar Lökbatan qəsəbəsinə 8 kilometr uzunluğunda su xəttinin çəkilməsi 20 min nəfərdən artıq əhalisi olan 1–2–3–4-cü yaşayış massivlərinin sakinləri tərəfindən

böyük razılıq hissi ilə qarşılanmışdır. Rayonun su təchizatında olan problemlərin həllində son mərhələ olan bu yeni su kəmərinin 6 kilometri magistral xətt və 2 kilometri isə qəsəbədaxili paylama xəttidir.

Möhtərəm cənab Prezident, yeni su xəttinin çəkilməsinə görə Sizə və Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevaya bütün qaradağlılar adından bir daha dərin minnətdarlığımızı bildiririk.

*Səxavət Nuriyev bütün qaradağlılar adından Azərbaycanın dövlət başçısını əmin etdi ki, rayonun imkanları dairəsində olan problemlər öz müsbət həllini tapacaqdır.*

**H a c ı K a m i l R ə h i m o v** *(Nizami rayonu Keşlə qəsəbəsinin sakini)***:** Cənab Prezident, 17250 nəfər sakini olan qəsəbəmizdə son vaxtlar aparılan genişmiqyaslı tikinti-abadlıq, quruculuq işləri əhali tərəfindən sonsuz razılıq hissi ilə qarşılanır. Qısa vaxt ərzində qəsəbədə 2 kilometr yollara asfalt döşənmiş, 1750 metr uzunluğunda yeni içməli su xətti, 900 metr uzunluğunda kanalizasiya xətti çəkilmişdir və məhəlləarası işlər davam edir. Əhalinin qazla, işıqla təminatında da məqsədyönlü tədbirdər həyata keçirilmişdir. Yeni elektrik paylayıcısı qoyulmuş xətlər təmir edilmişdir. Qaz probleminin həllində də irəliləyiş var, qəsəbənin məhəlləarası yolları təmir edilmiş, sanitariya vəziyyəti yaxşılaşmışdır. Keşlədə iki məscid var və bunlar əsaslı təmir olunmuşdur. Buna görə qəsəbənin bütün ağsaqqalları prezidentimizə öz minnətdarlığını bildirirlər.

H.Rəhimov daha sonra dedi ki, qəsəbə sakinlərinə tibbi xidmət göstərən 32 nömrəli xəstəxanının dam örtüyü və bir neçə otağı tam təmir olunmuşdur. Yaxın vaxtlarda xəstəxanaya yeni tibb avadanlığı verilmişdir. Qəsəbədə iki məktəb fəaliyyət göstərir və hər ikisinin təmirə böyük ehtiyacı var idi. Hazırda 201 nömrəli məktəb tamamilə təmir olunaraq, ən müasir təhsil ocağına çevrilmişdir. 227 nömrəli məktəbdə isə bir sıra təmir işləri aparılmışdır və indi də davam etdirilir. Bütün bunlar ürəkaçan işlərdir və Keşlə sakinlərinin arzu və istəklərinin həyata keçməsinin real nümunəsidir. Cənab Prezident, görülən

bütün işlərə, göstərilən bütünköməyə görə Sizə bütün Keşlə camaatının ən xoş sözlərini, arzularını, minnətdarlığını çatdırıram.

*H.Rəhimov həlli vacib problemləri də xatırlatdı. Qəsəbədə yeni məktəbin, uşaq poliklinikasının tikintisinə ehtiyac olduğunu bildirdi, dövlət başçısından bu işdə kömək göstərilməsini xahiş etdi.*

**Təvəkkül Səlimov** *(Şağan qəsəbə nümayəndəsi)*: Cənab Prezident, Əzizbəyov rayon sakinləri respublikada gedən geniş quruculuq işlərinə ürəkdən qoşulur və son zamanlar bütün qəsəbə və kəndlərdə müşahidə olunan canlanma əhalinin əhval-ruhiyyəsinə müsbət təsir göstərir. İki gündən sonra xalqımız Ramazan bayramını qeyd edəcəkdir. Bu münasibətlə Əzizbəyov rayonunun sakinləri, o cümlədən ağsaqqalları, ziyalıları, gəncləri adından Sizi, Sizin timsalınızda bütün ailənizi təbrik edirəm, cansağlığı diləyirəm.

Əzizbəyov rayonu Bakı şəhərinə nisbətən aralı olan rayonlardandır. Təbii ki, bunu Siz də bilirsiniz. Burada 120 mindən yuxarı əhali, 16 min qaçqın və köçkün məskunlaşmışdır. Son illər ərzində Əzizbəyov rayonunda sosial-iqtisadi sahədə, mədəni quruculuq işlərində müəyyən nailiyyətlər, irəliləyişlər olmuşdur. Ancaq müəyyən problemlər də var. Bunların aradan qaldırılmasında, həll edilməsində rayon rəhbərliyinin, Bakı şəhəri rəhbərliyinin və Sizin təlimat və göstərişləriniz həmişə əldə rəhbər tutularaq tədbirlər görülür. Azərbaycanın sosial-iqtisadi inkişafı ilə əlaqədar Sizin 2004-cü ildə imzanızla verilmiş fərman və sərəncamlar yerlərdə, o cümlədən bizim rayonda müvəffəqiyyətlə yerinə yetirilir.

Mən istərdim ki, bir neçə faktı Sizə xatırladam. Əvvəlcə son dövrdə qəsəbəmizdə Avropa standartlarına uyğun olan asfalt yolların çəkilməsini deyim. Bir neçə il bundan əvvəl Bakı–Mərdəkan yolunun çəkilməsində bilavasitə Sizin böyük təşəbbüsünüz və xeyirxahlığınız rayonumuzun sakinləri tərəfindən böyük rəğbətlə, hörmətlə qarşılanmışdır. Onların sözlərini Sizə çatdırıram ki, həmin yolun çəkilməsinə görə çox

sağ olun. Bunu deməyi sakinlər mənə həvalə etmişlər. Son iki ildə 50-dən artıq güc transformatoru qoyulmuş, kanalizasiya xətləri çəkilmiş, Qala–Şüvəlan asfalt yolunun 10 kilometri təmir olunmuş, işıqlandırılmışdır. Rayonun daxili imkanları hesabına yol kənarlarında 5 mindən yuxarı ağac əkilmişdir.

Sizin köməyinizlə görülən bu işləri biz sakinlər ümummilli liderimiz Heydər Əliyevin siyasətinin məqsədyönlü şəkildə davam etdirilməsi kimi yüksək qiymətləndiririk. Mən bunu bütün camaatımız adından bəyan edirəm.

Cənab Prezident, rayonumuzda 12 qəsəbə vardır. Onlar ənənəvi olaraq sənaye və kənd təsərrüfatı istiqamətlidir. Min illər boyu burada əhalinin əsas məşğuliyyəti maldarlıq, kənd təsərrüfatı, sənətkarlıq olmuşdur.

Hörmətli Prezident, mərhum ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, mən Əzizbəyov rayonunu çox sevirəm, oranın insanlarını imanına, adət-ənənələrə sədaqətinə görə çox qiymətləndirirəm. Təkcə Mərdəkan, Şüvəlan yox, bütün qəsəbələrin sakinləri torpağa, əməyə bağlı insanlardır.

Cənab Prezident, Bakı–Abşeron regionu üçün də sosial-iqtisadi inkişaf proqramı hazırlanacağını bəyan etməyinizi çox yüksək dəyərləndiririk. Siz bayaq o fikri vuğrulayanda, ağsaqqallar buna ürəkdən razılığını bildirdilər. Bakıətrafı rayonların iqtisadi, mədəni, sosial inkişafı nöqteyi-nəzərindən buna çox böyük ehtiyac var.

Cənab Prezident, Bakıda tikinti işləri böyük vüsətlə davam edir. Ancaq bəzi hallarda onların yerləşdirilməsində, memarlığında problemlər var. Bu gün Əzizbəyov rayonunda və Bakıətrafı digər yerlərdə evlərin tikilməsində, yeni kənd evlərinin tikilməsində müəyyən problemlər var. Ona görə də təkcə memarlıq məsələlərinin gözlənilməsi yox, həm də Bakıətrafı qəsəbələrin özünəməxsusluğu nəzərə alınmalıdır. Buna elmi baxış olmalıdır. Bakı ətrafı çox sürətlə genişlənir, ekoloji problemlər də yaranır. Elə yerlərdə tikintilər aparılır ki, bu, ekoloji cəhətdən düzgün deyildir.

Cənab Prezident, Əzizbəyov rayonunun sakinləri məndən təvəqqe etdilər ki, onların adından Sizə minnətdarlığımı bildirim. Dedilər, cənab prezidentə çatdırım ki, onun ömrü su qədər uzun olsun. Sizin bilavasitə israrlı təşəbbüsünüzlə – ot kökü üstə bitər, o kişinin oğlu belə də olmalıdır – oktyabrın 25-də Əzizbəyov rayonuna çəkilən sü xətti işə salınmışdır. Cənab Prezident, onların bir xahişi bundan ibarətdir ki, 2006-cı ildən başlayaraq, qəsəbələrimizin bütün məhəllələrində, heç olmasa, müəyyən nöqtələrə də su çəkilsin.

Cənab Prezident, bu ilin fevral ayında Mehriban xanım bizim Əzizbəyov rayonuna təşrif gətirdi. İnternat məktəbləri, digər sosial obyektləri gəzdi və problemlərin aradan qaldırılması ilə əlaqədar Heydər Əliyev Fonduna öz tapşırıqlarını verdi. Bu günlərdə Türkanda poliklinikanın açılışı nəzərdə tutulubdur. Yeni kitabxana, internat evləri açılmışdır. Rayonumuzun sakinləri Mehriban xanıma öz minnətdarlığını bildirir və o bu cür xeyirxah işlərlə böyük dəstək və rəğbət qazanıbdır.

Cənab Prezident, biləsiniz ki, Əzizbəyov rayonunun sakinləri 6 noyabrda parlament seçkilərinin demokratik, şəffaf, Sizin verdiyiniz sərəncamlara uyğun keçirilməsində fəal iştirak edəcək və bu siyasi sınaqdan alnıaçıq, üzüağ çıxacaqlar.

**Rafiq Rzayev** *(Kürdəxanı qəsəbə nümayəndəsi)***:** Hörmətli Prezident, qarşıdan gələn Ramazan bayramı münasibətilə Sizi təbrik edirik. Sabunçu rayonunun sakinləri adından bildirirəm ki, ölkədə gedən demokratik dəyişikliklər, iqtisadiyyatın sürətli inkişafı, atdığınız qətiyyətli addımlar Sabunçu rayonunda və onun qəsəbə və kəndlərində sağlam əhval-ruhiyyə yaratmışdır.

Sabunçu rayonu ərazisində olan Bakı kəndləri həmişə olduğu kimi, indi də Sizin daxili və xarici siyasətinizi, xüsusilə son günlərdəki qətiyyətli addımlarınızı yüksək qiymətləndirir. Həqiqətən də hiss olunur ki, Siz ümummilli liderimiz Heydər Əliyevin davamçısısınız. Bu sözləri, sadəcə olaraq, şüar xatirinə demirəm. Sabunçu, Kürdəxanı, Maştağa, Nardaran, Pirşağı, Ra-

mana, Balaxanı sakinləri Sizin qəlbən həmin xəttin davamçısı olduğunuzu əyani şəkildə hiss edirlər. Yəni buna sübutlar var.

Hamımızın bildiyi kimi, 1994-cü il dekabrın 28-də Pirşağını su basmışdı. İnanın, biz, Kürdəxanı camaatı o suyu görəndə düşündük ki, görəsən belə bir çətin vaxtda bu fəlakətin qaşısını almaq mümkün olacaqmı? Axı sovetlər dövləti məhv olmuşdu. Ancaq ümummilli liderimiz Heydər Əliyevin birbaşa rəhbərliyi və onun göstərişləri, qayğısı nəticəsində nəinki bu fəlakət qısa müddətdə aradan qaldırıldı, hətta gələcək onilliklərdə digər kəndləri də belə fəlakət gözləməməsi üçün tədbirlər görüldü. Xətlər çəkildi, həmin xətlərlə şor göllər dənizə axıdıldı.

Hamı bilir, uzun illər Bakı kəndlərində telefon problem idi, telefon əlaqəsi çox çətin idi. Yenə həmin illərdə qəsəbələrin, kəndlərin, demək olar ki, əksəriyyətində elektron ATS-lər quruldu. Səhiyyəyə, təhsilə böyük qayğı göstərildi. Bütün Bakı kəndləri şahiddir ki, həmin işləri hazırda Siz davam etdirirsiniz.

30 ildən yuxarıdır bütün Bakı camaatı bilir ki, əsas yollar nə gündə idi. Şəxsən Sizin göstərişləriniz, qayğınız nəticəsində bu yollar Avropa standartlarına cavab verən səviyyədə yenidən salındı.

Bunu görməmək haqqı danmaq deməkdir. Bunu bütün insanlar gördülər, bunun şahidi oldular.

Elektrik enerji təchizatı uzun illər Bakı kəndlərində ağır bir şərait yaratmışdı. Cənab Prezident, üzr istəyirəm, təkrar olmasın, yenə də şəxsən Sizin göstərişləriniz və qayğınız sayəsində 30 ildən qalan bütün xətlər, dirəklər yüksək səviyyədə təzələndi, yardımçı stansiyalar yenidən quruldu. Bütün məhəlli transformatorlar dəyişildi. Camaatımız bunu heç zaman görməmişdi. Yəni belə yüksək səviyyədə elektriklə təminatı görməmişdik.

Hazırda Sabunçu rayonu ərazisində – kəndləri nəzərdə tuturam – 20 kilometrdən artıq yeni qaz xətləri çəkilib, köhnə xətlər təmir olunubdur. Su xətləri də təmir edilib, Balaxanı kəndində 8 kilometrdən artıq yeni xətt çəkilibdir. Kürdəxanı qəsəbəsində 1,5 kilometrlik yeni xəttin çəkilməsi su təchizatını

xeyli yaxşılaşdırıbdır. Bunları deməmək, qiymətləndirməmək mümkün deyildir. Ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan fondun vəsaiti hesabına Pirşağı kəndində indiyədək görünməmiş məktəb tikilmişdir. Pirşağı ağsaqqallarının nümayəndələri buradadır, orada heç vaxt elə məktəb olmamışdır. Gözəl, müasir standartlara cavab verən, hər cür təminatı olan bir məktəb balaların, şagirdlərin ixtiyarına verilmişdir.

Bilgəhdə böyük bir internat məktəbi var. Hamı bilir ki, o çox bərbad şəkildə idi, əsaslı təmirə ehtiyac vardı. O da bu il tam təmir olundu və istifadəyə verildi.

Möhtərəm cənab Prezident, bütün bunlar həqiqətdir, faktdır, insanların gördükləridir. Ona görə biz bunları heç bir yazıya köçürmədən hamısını Sizə şifahi şəkildə çatdıra bilirik.

*Rafiq Rzayev əldə olunan uğurlarla yanaşı, həlli vacib məsələlərə də toxundu.*

**H ə s ə n Q a s ı m z a d ə** *(Badamdar qəsəbə nümayəndəsi)***:** Möhtərəm cənab Prezident, 25 minə yaxın əhalisi olan bu yaşayış məntəqəsində son illər aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri sakinlərin sabaha inamını qat-qat artırmışdır.

Sizin birbaşa rəhbərliyinizlə son illər respublikamızda aparılan yenidənqurma-abadlıq işləri Səbail rayonunda, eləcə də Badamdar qəsəbəsində özünü göstərir. Sakinlərin asudə vaxtlarını səmərəli keçirməsi üçün qəsəbə ərazisində yeni istirahət parkı salınmış, burada bütün şərait yaradılmışdır. Şəhər icra hakimiyyətinin yaxından köməyi ilə qəsəbəmizi şəhərlə birləşdirən 7 kilometrlik yol müasir standartlara uyğun təmir edilmiş və bütün kommunikasiya xətləri təzələnmişdir. Yol boyu işıq dirəkləri basdırılmışdır. Qəsəbəmizdən olan şəhidlərin xatirəsini əbədiləşdirmək üçün rayon rəhbərliyinin təşəbbüsü ilə yeni xatirə kompleksi inşa olunmuşdur.

Şəhər icra hakimiyyətinin təşəbbüsü ilə paytaxtda məhəllədaxili istirahət guşələri yaradılır. Biz bu işləri əsasən fəhlə yataqxanalarının olduğu yerlərdə görürük. Sakinlərimizin

müraciəti əsasında biz qəsəbədən qəbiristanlığa gedən 3 kilometrlik yolu bu günlərdə tam təmir etmişik.

Möhtərəm cənab Prezident, Sizin idmana, idmançılara göstərdiyiniz qayğı nəticəsində gənclər beynəlxalq yarışlardan medallarla qayıdırlar. Gənclərin idmana marağı getdikcə artır. Biz qəsəbənin mərkəzində müasir standartlara cavab verən yaşıl örtüklü mini futbol meydançasını bir həftə bundan əvvəl istifadəyə verdik. Onun soyunub-geyinmə otaqları və duşxanası da vardır.

Bir ay əvvəl qəsəbədə yeni poliklinika binası istifadəyə verilmiş, 50 nömrəli orta məktəbdə əsaslı təmir işləri başa çatmışdır. 30 il bundan qabaq tikilmiş mədəniyyət evi təmir olunmuşdur.

*H.Qasımzadə Badamdar qəsəbəsində içməli su təchizatı, kanalizasiya sistemi ilə bağlı problemlərdən, mövcud məktəbin müasir tələblərə cavab verməməsindən də danışdı, bu məsələlərin həlli üçün tədbirlər görüldüyünü bildirdi.*

**İ b r a h i m  Q ə l ə n d ə r o v**(*Suraxanı rayonu Qaraçuxur qəsəbəsi Ağsaqqallar Şurasının sədri)*: Hörmətli Prezidentimiz, Sizin təşəbbüsünüz, ciddi tələbkarlığınız sayəsində respublikamızın bütün regionlarında geniş vüsət alan yenidənqurma, bərpa, tikinti işləri Suraxanıda da öz əksini tapıbdır. Bu iş davam etdirilir, etdiriləcəkdir, buna əmin ola bilərsiniz. Sizin bölgələrə davamlı səfərləriniz xalqımız tərəfindən dəstəklənir, bəyənilir və yüksək qiymətləndirilir. Siz bu yayda Suraxanının Hövsan qəsəbəsinə təşrif buyurdunuz, insanları dinlədiniz. Onların təkliflərini yerinə yetirdiniz. Gəldiyinizin ertəsi günü yolu asfaltlamağa başladılar. 4,5 kilometr məsafədən içməli su xətti çəkildi. Buna görə də Hövsan camaatı mənə tövsiyə etdi ki, onların təşəkkürünü Sizə çatdırım.

Hörmətli Prezidentimiz, Hövsan, Zığ, Yeni Günəşli və Qaraçuxur qəsəbələrinin sakinləri, gəncləri mənə tövsiyə etmişlər ki, onların aşağıdakı xahişlərini Sizə çatdırım.

Hövsan qəsəbəsində 4 mindən artıq əhali yaşayır. Mövcud su təchizatı indiki tələblərə cavab vermir. Xahiş edirlər ki,

qəsəbənin əhalisinin içməli su ilə təmin olunması üçün əlaqədar təşkilatlara göstəriş verəsiniz.

Zığdakı mövcud məktəb binası 60–70 il öncə inşa edilmişdir. Qəsəbə çox genişlənib, əhalisi artıbdır. Həmin bina indi darısqallıq edir. Ona görə yeni məktəb binasının tikilməsini xahiş edirlər.

Yeni Günəşli və Qaraçuxur qəsəbələrində 80 minə yaxın əhali yaşayır, ancaq xəstəxana yoxdur. Xəstələri şəhərin digər yerlərinə aparırlar. Buna görə də qəsəbələrin sakinləri xahiş etdilər ki, xəstəxana tikilməsinə kömək göstərəsiniz.

Nəhayət, Sizin qayğınız, göstərişiniz sayəsində respublikamızın bir çox yerlərində idman kompleksləri tikilibdir. Bunlar gənclərin formalaşmasına, mətinləşməsinə, sağlamlığına xidmət edir. İmkan daxilində, Suraxanı rayonu ərazisində idman kompleksi tikilsin və bu kompleks gənclərə Sizin tərəfinizdən hədiyyə olsun.

Suraxanılılar məndən xahiş etdilər ki, onların ürəkdən gələn arzularını da Sizə çatdırım. Sizə gələcək işlərinizdə uğurlar arzu edirik, Allah-Təala daim Sizinlə olsun!

Yaşasın müstəqil Azərbaycanımız!

**Qurbanəli Əlizadə***(Xətai rayonu Ağsaqqallar Şurasının sədri)***:** Cənab Prezident, ulu öndərimiz 12 il öncə, noyabr ayının 2-də efir vasitəsilə bütün Bakı camaatına, Azərbaycanın bütün bölgələrinə müraciət elədi. Könüllülər toplandı, nə qədər adamlar toplandı. İndi baxın, o günlə bu tədbir arasında görün nə qədər fərq var. Əgər faizlə desək, 12 ildə təxminən 100 faiz inkişafa doğru fərq var.

Hörmətli Prezident, Bakı ətrafında 40-dan çox kənd var. Mərkəzə ən yaxın olanları Keşlə və Əhmədlidir. Mən əhmədliliyəm, eyni zamanda, Respublika Ağsaqqallar Şurasının üzvü, Xətai rayonu Ağsaqqallar Şurasının sədriyəm. 58 ilin müəllimiyəm.

Əhmədli kəndi baməzə kənddir. O, bütün kəndlərdən fərqlənir. Ona görə fərqlənir ki, dünyanın heç bir ölkəsində Əhmədlidən başqa, metrosu olan kənd yoxdur. Əzizim İlham müəllim, şübhə

etmirəm ki, yaxın gələcəkdə bu kənd muzeyə çevriləcəkdir. Biz bu ümidlə yaşayırıq. Ulu öndərimizin, ümummilli liderimizin qarşısında iki dəfə çıxışım olubdur. İndi tale üzümə güldü ki, onun davamçısının qarşısında çıxış etmək mənə nəsib oldu. Bundan böyük xoşbəxtlik nə ola bilər? Mən həyatda mənəviyyatı hər şeydən üstün tutmuşam.

Əhmədli kəndi bir də ona görə fərqlənir ki, hər ailədə azı 3 ali təhsilli mütəxəssis var. Əhmədli kəndində 12 min nəfər yaşayır. Hər ailənin 3 nəfəri Yeni Azərbaycan Partiyasının üzvüdür. Parlamet seçkilərinə hazırlığın qızğın bir vaxtında bu tədbirin keçirilməsi möhtərəm prezidentin Bakı camaatına böyük hörməti deyil, bəs nədir? Hörmət məgər maddi cəhətdə görülür? Mənəviyyat  hər şeydən üstündür.

Əhmədli kəndində iki il ərzində çox işlər görülübdür. Kanalizasiya xətti çəkilib, asfalt döşənib, qaz təchizatında dəyişiklik var. 1935-ci ildə çəkilən su kəməri yadımdadır, indi də fəaliyyət göstərir, əlavə xətlər də çəkilibdir.

Lakin, hörmətli Prezidentimiz, təbii haldır, başqa yerlərdə olduğu kimi, bizim kənddə də elə problemlər var ki, öz qüvvəmizlə həll edə bilmirik. Bu, dövlət səviyyəsində həll olunmalıdır. Görülən işlərdə icra hakimiyyətinin yaxından köməyi olub, yerli bələdiyyənin də xeyli iş görməsini inkar edə bilmərəm. Elə güman etməyin ki, mən bələdiyyə sədrinin müaviniyəm, ona görə tərifləyirəm, xeyr. Xudayar müəllimin seçilməsindən sonra kənddə azı 3-4 kilometrlik küçələr asfaltlanıbdır.

Möhtərəm Prezident, bizim kənd camaatı musiqini, idmanı, poeziyanı varlığı qədər sevir. Əbəs yerə deməyiblər ki, «Əhmədli musiqiçilər şəhəridir». Bu yaxınlarda kəndin tarixinə dair kitab çıxacaqdır. Bəlkə də kənd şəhərə çox yaxın olduğu üçün mədəni baxımdan da dəyişiklik var. Mənim ömrüm gənclərlə keçib, bəlkə də ona görə deyirlər ki, 78 yaşın var, amma cavan qalmısan. Kəndimizin camaatı bir şeyi arzulayır. İnanın, Sizi hər dəfə televizor ekranında görəndə, kəndlərə

gedəndə necə sevinirlər, deyirlər, kaş bizim də kəndimizə gələydi. Bunu arzu edirik.

Cənab Prezident, icazə versəydiniz, iştirakçıların eşitmədiyi məqamı nəzərinizə çatdırardım. Bu deyəcəyim sözlər rəhmətlik ulu öndərimiz Heydər Əliyevin ünvanına aiddir. Heydər Əliyev cənablarının belə bir kitabçası çıxmışdır, məndə də var: «Allahın yolunda hamımız bir olaq». 1993-cü il sentyabrın 5-də Təzəpir məscidindəki çıxışıdır. Heydər Əliyevin atası Əlirza kişi dindar olubdur. Mənim əlimdə faktlar var, Sizin nəzərinizə çatdırıram. Burada əyləşənlərin hamısı dinə inananlardır. Doğrudur, Azərbaycanın hər yerində islam mənəviyyatını təbliğ edirlər. Fəqət 3 bölgə – Naxçıvan, cənub bölgəsi və Bakı zonası dinə çox yaxındır. Bəli, Əlirza 1-ci, 8-ci imamın adlarıdır. Oğlanları – Həsən, Hüseyn 2-ci, 3-cü imamın adlarıdır. Biz müsəlmanlar ibadətdən sonra əlimizi qaldırırıq Allahın dərgahına, deyirik, İlahi, Səni and verirəm izzət-cəlalına. Ömür yoldaşı, oğlu Hacı Xalid bilir, Həzrəti Əlinin Aqil adında qardaşı olub, Şamda, yəni Dəməşqdə yaşayırmış. Həzrəti Əlinin yanına gəlib-gedərmiş. Bəs Heydər adının lüğəti mənası nədir? Həzrəti Əlinin anası Fatimə olubdur. İfadəmə görə üzr istəyirəm, o, Həzrəti Əliyə hamilə olanda çox əziyyət çəkibdir. Axı ana bətnində uşaq tərpənir. Yazıq qadın əziyyət çəkirmiş, uşağın dünyaya gəlməsi ərəfəsində məcbur olur, gedir Kəbəyə. Orada deyir ki, İlahi, mənim övladım sağ-salamat dünyaya gəlsə, oğlan olsa, adını Heydər qoyaram. Təsəvvür edin, bu heç də təsadüfdən deyildir. Bəli, bəşər övladından bir nəfər Kəbədə anadan olan var. O da Həzrəti Əlidir. Heydər Kəğyar. Məclislərdə dərvişlər oxuyurlar, əmirlər əmiri ağam Heydər. Bəs ərəbcə Heydər adının lüğəti mənası nədir? Sərkərdələr sərkərdəsi, sərdarlar sərdarı. Mən əlavə edirəm: siyasətçilər siyasətçisi.

Bəs fenomenlik haradan gəlir? Onu Allah verir. Allah istədiyi adamlarına istedad verir.

Möhtərəm Prezidentimiz, Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun! «Allahın yolunda hamımız bir olaq»

kitabçasında deyir: «Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum olmuşdu. Bu, əlbəttə, bizim üçün acınacaqlı bir haldır. Ancaq bu nə sizdən, nə də məndən asılı idi. Ola bilər ki, bu, Allahın işidir. Və bu da bir imtahandır ki, görsünlər insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtlik əldə edir».

Belə prezidenti olan hər bir vətəndaş, əlbəttə, xoşbəxtdir. Şükürlər olsun ki, onun davamçısı Sizsiniz. İnanın mənə, həmişə fəxr etmişəm. Niyə? Siz təvazökar, sadə insansınız, şəxsiyyətsiniz. Mən insanın mimikasından onun qəlbini oxuyuram.

Sözümü bitirirəm. Kəndimizə gələn qonaqlardan bir az xəcalət çəkməyək, mümkünsə, imkan dairəsində bizə dövlət səviyyəsində kömək edin, bəzi problemlərimizi həll edək. Diqqətinizə görə çox sağ olun.

## YEKUN NİTQİ

Çox sağ olun, xoş sözlərinizə görə sizə çox minnətdaram. Mən hesab edirəm ki, bugünkü görüş çox səmərəli keçdi. Həm görülən işlər haqqında məlumatları eşitdik, həm də problemlər haqqında məsələlər qaldırıldı. Bu çox vacibdir. Azərbaycanın son illərdəki inkişafı bizim hamımızın gözü qarşısında keçibdir. Bilirik ki, Azərbaycan 10 il bundan əvvəl hansı vəziyyətdə idi və bu gün hansı vəziyyətdədir. Əlbəttə ki, böyük inkişaf yolunu keçməsində Azərbaycan cəmiyyətinin dəstəyi mühüm rol oynadı, eyni zamanda, bu, ölkənin liderinin, prezidentinin, ulu öndər Heydər Əliyevin əməyi nəticəsində mümkün olmuşdur. Məhz onun fəaliyyəti nəticəsində, düşünülmüş, məqsədyönlü strategiyanın həyata keçirilməsi nəticəsində ölkəmiz bütün istiqamətlərdə uğurlar əldə etdi. İstər sosial sahədə iqtisadi islahatların aparılmasında, istərsə də siyasi müstəvidə, Azərbaycanın Dünya Birliyinə inteqrasiyası məsələlərində – bütün istiqamətlərdə irəliləyiş, tərəqqi və uğur vardır.

Ancaq əlbəttə ki, bununla yanaşı, problemlər də mövcuddur. Elə problemlər var ki, onların həll olunması üçün bir neçə il

lazımdır. Böyük maliyyə resursları lazımdır, insanların, cəmiyyətin fəal iştirakı lazımdır. Elə məsələlər də var ki, onların həlli üçün böyük vəsait də lazım deyil, böyük addımlar da lazım deyildir. Sadəcə olaraq, diqqət lazımdır, sadəcə, gərək insanın ürəyi yansın, hansı məsələ, problem narahatlıq yaradırsa, onu aradan götürsün. Azərbaycanda mövcud olan problemlərin həlli sahəsində böyük işlər görülüb və bu gün Azərbaycanın inkişafının yeni mərhələsində qalan problemlərin həlli mənim üçün başlıca məqsəddir. Mən bu məramla 2 il bundan əvvəl prezident seçkilərinə qoşuldum. Prezident kimi, bu proqramla öz fəaliyyətimi də davam etdirirəm. Mənim bölgələrə çoxsaylı səfərlərimin də məqsədi məhz budur ki, ölkəmiz daha da güclənsin, daha da zənginləşsin, əhali daha yaxşı yaşasın, sosial problemlər aradan qaldırılsın. Ümumiyyətlə, insanları narahat edən əsas problemlər aradan qaldırılsın.

Biz buna nail olacağıq. Görülən işlər, inkişaf dinamikası da bunu göstərir. Əgər iki il bundan əvvəl, hətta il yarım bundan əvvəl Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, bu ilin əvvəlində 40 faizə düşübdür. İndi yəqin ki, statistik göstəricilər çıxacaq, şübhəsiz ki, yenə də düşəcəkdir. İşsizliyin aradan qaldırılması üçün ciddi tədbirlər görülübdür.

Mən iki il bundan əvvəl bəyan edəndə ki, Azərbaycanda beş il ərzində 600 min yeni iş yeri yaranacaq, bilirdim nə deyirdim və iki il ərzində 311 min iş yerinin açılması artıq bunun əyani sübutudur. Sosial infrastrukturun möhkəmlənməsi, regional infrastrukturun yaranması qeyri-neft sektorunun inkişafı, neft sektorunun özünün inkişafı və Bakı–Tbilisi–Ceyhan neft kəmərinin başa çatdırılması tarixi əhəmiyyətli məsələlərdir. Azərbaycanın bu gününə və gələcəyinə xidmət edəcək məsələlərdir.

Bakıətrafı kəndlərin, qəsəbələrin də inkişafı çox lazımdır. Mən artıq bunu qeyd elədim. Görürəm ki, bu məsələdə bizdə fikir ayrılığı yoxdur. Daha da böyük addımlar atılmalıdır, böyük işlər görülməlidir, kəndlərdə olan problemlər öz həllini

tapmalıdır. Əlbəttə ki, ilk növbədə, biz diqqəti məhz insanları daha çox narahat edən məsələlərə yönəltməliyik. Məktəblərin tikintisi, mövcud olan məktəblərin təmiri başlıca vəzifədir. Məndə olan məlumata görə, Bakıətrafı kənd və qəsəbələrdə 161 məktəb var. Biz gərək o məktəblərin vəziyyətinə fikir verək. Harada təmirə ehtiyac varsa, təmir olunmalıdır. Mən bu gün eşitdim ki, bəzi məktəblərdə uşaqlar 4 növbədə oxuyurlar. Bu, faktiki olaraq təhsilin olmamasından xəbər verir. Dörd növbədə heç bir məktəbdə tədris prosesini təşkil etmək mümkün deyildir. Deməli, yeni məktəblər tikilməlidir. Harada, nə qədər və hansı müddətdə – onu siz müəyyən etməlisiniz! İcra hakimiyyəti başçıları, qəsəbə nümayəndələri, ağsaqqallar, ictimaiyyət və Bakı Şəhər İcra Hakimiyyəti təkliflərinizi verməlisiniz.

135 uşaq bağçası var. Onların da yəqin ki, əksəriyyətinin vəziyyəti o qədər də ürəkaçan deyildir. Çünki uzun illər ərzində bu sahəyə, ümumiyyətlə, diqqət göstərilmirdi, təmir aparılmırdı. Bəzi hallarda uşaq bağçaları ləğv olundu, onları kimsə özəlləşdirdi, yaxud da ki, onların profili dəyişdi. Biz bunu bərpa etməliyik. 135 uşaq bağçasına gərək baxış keçirilsin, hansıların təmirə ehtiyacı varsa, onlar təmir olunmalıdır, yenisi tikilməlidirsə, yenisi tikilməlidir.

88 poliklinika və xəstəxana mövcuddur və bu ən çox problem yaradan, bizi ən çox narahat edən sahədir. Bilirsiniz ki, mənim bütün səylərimə baxmayaraq, ayırdığım vəsaitə baxmayaraq, səhiyyə sistemində dönüşə nail ola bilmədik. Bu ilin büdcəsində səhiyyə xərcləri 44 faiz artıbdır. Böyük vəsait ayrılıb ki, yeni avadanlıq alınsan, təmir işləri aparılsın, yeni xəstəxanalar tikilsin. Bunu görmürük. Biz artıq qərar qəbul etdik və mən göstəriş verdim ki, Azərbaycan Dövlət Neft Şirkəti bölgələrdə yeni müasir müalicə-diaqnostika mərkəzləri yaratsın. Artıq bu proses başlanıbdır.

Səhiyyə sistemində islahatlar aparılacaq, bu sahədə ciddi dəyişikliklər olmalıdır. Burada mövcud olan rüşvətxorluq, korrupsiya hallarına son qoyulmalıdır. Xəstəxanalara kömək göstərəcəyik, təmir işlərinə vəsait ayıracağıq. Yeni xəstə-

xanaların tikintisinə vəsait ayıracağıq. O cümlədən Bakıda və Bakı kəndlərində. Bu sosial sahənin problemləri bizə bəllidir. Bunların həlli yolları da var, maddi imkanlarımız da var və ən başlıcası, bizim niyyətimiz var və bu, xoş niyyətdir. Niyyətimiz da yaratmaq, qurmaq, müasirləşdirmək, dünyada mövcud olan ən müasir texnologiyanı Azərbaycana gətirmək və Azərbaycan xalqının sərəncamına verməkdir.

Kənddaxili yolların təmirinə də vəsait ayrılacaqdır. Bilirsiniz ki, ilk növbədə, biz Bakı şəhərinin yollarına diqqət göstərdik. İndi, demək olar ki, əksər yollar ən yüksək səviyyədə təmir edilmişdir. Eyni zamanda, kəndlərə gedən yollara da biz diqqət göstərmişik və bu gün də diqqət göstəririk. Kənddaxili yolların təmiri növbəti mərhələdir, bu da hesablanmalıdır. Kəndbəkənd yolların uzunluğu, eni, nə qədər vəsait lazımdır – bunlar hesablanmalı və qəbul ediləcək proqramda öz əksini tapmalıdır.

Su təchizatı bizim üçün, Bakı üçün, Abşeron yarımadası üçün həmişə böyük problem olubdur. Suyun az olması, bəzi yerlərə suyun cədvəllə verilməsi bizim hamımızı narahat edir, hamımızı incidir. Bunun təbii problemləri var. Bu ərazidə həmişə belə problem olubdur. Görülən işlərin nəticəsində artıq bu problem də öz həllini tapacaq, Dövlət Neft Fondundan artıq vəsait ayrılıbdır. Oğuz–Qəbələ zonasından Bakıya yeni su kəməri çəkiləcək, Bakının və Bakı kəndlərinin təmiz bulaq suyu ilə təminatı öz həllini tapacaqdır. Kəmərin tikintisinə təxminən iki il vaxt lazımdır. Böyük həcmdə vəsait lazımdır və biz bu vəsaiti heç bir yerdə axtarmırıq, kredit üçün kiməsə müraciət etməyəcəyik, öz gücümüzlə tikəcəyik, imkanımız var. İqtisadiyyatımız inkişaf edir və iki ildən sonra Bakının su problemi aradan qaldırılmalıdır.

İndiki mərhələdə müvəqqəti olaraq nə kimi işlər görülməlidirsə, onları da gərək nəzərdə tutaq və bu, proqramda öz əksini tapmalıdır.

İstilik sisteminin bərpasına böyük diqqət yetirilir. Bu il mənim sərəncamımla «Azəristiliktəchizat» Səhmdar Cəmiyyəti yaradıldı və göstəriş verildi ki, gələn ilin sonunadək Bakı

şəhərinin bütün hündürmərtəbəli binalarında istilik sistemi bərpa olunsun. Lazımi vəsait ayrılacaq, yeni qazanxanalar tikiləcək və müasir texnologiyalar tətbiq olunacaqdır. Artıq bu işlər başlanmış, ilkin vəsait ayrılmışdır, indi növbə bu işi görən təşkilatlarındır.

İş yerlərinin yaranması hər bir ölkənin inkişafını müəyyən edir. İşsizlik Bakı kəndlərində də kifayət qədərdir. Mən bu problemləri bilirəm, yeni iş yerlərinin açılması üçün, bir tərəfdən, müvafiq infrastruktur yaranmalıdır. Qaz təchizatı yaxşılaşmalıdır. Şübhəsiz, indi işıqla bağlı o qədər də böyük problem yoxdur. Əsas məsələ odur ki, qışda problem olmasın. Bilirsiniz ki, Bakıda da modul tipli elektrik stansiyalarının qurulması nəzərdə tutulur. Biz bunu da edəcəyik.

Qaz təchizatı yaxşılaşmalıdır, amma bu, təkcə bizdən asılı deyildir. İlk növbədə, ona görə ki, Azərbaycanda qaza olan tələbat daxili imkanlar hesabına ödənilmir. Təxminən 4 milyard kubmetr qaz hasil edilir, 5 milyard kubmetr də xaricdən alınır. Bunun alınmasına 300 milyon dollar pul ayrılır. Ancaq yenə də qaz kifayət etmir. Demirəm ki, verilən qazın pulu da ödənilmir. Faktiki olaraq, dövlət əhaliyə dotasiya verir. Ancaq elektrik enerjisinin və qazın olmaması, əlbəttə ki, heç bir yeni iş yerinin yaranmasına imkan verməz. Ona görə biznes aləmi də gərək, ilk növbədə, infrastruktura  yollar, elektrik enerjisi, qaz təchizatına öz vəsaitlərini inamla qoysun ki, Bakı kəndlərində yeni iş yerləri, fabriklər, zavodlar və sair açılsın.

Burada hər il görülən işlər haqqında müzakirə apardıq. Eyni zamanda, noqsanlar, çatışmazlıqlar haqqında da danışdıq. Bu da çox vacibdir. Yəni məqsədimiz bu nöqsanları aradan qaldırmaqdır, çatışmayan cəhətləri, problemləri aradan qaldırmaq. Bunu etmək mümkündür. Çünki yenə də deyirəm, bizim iqtisadiyyatımız sürətlə inkişaf edir. Nə üçün mənim ən böyük diqqət göstərdiyim sahə iqtisadi inkişafdır? Çünki hər şey buna bağlıdır. Əgər iqtisadi inkişaf olmasa, gəlirlər az olacaq, büdcə dolmayacaq. Büdcə dolmayanda vəsaiti haradan götürəsən?

Gələn il büdcə xərcləri 4 milyard səviyyəsinə çatacaqdır. Bu, dünyada misli görünməmiş artımdır. 2004-cü ildə büdcəmiz 1 milyard 500 milyon dollar, 2005-ci ildə 2 milyard 200 milyon dollar idi, 2006-cı ildə 4 milyard dollar olacaqdır. Heç bir ölkədə belə artım yoxdur. Heç bir ölkədə iqtisadiyyat 9 ayda 21 faiz artmayıbdır. Yəni biz bunlara nail oluruq. Bizim iqtisadi islahatlarımız, digər tərəfdən, maliyyə nizam-intizamının möhkəmlənməsi, regional proqramların həyata keçirilməsi, neft strategiyamızın uğurla icra olunması bu şəraiti bizə yaradır. İndi bizim Neft Fondunda 1 milyard dollardan çox vəsait var. Ölkənin valyuta ehtiyatları təxminən bu qədərdir. Yenə deyirəm, gələn il üçün büdcəmiz 4 milyard dollardır. Gərək bundan istifadə edək. Haraya istifadə edək? İlk növbədə, yeni infrastrukturun yaradılmasına. Ona görə elektrik stansiyalarının tikilməsinə, qaz, su xətlərinin, yolların çəkilməsinə vəsait ayrılır. Digər tərəfdən də sosial infrastruktura. Sosial infrastruktur da, bugünkü müşavirədə deyildiyi kimi, bizi ən çox narahat edən məsələdir. Eyni zamanda, burada hər bir kəndin məsələləri müzakirə olundu. Bu da çox vacibdir. Bir var qlobal məsələ, qlobal yanaşma və bizim ümumi strateji xəttimiz, bir də var hər bir yerin, hər bir rayonun, hər bir kəndin öz problemləri və biz bunları da həll etməliyik.

Burada Balaxanıdakı zibillikdən söhbət açıldı. Mən bir dəfə səfərdən Bakıya qayıdarkən vertolyotla yuxarıdan müşahidə edirdim, çox acınacaqlı bir mənzərə idi. Oradan qalxan zəhərli tüstü bütün Bakını əhatə edir. Bəlkə bu, yerdə o qədər də hiss olunmur. Amma hündürdən baxanda bu, böyük bir ekoloji fəlakətdir. Mən göstəriş verdim, indi bu işlə məşğul olurlar. Balaxanıda böyük bir zibil emalı zavodunun tikilməsi nəzərdə tutulur. Bu həm yeni iş yerlərinin açılması deməkdir, eyni zamanda, Bakıda ekoloji vəziyyəti yaxşılaşdıracaqdır. Həm də bu zavod elektrik enerjisi hasilatını artıracaqdır. Bu haradasa, il yarım, iki il ərzində tikilə bilər. Artıq ilkin göstərişlər verilibdir və yaxın zamanlarda bunu həll etməliyik.

Burada başqa məsələlər də sadalandı. Gülçülüklə məşğul olanların problemləri də, qazla bağlı problemlər də bizim üçün aydındır, başadüşüləndir. Düzdür, onlar qazdan çox istifadə edirlər və bəzən onun pulunu ödəmirlər. Ancaq onların da gəlir mənbəyi budur. Bu məsələyə baxmaq, lazım olan şəraiti yaratmaq lazımdır.

Keçmiş pioner düşərgələrinin bərbad vəziyyətdə olması, özəlləşdirilmiş obyektlərin bəzi hallarda bağlı şəkildə qalması da məni çox narahat edir. Biz özəlləşdirməni ona görə aparmırıq ki, kimsə o mülkiyyətə sahib olsun, sonra onu qıfıllasın və gözləsin ki, torpağın qiyməti nə vaxt qalxır, onu satsın? Biz özəlləşdirməni ona görə aparırıq ki, insanlar ondan faydalansınlar. Yeni imkanlar açılsın, yeni iş yerləri açılsın, iqtisadiyyat artsın, qeyri-neft sektoru inkişaf etsin. Ona görə də bu məsələlərə, əlbəttə ki, diqqət yetiriləcəkdir. Mən bu gün Hacıbala Abutalıbova, mənim iqtisadi məsələlər üzrə köməkçim Əli Əsədova, bütün icra hakimiyyəti başçılarına, bütün nümayəndələrə tapşırıq verirəm ki, geniş, konkret, real və müfəssəl proqram hazırlansın. Bakının kənd və qəsəbələrinin sosial inkişaf proqramında hər şey nəzərdə tutulmalıdır – harada xəstəxana, məktəb, hansı obyekt tikilməlidir. Biz bunu tezliklə hazırlayaq, mən xüsusi sərəncam imzalayacağam və orada illər də göstəriləcək: 2006-cı ildə bu işlər görüləcək, 2007-ci ildə bu işlər, 2008-ci ildə bu işlər...

Burada qeyd olundu ki, bəzi hallarda belə məsələləri qısa zamanda həll etmək çətindir. Düzdür, bu çətindir, amma biz gərək bunları həll edək. Mən istəmirəm ki, bu proqramın icrası illərlə uzansın. Qısa müddət ərzində bunu etməliyik. Allaha şükür, bütün imkanlarımız var, maliyyə imkanlarımız var. Azərbaycanda indi yeni texnologiyalara bələd olan şirkətlər də var. Tikinti işləri aparan şirkətlər gözəl təcrübə toplayıblar. Qısa müddət ərzində bu məsələləri həll edək ki, burada dönüş yaransın, soydaşlarımız daha yaxşı yaşasınlar. Mənim məqsədim budur. Azərbaycan xalqının normal yaşaması, rahat yaşaması, rifah halının yüksəldilməsi mənim üçün əsas şərtdir.

Bakı bizim paytaxtımızdır, doğma şəhərimizdir və mən çox istəyirəm ki, burada inkişaf sürətlə getsin. 1-2 il ərzində kəndlər

yeniləşsin, müasirləşsin, gözəl görkəm alsın, insanlar daha yaxşı yaşasınlar. Ona görə mən bu tapşırıqları verdim, siz icra edin və qısa müddət ərzində proqram və sərəncam layihəsi hazırlansın.

Bir daha sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Xahiş edirəm ki, mənim salamlarımı və ən xoş arzularımı bütün Bakı camaatına çatdırasınız. Sağ olun.

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi və bütün dünya azərbaycanlılarını müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Xalqımızın müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş qəhrəman Azərbaycan övladlarının nurlu xatirəsini bu əziz bayram günlərində bir daha böyük ehtiramla yad edir, onlara Allahdan rəhmət diləyirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları xeyirxah niyyətlər naminə vəhdətə dəvət edən, onlara mənəvi zənginliyin, əxlaqi saflığın və cismani-ruhi kamilliyin fərəhini yaşatmaqla xeyrin şər, mənəvi ucalığın nəfs üzərində qələbə təntənəsini nümayiş etdirən bir aydır.

Azərbaycan xalqı öz böyük və şərəfli tarixi boyu həmişə uca Tanrıya tapınmış, milli köklərinə, dini-mənəvi ənənələrinə daim sadiq olmuşdur. Müstəqillik illərində mütərəqqi islami dəyərlərə qayıdış cəmiyyətimizin əxlaqi mənəvi yüksəlişində xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir. Azərbaycan oğul və qızlarının yüksək vətənpərvərliyi, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə milli-mənəvi dəyərlərə sadiqliyin nümunəsidir.

Əziz bacı və qardaşlarım!

Orucluq Allah rizası üçündür və hər bir müsəlmanın müqəddəs dinimiz qarşısında mənəvi borcudur. Siz mübarək Ramazan günlərini böyük məmnunluq və fərəh hissləri ilə başa vurursunuz. İnanıram ki, Allah və din yolunda cəfakeşliyiniz və Azərbaycanın əmin-amanlığı naminə etdiyiniz dualar sayəsində böyük Yaradan öz mərhəmətini və şəfqətini xalqımızdan əsirgəməyəcəkdir.

Bu əziz bayram günündə bir daha hamınıza firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

*Allah orucunuzu qəbul etsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasinin Prezidenti**

Bakı şəhəri, *2 noyabr 2005-ci il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN İCLASINDA* NİTQ

*3 noyabr 2005-ci il*

Nazirlər Kabinetinin bugünkü toplantısı üçüncü rübün və bülövlükdə doqquz ayın yekunlarına həsr olunur. Yekunlar onu göstərir ki, ilin əvvəlindən iqtisadiyyatda müsbət meyllər daha da güclənmişdir və qarşıda duran bütün vəzifələr real nəticələrdə öz əksini tapır. Ümumi daxili məhsul təxminən 22 faiz, sənaye istehsalı 28 faiz artmış, inflyasiya 12 faiz olmuşdur. İnflyasiyanın artımı bizi ən çox narahat edən məsələdir. Ona görə də görülən tədbirlərin nəticəsində inflyasiyanın səviyyəsi aşağı düşməyə başladı. Ümid edirəm ki, ilin sonuna qədər bu daha da düşəcək və gələn il inflyasiyanın normal çərçivədə saxlanması təmin olunmalıdır.

Bu müddət ərzində orta əməkhaqqı 22 faiz, əhalinin pul gəlirləri 21 faiz artmışdır. Yəni bu onu göstərir ki, əhalinin real gəlirləri artmışdır, özü də çox böyük sürətlə.

Makroiqtisadi göstəricilər hər bir ölkənin iqtisadiyyatının vəziyyətini müəyyən edən amillərdir. Əlbəttə ki, makroiqtisadi göstəricilərin bu səviyyəsi ölkədə gedən real proseslərə güclü təsir göstərir. Bizim vəzifəmiz məhz bundan ibarətdir ki, uğurlu iqtisadi inkişafımız Azərbaycanın hər bir vətəndaşının, hər bir ailənin həyatında öz əksini tapsın.

Ümumiyyətlə, əgər biz başqa ölkələrin iqtisadi inkişafına nəzər salsaq görərik ki, Azərbaycan iqtisadi inkişaf sürətinin

---

* Иъласда Президентин Иъра Апаратынын, Назирляр Кабинетинин мясул ишчиляри, назирлик вя комитяляринин ряшбярляри иштирак едирдиляр.

artımına görə lider dövlətdir. Bunu həm biz deyirik, həm də ən mötəbər maliyyə qurumları bunu etiraf edirlər.

Dünyada başqa bir ölkə yoxdur ki, onun iqtisadiyyatı 9 ayda 22 faiz artsın. Gələn illərdə bu artım daha sürətlə gedəcəkdir.

Artıq gələn ilin büdcəsi müzakirə olunubdur, büdcə xərcləri 4 milyard dollara çatacaqdır. 2005-ci ildə bizim büdcəmiz 2,2 milyard dollar, 2004-cü ildə 1,5 milyard dollar, 2003-cü ildə 1 milyard dollar təşkil etmişdir. Üç il ərzində büdcə xərclərimiz 3 dəfə artıbdır. Hansı ölkədə iqtisadiyyat və ümumiyyətlə, real işlər belə sürətlə irəliləyir. Əlbəttə, bu, bir tərəfdən, onu göstərir ki, Azərbaycanda 1990-cı illərin ortalarında başlanmış iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Digər tərəfdən, iqtisadi islahatların davam etdirilməsi bu gün real nəticələrə gətirib çıxarıbdır.

Büdcə xərcləri təxminən 70 faiz artmışdır. Əlbəttə ki, büdcəmizin artması iqtisadiyyatımızın bütün sahələrinə, sosial məsələlərin həllinə də kömək göstərəcəkdir. Biz bu məsələyə çox böyük diqqət yetiririk. Bildiyiniz kimi, Azərbaycanda yoxsulluq şəraitində yaşayan insanların sayı hələ də kifayət qədər yüksəkdir. Bu şəraitdə yaşayan insanların sayı ildən-ilə azalır. İlin əvvəlində 49 faizdən 40 faizə düşmüşdür, yəqin ki, ilin sonuna qədər bu rəqəm daha da aşağı olacaqdır. Amma Azərbaycan kimi ölkədə bütövlükdə yoxsul, işsiz adam olmamalıdır. Regional proqramların icrası bunu təmin edəcəkdir. 2005-ci ilin əvvəlindən ölkədə 133 min yeni iş yeri açılıbdır və bütövlükdə son iki il ərzində acılan yeni iş yerlərinin sayı 311 minə bərabərdir. Bu həm də onu göstərir ki, əgər iki ildə 311 min iş yeri açılıbdırsa, bizim bəyan etdiyimiz proqram, yəni 5 il ərzində 600 min iş yerinin açılması, yerinə yetiriləcəkdir. Yeni iş yerlərinin açılması, əlbəttə, həm sosial məna daşıyır, həm də bunun iqtisadi mənası çox böyükdür. Hər bir yeni iş yerinin açılması yeni müəssisənin, fabrikin, zavodun açılması deməkdir. Bütün sahələrdə uğurlu inkişaf var. Sənaye istehsalı artır, sosial məsələlərə daha çox diqqət göstərilir, kənd təsərrüfatının inkişafı üçün lazımi addımlar

atılmışdır. «Aqrolizinq»in yaranması bu istiqamətdə atılmış çox mühüm addımdır. Artıq «Aqrolizinq» xətti ilə Azərbaycana böyük həcmdə kənd təsərrüfatı texnikası gətirilir, gübrələr gətiriləcəkdir. Sahibkarlara və fermerlərə ayrılmış kreditlərlə yanaşı, bu, kənd təsərrüfatının inkişafını çox sürətlə təmin edəcəkdir.

Bildiyiniz kimi, sahibkarlığın inkişafına da böyük diqqət göstərilir. Çünki Azərbaycan bazar iqtisadiyyatı prinsiplərinə sadiq olan bir ölkədir. Azərbaycanda ümumi daxili məhsulun tam əksəriyyəti özəl sektorun fəaliyyəti hesabına formalaşır. Dövlət və hökumət sahibkarlığın inkişafı üçün əlindən gələni edir. Bir tərəfdən, güzəştli şərtlərlə verilən kreditlərin həcmi artır, gələn il bu kreditlərin həcmi təxminən 100 milyon dollar təşkil edəcəkdir. Digər tərəfdən, sahibkarlara dövlət tərəfindən, şəxsən prezident tərəfindən verilən dəstək, əlbəttə ki, onların işini yüngülləşdirir. Qanunsuz yoxlamaların və digər xoşagəlməz halların da azalması müşahidə olunur.

Hər bir ölkənin iqtisadi inkişafı üçün infrastrukturun möhkəmlənməsi çox önəmli məsələdir. Azərbaycanda bu istiqamətdə də böyük işlər aparılır, yeni avtomobil yolları, o cümlədən kənd yolları salınır, elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıbdır. Mənim bölgələrə çoxsaylı səfərlərim bunu bir daha göstərir. Hər yerdə mən mütləq bu məsələlərlə maraqlanıram və eşidirəm ki, ilin əvvəlindən bu günə qədər rayonlarda, kəndlərdə, demək olar ki, elektrik enerjisində problem yoxdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, qış mövsümündə də bu problem yaranmasın. Bu istiqamətdə böyük addımlar atılıb, təxirəsalınmaz tədbirlər görülübdür. Artıq yeni kiçikhəcmli elektrik stansiyalarının quraşdırılmasına başlanmışdır və gələn ilin sonuna qədər 50-dən çox stansiya tikiləcəkdir. Beləliklə, digər başqa stansiyaların tikintisi iıə bərabər, Azərbaycanda elektrik enerjisinə olan tələbat tamamilə ödəniləcəkdir.

Özümüzün qaz hasilatımız artır, eyni zamanda «Çıraq» və «Azəri» yataqlarından çıxarılan səmt qazının həcmi də artır. İdxal da artır və bu məsələ də öz həllini tapmalıdır. «Azər-

istiliktəchizat» Səhmdar Cəmiyyətinin yaradılmasının başlıca məqsədi ondan ibarət olmuşdur ki, Bakıda və Azərbaycanın digər böyük şəhərlərində istilik sistemi bərpa edilsin. Hamımız bilirik ki, uzun illərdir bu sistemdə vəziyyət ürəkaçan deyildir. Bir çox yerlərdə istilik sistemi tamamilə ləğv edilibdir və bəzi hallarda sakinlər qızdırıcı batareyaları da kəsib atıblar. İndi biz bunların hamısını bərpa edirik. «Azəristiliktəchizat»ın yaradılmasında məqsəd budur. Artıq ilk vəsaitlər ayrılıbdır. Gələn il daha da böyük həcm ayrılacaqdır. Qarşıya məqsəd qoyulubdur ki, gələn ilin sonuna qədər Bakı şəhərinin bütün hündürmərtəbəli evlərinin istilik sistemi bərpa edilsin. Ondan sonra digər şəhərlərin istilik sistemi bərpa olunmalıdır. Belə texnologiyalar var, biz bunların hamısını bilirik, vəsait də ayrılacaqdır.

Azərbaycanın uğurlu neft strategiyası da icra olunur. Heydər Əliyevin təşəbbüsü ilə inşasına başlanmış və onun adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurlu tikintisi bizim böyük nailiyyətimizdir. Bu, tarixi əhəmiyyətli bir layihədir və son illər ərzində görülmüş işlər bu əfsanəni reallığa, gerçəkliyə çevirdi. Bir neçə aydan sonra biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini qeyd edəcəyik. Artıq kəmər işə düşməmiş, Azərbaycan böyük həcmdə neft gəlirləri əldə edir. İndi Neft Fondunda 1 milyard dollardan çox vəsait var. Valyuta ehtiyatımız da bu qədərdir. Gələn illərdə bu vəsait artacaqdır. Çox rəmzi xarakter daşıyan budur ki, neft hasilatından əldə edilmiş gəlirlər, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin fəaliyyətindən əldə edilən gəlirlər su kəmərinin çəkilişinə qoyulur. Bildiyiniz kimi, şimal–qərb zonasından Bakıya yeni su kəməri çəkiləcək, bu məsələ bir müddət bundan əvvəl geniş müzakirə olundu.

İlkin işlər görülməyə başladı və ümid edirəm ki, iki il ərzində Bakının su problemi tamamilə aradan qaldırılacaqdır. Bu, real işlərin nəticəsidir. Heydər Əliyevin neft strategiyasının, onun tərəfindən Azərbaycanda başlanmış və bütün istiqamətlərdə uğurla davam edən inkişafın nəticəsidir. Neft

kəməri həm iqtisadiyyatımızı gücləndirəcək, həm də sosial problemlərin həllinə kömək göstərəcəkdir. Artıq mən qeyd etdim, sosial məsələlərin həlli bizim üçün başlıca vəzifədir. Minimum əməkhaqqının bir neçə dəfə artırılması bizim niyyətimizi ifadə edir. Minimum əməkhaqqı oktyabrın 1-dən 150 min manata gəlib çatıbdır. Ancaq, əlbəttə ki, bu bizi tam qane edə bilməz. Çünki 150 min manat o pul deyil ki, insanlar bununla normal yaşaya bilsinlər. Bunları biz bilirik. Biz gələcəkdə də minimum əməkhaqqının artırılmasına baxacağıq, bunu edəcəyik.

Ancaq, əlbəttə ki, bu məsələyə baxanda mütləq makroiqtisadi sabitlik məsələlərinə də baxılmalıdır. Əmək haqlarının kəskin şəkildə artımı inflyasiyaya gətirib çıxara bilir, əslində gətirib çıxarmışdır. Azərbaycanda inflyasiya heç vaxt 2–3 faizdən çox olmamışdı. Son illər ərzində inflyasiya gəldi çıxdı 15 faizə. İndi biz bunu endirdik 12 faizə. Daha da endirəcəyik. Bunun ən başlıca səbəblərindən biri də odur ki, Azərbaycanda əmək haqları çox sürətlə artır. Biz bunu edirik və etməliyik. Çünki Azərbaycan vətəndaşları yaxşı yaşamalıdırlar. Amma bütün başqa amillər də nəzərə alınmalıdır. Tələbələrin təqaüdləri 2,5 dəfə artırılıb, digər sosial ödəmələr artırılıbdır. 2006-cı ildən başlayaraq yeni pensiya sistemi tətbiq olunmağa başlayacaqdır. Bu çox mütərəqqi sistemdir və əlbəttə ki, bu sahədə də islahatların aparılması zəruridir.

Ən çətin vəziyyətdə yaşayan qaçqın və köçkün soydaşlarımızın problemlərinin həlli üçün lazımi addımlar atılır. Bildiyiniz kimi, prezident seçkiləri ərəfəsində mənim tərəfimdən bəyan edilmişdir ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır. Bu istiqamətdə böyük işlər görülüb, yəqin bu gün bu barədə məlumat veriləcəkdir. Qaçqınların, köçkünlərin müvəqqəti olaraq normal şəraitlə təmin edilməsi bizim hamımızın vəzifəsi və borcudur.

Büdcə artdıqca, əlbəttə, milli ordunun xərcləri də artır. Biz müharibə şəraitində yaşayan ölkəyik yə şübhəşiz ki, bu sahəyə diqqət, daha yüksək olmalıdır. Bu artım bəzi dairələri, xüsusilə

xarici dairələri narahat edir. Çünki hərbi xərclərimiz 2004-cü ildə 170 milyon dollar, 2005-ci ildə 300 milyon dollar olub, 2006-cı ildə isə 600 milyon dollar toşkil edəcəkdir. Amma buna biz ümumi kontekstdə baxmalıyıq. Əgər ümumi büdcəmiz təxminən iki dəfə artırsa, əlbəttə, digər bütün xərclər də iki dəfə artmalıdır. Əgər bizim büdcəmiz 5–6 milyard dollara çatacaqsa, əlbəttə ki, ordunun xərcləri də və başqa xərclər də proporsional qaydada artırılacaqdır. Bu heç kimi narahat etməməlidir. Bu bizim suveren haqqımızdır. Biz öz müdafiə potensialımızı gücləndiririk. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyirik və bütün siyasətimiz bunu ifadə edir.

Əgər Azərbaycan 10 ildən artıqdır ki, sülh danışıqlarına sadiqdirsə, danışıqlar aparırsa, bu onu göstərir ki, sülh danışıqlarına üstünlük veririk. Amma bununla yanaşı, ordu potensialının gücləndirilməsi çox vacibdir. Biz bunu edirik, bundan sonra da edəcəyik. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün lazımlı danışıqlar aparılır. Əfsuslar olsun ki, danışıqların hələ ki, nəticəsi yoxdur, ancaq danışıqlar müsbət istiqamətdə inkişaf edir. Bizim mövqeyimiz dəyişməz olaraq qalır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variantlar, ümumiyyətlə, müzakirə olunmur.

Bir sözlə, bir daha demək istəyirəm ki, bütün sahələrdə, istiqamətlərdə bizim siyasətimiz öz nəticələrini verməkdədir. Problemlər də var və az deyildir. Bunları bilirik, həll etməyə çalışırıq. Bugünkü toplantı bizə görülən işlər haqqında məlumat əldə etmək üçün imkan yaradacaqdır. Eyni zamanda, mövcud problemlərin aradan qaldırılması üçün hansı addımlar atılmalıdır, onu da biz müzakirə edəcəyik.

## YEKUN NITQI

Verilən məlumatlar bir daha onu göstərir ki, Azərbaycan iqtisadiyyatı, bütövlükdə ölkəmiz çox sürətlə inkişaf edir.

Nəzərdə tutulmuş bütün proqramlar, planlar həyatda öz əksini tapır. Azərbaycanda neft sektorunun, qeyri-neft sektorunun inkişafı yeni imkanlar yaradır. Sahibkarlığa və sahibkarlara verilən dəstək, əlbəttə, sahibkarların işinə kömək edir. Həm iqtisadi, həm maliyyə cəhətdən, həm də mənəvi dəstək çox vacibdir. Qeyri-neft sektorunun inkişafı, aqrar sahənin inkişafı, yeni sənaye istiqamətlərinin möhkəmlənməsi ölkəmizin gələcəyinə xidmət edəcək amillərdir ki, ölkəmiz neft amilindən asılı olmasın və möhkəm, davamlı iqtisadi inkişafa nail ola bilsin. Əlbəttə, belə olan halda sosial məsələlər də öz həllini daha da sürətlə tapır və bu istiqamətdə böyük işlər görülübdür. Artıq əmək haqları, pensiyalar, təqaüdlər haqqında məlumat verildi. Eyni zamanda, məktəblər tikilir, xəstəxanalar tikilməyə başlanmışdır. Bu proses gələcəkdə geniş vüsət alacaqdır.

Biz neft gəlirlərindən çox səmərəli, şəffaf şəkildə istifadə etməliyik və edirik. Neft gəlirlərinin həm toplanması prosesi şəffafdır, həm də xərclənməsi şəffafdır. Bütün sosial infrastrukturun qısa müddət ərzində yaranması və yeniləşməsi prioritet məsələ olmalıdır. Görülən işlər artıq göstərir ki, biz düz yoldayıq. Mövcud olan problemlər də operativ qaydada həll olunur. Bu ilin əvvəlində bizi ən çox narahat edən inflyasiyanın sürətlə qalxması məsələsi də operativ qaydada həll olundu. İnflyasiyanın qarşısı alındı.

Mən xatırlayıram, o vaxt da demişdim ki, məqsəd ondan ibarət deyil ki, biz inflyasiyanı dayandıraq. Məqsəd ondan ibarətdir ki, inflyasiyanın səviyyəsini aşağı salaq. Artıq son ayların təcrübəsi göstərir ki, biz buna nail ola bildik. İnflyasiya 15 faizdən 12 faizə endi. Bu gün Elman Rüstəmov məlumat verdi və Statistika Komitəsinin sədri də bunu təsdiqləyir, ilin sonuna qədər çalışmalıyıq və ümid edirəm, nail olacağıq ki, inflyasiya 10 faizdən aşağı olsun. Antiinflyasiya tədbirlərinin görülməsi, ümumiyyətlə, hökumətin səmərəli işləməsindən xəbər verir. Bu onu göstərir ki, istənilən problem operativ qaydada həll olunur.

Biz uğurlarımızdan danışırıq və haqlı olaraq, qürur hissi ilə danışırıq. Çünki görülən işlər nəticəsində belə iqtisadi artım sürəti, həqiqətən, dünyada heç bir yerdə müşahidə olunmur. Analoqu olmayan inkişafdır. Amma biz eyni zamanda problemləri də bilməliyik, onları təhlil etməliyik, açmalıyıq və həll etməliyik. Biz problemləri gizlətməməliyik. Necə deyərlər, elə bir təsəvvür yaratmamalıyıq ki, hər şey yaxşıdır. Hər şey yaxşı istiqamətdə, çox sürətlə inkişaf edir. Bəlkə gözlədiyimizdən də sürətlə inkişaf edir. Ancaq problemlər də həll olunmalıdır. Bizim vəzifəmiz bundan ibarətdir. Xalq bizdən bunu istəyir. Biz də bunu təmin etməliyik və edirik.

2006-cı il imkan verəcək ki, bütün sahələrdə inkişaf daha da sürətlə getsin. Ümumi daxili məhsulun artımı 30 faizə çatacaqdır. Əlbəttə, bunun böyük hissəsi neftin hasilatının artırılmasına görə baş verəcəkdir. Ancaq əgər ümumi daxili məhsulun strukturuna baxsaq görərik ki, bunda qeyri-neft sektorunun xüsusi çəkisi kifayət qədər böyükdür. Bizim məqsədimiz qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bununla yanaşı, iş yerlərinin açılması prosesi daha da sürətlə gedəcək, iqtisadi artım davam edəcəkdir. Bütün bunlar bizim planlarımızda var.

Regional inkişaf proqramı uğurla icra edilir. Mən dünən Bakı kəndləri və qəsəbələrinin problemləri ilə məşğul idim. Ümid edirəm ki, yaxın zamanlarda Bakı kəndlərinin inkişafına dair yeni proqram qəbul ediləcəkdir. Xüsusi sosial-iqtisadi proqramın qəbul edilməsi zəruridir. Çünki Bakı kəndlərində mövcud olan problemlər rayonlarda mövcud olan problemlərdən heç nə ilə fərqlənmir, bəlkə daha da çətindir. Belə olan halda, ümid edirəm ki, 2006-cı ilin bütün tapşırıqlarının yerinə yetirilməsi heç bir problem yaratmaz.

Mən bütövlükdə hökumətin işindən razıyam. Hesab edirəm ki, bu ilin doqquz ayı ərzində çox səmərəli işləmişik, qarşıda duran bütün vəzifələri həll etmişik, Azərbaycanın davamlı iqtisadi inkişafına nail olmuşuq. İndi gərək biz bu sürəti saxlayaq və ölkəmizi uğurla inkişaf etdirək.

İqtisadi inkişaf, artım və makroiqtisadi sabitlik hər bir ailənin gündəlik həyatında öz əksini tapmalıdır və tapır. Biz bu rəqəmləri gətirərkən, deyərkən, əlbəttə, müqayisələr də aparırıq. Görürük ki, başqa ölkələrdə vəziyyət necədir, orda iqtisadi artım nə qədərdir. Əhalinin pul gəlirləri ilə inflyasiyanın artımı arasında o qədər də böyük fərq yoxdur. Bu isə o deməkdir ki, inflyasiya bütün gəlirləri, əgər belə demək mümkündürsə, aradan götürür, yeyir. Azərbaycanda isə bu fərq kifayət qədər böyükdür və daha da böyük olmalıdır. Hər şey müqayisədə ölçülür. Ancaq eyni zamanda, biz öz işimizi Azərbaycan xalqının rifah halının yaxşılaşması üçün edirik. Biz bu işləri hansısa bir rekord əldə etmək üçün yox, yəni populizm naminə yox, hansısa bir şüar naminə yox, real işlər naminə edirik və hər bir ailə bunu hiss etməlidir. Maaş artmalıdır, təqaüd artmalıdır, iş yeri açılmalıdır. Yeni imkanlar yaradılmalıdır.

Mən şübhə etmirəm ki, əldə edilmiş bu dinamika gələcəkdə inkişafımıza daha güclü təkan verəcəkdir. Çünki bu vaxta qədər sahibkarlara verilmiş kreditlərin, «Aqrolizinq»in yaranmasının, kreditlərin verilməsinin davam etdirilməsinin bəhrəsini iki-üç ildən sonra görəcəyik. Bu gün biz iki, üç il əvvəl görülmüş işlərin bəhrəsini görürük. Bu, təbii prosesdir.

İndi Azərbaycanda məktəb tikintisi geniş vüsət alıbdır. Bu, təhsil deməkdir, savad deməkdir, bilik, inkişaf deməkdir. İndi xəstəxanaların tikintisinə başlamışıq. Biz buna Dövlət Neft Şirkətinin xətti ilə başlamışıq. Hesab edirəm ki, biz bunu Səhiyyə Nazirliyinin xətti ilə də davam etdirməliyik. Səhiyyə Nazirliyinə tapşırıq verilib ki, geniş proqram hazırlansın. Azərbaycanda səhiyyə ocaqlarının tikintisi, bərpası və müasir avadanlıqla təmin olunması məsələləri həll edilməlidir. Bizim iqtisadi imkanlarımız artdıqca, ilk növbədə, bu məsələlərə diqqət göstərilməlidir.

Qaçqınların yeni evlərə, qəsəbələrə köçürülməsi prosesi də davam edir. Yəqin ki, Ağdam rayonu ərazisində tikilən şəhərciklər bu yaxınlarda istifadəyə veriləcəkdir. Ondan sonra yerdə qalan çadır şəhərcikləri ləğv ediləcəkdir. Bununla

bərabər, göstəriş verilibdir və vəsait ayrılibdır ki, yataqxanalarda təmir aparılsın və beləliklə, biz çətin vəziyyətdə yaşayan insanların həyatını yüngülləşdirək.

Bütün bu uğurlara Azərbaycanın hər bir vətəndaşı sevinir. Əlbəttə, prezident kimi, mən də sevinirəm. Çünki bu, görülən işlərin nəticəsidir. Bu bir də onu göstərir ki, verilən bütün vədlər həyatda öz əksini tapır. Çox sevinirəm ki, bütün verdiyim vədlər və bəyanatlar real işə əsaslanır, real işə söykənir. Amma bu uğurları istəməyən, bu işləri gözü götürməyən qüvvələr də var. İlk növbədə, Azərbaycanda hakimiyyət iddiasında olan qüvvələr var. Əgər müxalifətin bir neçə il bundan əvvəlki çıxışlarına diqqət yetirsəniz görərsiniz, o vaxt deyirdilər ki, xalq səfalət içindədir, hamı acından ölür. Biz indi bunları eşitmirik. Halbuki bu o vaxt da yalan idi. Amma indi bu yoxdur. Deyirdilər ki, bizə iş, çörək lazımdır. İndi bu şüarlar da yoxdur. İşi biz verdik. 311 min iş yerini iki il ərzində biz yaratmışıq. Orta aylıq əməkhaqqının 140 dollara çatmasını biz təmin etmişik. Büdcənin 4 milyard manata çatmasını da biz təmin etmişik. Yəni onların deyə biləcəyi bir şey qalmadı. Onlar nə deyirlərsə, biz onu əvvəldən demişik və üstəlik etmişik. Çünki bir var demək, bir də var həll etmək. Onların nəyə qadir olduğunu Azərbaycan xalqı 1992-ci ildə çox yaxşı gördü. Bir il ərzində ölkəni dağıtdılar. Küçədən keçən adamlar gəldilər hökumət başçısı oldular, nazir kresloları tutdular və ancaq ölkəni talamaqla, resurslarını oğurlamaqla, satmaqla, trolleybus naqillərini kəsib xaricə satmaqla məşğul idilər. Onların hakimiyyəti, qabiliyyəti bu idi.

Deməyə çox söz olar. Amma bunu həll etmək lazımdır. Biz bunu həm bəyan edirik, həm də həyata keçiririk. Bizim işlərimiz proqram çərçivəsində həllini tapır. Vahid konsepsiya, iqtisadi inkişaf konsepsiyamız hərtərəflidir. Regionların sosial-iqtisadi inkişafı proqramı və Azərbaycanda sosial-iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi məsələləri, digər layihələr, təhsilə, səhiyyəyə, ordu quruculuğuna, sənayenin inkişafına, neft sektoruna, idmana – haraya baxsaq görərik ki, bütün istiqamətlərdə inkişaf var. Bunu görməmək mümkün

deyil, bunu danmaq mümkün deyildir. Bu reallıqdır. Bizim həyatımızdır, bizim gerçəkliyimizdir, nailiyyətimizdir. Belə olan halda, əlbəttə, hakimiyyət iddiasında olan qüvvələr bundan narahat olurlar. İşlər yaxşılığa doğru getdikcə onların manevr müstəvisi daralır. İndi lap daralıbdır, əgər məcazi mənada desək, artıq onlar orada ayaq üstə dura bilmirlər.

Ona görə bu işlərə əngəl törətmək, bizim işimizi korlamaq, Azərbaycanda qarşıdurmaya gətirib çıxarmaq, vəziyyətin sabitliyini pozmaq, əfsuslar olsun ki, indi onların, necə deyərlər, iş üslubuna çevrilibdir, onların siyasətidir. Amma onlar buna da nail ola bilməyəcəklər. Mən indi onların bəzi hərəkətlərinə qiymət vermək istəmirəm. Amma bəzi gülməli məqamlar da var. Məsələn, onlar bir neçə ay bundan əvvəl buraya narıncı köynəklər gətirmişdilər, böyük pul ödəmişdilər. Amma ağılları çatmadı ki, artıq noyabr ayıdır, bu köynəklər indi heç kimə lazım deyil. İndi onlar köynəklərlə hara çıxacaqlar?! Yəni bu xırda məsələ onu göstərir ki, görün onların ağlı necə kasıbdır.

Azərbaycan öz dövlətçiliyini möhkəmləndirir. Azərbaycanda gedən siyasi proseslər, demokratik proseslər, mənim tərəfimdən imzalanmış müvafiq fərmanlar, sərəncamlar, seçki praktikasının təkmilləşdirilməsinə dair görülən işlər bizim niyyətimizi açıq şəkildə göstərir. Siyasi proseslər, demokratikləşmə prosesləri, ölkəmizin sosial-iqtisadi inkişafı – bunlar hamısı vahid bir inkişaf prosesinin tərkib hissələridir. Birini o birindən ayırmaq mümkün deyildir. Əgər biz diqqətimizi ancaq iqtisadi məsələlərə yönəltsək, siyasi proseslər kənarda qalsa, demokratikləşmə getməsə, ölkədə siyasi islahatlar getməsə, uğur qazana bilmərik. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, əgər iqtisadiyyat inkişaf etməsə, onda demokratikləşmə prosesi də təhlükə altına düşər. Çünki kasıb ölkədə, çoxlu sosial problemləri olan ölkədə insanlar demokratiya, siyasi proseslər haqqında düşünmürlər. İnsanları ancaq gündəlik məsələlər düşündürür. Ona görə paralel şəkildə, hərtərəfli inkişaf Azərbaycanı yaxın zamanlarda çox güclü dövlətə çevirəcəkdir.

Ancaq bu qüvvələrlə, yəni bizim uğurumuza sevinməyən, Azərbaycanın uğurlarına sevinməyən insanlar xoşbəxt adamlar deyil. Çünki bu bizim vətənimizdir, Azərbaycandır, Azərbaycanın hər bir vətəndaşı öz ölkəsini sevməlidir. Azərbaycanın hər bir vətəndaşı vətənpərvər olmalı, öz əməyi ilə ümumi işimizə töhfə verməlidir. Müxalifət nümayəndələri bundan məhrumdurlar. Onlar bizim uğurlarımızı, ölkəmizin irəliləyişini görüb sevinmirlər, əksinə, məyus olurlar. Bu onların faciəsidir və hər vəchlə çalışırlar ki, bizim gördüyümüz işlərə əngəllər törətsinlər, hansısa süni maneələr yaratsınlar. Amma buna nail ola bilmirlər və bilməyəcəklər.

Ancaq son zamanlar əldə edilmiş məlumatlara görə, bu işlərə bəzi keçmiş hökumət üzvləri də qoşulmuşdur. Bildiyiniz kimi, hökumətin iki üzvü – Fərhad Əliyev və Əli İnsanov, habelə başqa yüksək vəzifəli şəxslər qanunsuz yollarla, korrupsiya və rüşvətxorluq yolu ilə əldə edilmiş pulları müxalifətin kütləvi iğtişaşlarının törədilməsinə xərcləyirdilər.

İndi istintaq gedir, hüquq-mühafizə orqanları bu məsələyə dair məlumat verirlər və kifayət qədər məlumat var. Tutulan adamların ifadələri, bu işlərdə onlarla əlbir olan insanların ifadələri artıq kifayət qədər məlumat verir ki, burada nə qədər çirkin əməllər görülürdü. Şəxsən məndə şübhə yoxdur ki, artıq bəlli olan bütün məqamlar həqiqəti əks etdirir. Bizdə olan məlumatlar, şahidlərin ifadələri və saxlanılan adamların ifadələri, mənə olan müraciətləri bunu göstərir.

Əlbəttə, işin hüquqi tərəfini hüquq-mühafizə orqanları, istintaq və məhkəmə müəyyən edəcəkdir. Mən buna toxunmaq istəmirəm, istintaqın işinə də qarışmaq istəmirəm. Azərbaycanda hüquqi dövlət qurulur, bizdə qanunun aliliyi mövcuddur və buna hörmətlə yanaşmalıyıq.

Biz gərək işin mənəvi tərəfinə öz münasibətimizi bildirək. Düzdür, bu adamlar haqqında danışanda mənəviyyat sözünü işlətmək bəlkə o qədər də düzgün deyildir. Çünki onların fəaliyyəti, hərəkətləri ənənəvi eybəcərlikdir. Bu insanların mənəvi düşgünlüyüdür. Uzun illər, on il ərzində bizim aramızda

olan, bizimlə bərabər işləyən adamlar bizə arxadan zərbə vururlar. Özü də kiminlə birləşdilər? Beynəlxalq mafiyanın rəhbərlərindən biri, Azərbaycanda korrupsiyanın təməlini qoyan, dünyada korrupsioner və oğru kimi tanınan Rəsul Quliyevlə birləşiblər! Qanunsuz yolla, oğurluq və korrupsiya yolu ilə qazanılmış çirkli pullarını onun sifarişi ilə onun əlaltılarına verməklə Azərbaycanda kütləvi iğtişaş törətmək istəmişlər. Nə üçün? Azərbaycanda gedən proseslər, Azərbaycanın uğurlu inkişafı, Azərbaycan xalqının normal yaşaması kımın gözünü deşir? Azərbaycan dövlətinin, dövlətçiliyinin, Azərbaycan xalqının düşmənlərinin! Onların arzusu nə idi? O boyda vəzifə sahibi idilər. On ildən artıq və on ilə yaxın hökumətin ən mühüm vəzifələrində yer tuturdular. Onlar hökumətə gələndə nə vəziyyətdə idilər, şonra nə vəziyyətə düşdülər? Əli İnsanov. Sonra nə oldu? Indi bunu hamı bilir. Yaxud da Fərhad Əliyev. Ən çox inhisarçılıqdan danışan, amma ən böyük inhisarçı, ən böyük korrupsioner, ən böyük rüşvətxor idi, onun nazirliyində bir dənə də arayış pulsuz verilmirdi. Amma görünür, bu imtiyazlar, bu şərait, bu vəzıfə, bu var-dövlət onları bu işlərə sövq etdi. Bundan da böyük iddiada imişlər. Yəqin ki, bundan da böyük vəzifə istəmişlər. Bundan böyük vəzifə nə ola bilər?! Nazir vəzifəsindən böyük nə ola bilər?!

İndi görün nələr baş verə bilərdi? Bir tərəfdən, korrupsioner məmurlar – Əli İnsanov, Fərhad Əliyev və başqa məmurlar hərəsi öz iddiasında, ikinci tərəfdən, xaricdən gəlmək istəyən mafioz Rəsul Quliyev prezidentlik iddiasında, digər tərəfdən, bizim bu köhnəlmiş, naftalin qoxusu gələn müxalifət – İsa Qəmbərov, Əli Kərimov. Burada nə olacaqdı? Əgər onların planları həyata keçsəydi, Azərbaycanda yenidən vətəndaş müharibəsi başlanacaqdı. Çünki onların planlarını həyata keçirmək üçün Rəsul Quliyevin buraya gəlişi lazım idi.

Onlar hesab edirdilər ki, Rəsul Quliyevin gəlişi ilə onu qarşılamağa kimsə gələcəkdi, bəzi adamlar bunlara qoşulacaqdı. Artıq bu onu göstərir ki, hökumət üzvləri və başqa yüksək vəzifəli məmurlarla danışıqlar aparılırdı. Fərhad Əliyevin 100

min avronu Fikrət Yusifova verməsi faktdır. Bunu həm Fikrət Yusifov təsdiqləyir, həm də o pulu ona çatdıran və başqaları təsdiqləyir. Bu, axırıncı pul deyil, bundan başqa da pul verilmişdir. Əli İnsanovun 200 min dolları Rəsul Quliyevin gəlişinə deyil, burada insanlara, küçədə gəzənlərə pul verməklə onları iğtişaşlara təhrik etməyə xərclənirdi. Son qanunsuz mitinqin reportajı göstərdi ki, mitinqin bir iştirakçısı polisə deyir ki, məni vur. Nəyə görə vur? Çünki vurulanda ona 400 dollar pul verirlər. Bu pul haradan gəlir? Bizim aramızda oturanlardan! Ona görə istintaq hər şeyi aydınlaşdıracaqdır.

Yenə də deyirəm, Azərbaycan çox böyük fəlakətlə üz-üzə qalmışdı. Çünki əgər onların planları həyata keçsəydi, Azərbaycan yenə də anarxiya, böhran, xaos, qanunsuz silahlı birləşmələr, qanunsuz hərəkətlər və hakimiyyət davası dövrünə sürüklənərdi. Biz bunun qarşısını aldıq. Biz bütün bu xoşagəlməz halların qarşısını qətiyyətlə, cəsarətlə, qanun çərçivəsində aldıq. Hərə öz payını aldı. Onlar harada idilər və haraya düşdülər! Bu hamı üçün dərs olmalıdır.

Mən bir neçə ay bundan əvvəl Nazirlər Kabinetinin toplantısında demişdim, kim siyasətlə məşğul olmaq istəyir, getsin məşğul olsun. Amma burada oturmasın. Çıxsın getsin. Getsin siyasətlə məşğul olsun, görüm necə məşğul olacaqdır. Eşitmədilər. Bəlkə hesab edirdilər ki, mən bunu elə-belə, söz naminə deyirəm. Mən sözü bir dəfə deyirəm. İkinci dəfə hərəkət edirəm.

Mən son zamanlar bu məsələ ilə bağlı gedən prosesləri müşahidə edirəm. Əlbəttə, bu bizim hamımızı düşünməyə vadar edir. Hamımız bilməliyik, kim kimdir. Gərək burada şəffaflıq olsun, aşkarlıq olsun, Tutaq ki, kimsə başqa yol tutmaq istəyir, tutsun. Gəlsin, kişi kimi desin ki, mən bununla razı deyiləm, mən bunun əleyhinəyəm, mən bu mövqedəyəm. Mən də bunu qəbul edərəm. Mən açıq mübarizənin tərəfdariyam. Bu həmişə belə olubdur.

Mənim atam Heydər Əliyev də açıq mübarizə aparmışdır. O vaxt sovet sisteminin əleyhinə gedəndə bunu bəyan etmişdi.

Bunu gizli yolla, altdan-altdan etməmişdi. Açıq etdi, partiyadan çıxdı, partiya biletini atdı, sovet rəhbərliyini və Qorbaçovu pislədi, Sovet İttifaqı Kommunist Partiyasını ifşa etdi və çıxıb getdi. Budur hamımızın gözünün qabağında olan məsələlər. Ondan sonrakı dövrdə, Azərbaycanda Vəzirov, Mütəllibov kimi adamların dövründə mübarizə aparırdı. Ondan sonra Xalq Cəbhəsi dövründə Yeni Azərbaycan Partiyasını yaratdı. Müxalifətdə idi, kişi kimi. Belə olmalıdır!

Mən mübarizəyə qoşulanda da eyni məramla qoşuldum. 2003-cü ildə prezident seçkilərində iştirak etdim. Necə deyərlər, alnım açıq, üzüm ağ. Prezident seçkilərində mübarizə apardım, qələbə qazandım. Bu gün də mübarizəni aparıram, sabah da aparacağam, bütün dövrlərdə aparacağam. Çünki mən haqlıyam və mənim siyasətim xalq tərəfindən dəstəklənir. Yaxşı, bəs bunlar – Fərhad Əliyev, Əli Insanov mənim yanımda olanda yaltaqlanırdılar, yalan sözlər deyirdilər: ay, biz Sizi belə dəstəkləyirik, ay, Siz belə adamsınız. Fərhad Əliyev mənim kabinetimdə Qurana əl basırdı. Son aylar ərzində onunla bir neçə ciddi söhbətim olmuşdu. Mən düzgün yolda olmadığını ona deyirdim. Ona şans verirdim ki, öz hərəkətlərində düzəliş etsin. Gəlirdi, mənim otağımda əlini Qurana basırdı. Belə hərəkətlər insanda ikrah hissi doğurur.

Əli İnsanov öz müraciətində yazıb ki, onun hərəkətləri bağışlanılmazdır, nifrətə layiqdir. Onu düz deyir. Onların hərəkətləri nifrətə layiqdir. Mən bu hərəkətlərdən iyrənirəm. Ona görə mən iştədim ki, öz mövqeyimi bildirim, siz də bunu biləsiniz. Adam mübarizəni kişi kimi aparar. Qalib də gələr, məğlub da olar, amma öz mənliyini saxlayar. Çünki bilirsiniz, iqtidar bu gün var, sabah da ola bilər, ondan sonra da ola bilər, ondan sonra olmaya da bilər. Amma insanda insani keyfiyyətlər həmişə olmalıdır. O adamlar bizim üzümüzə necə baxırlar? Əgər onlarda vicdan varsa. Mən indi buna şübhə edirəm.

Mən bir daha demək istəyirəm ki, belə halların qarşısı qətiyyətlə alınıbdır. İndi istintaq gedir. İstintaq hər şeyi üzə

çıxaracaq, hər şey aydın olacaq və hər kəs törətdiyi əməllərə görə xalq qarşısında və ədalət qarşısında cavab verəcəkdir.

Bir daha deyirəm ki, kim siyasətlə məşğul olmaq istəyir, kim bu yolu tutmaq istəyir, bax, bu gün, indi dursun, desin. Qapılar açıqdır. Yox, əgər belə deyilsə, onda hamı öz işi ilə məşğul olsun. Hamıya böyük vəzifə verilibdir, nazir, komitə rəhbəri, başqa vəzifələr. Siz prezident qarşısında məsuliyyət daşıyırsınız. Məni xalq seçib, mən xalq qarşısında məsuliyyət daşıyıram. Siz prezident qarşısında məsuliyyət daşıyırsınız. Sizi nə isə qane etmir, razı deyilsiniz, başqa yanaşma var, siyasət sizi qane etmir, münasibət sizi qane etmir – gəlin deyin, heç bir problem yoxdur. Mən bu münasibətlərin tə-rəfdarıyam. Amma burada oturub müxalifətlə əlbir olmaq, onlara pul vermək ki, o pulla gəlsinlər Prezidenti devirsinlər və ondan sonra nə olacaq Allah bilir. Buna imkan verilməyəcəkdir.

Hamı bilməlidir ki, Azərbaycanda belə konspirativ qaydada, gizli yolla artıq heç nə etmək mümkün deyildir. Bizim qətiyyətli addımlarımız var. Təkcə Azərbaycanda deyil, başqa ölkələrdə də nə baş verir, onu da bilirik. Son hadisələr onu göstərdi. Başqa ölkələrdəki o gizli sövdələşmələr bizə bəlli olur. Hamı bunu bilməlidir ki, Azərbaycanda ciddi tədbirlər görülür, dövlətçiliyimiz möhkəmlənir. Azərbaycan güclü dövlətdir, bizimlə ultimatum dilində danışmaq istəyənlər, müxalifət indi nə oldu? Narıncı köynəklərlə bizə hücum edənlər indi haradadırlar? Rəsul Quliyev, o oğru, mafioz haradadır? Azərbaycana gəlsin, cavab versin! Qorxur, o birilər də qorxurlar və qorxacaqlar. Çünki hünərləri catmır. Bu belədir.

Qarşıdan parlament seçkiləri gəlir. Parlament seçkilərinin ədalətli keçirilməsi üçün nə lazımdırsa, onu da elədik. Müvafiq sərəncamlar verilibdir, indi parlament seçkilərinin normal keçirilməsi üçün bütün şərait var. Mən bu barədə dəfələrlə öz fikirlərimi bildirmişəm. Son zamanlar bütün icra hakimiyyəti başçılarını yığmışdım, göstərişlər verdim. Seçkilərə artıq 2-3 gün qalır. Ümid edirəm ki, seçkilər çox normal şəkildə

keçiriləcək, Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapacaqdır.

Seçkilərdən sonra Azərbaycanın hərtərəfli inkişafı üçün yeni imkanlar, yeni üfüqlər açılacaqdır. Ölkəmiz Avropa strukturlarına daha da sürətlə inteqrasiya edəcəkdir. Azərbaycanda həm iqtisadi addım, eyni zamanda siyasi proseslərin sürətlə inkişaf etməsi, şübhəsiz ki, müşahidə olunacaqdır.

Mən ümid edirəm ki, bütün nəzərdə tutulmuş proqramlar, planlar gələcəkdə də öz həllini tapacaqdır. Bütün vəzifəli şəxslərdən – nazirlərdən, məmurlardan tələb edirəm ki, hərə öz yerində öz vəzifə borcunu vicdanla, ləyaqətlə yerinə yetirsin və bizim ümumi işimizə öz töhfəsini versin.

Bununla da mən Nazirlər Kabinetinin toplantısını bağlı elan edirəm.

Sizi qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edirəm.

Sağ olun.

* * *

*Nazirlər Kabinetinin iclasında Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Maliyyə naziri Əvəz Ələkbərov, İqtisadi İnkişaf naziri Heydər Babayev, Vergilər naziri Fazil Məmmədov, Kənd Təsərrüfatı naziri İsmət Abasov, Təhsil naziri Misir Mərdanov, Milli Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, «Azərenerji» Səhmdar Cəmiyyətinin sədri Etibar Pirverdiyev, «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikov, «Azəristiliktəchizat» Açıq Səhmdar Cəmiyyətinin sədri Yaşar Həsənov çıxış etdilər.*

## BAKI ŞƏHƏRİ 29 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN 6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ

*6 noyabr 2005-ci il*

*2005-ci il noyabrın 6-sı müstəqil Azərbaycanın tarixinə dövlətimizin ali qanunvericilik orqanına – Milli Məclisə növbəti seçkilər günü kimi daxil olacaqdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səs vermək üçün səhər saat 10-da Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin Tofiq İsmayılov adına «İntellekt» məktəb-liseydə yerləşən 6 saylı seçki məntəqəsinə gəldi. Seçki məntəqəsinin qarşısında Azərbaycan dövlətinin başçısına gül-çiçək təqdim olundu. Azərbaycan prezidentinin səsvermədə iştirakını respublikamızın və xarici ölkələrin çoxsaylı mətbuat orqanının, televiziya kanallarının nümayəndələri, müşahidəçilər izləyirdi.*

*Prezident İlham Əliyev səsvermə otağına gəlib seçki bülletenini alaraq kabinəyə keçdi və sonra bülleteni qutuya saldı.*

### *Seçki məntəqəsində yerli və xarici kütləvi informasiya vasitələri müxbirlərinə verdiyi müsahibə*

**S u a l: Cənab Prezident, Milli Məclisə seçkilərə hazırlıq və seçki prosesini necə qiymətləndirərdiniz?**

**C a v a b:** Bu seçki kampaniyası bütün mərhələlərdə çox uğurlu keçmişdir. Seçki məcəlləsinə uyğun olaraq, Azərbaycanda çox yüksək səviyyədə, normal seçkilər keçirilməsinə şərait yaradılmışdır. Həmçinin təşviqat kampaniyası da uğurlu, sakit idi, bütün namizədlərə bərabər şərait yaradılmışdı.

Bildiyiniz kimi, 2 mindən artıq namizəd qeydiyyatdan keçmişdi. Bu çox böyük göstəricidir. Yəni bu onu göstərir ki,

insanlarda seçkilərin ədalətli və şəffaf keçirilməsinə böyük inam var.

Bu gün, seçki günü vəziyyət yenə də normaldır. Ümid edirəm ki, seçkilər şəffaf, ədalətli şəraitdə keçiriləcək və Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapacaqdır.

**S u a l: Siz parlament seçkilərinin gedişinin səviyyəsindən razısınızmı?**

**C a v a b:** Vəziyyət yaxşıdır, seçkilər normal keçir. Seçki-qabağı kampaniya uğurla, sakit keçdi. Ümidvaram ki, seçkilər günü də normal keçəcəkdir.

**S u a l: Cənab Prezident, seçkilərin əhəmiyyətini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu seçkilər Azərbaycanın gələcək inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan prezident respublikasıdır. Bununla yanaşı, hesab edirəm ki, parlament seçkiləri ölkənin normal və demokratik inkişafı üçün daha yaxşı şərait yaradacaqdır. Bütün seçki prosesi yaxşı keçibdir. Bütün mərhələlərdə seçki qanunvericiliyinin müddəalarına tam əməl edilibdir. Bütün namizədlər üçün bərabər şərait yaradılıbdır. Ümumilikdə, seçki prosesi sakit və dinc şəraitdə cərəyan edibdir. Ümid edirəm ki, seçki günü də uğurla başa çatacaqdır. Seçkilərdən sonra Azərbaycanın bütün sahələrdəki inkişafı uğurla davam edəcək, iqtisadiyyat daha da güclənəcək, siyasi proseslər sürətlənəcək, demokratikləşmə prosesi inkişaf edəcək və Azərbaycan daha da güclü, qüdrətli dövlətə çevriləcəkdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏRİN NƏTİCƏLƏRİ İLƏ BAĞLI AZƏRBAYCAN TELEVİZİYASINA VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*7 noyabr 2005-ci il*

**S u a l: Möhtərəm cənab Prezident, Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər başa çatdı. İlk növbədə, seçkiqabağı vəziyyətlə bağlı Sizin fikirlərinizi bilmək istərdik.**

**C a v a b:** Bilirsiniz ki, bir neçə ay bundan əvvəl, mayın 11-də Azərbaycanda seçkilərin demokratik keçirilməsi üçün mənim tərəfimdən sərəncam imzalanmışdır. Sərəncama əsasən, Azərbaycanda seçki praktikasının təkmilləşdirilməsi məsələləri öz həllini tapmalı idi. O vaxt ümid edirdim və bu gün görürəm ki, bizim ümidlərimiz həyatda öz əksini tapıbdır. Seçki Məcəlləsi ilə bərabər, mənim tərəfimdən imzalanmış sərəncam Azərbaycanda demokratik seçkilərin keçirilməsi üçün lazımi şərait yaratdı. Müxtəlif yeniliklər oldu, Azərbaycanın praktikasında əvvəllər olmayan yeniliklər seçkilərin və seçki prosesinin normal keçirilməsinə şərait yaratdı.

Bildiyiniz kimi, qeydiyyat məsələlərində heç bir problem olmamışdır. 2 mindən çox namizəd qeydiyyatdan keçmişdi. Ondan sonra təbliğat-təşviqat kampaniyası da uğurlu idi. Bütün namizədlərə bərabər şərait yaradılmışdı. Həm seçicilərlə görüşlər keçirilirdi, həm də müxtəlif televiziya kanallarında, o cümlədən dövlət televiziyasında və ictimai televiziyada pulsuz və pullu efir vaxtları verilirdi. Yəni bir sözlə, seçki

kampaniyasının normal aparılması üçün hər bir namizədə şərait yaradılmışdı və hərə öz imkanlarından istifadə etdi.

Bütün bunlara baxmayaraq, seçkilərə təxminən 10 gün qalmış mənim tərəfimdən növbəti sərəncam imzalandı. Bildiyiniz kimi, biz seçkilərin demokratik keçirilməsi üçün beynəlxalq təşkilatlarla çox səmərəli işləyirik və onların tövsiyəsi ilə bir neçə əlavə addım da atıldı. O cümlədən barmaqların görünməyən mürəkkəblə işarələnməsi məsələsi də öz əksini tapmışdır. Mən buna da getdim, bunu da etdim ki, son şübhələr də aradan qalxsın. Beləliklə, seçkilərin normal, ədalətli keçirilməsi üçün bütün şərait yaradılmışdı. Seçki günü də bütövlükdə çox sakit keçdi, seçkilər azad, ədalətli şəkildə keçirildi. Azərbaycan seçicilərinin, demək olar ki, təxminən yarısı seçkilərdə iştirak etmiş və öz iradəsini açıq şəkildə ifadə etmişdir. Bütövlükdə, seçki prosesi, seçkilərə qədər dövr uğurlu idi. Hesab edirəm ki, seçki günü də uğurlu olmuş və Azərbaycanda normal, demokratik seçkilərin keçirilməsi mümkün olmuşdur.

**S u a l: Cənab Prezident, bəs seçkilərin nəticəsini necə qiymətləndirirsiniz?**

**C a v a b:** Mən nəticəni də müsbət qiymətləndirirəm. Həmişə deyirdim, bu gün də deyirəm, əsas məsələ ondadır ki, Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapsın. Seçkilərin ilkin nəticələri bunu deməyə əsas verir. Ümumi abhava çox müsbət idi və nəticə onu göstərir ki, Azərbaycan xalqı şəffaf şəkildə, azad şəkildə istədiyi namizədə səs verdi və ən layiqli namizədlər də seçiliblər. Yenə demək istəyirəm ki, seçkilərin normal keçirilməsi üçün bütün şərait yaradılmışdı, çoxsaylı xarici müşahidəçilər seçkiləri müşahidə edirdilər, minlərlə yerli müşahidəçi seçkiləri müşahidə edirdilər. Bütövlükdə, nəticələr Azərbaycan xalqının iradəsini tam əks etdirir. Mənim üçün çox sevindirici hal o oldu ki, Yeni Azərbaycan Partiyasının nümayəndələri seçkilərdə çox uğurlu iştirak etmişlər və qələbə qazanmışlar. Eyni zamanda, digər siyasi spektrin nümayəndələri, o cümlədən bitərəf namizədlər

seçkilərdə gözəl nəticələr göstərmişlər. Seçkilər Azərbaycanın demokratik inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. Ona görə biz seçkilərə çox böyük diqqətlə yanaşırdıq və bu diqqət seçkilərin normal keçirilməsində öz əksini tapmışdır.

Ancaq bununla yanaşı, əldə edilmiş bəzi məlumatlara görə, seçki günü müəyyən qanun pozuntuları da oldu. Bir neçə dairədə, mənə verilən məlumata görə haradasa, 7-8 dairədə qanun pozuntuları olmuşdur. İndi bu qanun pozuntuları araşdırılır. Prokurorluğa müvafiq göstəriş verilmişdir ki, bu qanun pozuntuları ciddi şəkildə araşdırılsın. Harada ki, vəzifədən sui-istifadə halları olubdur, orada insanlar inzibati məsuliyyətə cəlb ediləcəklər. Harada ki, cinayət xarakterli hallar olubdur, orada təbii ki, bunu törətmiş insanlar cinayət məsuliyyətinə cəlb olunmalıdırlar və cəlb olunacaqlar. Bir neçə ay ərzində biz seçkilərin normal keçirilməsi üçün əlimizdən gələni etdik və sadaladığım məqamlar, məsələlər bir də onu göstərir ki, Azərbaycan iqtidarının və onun prezidentinin niyyəti seçkiləri ədalətli şəkildə keçirməkdən ibarət olmuşdur. Ona görə mən imkan verə bilmərəm ki, hansısa məmur özbaşınalığına görə, hansısa qanunsuz müdaxiləyə görə seçkilərin ümumi nəticələrinə zərbə dəysin.

Mən yenə də qeyd etmək istəyirəm ki, belə hallar çox azlıq təşkil edir. Bizdə 7-8 dairə barədə narahatedici məlumatlar var. Qalan dairələrdə – yəni haradasa, 15 dairədə və bəlkə ondan da çox – seçkilərin nəticələri heç bir şübhə doğurmur. Onu da əlavə etmək istəyirəm ki, bildiyiniz kimi, seçkilərdə yeni bir yenilik ondan ibarət idi ki, «exit-poll» nəzərdə tutulmuşdu. Bunu müxtəlif təşkilatlar, o cümlədən Amerikanın «PA Government» şirkəti keçirirdi. Bu gün mən onların nəticələrinə internetdə baxdım və gördüm ki, o nəticələr, demək olar ki, Mərkəzi Seçki Komissiyasının ilkin nəticələri ilə 90 faiz üst-üstə düşür. Yəni bu onu göstərir ki, real nəticələr «exit-poll»da təsdiqlənir. Bu bir də onu göstərir ki, Azərbaycanda seçkilər şəffaf keçirildi və seçki prosesinə müdaxilələr çox az oldu. Amma oldu, bu da, əlbəttə ki, bizi narahat edir. Digər tərəfdən,

əlbəttə, seçki praktikasının təkmilləşdirilməsi məsələsi bir sərəncamla, yaxud da ki, bir seçki kampaniyası ilə həll olunan məsələ deyildir. Buna müəyyən vaxt lazımdır. Amma o da şübhə doğurmur ki, bütün görülən işlər seçkilərin normal şəraitdə keçirilməsinə imkan yaradırdı.

Bütövlükdə, seçkilərin nəticələri tam əksər hallarda Azərbaycan xalqının iradəsini əks etdirmişdir. O hallarda ki, qanun pozuntusu olub, əlbəttə, bu məsələlər araşdırılacaq və dediyim kimi, prokurorluq ciddi tədbirlər görəcəkdir.

Bildiyiniz kimi, beynəlxalq müşahidəçilər missiyası da öz ilkin rəyini artıq təqdim edibdir. Biz bu rəyi təhlil edəcəyik. Biz beynəlxalq təşkilatlarla uzun illərdir ki, çox səmərəli şəkildə əməkdaşlıq edirik. Onların rəyi bizim üçün vacibdir. Biz bir neçə ay ərzində, seçkilər ərəfəsində Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatlarla, insan hüquqları ilə məşğul olan beynəlxalq təsisatlarla çox səmərəli, işgüzar şəkildə işləmişik. Ümid edirik ki, bu əməkdaşlıq bundan sonra da davam edəcəkdir. Ona görə onların da rəyi, əlbəttə, nəzərə alınacaq və ilkin hesabatda əks olunan məqamlar ciddi şəkildə təhlil ediləcək və ciddi ölçülər götürüləcəkdir. Mən seçkilərin normal, ədalətli keçirilməsi ilə əlaqədar bir daha bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Hamımız bu son aylar ərzində seçkilərin necə keçəcəyi haqda düşünürdük. O cümlədən və bəlkə də ilk növbədə mən. Çünki seçkilərin normal, ədalətli keçirilməsi mənim prezident kimi gələcək fəaliyyətimə də böyük dəstək olacaqdır.

Mən seçkilərin uğurlu keçiriləcəyinə şübhə etmirdim və bütün beynəlxalq rəy sorğuları da onu göstərirdi ki, Yeni Azərbaycan Partiyasının nümayəndələri, o cümlədən iqtidarı dəstəkləyən digər nümayəndələr daha şanslıdırlar. Bunu həm Azərbaycanda keçirilmiş rəy sorğuları göstərdi, həm də məşhur beynəlxalq təşkilatların rəy sorğuları göstərirdi. Seçkilərin nəticəsi bu fikri əyani şəkildə təsdiqlədi. Ona görə seçkilərin demokratik şəkildə keçirilməsi Azərbaycanın qarşısında yeni imkanlar açır, yeni üfüqlər açır. Biz bundan sonra da

demokratikləşmə prosesinə böyük diqqət göstərəcəyik. Azərbaycanda siyasi proseslərin sürətlənməsi, demokratik inkişafın möhkəmlənməsi ölkəmizin hərtərəfli inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. Mən dəfələrlə qeyd etmişdim, bu gün də demək istəyirəm ki, bizim gözəl iqtisadi nailiyyətlərimiz, uğurlarımız, gələcək iqtisadi perspektivlərimiz bilavasitə Azərbaycanda demokratiyanın inkişafı ilə bağlıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, azad cəmiyyətin yaranması bizim başlıca vəzifəmizdir.

Ona görə prezident kimi, mən çox şadam və məmnunam ki, mərhələ də uğurla başa çatdı. Azərbaycan xalqı seçkilərdə öz sözünü dedi, istədiyi namizədə açıq, ədalətli, azad şəkildə səs verdi. Beləliklə, Azərbaycan öz demokratik inkişafında yeni mərhələyə qədəm qoydu. Ümid edirəm ki, yeni seçilən parlament və parlamentin deputatları Azərbaycanın demokratik inkişafı üçün əlindən gələni edəcəklər və ölkəmiz daha da sürətlə inkişaf edəcək və güclü dövlətə sevriləcəkdir.

## MDB-nin MÜŞAHİDƏÇİLƏR MİSSİYASININ RƏHBƏRİ, MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİB VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB-nin müşahidəçilər missiyasının rəhbəri, MDB İcraiyyə Komitəsinin sədri, icraçı katib Vladimir Ruşaylonu qəbul etmişdir.*

*Söhbət zamanı noyabrın 6-da Azərbaycanda parlament seçkilərinin azad, şəffaf, demokratik şəraitdə başa çatması ilə əlaqədar fikir mübadiləsi aparılmışdır.*

# RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ NÜMAYƏNDƏ HEYƏTİNİN RƏHBƏRİ, FEDERAL MƏCLİSİN FEDERASİYA ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi nümayəndə heyətinin rəhbəri, Federal Məclisin Federasiya Şurası sədrinin müavini Svetlana Orlovanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda demokratik, azad, ədalətli şəraitdə başa çatmış parlament seçkiləri barədə ətraflı fikir mübadiləsi aparılmışdır.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN MİLLƏT VƏKİLLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parlament seçkilərini müşahidə etmək üçün ölkəmizə səfərə gəlmiş Türkiyə Böyük Millət Məclisinin millət vəkillərindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyənin millət vəkillərindən ibarət böyük nümayəndə heyətinin parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana səfərə gəlməsindən məmnunluğunu bildirən dövlətimizin başçısı ölkəmizdə seçki kampaniyasının yüksək səviyyədə keçirilməsi üçün lazım olan bütün tədbirlərin əvvəlcədən görüldüyünü və seçkilərin normal şəkildə başa çatdığını vurğuladı.*

*Azərbaycan ilə Türkiyə arasında dostluq əlaqələrinin daim möhkəmləndiyini nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, biz həmişə Türkiyədən dəstək görmüşük və bu gün də bunu hiss edirik.*

*Noyabrın 6-da keçirilmiş ədalətli azad seçkilərin Azərbaycanın demokratiya tarixində mühüm yer tutacağını və ölkəmizin gələcək inkişafına böyük fayda gətirəcəyinə ümid etdiklərini söyləyən millət vəkilləri bildirdilər ki, Azərbaycanda seçkilər həqiqətən dünya standartları baxımından, namizədlərin səslərinin sayılması, bütün nəticələrin hesablanması baxımından olduqca yüksək səviyyədə başa çatmışdır. Dünyanın heç bir ölkəsində seçkilərə Azərbaycandakı kimi belə böyük diqqət yetirilmir, biz bu qədər xarici müşahidəçinin iştirak etdiyi seçki görməmişik. Biz həmişə deyirik ki, həm demokratiya, həm də*

*iqtisadiyyat birlikdə yüksəlməlidir, Azərbaycan bunun gözəl bir nümunəsidir.*

*Azərbaycanda keçirilmiş seçkiləri xarici ölkələrdən gəlmiş 1500-dən çox müşahidəçinin, habelə 17 mindən çox yerli müşahidəçinin izlədiyini nəzərə çatdıran dövlətimizin başçısı builki seçkilərdə bir sıra yeniliklərin, o cümlədən barmaqların mürəkkəblə işarələnməsini, «exit-poll»un tətbiq olunmasını mütərəqqi addım kimi dəyərləndirdi.*

*Seçkilərdə 125 yer uğrunda 1500-dən çox namizədin mübarizə apardığını və bunun misli görünməmiş rekord göstərici olduğunu vurğulayan prezident İlham Əliyev ümid etdiyini bildirdi ki, normal şəraitdə keçmiş seçkilər Azərbaycanın gələcək inkişafında böyük rol oynayacaq, yeni seçilmiş parlament çox səmərəli işləyəcək, mühüm qanunlar qəbul ediləcək və Azərbaycanın demokratiya yolu ilə sürətli inkişafı təmin olunacaqdır.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycan və Türkiyə parlament dostluq qrupları arasındakı münasibətlər bundan sonra daha da möhkəmlənəcəkdir.*

## ABŞ-ın STRATEJİ ARAŞDIRMALAR İNSTİTUTUNUN DİREKTORU DOKTOR COZEF BODANSKİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində yerləşən Strateji Araşdırmalar İnstitutunun direktoru doktor Cozef Bodanskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaq dedi ki, Azərbaycanda demokratiya sahəsində əldə olunmuş nailiyyətlər, seçkilərin təşkili səviyyəsi, şəffaflıq, qanuna əməl olunması, açıqlıq və beynəlxalq müşahidəçilərə hökumət tərəfindən göstərilən kömək bizdə çox böyük müsbət təəssürat yaratdı. Cənab Prezident, seçkilərin olduqca gözəl təşkilinə görə Sizə təşəkkür edirik.*

*Bu seçkilərin Azərbaycanın gələcək inkişafı üçün əhəmiyyətini qeyd edən dövlətimizin başçısı seçkilərdə şəffaflıq və demokratiyanın tam təmin olunması üçün ölkəmizdə hər cür şəraitin yaradıldığını vurğuladı. Prezident İlham Əliyev bu seçki prosesində bir sıra yeniliklərin tətbiq olunduğunu da nəzərə çatdırdı.*

## İRAN İSLAM RESPUBLİKASINDA MÜŞAHİDƏÇİLƏR QRUPUNUN RƏHBƏRİ ƏHƏD QƏZAİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev parlament seçkilərinin ölkəmizin siyasi həyatında böyük əhəmiyyət kəsb etdiyini vurğulayaraq, seçkilər zamanı xeyli sayda beynəlxalq müşahidəçilərin iştirakını təqdirəlayiq hal kimi qiymətləndirmişdir. Prezident seçkilərin demokratik və ədalətli şəkildə keçirilməsi üçün hər cür şəraitin təmin olunduğunu bildirərək, seçkilərin nəticələrinin Azərbaycan xalqının iradəsini tam əks etdirdiyini vurğulamışdır.*

*Qonaq ölkəsinin müşahidəçilərinin seçkilərin çox demokratik şəkildə keçirilməsinin şahidi olduğunu diqqətə çatdırmışdır. O, seçkilərin uğurla başa çatması münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırmışdır. Azərbaycanın böyük inkişaf yolunda olduğunu qeyd edən qonaq xalqımıza firavanlıq arzulamışdır.*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM VAYRA VİKE-FREYBERQAYA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost Latviya xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Latviya arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bu yaxınlarda ölkəmizə səfəriniz çərçivəsində Sizinlə keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, müxtəlif sahələrə dair imzalanan ikitərəfli sazişlər əməkdaşlığımızın yeni səviyyəyə yüksəlməsinə güclü təkan verəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2005-ci il*

**OMANIN SULTANI ƏLAHƏZRƏT**
**QABUS BİN SƏİDƏ**

Əlahəzrət!

Oman Sultanlığının milli bayramı – Milli günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış əlaqələrin hərtərəfli inkişafı, dostluq və əməkdaşlıq münasibətlərimizin dərinləşməsi üçün qarşılıqlı səylərimizi bundan sonra da əzmlə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Oman xalqına xoşbəxtlik və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2005-ci il*

**LİVAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMİL LAHHUDA**

Hörmətli cənab Prezident!

Livan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Livan münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Livan xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2005-ci il*

## BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 80 İLLİK YUBİLEYİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin sərəncamı

2006-cı ilin fevral ayında Bakıda Birinci Türkoloji qurultayın keçirilməsinin 80 illiyi tamam olur.

Qurultay türkdilli xalqların tarix və etnoqrafiyasının, dil və ədəbiyyatlarının aktual problemlərinin həllində mühüm rol oynamış, bu xalqların mədəni inkişafında yeni bir mərhələnin təməlini qoymuşdur. Qurultayda müzakirə obyekti olan problemlər arasında türk dillərinin əlifba, orfoqrafiya və terminologiyası məsələləri xüsusi yer tutmuş, bu sırada isə yeni əlifbaya keçidi təmin etmək başlıca məqsəd olmuşdur.

Əlifba islahatı məsələsi Azərbaycanda XIX əsrdən başlayaraq Mirzə Fətəli Axundov başda olmaqla, dövrün tərəqqipərvər ziyalılarının diqqət mərkəzində dayanmışdır. Həmin dövrdən etibarən Azərbaycan mədəniyyətinin inkişafını müəyyənləşdirən Avropayönümlü maarifçilik hərəkatının nümayəndələri latın qrafikası əsasında tərtib olunmuş əlifba ideyası uğrunda mübarizə aparmışlar. Məhz buna görə belə mütərəqqi hərəkatın önündə gedən Azərbaycanın əlifba islahatlarının həyata keçirilməsində də qabaqcıl mövqe tutması təbii hal kimi qarşılanmalıdır. Hələ 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə yaradılmış «Yeni türk əlifba komitəsi»nin səyləri nəticəsində 1923-cü ildən etibarən latın əsaslı əlifbaya keçmə prosesi sürətlənmiş, bu isə yeni əlifbaya keçidlə bağlı tərəddüd edən türkdilli xalqların daha mütəşəkkil fəaliyyətinə təkan vermişdir. Bu baxımdan, türk dünyasında uzun illər ərzində aparılan mübahisə və müzakirələrə son qoymuş Türkoloji Qurultayın artıq dünya türkologiyasının mərkəzinə çevrilən Bakıda keçirilməsini qanunauyğun hal hesab etmək

mümkündür. Qurultaydan sonra yeni əlifbanın tətbiqi xüsusilə geniş vüsət alsa da, təəssüf ki, 1940-cı ildə siyasi motivlərə görə qəti olaraq dayandırılmışdır.

Bununla belə, Azərbaycan xalqının qabaqcıl nümayəndələri sonralar da dilimizin inkişafı yolunda öz imkanları daxilində bu və ya digər dərəcədə fəaliyyət göstərmişlər. Əllinci illərin siyasi ab-havasında meydana çıxan yumşalma ana dili ilə bağlı proseslərin müsbət istiqamətdə sürətlənməsinə müəyyən təsir göstərmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə dilimizin inkişafı yeni mahiyyət kəsb etmişdir. Bu proses Azərbaycan dilinin tərəqqisində növbəti mərhələnin başlanğıcı olmuşdur. Həmin illərdən etibarən Azərbaycan dilinin istifadə dairəsi genişlənmiş, onun tədrisi və tədqiqi ilə məşğul olan müəssisələrə xüsusi qayğı göstərilməyə başlanmışdır. Azərbaycan dili sabiq Sovet İttifaqı xalqlarının dilləri arasında öz ölkəsinin Konstitusiyası ilə təsbit edilmiş az sayda dövlət dillərindən biri olmuşdur.

Müstəqillik illərində dilimiz, sözün əsl mənasında, dövlət dili statusu qazanmışdır. Heydər Əliyev tərəfindən imzalanmış «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli, 506 nömrəli və «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 9 avqust 2001-ci il tarixli 552 nömrəli müvafiq fərmanlar isə ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilə bilər. Bütün bunlar Türkoloji Qurultayın qərarlarının məntiqi davamı olmaqla, həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir.

Türkdilli xalqların, eləcə də Azərbaycan xalqının mədəni həyatında böyük rol oynamış Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Birinci Türkoloji

Qurultayın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 noyabr 2005-ci il*

**İORDANİYANIN KRALI ƏLAHƏZRƏT
II ABDULLAYA**

Əlahəzrət!

Əmman şəhərində çoxsaylı insan tələfatı ilə nəticələnmiş amansız terror aktlarının törədilməsindən son dərəcə hiddətləndik. Biz terrorizmə qarşı qətiyyətlə çıxır, onun bütün təzahürlərini kəskin şəkildə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə, bütün İordaniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 noyabr 2005-ci il*

## KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Hörmətli Azərbaycan Respublikasının vətəndaşları!

Bu il müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunmasının 10 ili tamam olur. 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya qabaqcıl dünya təcrübəsinə, qanun yaradıcılığı prinsiplərinə, çoxəsrlik dövlətçilik ənənələrimizə əsaslanır. Ümummilli liderimiz Heydər Əliyevin yaradıcısı olduğu, milli və ümumbəşəri dəyərləri özündə əks etdirən bu sənəd haqlı olaraq hər bir azərbaycanlıda, bütün vətəndaşlarımızda qürur və iftixar hissi doğurur.

Konstitusiyanın qəbul edilməsi milli dövlətçilik tariximizdə yeni bir mərhələ açdı, dövlət quruculuğunda, ictimai-siyasi, sosial-mədəni və iqtisadi sahələrdə demokratik proseslərə güclü təkan verdi. Hakimiyyətlərin bölgüsü, insan hüquq və azadlıqlarının prioritetliyi prinsiplərinə əsaslanan Konstitusiyamız demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaradır, cəmiyyətdə humanizm, milli həmrəylik və tolerantlıq ruhunu təsbit edir, vətəndaşların müxtəlif sosial qrupları arasında harmonik münasibətləri stimullaşdırır. Konstitusiyada insan amili, vətəndaşların hüquqları, onların rifahının və təhlükəsizliyinin təmin olunması ön plana çəkilmişdir. Əsas Qanunumuz həmçinin dünya azərbaycanlılarının birliyinin, həmrəyliyinin möhkəmlənməsinə xidmət edir, onların beynəlxalq konvensiyalarda təsbit olunmuş hüquq və azadlıqlarının Azərbaycan dövləti tərəfindən qorunmasına təminat verir. Konstitusiyamız həm insan və vətəndaş hüquqlarının dönmədən həyata keçirilməsini, həm də dövlət müstəqilliyinin və suverenliyin möhkəmləndirilməsini təmin edir.

Keçən 10 il ərzində Konstitusiya öz həyati gücünü, humanist, dinamik və realist bir sənəd olduğunu sübut etmişdir. Onun əhatə etdiyi bütün sahələrdə – hüquqi dövlət quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqi, siyasi həyatın demokratikləşdirilməsi, insan haqlarının və azadlıqlarının təmin olunması və sair ilə bağlı mühüm irəliləyişlər baş vermişdir. Ölkəmizdə demokratik prinsiplər və dəyərlər, insan hüquq və azadlıqları getdikcə daha dolğun və real məzmun kəsb edir, vətəndaşların əsas hüquqlarının müdafiəsinin milli mexanizmləri təkmilləşdirilir, bu sahədə beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirilir. Ölkəmiz dünya dövlətləri içərisində öz müstəqil siyasəti, inkişaf perspektivləri, potensialı və dövlət idarəçiliyinin effektiv təşkili ilə seçilir. Əmin ola bilərsiniz ki, Azərbaycan bundan sonra da daim güclənəcək, inkişaf edəcək, onun dünya siyasətində rolu artacaq, vətəndaşlarımızın rifah halı yaxşılaşacaq, hüquqları daha dolğun təmin olunacaqdır. Buna hazırda ölkəmizdə həyata keçirilən, xalq tərəfindən dəstəklənən və müsbət nəticələri beynəlxalq qurumlar tərəfindən etiraf olunan genişmiqyaslı dövlət proqramlarının reallaşması, iqtisadi, sosial və mədəni siyasətin nəticələri qəti təminat verir.

Bir neçə gün əvvəl Azərbaycanda ali qanunverici orqana – Milli Məclisə növbəti seçkilər keçirildi. Xalqımızın və beynəlxalq siyasi dairələrin böyük marağına və diqqətinə səbəb olan bu seçkilər əhalinin yüksək fəallığı şəraitində baş tutdu, cəmiyyətin geniş demokratiya potensialına malik olduğunu nümayiş etdirdi. Qeydə alınmış müəyyən nöqsanlara baxmayaraq, bu seçkilər Azərbaycanın demokratik inkişafında və seçki praktikasının beynəlxalq standartlara uyğunlaşdırılmasında mühüm mərhələ oldu. Bu seçkilər Konstitusiyanın belə bir müddəasının əyani sübutu oldu ki, hakimiyyətin mənbəyi Azərbaycan xalqıdır və nəticələr də onun iradəsini əks etdirməlidir.

Bu gün qarşımızda duran əsas vəzifələrdən biri Konstitusiyamızın təbliği, onun əsas prinsip və müddəalarının dərindən öyrənilməsi və hər bir vətəndaşın yaşayış normasına

çevrilməsidir. Vətəndaşların hüquqi cəhətdən maarifləndirilməsi, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması, Konstitusiya müddəalarına hamı tərəfindən ardıcıl və dönmədən əməl olunması, dövlət və cəmiyyət həyatının bütün sahələrinin Əsas Qanunumuzun tələblərinə uyğunlaşdırılması həm aidiyyəti dövlət orqanlarının, həm də hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Əziz həmvətənlər!

Sizi əsas dövlət bayramlarımızdan olan Konstitusiya günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət, rifah, dövlətimizin və cəmiyyətimizin tərəqqisi və möhkəmlənməsi yolunda uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *11 noyabr 2005-ci il*

## BAKIDA KEÇİRİLƏN VƏ AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ «HÜQUQİ DÖVLƏTİN QURULMASINDA KONSTİTUSİYANIN ROLU» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ BİR QRUPU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 noyabr 2005-ci il*

*Konfrans iştirakçılarını xüsusi ehtiramla salamlayan prezident İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 10 illiyinin qeyd olunması münasibətilə ölkəmizə gələn qonaqlara ən xoş arzularını yetirdi, beynəlxalq konfransın təcrübə və fikir mübadiləsinə, sıx və səmərəli əməkdaşlığa hərtərəfli imkanlar açdığını vurğuladı. Müstəqilliyinin ilk illərində sovet dövründən qalma – 1978-ci ildə qəbul edilmiş Konstitusiya ilə fəaliyyət göstərən ölkəmizin 1995-ci ildə yeni Konstitusiyasının qəbul olunduğunu xatırladan dövlətimizin başçısı 2002-ci ildə ona əlavə və dəyişikliklərin edildiyini, bunun ölkəmizin beynəlxalq birliyə hərtərəfli inteqrasiyası ilə bağlı olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycanda iqtisadiyyatın dinamik inkişafından və islahatların uğurla həyata keçirilməsindən konkret faktlarla bəhs edərək dedi ki, cari ilin 10 ayında ümumi daxili məhsul 22 faiz, sənaye istehsalı 28 faiz, əhalinin real gəlirləri 20 faiz artmış, son iki il ərzində 300 mindən çox yeni iş yeri açılmışdır. Sosial-iqtisadi inkişafın vüsət alması ölkəmizdə demokratiyanın daha da dərinləşməsinə əsaslı zəmin yaradır. Kasıb ölkələrdə, əhalinin sosial müdafiəsinin zəif olduğu dövlətlərdə demokratiyanın inkişaf etdirilməsinin*

*mümkünsüzlüyünü vurğulayan dövlətimizin başçısı eyni zamanda bildirdi ki, hərtərəfli demokratiyanın olması kompleks iqtisadi islahatların uğurla reallaşdırılmasına geniş imkanlar açır.*

*Prezident İlham Əliyev bu baxımdan ölkəmizdə demokratik proseslərin daha da inkişafına, Azərbaycanın müxtəlif beynəlxalq konvensiyalara qoşulmasına, insan hüquq və azadlıqlarının qorunmasına, bazar iqtisadiyyatının formalaşdırılmasına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirildiyini bildirdi. Dövlətimizin başçısı Bakıda keçirilən konfransın ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsinə təkan verəcəyinə ümidvar olduğunu vurğuladı.*

*Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri Valeri Zorkin həmkarları adından dövlətimizin başçısına dərin ehtiramlarını və ən xoş arzularını yetirdi, Azərbaycan Konstitusiyasının müəllifi, xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etdiklərini bildirdi. Qonaq dedi ki, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu ölkənin bütün sahələrdə uğurlarına hərtərəfli zəmin yaratmışdır.*

*Valeri Zorkin Bakıda keçirilən konfransda iştirak edən dövlətlərin Konstitusiya məhkəmələrinin səmərəli əməkdaşlığının indiyədək həyata keçirilmiş işlərin daha da möhkəmləndirilməsinə xidmət etdiyini bildirdi, konfransın ölkələrimizin qazandıqları qabaqcıl təcrübəni bölüşməyə və zəngin beynəlxalq təcrübədən yetərincə bəhrələnməyə geniş imkanlar yaradacağını vurğuladı. O, Bakıya əvvəlki səfərlərindən ötən müddətdə böyük dəyişikliklərin, köklü inkişafın, Azərbaycan paytaxtının tanınmaz dərəcədə dəyişdiyinin şahidi olduqlarını bildirdi, həmkarları adından Azərbaycan prezidentinə yeni-yeni uğurlar arzuladı.*

*Dövlətimizin başçısı İlham Əliyev Azərbaycanın hərtərəfli inkişafı üçün səylərin bundan sonra da gücləndiriləcəyini*

*bildirdi, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun statistik göstəricilərinin və proqnozlarının da ölkəmizin düzgün yolda olduğunu təsdiqlədiyini vurğuladı.*

*Prezident İlham Əliyev hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu istiqamətində indiyədək həyata keçirilmiş islahatların daha da dərinləşdiriləcəyini diqqətə çatdırdı, bu baxımdan Konstitusiya Məhkəməsinin mühüm rolunu qeyd etdi.*

*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev dövlətimizin başçısına Konstitusiyamızın 10 illiyi münasibətilə ölkəmizin Konstitusiya Məhkəməsi və konfrans iştirakçıları adından xatirə hədiyyəsini təqdim etdi.*

## TÜRKİYƏNİN «İHLAS» XƏBƏR AGENTLİYİNİN VƏ «TÜRKİYƏ» QƏZETİNİN MÜXBİRLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*Prezident sarayı*

*11 noyabr 2005-ci il*

**S u a l: Hörmətli Cümhurbaşqanı, gərgin iş rejiminizdə vaxt ayırıb bizi qəbul etdiyinizə görə Sizə əvvəlcədən təşəkkür edirik.**

**Bütün dünyanın diqqəti noyabrın 6-da keçirilmiş parlament seçkilərinə yönəlmişdir. Siz seçkidən əvvəl gözlənilənlərin seçkidən sonra şahidi oldunuzmu? Ümumiyyətlə, seçkilərin nəticələrini necə dəyərləndirirsiniz?**

**C a v a b:** Biz bu seçkilərə çox böyük önəm verirdik. Çünki Azərbaycanın gələcək demokratik inkişafı üçün seçkilərin çox böyük əhəmiyyəti vardır. Seçkilərə qədər müddət çox uğurlu keçmişdir. Seçki kampaniyası çox sərbəst, azad şəkildə aparılmışdır. 2000-dən çox namizəd qeydiyyata alınmışdı. Onlardan haradasa, 1500-dən çoxu bu yarışda axıra qədər iştirak etdi. Bütün namizədlərə bərabər şərait yaradılmışdı. Bir sözlə, normal seçkilərin keçirilməsi üçün bütün şərait yaradılmışdı. Bildiyiniz kimi, son qərarın, barmaqların görünməyən mürəkkəblə işarələnməsinin də məqsədi məhz bunda idi ki, burada saxtakarlıq olmasın, seçkilər düzgün və şəffaf keçirilsin. Belə olan halda normal seçkilərin keçirilməsi üçün bütün şərait var idi.

Seçkilər günü də normal şəraitdə, sakit keçdi. Seçkilər prosesi çox şəffaf idi və təbii ki, nəticələr məni çox sevindirir. Çünki bizim partiyamız, Yeni Azərbaycan Partiyası böyük qələbə qazandı. Bu qələbə deməyə əsas verir ki, bizim siya-

sətimiz xalq tərəfindən dəstəklənir və bəyənilir. Bu bizim üçün sürpriz olmadı. Çünki seçkilərə qədər keçirilmiş bütün rəy sorğuları, o cümlədən tanınmış beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları göstərirdi ki, iqtidar insanların dəstəyinə malikdir. Seçkilərin nəticələri rəy sorğularının nəticələri ilə təxminən üst-üstə düşür.

Bu seçkilərdə bir yenilik də ondan ibarət idi ki, «exit-poll», yəni seçkilərdən sonra rəy sorğusu keçirildi. «Exit-poll»u burada bir neçə şirkət, həm yerli şirkətlər, eyni zamanda, xaricdən gələn şirkətlər keçirdi. Bir şirkətə, demək olar ki, bütün siyasi spektrin inamı çox yüksək dərəcədə idi. O da Amerika hökuməti tərəfindən müsabiqə yolu ilə seçilmiş «PA Consaltinq» şirkəti idi.

Bu şirkətin keçirdiyi rəy sorğuları, «exit-poll»lar rəsmi nəticələrlə, demək olar ki, 90 faiz üst-üstə düşür. Haradasa, 5 faiz hallarda isə seçkilərin rəsmi nəticələrilə «exit-poll»un nəticələri arasında təxminən 3-4 faiz fərq var. Bu da deməyə əsas verir ki, burada böyük fərq olmayıbdır. Yalnız üç faiz hallarda «exit-poll»un nəticələri və rəsmi nəticələr arasında fərq böyükdür. İndi orada gedən proseslər dəyərləndirilir. Bu «exit-poll»ların keçirilməsi bir daha onu göstərir ki, Azərbaycan xalqının iradəsi seçkilərdə ifadə olundu və xalq istədiyi namizədlərə səs verdi.

Mən seçkilərin keçirilməsindən, seçkilərə qədər işlərin normal getməsi üçün yaradılan şəraitdən çox məmnunam. Əminəm ki, bu seçkilər Azərbaycanı gələcəkdə demokratik ölkəyə çevirəcəkdir. Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması, açıq cəmiyyətin formalaşması, Azərbaycanda sosial ədalətin təmin olunması bundan sonra daha da sürətlə müşahidə olunacaqdır.

**S u a l: Cənab Prezident, əhalinin seçkilərdə iştirakı aşağı səviyyədə, 46,8 faiz idi. Sizcə, Azərbaycan xalqı seçkilərə getməkdə nə üçün tərəddüd etdi?**

**C a v a b:** Bilirsiniz, əlbəttə, bunun müxtəlif səbəbləri ola bilər. Ümid edirəm ki, bu işlərlə məşğul olan, yəni sosial

araşdırmalarla məşğul olan mütəxəssislər, təşkilatlar, institutlar bunu araşdıracaqlar. Yəni bu, sosial vəziyyətin bir təzahürüdür. Bu gün bunu demək bir qədər tezdir. Yəni bunun səbəbini demək çətindir. Gərək bu, hərtərəfli öyrənilsin və səbəb araşdırılsın. Ancaq digər tərəfdən, biz onu da bilirik ki, Azərbaycanda siyasi partiyaların üzvlərinin sayı ölkə əhalisi üzrə yüzdə üçdür. İnsanlarımızın cəmi 3 faizi siyasi partiyaların üzvüdür. Yəni bu o deməkdir ki, Azərbaycanda cəmiyyət siyasiləşməyibdir. Cəmiyyətin və insanların maraqları tam başqadır. Azərbaycan cəmiyyəti daha çox başqa maraqlarla yaşayır, başqa məramla yaşayır. Bu onu göstərir ki, siyasi proseslərə o qədər də böyük maraq yoxdur. Mən deyə bilmərəm ki, bu çox mənfi bir haldır. Yəni mən hesab etmirəm ki, siyasiləşmiş cəmiyyət kamil cəmiyyətdir. Əgər insanlar normal yaşayırlarsa, əgər insanları indiki vəziyyət qane edirsə, onlar bəzi hallarda siyasi fəaliyyətlə məşğul olmurlar və siyasi proseslərdə iştirak etmirlər. Ona görə mən deyə bilmərəm ki, bu hansısa mənfi bir əlamətdir. Xeyr.

Azərbaycan cəmiyyəti inkişafdadır. Azərbaycanda çoxlu sosial-iqtisadi problemlər öz həllini tapır, insanlar işlə təmin olunur. Son iki il ərzində 311 min yeni iş yeri açılıbdır. Bu ilin 10 ayında iqtisadiyyat 22 faiz artıbdır. Bu, dünyada misli görünməmiş bir göstəricidir. Sənaye istehsalı 28 faiz artıbdır. İnsanlar daha çox real işlərlə, real problemlərin həlli ilə məşğuldurlar. Siyasi proseslərə o qədər də böyük maraq yoxdur.

**S u a l: Cənab Prezident, müxalifət seçkilərin nəticəsinə etiraz edir və nəticələri tanımayacağını açıqlayır. Bir sıra beynəlxalq və yerli müşahidəçilər seçkiləri izlədilər. Xaricdən gələn 1500-dən çox müşahidəçi var idi. Onların bir çoxu seçkilərdən sonra mətbuat konfransı keçirərək, seçkilərin şəffaf və demokratik keçdiyini söylədi. Ancaq ATƏT və Avropadan olan bəzi təşkilatlar seçkilərin beynəlxalq standartlara cavab vermədiyini açıqladı. Bu arada Azərbaycanın Moskvadakı səfiri ATƏT-in və digər təşkilatların Azərbaycana qarşı**

**qərəzli olduqlarını söylədi. Siz bu açıqlamaları necə dəyərləndirirsiniz?**

**C a v a b:** Mən Azərbaycanın rəsmi mövqeyini seçkilərdən bir gün sonra ifadə etdim və bəyan etdim ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycanda siyasəti müəyyən edir və dövlət adından söz deməyə səlahiyyətli şəxsdir. Mənim bəyanatımda açıq-aydın göstərilir ki, ATƏT-in və başqa beynəlxalq müşahidəçilərin rəyi bizim tərəfimizdən öyrəniləcəkdir. Biz bunu təhlil edəcəyik. Orada göstərilən nöqsanlar, qüsurlar, əlbəttə ki, ciddi şəkildə araşdırılacaqdır.

Biz beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlıq edirik, işləyirik. İstər Avropa Şurası olsun, Avropa İttifaqı olsun, ATƏT olsun və istərsə də digər beynəlxalq təşkilatlar olsun. Azərbaycanın siyasəti bu baxımdan dəyişməz olaraq qalır. Biz ölkəmizi gələcəkdə Avropa strukturlarına inteqrasiyada görürük. Biz bu siyasətin tərəfdarıyıq. Prezident kimi, mən son iki il ərzində bu siyasəti irəliyə aparıram. Ona görə, ilkin məruzədə göstərilən bütün faktlar araşdırılacaqdır.

Onu da bilməliyik ki, ATƏT tərəfindən təqdim edilmiş bəyanat, sadəcə olaraq, ilkin təəssüratları əks etdirir. Son bəyanat, yəni rəsmi məruzə, haradasa, iki aydan sonra təqdim olunacaqdır. Onda biz görəcəyik. Ondan sonra, son məruzə çıxandan sonra biz öz fikrimizi, münasibətimizi bildirərik və lazım gələrsə, həmin məruzəyə şərhlərimizi də verəcək, təqdim edəcəyik.

O ki qaldı müxalifətin seçkiləri tanımamasına, mən buna heç şübhə də etmirəm. Onların seçkilərdən əvvəl verilmiş bəyanatları bunu göstərir. Onlar bəyan edirdilər ki, əgər qalib gəlsələr, seçkiləri tanıyacaqlar. Ancaq bu, reallığı əks etdirən məqam deyildir. Yenə də rəy sorğularına qayıdıram. Bu gün Azərbaycan prezidentinin cəmiyyətdə dəstəyi, haradasa 70–80 faiz arasındadır. Bunu təkcə mən demirəm, bütün beynəlxalq rəy sorğuları təşkilatları bəyan edir. Yeni Azərbaycan Partiyasının reytinqi kifayət qədər yüksəkdir. Əgər seçkilərdən əvvəl və sonra beynəlxalq mətbuata – Amerika və Avropa

mətbuatına nəzər salsanız, orada göstərilir ki, Azərbaycan prezidenti ölkədə çox böyük nüfuza sahibdir. Yeni Azərbaycan Partiyası isə Azərbaycanın aparıcı siyasi qüvvəsidir. Ona görə müxalifətin seçkiləri tanımaması, sadəcə olaraq, öz məğlubiyyətini tanımaması deməkdir. Çünki əgər onlar bunu tanısalar, onda siyasi səhnədən getməlidirlər.

Çünki prezident və parlament seçkilərini uduzan, 1993-cü ildən bu günə qədər bütün seçkiləri uduzan insanlar siyasətdə qalmamalıdırlar. Onlar öz yerlərini yeni nəslə verməlidirlər. Yeni, gözəl təhsil almış, dünyagörüşü olan, müasir dünyanı bilən, dialoqa, konstruktiv əməkdaşlığa hazır olan yeni qüvvələrə verməlidirlər. Əgər onlar öz məğlubiyyətlərini etiraf etsələr, o zaman istefaya getməlidirlər. O adamlar heç bir zaman heç bir yerdə çalışmamışlar. Sadəcə olaraq, bizdə bir söz var, boşboğazlıqla məşğul olmuşlar, çığırıb-bağırmaqla, qeyri-real vədlər verməklə, insanları çaşdırmaqla, kütləvi iğtişaşlara təhrik etməklə və hər şeyi inkar etməklə məşğul olmuşlar. Biz isə real iş görürük. Bu iş Azərbaycanın Dünya Birliyində yerinin möhkəmlənməsində özünü büruzə verir, Azərbaycanın iqtisadi inkişafının göstəricilərində özünü büruzə verir, sosial problemlərin həllində özünü göstərir. Son iki il ərzində Azərbaycanda minimum əməkhaqqı 3 dəfə qaldırılmışdır. Mən bayaq qeyd etdim, 311 min iş yerinin açılması, iqtisadi inkişaf, sənaye istehsalının inkişafı, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinin uğurla davam etdirilməsi, bizim bölgədəki rolumuzun artması, Azərbaycanın güclənməsi – bütün bu amillər Azərbaycan iqtidarının xeyrinə işləyir. Təsadüfi deyil ki, Azərbaycan xalqı bizim siyasətimizi dəstəklədi.

Mən çox istərdim ki, Azərbaycanda siyasi mədəniyyət daha da yüksək səviyyədə olsun. Seçkiləri uduzan tərəflər öz məğlubiyyətini etiraf etsinlər, qalib gələnin əlini sıxsınlar. Ümid edirəm ki, bu, bir vaxt olacaqdır. Ancaq bunu etmək üçün gərək təfəkkür dəyişsin, siyasi mədəniyyət olsun və Azərbaycanın

reallıqları hamıya açıq bəlli olsun. Hamı bunu görməlidir və etiraf etməlidir.

Seçkilərə müxtəlif yanaşmalar olubdur. Əlbəttə, onu da bilirik ki, Azərbaycan çox böyük diqqət çəkən bir ölkədir. Bizim coğrafi vəziyyətimiz, coğrafi-siyasi önəmimiz, təbii sərvətlərlə zəngin olmağımız, əlbəttə, Azərbaycanı çox cəlb-edici ölkəyə çevirir. Azərbaycanda bəzi hallarda müxtəlif ölkələrin dairələri maraq davasına çıxırlar. Bizim isə məqsədimiz Azərbaycanın milli maraqlarını qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizin milli maraqlarını maksimum dərəcədə müdafiə etməkdir. Ona görə bizə müxtəlif formalarda edilən və ediləcək təzyiqlər bundan sonra da olacaqdır. Biz buna hazır olmalıyıq və mən də buna hazıram. Azərbaycan Respublikasının Prezidenti kimi, Konstitusiyanın təminatçısı kimi, mən öz vəzifə borcumu yerinə yetirirəm.

Seçkilər sadəcə, bir prosesdir. Seçkilər hər bir ölkənin demokratik inkişafı üçün çox önəmli bir hadisədir və prosesdir. Mən hesab edirəm ki, Azərbaycan bu sınaqdan şərəflə çıxdı. Azərbaycan xalqı seçkilərdə iştirak etdi, istədiyi namizədə səs verdi, o səslər reallıqda, yəni həyatda öz əksini tapdı və Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində öz əksini tapdı. Bununla yanaşı, qüsurlar da oldu, qanun pozuntuları da, qanunsuz müdaxilələr də oldu.

Mən seçkilərdən əvvəl bəyan etmişdim, təkcə sözdə deyil, seçki praktikasının təkmilləşdirilməsinə dair iki sərəncam imzaladım. Orada bütün məsələlər öz əksini tapmışdır. Hansı məmur mənim sərəncamımı pozubsa, qanunu pozubsa, o, məsuliyyətə cəlb olunur. Bir neçə yüksək vəzifəli məmur işdən azad olundu. Bir neçə məmur cinayət məsuliyyətinə cəlb olunub, həbs edilibdir. Biz bir daha göstəririk, imkan verməri̇k ki, Azərbaycanda seçki saxtakarlığı cəzasız qalsın. Kim bu saxtakarlığı edirsə, o, cavabını almalıdır və alacaqdır. Hamı da bilməlidir ki, qanun hamı üçün qanundur. Ancaq bütün bunlarla yanaşı, əlbəttə, qanun pozuntuları, qanunsuz müdaxilələr və saxtakarlıq halları seçkilərin ümumi nəticəsinə təsir göstərmir.

**S u a l: Müxalifətin seçki kampaniyasına baxdığımız zaman Ukraynadakı və Gürcüstandakı hərəkətlərə bənzər hərəkətlər görürük. Hətta iki gün öncəki mitinqlərində də narıncı rəngli bayraqlar dalğalandırdılar və bu rəngdə çadır quracaqlarından bəhs etdilər. Sizcə belə bir şey ola bilərmi və müxalifətin kənardan maddi cəhətdən dəstəkləndiyini düşünürsünüzmü?**

**C a v a b:** Bilirsiniz, bizim iqtidarla müxalifət arasında çoxlu fərqli məqamlar var. Mən bunların hamısını sadalamaq istəmirəm, vaxt çox aparar. Amma bu seçkilərə gəldikdə, bir fərqli məqam da ondan ibarətdir ki, bizim müxalifət həmişə kiməsə oxşamaq istəyir, kiminsə təcrübəsini yamsılamaq istəyir, kiminsə arxasınca getmək istəyir və haradansa dəstək, yardım istəyir. Biz isə açıq hərəkət edirik, öz siyasətimizi aparırıq. Heç kimin dalınca getmirik, heç kimə oxşamaq istəmirik, heç kimin Azərbaycan üçün məqbul olmayan və bizim mentalitetimizə zidd olan təcrübəsini tətbiq etmək istəmirik. Bizim siyasətimiz Azərbaycan xalqının iradəsinə, onun maraqlarına əsaslanır. Fərq bundan ibarətdir.

O ki qaldı narıncı bayraqların meydana gətirilməsinə, əlbəttə, bunun heç bir əhəmiyyəti yoxdur. Bir neçə ay bundan əvvəl muxalifət çox böyük vəsait ayıraraq, Azərbaycana narıncı köynəklər gətirdi və onları geyindilər, iki dəfə o köynəklərlə nümayiş etdilər. Ancaq fikirləşmədilər ki, seçkilər noyabr ayında keçiriləcək və noyabr ayında köynəklə küçəyə çıxmaq mümkün deyildir. Hətta onların necə deyərlər, heç olmasa düşüncəsi çatmadı ki, bu köynəklə indi küçəyə çıxmaq mümkün deyil, havalar soyuq keçir.

Müxalifətin bütün dövrlərdə mitinqlərə yığdığı adamların sayı eynidir, nə artır, nə azalır. Bəlkə də son zamanlar bir az azalır. Çünki onların bütün maliyyə məsələlərini həll edən rüşvətxor məmurlar həbs olundu. Onları qidalandıran, xalqdan oğurlanmış o çirkli pulları müxalifətə xərcləyən rüşvətxor məmurlar artıq belə imkana malik deyillər.

Xaricdən gələn pullar da var, biz onu da bilirik. Amma onlar böyük əhəmiyyət kəsb etmir. Hansısa xarici dairələrdən gələn dəstək Azərbaycanda heç nəyi həll etmir və müxalifətin əsas problemi ondan ibarətdir ki, o, hansısa bir yardıma arxalanmaq istəyir. Kimdənsə nəsə umur, kimdənsə nəsə istəyir. Kiməsə yalvarır, xahiş edir. Amma başa düşmür ki, ona yardım edən, onun qanunsuz hərəkətlərinə dəstək verən qrup sabah gəlib ondan haqq-hesab soracaqdır. Sabah gəlib deyəcək ki, mən sənə yardım etdim, indi sən gəl, Azərbaycanda xalqın yox, mənim maraqlarımı müdafiə et! Xalqı yox, məni düşün!

Azərbaycan iqtidarı müstəqil siyasət aparır. Bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının yaxşı yaşamasına, sabit şəkildə, sülh şəraitində yaşamasına yönəldilir. Ona görə Azərbaycan güclü dövlətdir. Biz dövlətçiliyi möhkəmləndiririk. Yenə də deyirəm, bizim siyasətimiz, bütün addımlarımız xalqın gələcəyinə, bu gününə, onun rifah halının yaxşılaşmasına yönəldilibdir. Ona görə xaricdən, yaxud hansısa başqa yerdən müxalifətə çirkli pullar verilsə, onun heç bir əhəmiyyəti yoxdur. O pulları verən tərəflər düşünməlidirlər ki, bu pullar havaya sovrulur.

**S u a l: Gələcəkdə belə bir ehtimal ola bilərmi? Yəni Ukraynada və Gürcüstandakı kimi ola bilərmi?**

**C a v a b:** Xeyr, belə bir ehtimal Azərbaycanda sıfıra bərabərdir. Mən hələ bunu bir neçə ay bundan əvvəl demişdim. Bilirsiniz, Ukraynada, Gürcüstanda, Qırğızıstanda baş verən hadisələr bu bölgədə sanki belə bil mühit yaratdı ki, görəsən, növbəti dayanacaq, yəni növbəti inqilabın yeri harada olacaq? Baxdılar cədvələ, gördülər ki, növbəti seçki Azərbaycanda olacaq və bəziləri belə düşündü ki, burada da bunu etmək mümkündür. Ancaq mən bir neçə ay bundan əvvəl, seçki kampaniyası başlanan gündən bu günə qədər dəfələrlə bəyan etmişdim ki, Azərbaycanda bu, mümkün deyildir. Buna əsas yoxdur. İnqilabı, yaxud da çevrilişi şərtləndirən bir neçə amil olur. İlk növbədə, xalqla iqtidar arasında uçurum olmalıdır. Bu,

Azərbaycanda yoxdur. Azərbaycanda xalqla iqtidar arasında vəhdət var, birlik var.

İkincisi, ölkədə sosial-iqtisadi problemlər daha da kəskinləşməlidir və vəziyyət daha da gərginləşməlidir. Azərbaycanda bu da yoxdur. Düzdür, problemlər çoxdur, işsizlik, yoxsulluq, digər sosial problemlər var, ancaq müsbət dinamika var. Maaşlar artır, pensiyalar artır, tələbələrin təqaüdləri artır, iqtisadiyyat artır, yeni iş yerləri açılır və sair. Yəni iqtisadi və sosial sahədə də müxalifətin bizə irad tutacağı heç bir şey yoxdur.

Sonra, ölkənin xarici siyasəti də çox uğurludur. Biz bölgədə öz mövqeyimizi möhkəmləndiririk və Ermənistan–Azərbaycan münaqişəsinin həlli işində də öz qətiyyətli mövqeyimizi ortaya qoymuşuq. Bu baxımdan da müxalifət bizə heç bir irad tuta bilmir.

Bundan başqa, inqilabı etmək üçün gərək güclü lider olsun, müxalifət arasında birlik olsun. Bu da yoxdur. Müxalifət arasında birlik yoxdur. Onların birləşməsi müvəqqəti xarakter daşıyır. Biz keçən seçkilərdə bunları görmüşük. Müvəqqəti olaraq birləşirlər, sonra başlayırlar bir-birini ittiham etməyə. Güclü lider məsələsinə gəldikdə isə, bu tamamilə mövcud deyildir. Azərbaycan müxalifəti çox zəif və acınacaqlı vəziyyətdədir. Ümumiyyətlə, müxalifətdə görünən mənzərə çox miskin mənzərədir. Müxalifətə rəhbərlik edən insanlar 10 ildən artıqdır ki, eyni şeyləri eyni səslə ifadə edirlər və artıq heç kim də bunu eşitmir və eşitmək istəmir.

Azərbaycanın gələcəyi meydanlarda həll olunmur. Meydan ab-havası Azərbaycanda 10 ildən artıqdır yoxdur. Azərbaycan gələcəkdə tamamilə başqa istiqamətdə inkişaf edəcəkdir. Azərbaycan müasirləşir. Azərbaycan Dünya Birliyinə inteqrasiya edir. Ona görə Azərbaycanda inqilabi vəziyyəti şərtləndirən heç bir amil yoxdur. Yox, əgər onlar qanunsuz yollara əl atsalar, biz bunun qarşısını çox ciddi şəkildə alacağıq. Heç kimə imkan verilməyəcək ki, Azərbaycanda qanundankənar bir iş görsün və qanunu pozsun.

Azərbaycanda sərbəst toplaşmaq azadlığı mövcuddur. Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl müxalifət mitinq keçirdi. Ondan sonra Yeni Azərbaycan Partiyası mitinq keçirdi. Çox sakit, sərbəst şəkildə, ayrılmış vaxt çərçivəsində və asayişi qorumaq şərtilə. Əgər kimsə qanunsuz hərəkətə əl atarsa, o bilməlidir ki, Azərbaycan dövləti buna yol verməyəcək və bütün qanunsuz hərəkətlərin qarşısı çox ciddi şəkildə alınacaq, qanunsuz hərəkətlər törədən şəxslər məsuliyyətə cəlb olunacaqlar.

**S u a l: Hörmətli Prezident, seçkilərə iki naziri vəzifəsindən uzaqlaşdıraraq getdiniz. Yeni hökumət necə olacaq və nə zaman qurulacaqdır? Yeni kabinetdə köhnə nazirlərə yer verəcəksinizmi, bəzi tədbirlər həyata keçirəcəksinizmi?**

**C a v a b:** Bizdə hökumət prezident seçkilərindən sonra formalaşır. Azərbaycan prezident respublikasıdır. Bütövlükdə parlament seçkilərinin Nazirlər Kabinetinin formalaşmasında əhəmiyyəti o qədər yoxdur. Yəni faktiki olaraq yoxdur. Çünki prezident seçkilərindən sonra prezident yeni hökuməti təyin edir. Ona görə vəzifədən çıxarılmış nazirlərin hökumətin dəyişilməsinə, yaxud formalaşmasına heç bir aidiyyəti yoxdur. Onlar törədilmiş əməllərə görə cəzalandırılıblar və belə olan halda, əlbəttə, ciddi tədbirlər görülübdür.

Bütövlükdə, Azərbaycanda kadr islahatı gedir. Yeni insanlar, kadrlar vəzifəyə təyin olunurlar. Mənim tərəfimdən son iki il ərzində çox böyük sayda yeni insanlar vəzifəyə gətirildi, nazir, digər vəzifəyə təyin olundu. Demək olar ki, bölgələrdə yerli icra orqanlarının rəhbərlərinin tam əksəriyyəti dəyişdirildi. Bu proses gedir və getməlidir. Çünki hər bir sahədə islahatlar getməlidir. Kim öz vəzifə borcunu ləyaqətlə yerinə yetirmirsə, əlbəttə, o insan vəzifədən azad olunacaqdır. Ancaq biz buna da kampaniya şəklində yanaşmamalıyıq. Kim öz vəzifə borcunu ləyaqətlə icra edirsə, əlbəttə, o, vəzifədə qalacaqdır. Kim rüşvətxorluqla, qanun pozuntuları ilə məşğuldursa və vəzifənin öhdəsindən gələ bilmirsə, təbii ki, mən o insanlarla işləmək

fikrində deyiləm. Yəni bu proses davam edəcəkdir. Ancaq biz hər bir məsələyə fərdi qaydada yanaşacağıq.

**S u a l: Cənab Prezident, Türkiyəyə mesajınız nədir?**

C a v a b: Mənim Türkiyəyə mesajım həmişə olduğu kimidir. Mən qardaş Türkiyə xalqına müvəffəqiyyətlər arzulayıram, sülh, rifah arzulayıram. Bizim aramızda əlaqələr ən yüksək səviyyədədir. Mən bunu həmişə demişəm, indi də deyirəm. Dünyada başqa elə iki ölkə yoxdur ki, bir-birinə bu qədər bağlı olsun, bir-birinə bu qədər dəstək versin. Biz bu dəstəyi bütün zamanlarda bir-birimizə veririk. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bizi ilk tanıyan Türkiyə olmuşdur. O gündən bu günə qədər bizim əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə çox səmərəli işbirliyi, əməkdaşlıq var. Biz ulu öndər Heydər Əliyevin sözü ilə desək, «bir millət, iki dövlətik». Bu prinsiplə yaşayırıq və Türkiyə–Azərbaycan birliyi, qardaşlığı, dostluğu təkcə bizim üçün yox, bütün bölgə üçün lazımdır. Bölgədə gedən regional əməkdaşlığa lazımdır. Bölgədə sabitliyin, sülhün bərqərar olunmasına lazımdır. Əlbəttə, bizə lazımdır, Türkiyə və Azərbaycan xalqlarına lazımdır.

Xahiş edirəm, siz mənim ən hərarətli salamlarımı, ehtiramımı bütün türk qardaşlarıma çatdırasınız.

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALFRED MOİSİUYA**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Əminəm ki, dövlətlərarası münasibətlərimiz, əməkdaşlığımız xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Albaniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 noyabr 2005-ci il*

## DÜNYANIN ƏN NƏHƏNG POLAD ŞİRKƏTİ OLAN «MİTTAL STİİL» ŞİRKƏTİNİN SAHİBİ LAKŞMİ MİTTAL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın üçüncü zəngin adamı, dünyada ən böyük polad şirkəti sayılan «Mittal Stiil» şirkətinin sahibi Lakşmi Mittalı qəbul etmişdir.*

*Lakşmi Mittal vaxt tapıb onu qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir. O, prezident İlham Əliyevlə görüşündən böyük məmnunluq hissi keçirdiyini vurğulayaraq Azərbaycan xalqını və şəxsən Azərbaycan prezidentini Milli Dirçəliş günü münasibətilə təbrik etmişdir.*

*Prezident İlham Əliyev Lakşmi Mittalın dünyada çox məşhur bir iş adamı kimi tanındığını vurğulayaraq onun Azərbaycana ilk səfərindən məmnunluq duyduğunu bildirmişdir.*

*Lakşmi Mittal rəhbərlik etdiyi şirkətin Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərməsi ilə bağlı arzularını prezident İlham Əliyevə çatdırmışdır.*

*Dövlətimizin başçısı bu məsələyə müsbət münasibət göstərdiyini qeyd etmiş və bildirmişdir ki, dünyanın aparıcı şirkətlərindən sayılan «Mittal Stiil» şirkətinin ölkəmizdə fəaliyyət göstərmək niyyəti Azərbaycanda sabitliyin bərqərar olmasına, yaxşı investisiya mühitinin mövcudluğuna dəlalət edir.*

**BOSNİYA VƏ HERSOQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN TİHİÇƏ**

Hörmətli cənab Sədr!

Bosniya və Herseqovinanın yaranması günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında təşəkkül tapan münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 noyabr 2005-ci il*

## NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul etmişdir.*

*Dövlətimizin başçısı ilə görüşdən məmnunluq duyduğunu bildirən qonaq partlamamış mərmilərin təmizlənməsi üzrə Saloğlu layihəsinin noyabrın 18-də Bakıda keçirilən açılış mərasimində iştirak etdiyini vurğuladı. O dedi ki, partlamamış mərmilərin məhv edilməsi işinə yaxın zamanlarda başlanacaqdır. Bu layihə NATO ilə Azərbaycan arasında əməkdaşlığın həyata keçirilməsində çox önəmli rol oynayır. «Fərdi tərəfdaşlığın fəaliyyət planı»nın həyata keçirilməsi ilə bağlı komissiyanın iclası məndə böyük təəssürat yaratdı. Bu planın ötən ilin iyun ayında qəbul edilməsinə baxmayaraq, Azərbaycan tərəfindən bu sahədə irəliyə doğru çox mühüm addımlar atılmışdır. Hesab edirəm ki, bu plan çərçivəsində əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcəkdir.*

*Bu layihələrin çox böyük önəm daşıdığını nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, bunlar NATO ilə Azərbaycan arasında əməkdaşlıq səviyyəsinin yaxşı göstəricisidir. Bu sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı fərdi tərəfdaşlığın fəaliyyət planının da müvəffəqiyyətlə həyata keçirildiyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd etdi. Dövlətimizin başçısı qarşıdakı illərdə NATO ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf edəcəyinə əmin olduğunu vurğuladı.*

## AĞ EV ADMİNİSTRASİYASININ SABİQ RƏHBƏRİ, QUBERNATOR CON SUNUN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 noyabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağ ev administrasiyasının sabiq rəhbəri, qubernator Con Sununu qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələri, regional, beynəlxalq və bir sıra digər məsələlərlə bağlı fikir mübadiləsi aparılmışdır.*

## BELÇİKA XARİCİ İŞLƏR NAZİRİNİN ATƏT-dəki XÜSUSİ NÜMAYƏNDƏSİ SENATOR PYER ŞEVALYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 noyabr 2005-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belçika Xarici İşlər nazirinin ATƏT-dəki xüsusi nümayəndəsi senator Pyer Şevalyeni qəbul etmişdir.

Görüş zamanı Azərbaycan–ATƏT əməkdaşlığı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, Azərbaycanda son parlament seçkilərinin nəticələri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilmişdir.

**RUMINİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB TRAYAN BESESKUYA**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik günü münasibətilə Sizi və bütün Rumıniya xalqını öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan–Rumıniya münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi, əlaqələrimizin hərtərəfli genişləndirilməsi istiqamətində qarşılıqlı səylərimiz bundan sonra da ardıcıl şəkildə davam edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2005-ci il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Birləşmiş Ərəb Əmirlikləri dövlətinin yaranması günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Bu gün Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin xoş ənənələri mövcuddur. Əminəm ki, xalqlarımızın iradəsindən irəli gələn bu ənənələri yaşatmaq, qarşılıqlı münasibətlərimizin daha ahəngdar inkişafına nail olmaq üçün biz öz üzərimizə düşən missiyanı layiqincə yerinə yetirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 noyabr 2005-ci il*

# AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 noyabr 2005-ci il*

*Görüşdə Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye Azərbaycana səfərindən məmnunluğunu bildirmişdir. O demişdir: «Bu gün istər hökumət, istərsə də müxalifət nümayəndələri ilə görüşlərim olub. Ölkədə bütün istiqamətlərdə irəliyə döğru addımlar atılır. Hesab edirəm ki, bu, Azərbaycanda gedən demokratik proseslər ilə bağlı, sözün əsl mənasında, müsbət fikir yaradır. Seçkilərdən öncə Azərbaycandakı hadisələrin təkamül yolu ilə getməsi imkanı barədə fikir söyləmişdim, indi bu fikirlərimin düzgünlüyünə əmin oldum».*

*Prezident İlham Əliyev ölkədə bütün proseslərin həqiqətən müsbət istiqamətdə, normal siyasi və demokratik çərçivədə inkişaf etdiyini vurğulamışdır. O, seçki gününün və seçkilərdən sonrakı dövrün qanun çərçivəsində və demokratik şəkildə cərəyan etdiyini bildirmişdir. Dövlətimizin başçısı demişdir: «Biz də Azərbaycanda daim siyasi proseslərin normal şəraitdə, zorakılıq və aqressivlik olmadan gedəcəyinə ümidvarıq. Siyasi mübarizə və siyasi rəqabət isə təbii haldır».*

## KÜVEYT DÖVLƏTİNİN MALİYYƏ NAZİRİ BƏDR MƏŞARİ ƏL-HUMEYDİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 noyabr 2005-ci il*

*İlk növbədə Küveyt Əmiri şeyx Cabir əs-Sabahın, şahzadənin və Baş nazirin salamlarını çatdıran qonaq Azərbaycan prezidenti İlham Əliyevə müraciətlə dedi ki, Sizin üçün münasib vaxtda bizim ölkəyə səfər etməyinizlə bağlı Əmirin dəvət məktubunu Sizə çatdırmaqdan şərəf duyuram. Küveyt ilə Azərbaycan arasında əlaqələr yüksək səviyyədədir. Ölkəmizin rəhbərliyi bu münasibətlərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.Azərbaycanın Küveytdə səfirliyinin açılması ölkəmizlə əlaqələrə verdiyiniz önəmin nümunəsidir. Biz bu addımı yüksək qiymətləndirir, tezliklə Küveytin də Azərbaycanda səfirliyinin açılacağına ümid edirik.*

*Dəvət məktubuna və salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarını Küveyt Əmiri şeyx Cabir əs-Sabaha, şahzadəyə və Baş nazirə çatdırmağı xahiş etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin möhkəmliyini vurğalayan dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, qarşıdan gələn illərdə əməkdaşlığımiz səmərəli surətdə daha da inkişaf etdiriləcəkdir.*

*İqtisadi əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, Küveytdə səfirliyimizin açılması Azərbaycanın sizin ölkə ilə ikitərəfli əlaqələrə verdiyi diqqətin nümunəsidir.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA PACAPAKSAYA**

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Şri-Lanka xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2005-ci il*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ XANIM ANGELA MERKELƏ

Hörmətli xanım Federal Kansler!

Almaniya Federativ Respublikasının Federal Kansleri vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinə xüsusi əhəmiyyət veririk. Əminəm ki, dost ölkələrimiz arasındakı əlaqələr, qarşılıqlı maraq doğuran bir çox sahələrdə əməkdaşlığımız bundan sonra ardıcıl şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Almaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 noyabr 2005-ci il*

# AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ ÜZVLƏRİNƏ

Əziz həmkarlar ittifaqları üzvləri!

Bu il Azərbaycanda ən kütləvi ictimai təşkilat olan həmkarlar ittifaqlarının yaranmasının 100 illiyi və ölkə miqyasında həmkarlar ittifaqları mərkəzi orqanının təsis edilməsinin 85 illiyi tamam olur.

Zəngin ənənələrə malik Azərbaycan həmkarlar hərəkatı öz tarixində bir sıra mərhələlərdən keçmişdir. 1905-ci ilin oktyabrında Bakıda fəhlə və qulluqçuların ilk həmkarlar ittifaqlarının yaradılması ilə başlayan bu hərəkat tezliklə geniş vüsət alaraq əsas istehsal, nəqliyyat və xidmət sahələrini əhatə etmişdir. Bu dövrdə həmkarlar ittifaqları əmək hüquqlarının əsl müdafiəçisi kimi çıxış edərək, iş şəraitinin yaxşılaşdırılmasında, sosial-məişət problemlərinin həllində mühüm uğurlara nail olmuşlar. Lakin bu da bir həqiqətdir ki, istər Rusiya imperiyası dövründə, istərsə də Azərbaycan Xalq Cümhuriyyəti illərində müxtəlif siyasi qüvvələr həmkarlar təşkilatlarını öz məqsədləri naminə ideoloji təsirlərə məruz qoymuş, onları siyasi mübarizələrin fəal iştirakçısına çevirmişlər.

Sovet hakimiyyəti illərində də həmkarlar ittifaqları əslində siyasi-ideoloji və idarəçilik sisteminin mühüm tərkib hissələrindən biri idi. Ölkədə həyata keçirilən bütün quruculuq və maarifçilik işlərində həmkarlar ittifaqları yaxından iştirak etmiş, bir çox hallarda isə bu tədbirlərin əsas təşkilatçıları və icraçıları olmuşlar. O dövrdə savadsızlığın ləğvi, mədəni-maarifçilik işinin təşkili, fəhlə və qulluqçuların sosial-məişət problemlərinin həlli həmkarlar təşkilatlarının fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur. Müəssisə və təşkilatlarda əməyin mühafizəsi, sosial hüquqların qorunması, müalicə və istirahət ocaqlarının, idman komplekslərinin və mədəniyyət mərkəzlərinin geniş şəbəkəsinin yaradılması və

zəhmətkeşlərin xidmətinə verilməsi həmkarlar təşkilatlarının fəaliyyətinin mühüm istiqamətləri idi.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra həmkarlar ittifaqlarının tarixində yeni mərhələ başlanmış, onların fəaliyyəti yeni məzmun kəsb etmişdir. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ali siyasi hakimiyyətə yenidən qayıdışı həmkarlar təşkilatlarını müxtəlif siyasi qüvvələrin təsirindən qorudu, onların onilliklər boyu yaradılmış maddi bazasının dağıdılmasının qarşısını aldı. Həmkarlar ittifaqlarının idarə olunması və fəaliyyətində ideoloji amillərin təsiri aradan qaldırıldı, inzibati-amirlik metodlarından imtina edildi. 1993-cü ildə demokratik idarəçilik və fəaliyyət prinsiplərini əsas tutan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası yaradıldı. 1994-cü ildə qəbul edilmiş «Həmkarlar ittifaqları haqqında» Qanun bu təşkilatların müstəqilliyini bir daha təsbit etdi, onların yalnız qanun və nizamnamə çərçivəsində fəaliyyət göstərməsini təmin edən zəruri hüquqi baza yaratdı.

Bazar iqtisadiyyatının sərt qanunları şəraitində müstəqil Azərbaycanın həmkarlar ittifaqları cəmiyyətdə işçilərin sosial-məişət, mədəni-maarif və müalicə-istirahət hüquqlarının təmin olunmasına, əhalinin müxtəlif qrupları arasında həmrəylik və konsensus yaradılmasına, aztəminatlı təbəqələrə qayğı göstərilməsinə və s. məsələlərin həllinə mühüm töhfə verirlər. Eyni zamanda, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası cəmiyyətdə konstruktivlik ruhu təbliğ edir, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsində böyük rol oynayır. Hökumət, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası və Həmkarlar İttifaqları Konfederasiyası arasında hər il imzalanan Baş Kollektiv Saziş bu məqsədə xidmət edir və onun tələblərinə dönmədən əməl edilməsi bütün iştirakçı tərəflərin mühüm vəzifəsidir. Bu gün biz tam əminliklə deyə bilərik ki, həmkarlar təşkilatları idarə və müəssisələrdə əmək müqavilələrinə əməl

olunmasında, işçilərin sosial hüquqlarının qorunmasında, əmək şəraitinin yaxşılaşmasında fəal rol oynayırlar.

Son illərdə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu dinamik surətdə artmışdır. Ölkədə çoxsaylı yerli və xarici müəssisələr, transmilli şirkətlər fəaliyyət göstərirlər. Bu gün həmin müəssisə və şirkətlərdə işləyən vətəndaşların sosial hüquqlarının müdafiəsi, əmək qanunvericiliyinə və müqavilələrinə əməl edilməsinə nail olmaq həmkarlar təşkilatları qarşısında duran həlli vacib vəzifələrdəndir.

Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan həmkarlar ittifaqları müvafiq beynəlxalq təşkilatlarla fəal və səmərəli əlaqələr quraraq, mütərəqqi xarici təcrübəni öyrənir və bu təşkilatların əməyin təşkili, sosial problemlərin həlli sahəsindəki qabaqcıl təcrübəsini uğurla tətbiq edirlər. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Beynəlxalq Əmək Təşkilatı və Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyası kimi nüfuzlu təşkilatların üzvlüyünə qəbul olunması onun qazandığı beynəlxalq nüfuzun məntiqi nəticəsidir.

Əziz həmkarlar ittifaqları üzvləri! İnanıram ki, müstəqil Azərbaycan Respublikasının əsas demokratik təsisatlarından biri olan həmkarlar ittifaqları vətəndaşların əmək hüquqlarının cəsarətlə qorunması və sosial rifah halının yüksəldilməsi sahəsində öz nəcib fəaliyyətlərini bundan sonra da davam etdirəcək və öhdələrinə düşən vəzifələri uğurla yerinə yetirəcəklər. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasını və ona daxil olan təşkilatların üzvlərini, həmkarlar hərəkatı veteranlarını, bütün əmək adamlarını əlamətdar yubiley münasibətilə təbrik edir, onlara cansağlığı, xalqımızın rifahı və müstəqil dövlətimizin tərəqqisi naminə fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *24 noyabr 2005-ci il*

## ALMANİYA İQTİSADİYYATI ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ DOKTOR KLAUS MANQOLDUN RƏHBƏRLİK ETDİYİ İŞ ADAMLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 noyabr 2005-ci il*

*Görüş zamanı ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə sürətlə inkişaf etdiyini vurğulayan Azərbaycan prezidenti İlham Əliyev siyasi sahədə də əlaqələrimizin uğurla davam etdiyini nəzərə çatdırdı. Keçən il Almaniyaya rəsmi səfərini xatırladan dövlətimizin başçısı dedi ki, bu səfər ölkələrimiz arasında səmərəli dialoqun, işgüzar münasibətlərin daim inkişaf etdiyini göstərir.*

*Prezident İlham Əliyev bildirdi ki, belə böyük tərkibdə nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimizin iqtisadi əməkdaşlıq sahəsində bir-birinə qarşılıqlı marağının yaxşı göstəricisidir.*

*Azərbaycanda gözəl sərmayə mühiti olduğunu, iqtisadiyyatın sürətlə inkişaf etdiyini nəzərə çatdıran dövlətimizin başçısı dedi ki, ölkəmiz ən yüksək sürətlə inkişaf edir. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Almaniya şirkətləri bundan sonra da Azərbaycanla uğurla əməkdaşlıq edəcəkdir. Dövlətimizin başçısı Almaniya nümayəndə heyətinin Azərbaycana səfərini bir daha yüksək qiymətləndirdi.*

*Azərbaycana çox nüfuzlu iş adamlarından ibarət nümayəndə heyətinin gəldiyini vurğulayan qonaq bildirdi ki, onlar buraya bir sıra mühüm layihələr gətirmişlər. Azərbaycana gəlmiş iş adamlarının təmsil etdikləri Almaniya şirkətlərinin ticarət*

*dövriyyəsi 300 milyard avrodan çoxdur. Doktor Klaus Manqold dedi: Cənab Prezident, ilk öncə icazə verin, noyabrın 6-da keçirilən seçkilərin nəticələrinə görə Sizi təbrik edim. Bununla bağlı hansısa narazılıqlar olsa da, əminik ki, Azərbaycan bunların öhdəsindən qısa müddətdə gələcəkdir. Xahiş edirəm, bizim səfərimizi Sizə olan böyük etimad kimi qəbul edəsiniz.*

*Qonaq daha sonra dedi ki, ölkənizə səfərimizin ilk dəqiqəsindən Azərbaycanın inkişaf yolunda olduğunun şahidi olmuşuq. Azərbaycanda iqtisadiyyatın sürətlə və dinamik inkişafı bizi çox sevindirir. Bu bizim əməkdaşlığımız üçün çox müsbət amildir.*

*Azərbaycanda qlobal enerji layihələrinin həyata keçirildiyini vurğulayan Klaus Manqold Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsini Azərbaycanın Avropaya çıxışı, mədəniyyətlərin mübadiləsi kimi dəyərləndirdi. O dedi ki, bütün bu amillər Avropa ölkələrinin, o cümlədən Almaniyanın Azərbaycan ilə əməkdaşlığının gələcəkdə daha intensiv olacağına əminlik yaradır.*

## BAKI ŞƏHƏRİNDƏ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*26 noyabr 2005-ci il*

*Bakı şəhərində abadlıq və quruculuq işlərinin gedişi ilə vaxtaşırı yaxından maraqlanan Azərbaycan prezidenti İlham Əliyev paytaxtdakı bəzi problemlərin aradan qaldırılması istiqamətində daim konkret tapşırıqlar verir. Bunların yerinə yetirilməsi sayəsində dərhal müsbət nəticələr əldə olunur. Prezident İlham Əliyev noyabrın 26-da növbəti dəfə şəhərin ümumi vəziyyəti ilə tanışlıq zamanı diqqəti, əsasən, bəzi küçə və prospektlərdə yaranan tıxacların doğurduğu çətinliklərə yönəltmişdir.*

*Dövlətimizin başçısı nəqliyyat tıxaclarının ən çox yarandığı yerlərdən birində – Azadlıq prospekti ilə Dərnəgül yolunun kəsişdiyi ərazidə vəziyyətlə tanış oldu. Nəqliyyat naziri Ziya Məmmədov və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına məlumat verdilər. Prezident İlham Əliyev nəqliyyatın intensiv hərəkətinə maneçilik yaradan bəzi küçə və prospektlərin genişləndirilməsinə, habelə körpülərin, ikimərtəbəli və lazım gələrsə, üçmərtəbəli yolların salınmasına ehtiyac olduğunu vurğuladı, bununla bağlı tezliklə xüsusi layihələrin hazırlanması üçün müvafiq göstərişlər verdi. Eyni zamanda, küçə və prospektlərin genişləndirilməsi zamanı bəzi evlərin və tikililərin sahiblərinə kompensasiya verilmək şərti ilə sökülməsi məsələsini də nəzərdən keçirməyi təklif etdi. Azərbaycan prezidenti tıxacların ən çox yarandığı şəhərdaxili yolların sxemi ilə xüsusi xəritədə tanış oldu.*

*Prezident İlham Əliyev şəhərlə tanışlıq zamanı ətrafda onları seyr edən məktəblilərə də biganə qalmadı. Onlarla əl verib görüşdü, təhsilləri ilə maraqlandı.*

*Dövlətimizin başçısı nəqliyyat tıxaclarının ən çox yarandığı yerlərdən biri olan Ayna Sultanovanın abidəsi qarşısındakı dairədə mövcud vəziyyətlə də maraqlandı. Azərbaycan prezidenti burada da nəqliyyatın hərəkətini asanlaşdırmaq üçün körpülər tikilməsi barədə göstəriş verdi. Eyni zamanda bildirdi ki, bu işlər müvafiq mütəxəssislər cəlb olunmaqla və müasir memarlıq prinsiplərinə əməl edilməklə görülməlidir.*

*Prezident İlham Əliyev buraya toplaşmış sakinlərlə səmimi görüşüb söhbət etdi. Sakinlər əhalinin sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayan dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etdilər.*

**Şəhər sakini, qocaman müəllim:** Cənab Prezident, bir-iki kəlmə söz demək istəyirəm. Sizə təsadüfən rast gəldim, mənə bu xoşbəxtlik nəsib oldu. Çox şadam ki, Sizin kimi ağıllı, cəsarətli, Heydər Əliyevin yetirməsi olan prezidentimiz var. Bir azərbaycanlı kimi, şəxsən mən bununla fəxr edirəm. Belə davam edin. Siz çox gözəl prezidentsiniz. Mən dünyada elə bir prezident tanımıram ki, Sizin kimi humanist adam olsun. Yeganə prezidentsiniz ki, Namiq Abdullayev Olimpiadada qızıl medal alanda sevincdən göz yaşlarınızı görmüşəm. Bu, böyük qürurdur.

Beləcə işləyin, xalq, Azərbaycan  Sizi dəstəkləyir. Mən həmişə tələbələrimə deyirəm ki, bizim belə ağıllı prezidentimiz var. Çox sağ olun, möhkəm olun, belə davam edin, xalq Sizi istəyir.

**Ilham Əliyev:** Sağ olun, mən də xalq üçün işləyirəm. Xalq üçün yaşayıram, çalışıram əlimdən gələni edim ki, xalqımız daha da  yaxşı yaşasın.

**Şəhər sakini, qocaman müəllim:** Son müşavirədə dediyiniz sözlər mənim həmişə yadımdadır. Dediniz ki, mən xalq qarşısında məsuliyyət daşıyıram, nazirlər isə mənim qarşımda məsuliyyət daşıyır. İlham müəllim, belə tələbkar olmaq lazımdır. Bizim taleyimiz Sizin əlinizdədir. Mən çox fəxr edirəm, Allah Sizi salamat eləsin, Allah Sizə qüvvət

versin, Azərbaycanı daha da uğurlu yollarla irəliyə aparasınız. Cənab Prezident, çox sağ olun.

**I l h a m  Ə l i y e v:** Son zamanlar şəhərdə çox böyük tıxaclar yaranır və bu da problemlər doğurur. İnsanlar saatlarla tıxaclarda gözləyirlər. Ona görə mən Nazirlər Kabinetinə tapşırıq verdim, indi layihə hazırlayırlar ki, şəhərin müxtəlif yerlərində yeni körpülər salınsın, tıxaclar aradan qaldırılsın. Plan da var, indi gəlmişəm, baxıram harada nə tikiləcək ki, problemlər aradan götürülsün.

**Ş ə h ə r  s a k i n i,  q o c a m a n  m ü ə l l i m:** Cənab Prezident, kaş Sizin komanda istədiyiniz işin otuz faizini görəydi. Onda heç bir problem olmazdı. Sizdən bir xahişim də var, müəllimlərin əmək haqqına bir balaca nəzər yetirin.

**I l h a m  Ə l i y e v:** Onu da edəcəyik, mütləq edəcəyik!

**Ş ə h ə r  s a k i n i,  q o c a m a n  m ü ə l l i m:** Belə xəbər gəzir ki, İlham müəllim Maliyyə nazirinə, Baş nazirə göstəriş verib ki, müəllimlərin maaşları artırılsın. İnanın, o qədər sevinmişik ki.

**I l h a m  Ə l i y e v:** Bütün maaşlar qalxır, minimum əməkhaqqı qaldırılıbdır. Hərbçilərin, digər kateqoriyaların, həkimlərin maaşları artırılıb, müəllimlərin də maaşları artırılacaqdır. İldən-ilə maaşlar qalxmalıdır. Bəlkə də ildə iki dəfə artırılmalıdır. Çünki indiki maaşlar bizi qane edə bilməz. Düzdür, dinamika, artım var. Tutaq ki, minimum əməkhaqqı 60 min manat idi, indi onu 150 min manata qaldırmışıq. Amma 150 min manat o pul deyil ki, onunla normal yaşamaq mümkün olsun. Gərək elə maaş verək ki, hər bir insan, hər bir ailə normal yaşasın. Bunu etmək üçün iqtisadiyyat gərək güclənsin, islahatlar aparılsın, yeni iş yerləri açılsın. Bütün bunları etməyə çalışıram. Əminəm ki, getdikcə vəziyyət daha da yaxşılaşacaq, Azərbaycan xalqı daha da yaxşı yaşayacaq, çünki buna layiqdir. Prezident kimi, mən də bu məsuliyyəti üzərimə götürmüşəm, bu işi cəsarətlə, heç nəyə baxmadan görürəm. Mən xalq qarşısında məsuliyyət daşıyıram.

**Ş ə h ə r  s a k i n i,  q o c a m a n  m ü ə l l i m:** Mən 40 ilin müəllimiyəm, veteranam. Hiss edilir ki, komandanızda hamı Sizdən çəkinir. Belə olmaq lazımdır.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

*Sonra Azərbaycan prezidenti paytaxtın Heydər Əliyev prospektinə gələrək, buradakı vəziyyətlə də tanış oldu. Dövlətimizin başçısına məlumat verildi ki, xüsusilə axşam saatlarında bu magistralda böyük tıxaclar əmələ gəlir. Nəqliyyat naziri və şəhər icra hakimiyyətinin başçısı prezident İlham Əliyevə burada nəqliyyatın intensiv hərəkətini təmin etmək üçün təklif olunan layihələr barədə ətraflı məlumat verdilər. Azərbaycan prezidenti təklif olunan variantlarla bağlı iradlarını söylədi, konkret göstərişlər verdi. Eyni zamanda, Heydər Əliyev prospektinə köməkçi yolların çəkilməsinə və bu ərazidə əlavə körpülərin tikilməsinə ehtiyac olduğunu bildirdi.*

*Dövlətimizin başçısı metronun «Əzizbəyov» stansiyası yaxınlığındakı dairədə nəqliyyatın hərəkətinin vəziyyəti ilə tanış oldu, hazırlanacaq layihələrdə burada da körpülərin tikilməsinin nəzərə alınmasını tapşırdı.*

*Sabunçu dairəsi ilə tanışlıq zamanı da mövcud problemlərə diqqət yetirildi. Prezident İlham Əliyev konkret tapşırıqlar verərək bildirdi ki, yollar və körpülər beynəlxalq standartlar səviyyəsində salınmalıdır. Dövlətimizin başçısı Suraxanı körpüsü və hava limanına gedən yolla bağlı problemlərə də diqqət yetirdi. Suraxanı körpüsünə paralel olaraq, daha bir körpünün tikilməsinin zəruriliyini vurğuladı.*

*Paytaxtla bu tanışlıq prezident İlham Əliyevin Bakının daha da abadlaşdırılması və şəhər sakinlərinin sosial problemlərinin həlli sahəsində gördüyü mütəmadi tədbirlərə daha bir misaldır. İnsanların rahatlığı, əhalinin güzəranının yaxşılaşdırılması, paytaxtın yol təsərrüfatının və infrastrukturunun yenidən qurulması dövlətin və dövlət başçısının daim diqqət mərkəzindədir. Belə bir vaxtda xalq arasında deyil, xaricdə dəstək axtaran radikal müxalifət ölkədəki ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərir, cürbəcür dağıdıcı aksiyalara əl atır.*

*Lakin onlar anlamalıdırlar ki, bu cəhdlər əbəsdir. Azərbaycanda ictimai-siyasi sabitlik getdikcə möhkəmlənir, quruculuq işləri geniş vüsət alır və bu prosesin qarşısını heç kim ala bilməyəcəkdir.*

# İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏNUÇEHR MOTTƏKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 noyabr 2005-ci il*

*İran prezidenti Mahmud Əhmədinejadın səmimi salamlarını prezident İlham Əliyevə çatdıran qonaq ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. O, qeyd etdi ki, təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi siyasəti prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

*Azərbaycanda əlamətdar hadisənin, parlament seçkilərinin müvəffəqiyyətlə başa çatdığını söyləyən Mənuçehr Mottəki parlament seçkilərinin uğurla keçməsi münasibətilə prezident İlham Əliyevi təbrik etdi. O, əmin olduğunu bildirdi ki, Azərbaycan ilə İran arasında əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.*

*İki ölkə arasındakı münasibətlərin inkişaf etdiyini nəzərə çatdıran dövlətimizin başçısı bu ilin əvvəlində İrana rəsmi səfərini məmnunluqla xatırladı, səfər zamanı keçirdiyi görüşlərin, imzalanmış sənədlərin əməkdaşlığımızın genişləndirilməsi üçün möhkəm zəmin yaratdığını bildirdi. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin iki ölkə arasında əlaqələrin inkişafında böyük xidmətləri olduğunu vurğulayaraq, bu siyasətin bu gün də davam etdirildiyini bildirdi, Prezident İlham Əliyev İranda Prezident seçkilərindən sonra keçən qısa müddət ərzində İranın Xarici İşlər nazirinin ölkəmizə səfər etməsini ikitərəfli münasibətlərimizin yüksək*

*səviyyəsinin göstəricisi olduğunu qeyd etdi. İqtisadi sahədə imzalanmış sazişlərin artıq müvəffəqiyyətlə icra olunduğunu vurğulayan prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, ölkələrimiz arasındakı əlaqələr bundan sonra da uğurla inkişaf edəcəkdir.*

*Səmimi salamlara görə minnətdarlığını bildirən prezident İlham Əliyev onun da salamlarını prezident Mahmud Əhmədinejada çatdırmağı xahiş etdi.*

**TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı – Təvəllüd gününüz münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan–Tailand münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tailand xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2005-ci il*

**TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ
CƏNAB TAKSİN ŞİNAVATRAYA**

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Kralın təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, dost ölkələrimiz arasındakı əlaqələr, ikitərəfli əməkdaşlığımız qarşılıqlı maraqlar çərçivəsində daim genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2005-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Finlandiya xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Finlandiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, bu yaxınlarda ölkəmizə səfəriniz, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və ətraflı fikir mübadiləsi, imzalanan ikitərəfli sazişlər əməkdaşlığımızın inkişafında böyük rol oynayacaqdır.

Sizə ən xoş arzularımı yetirir, dost Finlandiya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2005-ci il*

## ÜÇÜNCÜ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA NİTQ

*2 dekabr 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli millət vəkilləri!

Bu gün üçüncü çağırış Milli Məclis öz işinə başlayır. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm.

Dünən Konstitusiya Məhkəməsi seçkilərin nəticələrini təsdiq etdi. Beləliklə, Milli Məclisə seçilmiş deputatlar öz fəaliyyətlərinə başlayırlar. Bütövlükdə, parlament seçkilərinin Azərbaycanın demokratik inkişafında çox mühüm rolu vardır. Seçkilər şəffaf, ədalətli şəkildə keçirilib və bizə imkan verəcək ki, Azərbaycan hərtərəfli ikişaf etsin, Azərbaycanda siyasi proseslər daha da sürətlə aparılsın, ölkədə demokratik islahatlar davam etdirilsin və bütövlükdə Azərbaycan demokratik dövlətə çevrilsin.

Mən bu gün bu kürsüdən ikinci çağırış Milli Məclisin fəaliyyətinə toxunmaq istərdim. 2000-ci ildə seçilmiş Milli Məclis və onun millət vəkilləri çox böyük işlər görmüşlər, səmərəli işləmişlər. Son 5 il ərzində Azərbaycanda çoxlu qanunlar qəbul edilmişdir ki, bu da ölkəmizin hərtərəfli inkişafı üçün gözəl qanunvericilik bazasını yaratdı. Hesab edirəm ki, qəbul olunmuş qanunlar ölkəmizin inkişafında bundan sonra da mühüm rol oynayacaq və bütövlükdə, Azərbaycanda çox geniş qanunvericilik bazası yaradılacaqdır.

İnkişaf etmiş ölkələrdə, parlamentarizmin böyük ənənələri olan ölkələrdə qanunvericilik bazası da çox genişdir. Ancaq Azərbaycanda vəziyyət fərqli idi. Azərbaycan müstəqil ölkə kimi yaşamağa başlayanda bizim qanunlarımız yox idi.

Konstitusiyamız 1995-ci ildə qəbul edilmişdir və ondan sonra qanunvericilik geniş vüsət almışdır. Azərbaycanda yeni qanunların qəbul edilməsi məsələsi çox böyük əhəmiyyət kəsb edirdi. Çünki hər bir ölkənin həyatında əsas rolu qanunlar oynayır. Biz Azərbaycanda hüquqi dövlət qururuq və ona görə qanunun aliliyi hər şeydən üstün olmalıdır. Bu baxımdan ikinci çağırış Milli Məclisin fəaliyyəti çox müsbət olmuşdur. Milli Məclisin komissiyaları çox səmərəli işləmişdir. Parlamentin rəhbərliyi, spiker Murtuz Ələsgərov və onun müavinləri çox böyük işlər görmüşlər. Mən buna görə onlara öz minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda, son 5 il ərzində Azərbaycan müxtəlif beynəlxalq konvensiyalara da qoşuldu. Bu bizim Dünya Birliyinə, Avropa strukturlarına inteqrasiya siyasətimizin tərkib hissəsidir. Son 5 il ərzində Azərbaycanda qəbul edilmiş yeni mütərəqqi qanunlar ölkəmizin demokratik inkişafına güclü təkan verdi və biz bu gün bunun bəhrəsini görürük.

Bu gün isə üçüncü çağırış Milli Məclis öz işinə başlayır. Mən ümid edirəm ki, Azərbaycanda yaranmaqda olan müasir parlamentarizmin ənənələrini siz davam etdirəcəksiniz.

2005-ci ilin parlament seçkiləri ölkə həyatında çox mühüm bir proses və hadisə idi. Bir neçə ay ərzində Azərbaycanda parlament seçkilərinə hazırlıq dövrü ərzində ölkədə gedən siyasi proseslər daha da sürətlənmiş, ölkə demokratik inkişaf baxımından daha da möhkəmlənmişdir. Parlament seçkilərinin şəffaf və ədalətli keçirilməsi üçün hər şey edilmişdir və nəticə etibarilə açıq, ədalətli, şəffaf şəkildə parlament seçkiləri keçirilmiş və yeni deputatlar mandat əldə etmişlər. Bu ərəfədə həm müvafiq sərəncamlar imzalandı, həm də seçki kampaniyasının aparılmasında çoxlu yeniliklər oldu. Sərbəst toplaşma azadlığı təmin edilmişdi və bəzi istisnalar olmaq şərtilə, Azərbaycanın bütün yerlərində namizədlər seçicilərlə əlaqə saxlamışlar, öz görüşlərini keçirmişlər. Bəzi hallarda isə qəsdən törədilmiş hadisələr nəticəsində buna imkan olmadı.

2000 namizədin qeydiyyatdan keçməsi də özlüyündə parlament seçkilərinə əhali tərəfindən böyük inamın təzahürü idi. Çünki əgər belə olmasaydı, bu inam olmasaydı, heç vaxt 2000 adam bu yarışa girməzdi. Media qurumları seçki kampaniyasında çox fəal iştirak etmişlər. Bu da yenilikdir. Deyə bilərəm ki, hətta biz bu baxımdan inkişaf etmiş ölkələri geridə qoyduq. Çünki inkişaf etmiş ölkələrdə, Avropa ölkələrində özəl telekanallar seçki kampaniyasında iştirak etmirlər. Onlar yalnız reklam vaxtından istifadə edib bu və ya digər namizədlərə öz efir vaxtını verirlər. Azərbaycanda isə bütün özəl kanallar bu parlament təşviqatında fəal rol oynamışlar. Başqa yeniliklər də oldu. İlk dəfə Azərbaycanda «exit-poll» keçirildi. Ondan sonra barmaqların mürəkkəblə işarələnməsi məsələsi öz həllini tapdı.

Bir sözlə, bütün tədbirlər görüldü ki, Azərbaycanda şəffaf seçkilər keçirilsin, seçki saxtakarlığına imkan olmasın, əgər hansısa hallarda bu saxtakarlıq olarsa, onu gizlətmək mümkünsüz olsun. Nəticələr də bunu təsdiq etdi. O dairələrdə ki, qanun pozuntuları olub, qanunsuz müdaxilələr, yaxud saxtakarlıq olub, bildiyiniz kimi, orada nəticələr ya dəyişdirilib, ya da ləğv edilibdir. Nəticələr 10 dairədə ləğv edilib, 2 dairədə son nəticələr dəyişdirilibdir. Bütövlükdə, 12 dairədə seçkilərin keçirilməsində problemlər yaranmışdır. Məhz bizim tərəfimizdən qəbul edilmiş sərəncamlar, verilmiş göstərişlər, atılmış addımlar imkan yaratdı ki, bu qanun pozuntularının aşkarlanması mümkün olsun. Bütövlükdə, seçki kampaniyası çox uğurlu keçdi. Hesab edirəm ki, hər bir namizəd sərbəst şəkildə öz platformasını, fikirlərini seçicilərə çatdıra bilmişdir.

Seçkilərin nəticələri Azərbaycanda hökm sürən ab-havanın təzahürüdür. Mən şəxsən şübhə etmirdim ki, seçkilərdə Azərbaycan dövlətçiliyinə xidmət edən, Azərbaycanı istəyən, sevən vətənpərvər insanlar, öz biliyi, fəaliyyəti ilə hörmət qazanmış insanlar üstünlük əldə edəcəklər. Çünki Azərbaycan xalqı müdrik xalqdır. Azərbaycan xalqı öz seçimini edibdir. Bu gün xalqla iqtidar arasında olan bu birlik, bu inam bir daha onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir. Parla-

ment seçkiləri bunu bir daha təsdiqlədi. Mən çox sevinirəm ki, parlamentdə təmsil olunan deputatlar açıq, ədalətli mübarizədə qələbə qazandılar və əlbəttə, bu, parlamentin legitimliyinə də öz böyük töhfəsini vermiş oldu.

Bildiyimiz kimi, Azərbaycanda parlament seçkiləri böyük maraq doğurmuşdur. Müxtəlif xarici təşkilatlar buraya çoxlu müşahidəçi göndərmişdi. Bir neçə ölkənin nümayəndələri parlament seçkilərini yaxından izləmişlər. Bu da təbiidir. Çünki Azərbaycan Avropa, Avroatlantik strukturlarına sürətlə inteqrasiya edir. Azərbaycanda bütün meyarlar gərək yüksək səviyyəyə cavab versin. Belə olan halda, əlbəttə, parlament seçkilərinin ədalətli, şəffaf keçirilməsi həm bizim maraqlarımıza cavab verirdi, həm də bizimlə əməkdaşlıq edən beynəlxalq təşkilatların, tərəfdaşlarımızın marağında idi.

Bildiyimiz kimi, müxtəlif beynəlxalq təşkilatlar və onların müşahidəçiləri burada işləmişlər və rəylər təqdim etmişlər. Bu rəylər öyrənilir, təhlil edilir, harada ki, ədalətli irad var, o irad, təbii ki, qəbul edilir və bu iradlardan nəticə çıxarılır. Harada ki, ədalətsiz yanaşma, yaxud irad varsa, hansısa səhv məlumatın əsasında yaranmış yanlış fikir varsa, əlbəttə, biz bunu qəbul edə bilmərik. Harada ki, qərəzli irad varsa, biz bunu bütövlükdə rədd edirik. Çünki biz ədalətin tərəfdarıyıq. Parlament seçkilərinin şəffaf, ədalətli keçirilməsi üçün hər şey edilibdir. Biz öz niyyətimizi açıq şəkildə ortaya qoyduq və axıra, sona qədər sübut etdik ki, biz sadiqik.

Amma o da faktdır ki, Azərbaycan son illər ərzində çox sürətlə inkişaf edən bir ölkədir. Azərbaycanın regionda və dünyada önəmi artmaqdadır. Bizim siyasi çəkimiz artmaqdadır. İqtisadi potensialımız güclənir, bizim coğrafi, coğrafi-siyasi önəmimiz sürətlə artır. Təbii sərvətlərlə zəngin olan, çox mühüm yerdə yerləşən, dünyəvi ölkəyə, Avropa, Avroatlantik strukturlarına inteqrasiya yolu seçmiş ölkəyə, əlbəttə, böyük maraq var və bəzi hallarda müxtəlif siyasi hadisələr bəzi dairələr tərəfindən başqa məqsədlər üçün də istifadə olunur. Heç kəs üçün sirr deyil, belə hallar olmuşdur, biz də onun

şahidiyik ki, seçkilərə mənfi yanaşan bəzi dairələr bunu siyasi motivlərlə etmişlər. Bu bir növ siyasi təzyiqin əlaməti idi. Biz bunu hamımız bilirik və gərək buna da hazır olaq. Bu var, sabah da olacaqdır. Biz buna hazır olmalıyıq. Mən də buna hazıram.

Yenə də deyirəm ki, biz əməkdaşlığın tərəfdarıyıq. Biz qarşılıqlı hörmət və ehtiram əsasında, bərabərlik əsasında qurulmuş münasibətlərin tərəfdarıyıq. Biz öz siyasətimizi, o cümlədən xarici siyasətimizi açıq və aydın bəyan etmişik. İki il bundan əvvəl prezident vəzifəsinə seçilən zaman mən bu siyasəti bəyan etdim və indi bu siyasət davam etdirilir. Təbii ki, Azərbaycan kimi cəlbedici ölkə, belə cazibədar ölkə bütün bu sadaladığım amilləri nəzərə almaq şərtilə, şübhəsiz ki, müxtəlif maraqların toqquşması yerinə çevrilə bilər. Biz buna imkan verməməliyik. Mən dəfələrlə bunu demişəm. Azərbaycan rəqabət yox, qarşıdurma yox, əməkdaşlıq məkanına çevrilməlidir. İlk növbədə, Azərbaycanın milli maraqları təmin olunmalıdır. Mən Azərbaycanın milli maraqlarının təmin olunmasında əlimdən gələni əsirgəmirəm. Biz hamımız, o cümlədən deputat korpusu bu məqsədə qulluq etməliyik. Ən əsası Azərbaycanın milli maraqları, Azərbaycan xalqının inkişafı, Azərbaycan dövlətçiliyinin möhkəmlənməsidir. Onsuz da biz bu gün bölgədə liderlik mövqelərinə sahibik. Bu gün Azərbaycanın iştirakı olmadan, razılığı olmadan, siyasi iradəsi olmadan bölgədə heç bir – nə siyasi, nə iqtisadi, nə də başqa layihə reallaşdırıla, yaxud hadisə baş verə bilməz. Getdikcə bizim çəkimiz, önəmimiz artacaqdır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin işə salınmasından sonra, Azərbaycandan keçən müxtəlif enerji və nəqliyyat dəhlizləri fəaliyyətə başlayandan sonra bizim önəmimiz qat-qat artacaqdır. Azərbaycan artıq regional müstəvidən çıxıb dünya miqyasında çox önəmli rol oynayan ölkəyə çevriləcək və çevrilməlidir. Bizim məqsədimiz məhz bundan ibarətdir. Bütün görülən tədbirlər, atılan addımlar, iqtisadi, siyasi islahatlar, Azərbaycanın hərtərəfli inkişafı, demokratiyanın inkişafı məhz bu məqsədi daşıyır.

Mən tam əminəm ki, əgər biz Azərbaycanda güclü iqtisadi və siyasi potensial yaratmaq istəyiriksə, Azərbaycanda həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə aparılmalıdır. Biz bilirik ki, bəzi ölkələrdə belə fikir var ki, öncə gərək iqtisadiyyat möhkəmlənsin, güclü iqtisadi baza formalaşsın, ondan sonra demokratikləşmə proseslərinə daha böyük təkan verilə bilər, yaxud bu istiqamətdə hansısa daha da cəsarətli addımlar atıla bilər. Mən bu fikrə şərik deyiləm. Mən düşünürəm ki, bu iki proses paralel şəkildə getməlidir. Əgər Azərbaycanda demokratiya tam şəkildə bərqərar olmasa, azad cəmiyyət yaranmasa, bizim iqtisadi uğurumuzun heç bir əhəmiyyəti olmayacaqdır. Əgər iqtisadi nəzarət yoxdursa, əgər azadlıq yoxdursa və ölkə demokratik deyilsə, uğurlarımız nə qədər olursa-olsun, bizim təbii sərvətlərimiz olsun, yaxud neft kəmərlərimiz olsun, büdcəmiz artsın – bunun heç bir əhəmiyyəti olmayacaqdır.

Biz bəzi neft hasil edən ölkələrin təcrübəsini öyrənmişik və görürük ki, harada uğur var, harada vəziyyət yaxşı deyildir. Bunu görmək, müqayisə etmək və işləri bu istiqamətdə aparmaq lazımdır. Mənim siyasətim bundan ibarətdir və bu günə qədər atılmış bütün addımlar məhz bu məqsədi daşıyır: güclü iqtisadiyyat yaratmaq, iqtisadi potensialı möhkəmləndirmək, cəsarətli iqtisadi islahatlar aparmaq və eyni zamanda, Azərbaycanda demokratik prosesləri sürətləndirmək.

Bu istiqamətdə parlament seçkilərinin çox böyük əhəmiyyəti vardır. Əlbəttə, başqa addımlar da atılır. Parlament seçkiləri ərəfəsində görülmüş işlər, yeni Seçki Məcəlləsinə edilmiş dəyişikliklər və başqa yeniliklər artıq bir səviyyə yaratdı. Bundan sonra Azərbaycan artıq bu səviyyədən aşağı enməyəcəkdir. Bundan sonra daha böyük addımlarla irəliləyəcək, daha mütəşəkkil qaydada seçkilər keçiriləcəkdir və əminəm ki, bu seçkilərdə bizi narahat edən qanun pozuntuları aradan qaldırılacaqdır.

İndiki seçkilərdə prezidentin göstərişlərinə əməl etməyən insanlar cəzalandırıldı və bu proses davam edəcəkdir. Hamı

bilməlidir ki, əgər mən bəyan edirəmsə – bunu bir dəfə, iki dəfə yox, rayonlarda olduğum zaman bütün görüşlərdə, burada keçirdiyim toplantılarda vurğulamışdım – gərək heç kəs müdaxilə etməsin, yerli icra orqanları seçki prosesinə müdaxilə etməsinlər. Seçkilər şəffaf keçirilməlidir. Heç bir namizədə problem yaradılmamalıdır. Hamı eyni, bərabər hüquqa malik olmalıdır. Amma məni eşitməyən, göstərişlərimə əməl etməyən məmurları mən cəzalandırdım. Artıq bəziləri həbs olunub, bəziləri işdən çıxarılıb və bu proses davam edəcəkdir.

Bu seçkilərə media tərəfindən böyük diqqət göstərilmişdir. Yəqin bu da təbiidir. Xüsusilə xarici telekanallar və qəzetlər, digər informasiya agentlikləri bu seçkilərə böyük maraq göstərirdilər. Yəqin siz də o yazıları, məlumatları izləmisiniz. Seçkilərə hələ bir neçə ay qalmış müxtəlif fərziyyələr irəli sürülürdü ki, görəsən Azərbaycanda növbəti inqilab olacaq, yoxsa yox. Bəziləri yazırdılar ki, olacaq, bəziləri yazırdılar ki, olmayacaqdır. Mən bu barədə öz fikrimi dəfələrlə, hələ bir neçə ay bundan əvvəl, seçki kampaniyası başlayan gün ifadə etmişəm. Bu gün həyat göstərir ki, mən haqlıyam. Çünki inqilabı, yaxud da çevrilişi şərtləndirən amillər var. Ümumiyyətlə, bu hadisə inqilabmı, çevrilişmi deməkdə, əlbəttə, hər bir insanın, yaxud təşkilatın yaşamasından asılıdır. Əgər buna müsbət hal kimi baxırlarsa, deyirlər ki, bu inqilabdır. Əgər bunu qəbul etmirlərsə, deyirlər ki, bu çevrilişdir. Başqa ölkələrdə, postsovet ölkələrində baş vermiş hadisələrə qiyməti, yəqin ki, o ölkələrdə yaşayan xalqlar verəcəklər. Ona görə mən bu məsələyə toxunmaq istəməzdim. Amma Azərbaycana gəldikdə, əlbəttə ki, burada çevriliş etmək üçün müəyyən amillər lazım idi və onlar da Azərbaycanda yoxdur.

İlk növbədə, Azərbaycanda iqtidarla xalq arasında uçurum olmalıydı. Bizdə əksinə, xalqla iqtidar arasında birlik var, inam var. Biz bunu gündəlik fəaliyyətimizlə daha da möhkəmləndiririk. Digər tərəfdən, çevriliş etmək üçün güclü müxalifət lazımdır və cəsarətli müxalifət lideri lazımdır. Azərbaycanda nə o var, nə də bu. Bundan başqa, bunu etmək üçün

təkcə müxalifətin güclü olması kifayət etməz. Ciddi ictimai bir fikir də olmalıdır. İctimai, yaxud da sosial sifariş olmalıdır. Bu, Azərbaycanda bütövlükdə yoxdur və mövcud deyildir. Azərbaycan ictimaiyyəti bunu dəstəkləmir. Parlament seçkiləri, onun nəticələri və seçkilərdən sonra baş vermiş hadisələr bunu bir daha təsdiqləyir. Əksinə, Azərbaycanda vətəndaş cəmiyyəti formalaşır. Azərbaycanda, sözün əsl mənasında, vətəndaş həmrəyliyi mövcuddur. Mən deyə bilmərəm ki, Azərbaycanda siyasi həmrəylik var. Yox. Əfsuslar olsun, biz hələ o səviyyəyə çatmamışıq, gərək siyasi mədəniyyət o səviyyəyə çatsın ki, siyasi partiyalar, yaxud siyasi mübarizə aparan tərəflər bu mübarizəni sivil qaydada aparsınlar. Ancaq Azərbaycanda vətəndaş həmrəyliyi var. Azərbaycan iqtidarının apardığı siyasət xalq tərəfindən bəyənilir və dəstəklənir. Ona görə Azərbaycanda çevrilişi təmin edəcək heç bir amil yox idi. Ancaq buna baxmayaraq, biz bilirik ki, media mənsubları bəzi hallarda sensasiya axtarışındadırlar. Bilirəm, buraya gəlmiş çoxlu xarici jurnalistlər bir az məyus oldular ki, Azərbaycanda bu hadisəni görmədilər. Ancaq mən dedim, onlara deyin ki, üzr istəyirik, əgər bu hadisələri görmək istəyirlərsə, getsinlər bunu öz ölkələrində görsünlər. Bu kimin üçünsə, tutaq ki, bir sensasiyadır, yaxud hadisədir, bizim üçün isə bu bizim həyatımızdır, müqəddəratımızdır. Azərbaycanda hökm sürən sabitlik, ictimai-siyasi asayiş çox möhkəm qorunur və saxlanılır.

Bilirəm ki, seçkilərdən sonra müxalifətin bəzi mitinq cəhdləri də böyük maraq doğururdu və bəzi jurnalistlər artıq başlıqları da hazırlamışdılar ki, sabah öz qəzetlərində, yaxud telekanallarında çevriliş haqqında məlumat verəcəklər. Ancaq Azərbaycan xalqı bir daha göstərdi ki, o kimin tərəfindədir və seçkilər bunu bir daha sübut etdi. Bəziləri, müxtəlif ictimai əsaslarla fəaliyyət göstərən təşkilatlar hesab edirdilər ki, bu seçkilərdən sonra Azərbaycan iqtidarı və onun prezidenti zəifləyəcək və belə olan halda, Azərbaycanda hansısa işləri görmək daha da asan olacaqdır. İqtidar yaralı, zəif olacaq və bunun nəticəsində burada müəyyən maraqlar təmin ediləcəkdir.

Amma həyat göstərdi ki, Azərbaycan iqtidarı bu seçkilərdən sonra daha da möhkəmləndi.

Bir də bilirsiniz ki, on ay ərzində iqtisadiyyatı 23 faiz artan ölkələrdə, adətən, çevrilişlər baş vermir. Bizim uğurlu iqtisadi, sosial siyasətimiz xalq tərəfindən bəyənilir və dəstəklənir. Azərbaycanda yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşübdür. Keçən il təxminən 9 faiz aşağı düşübdür. Artıq mənə verilmiş ilkin məlumatlara görə, bu il də kəskin şəkildə aşağı düşəcəkdir. 300 mindən artıq yeni iş yerlərinin yaradılması, iqtisadi islahatlar, sənaye istehsalının 30 faiz artması heç bir ölkədə yoxdur. On ayda ümumi daxili məhsulun 23 faiz artması heç bir ölkədə yoxdur. Maaşlar qalxır, tələbələrin təqaüdləri qalxdı, müxtəlif kateqoriyalı insanların maaşları qalxır. Bu proses davam edəcəkdir. Bizim büdcəmiz 67 faiz artıb, 4 milyard dollara gəlib çatıbdır. İki il bundan əvvəl 1 milyard dollar səviyyəsində idi. İnvestisiya xərclərimiz artır, geniş abadlıq, quruculuq işləri aparılır. Rayonlar abadlaşır, ən ucqar kəndlərə yollar salınır, su, neft kəmərləri çəkilir, elektrik stansiyaları, məktəblər, xəstəxanalar tikilir. Bunu görməmək mümkün deyildir. Bunu biz də görürük, insanlar da görürlər.

Mənim məqsədim ondan ibarətdir ki, bu gözəl makroiqtisadi göstəriciləri biz insanların gündəlik həyatının normasına çevirək. Çünki adi vətəndaşı ümumi daxili məhsul və onun yüksəlməsi o qədər də maraqlandırmır. Bəlkə də bilmir bu nədir. Onu real həyatı, güzəranı maraqlandırır. Biz bunu təmin etməliyik. Ancaq bunu mərkəzdən etmək mümkün deyildir. Biz bütün qərarları burada qəbul edirik. Maliyyə nizam-intizamını möhkəmləndiririk. Büdcə gəlirlərini artırırıq. Azərbaycanda iqtisadi islahatların aparılması üçün lazımi qərarlar qəbul edirik. Ancaq əgər yerlərdə rüşvətxor məmurlar buna imkan yaratmırsa, onda bizim heç bir planımız, proqramımız həyatda öz əksini tapa bilməz. Ona görə mənim tərəfimdən son müddət ərzində bir çox rayonlarda icra hakimiyyətinin başçıları dəyişdirildi və indi onların, mənim təyin etdiyim insanların tam əksəriyyəti yaxşı işləyir.

Yenə də parlamentdə bu demokratik inkişaf prosesinə, ictimai nəzarət məsələsinə qayıdıram. İctimai nəzarət olmalıdır, o cümlədən parlament tərəfindən ki, büdcə xərclərindən necə istifadə olunur. 4 milyard dollar son hədd deyildir. Biz bilirik ki, bu, gələcəkdə 5 milyard dollara çatacaq, ondan sonra daha böyük olacaqdır. Xərclər artdıqca, nəzarət də güclənməlidir. Bu, mütləq və mütləq olmalıdır. Çünki hər bir vətəndaş bunu öz gündəlik həyatında hiss etməlidir. Mən şübhə etmirəm ki, qarşıda qoyulmuş bütün vəzifələr uğurla icra ediləcəkdir. Son iki ilin təcrübəsi bunu əyani şəkildə göstərir. Nəyi demişiksə, onu da etmişik. Bilirdik ki, nəyi edə bilməyəcəyik, onu deməmişik. Onu sonra deyəcəyik. Nə vaxt ki, buna zəmin yaranacaqdır. Heç vaxt, heç bir populist vədlə çıxış etməmişik. Bəzi müxalifət nümayəndələrindən fərqli olaraq, deməmişik ki, biz hər bir vətəndaşa 200 dollar pul verəcəyik. Çünki biz öz insanlarımıza, vətəndaşlarımıza hörmətlə yanaşırıq.

Biz bilirik ki, Azərbaycan xalqının çox böyük intellektual potensialı var. Azərbaycan xalqı dünyada gedən prosesləri çox yaxşı bilir. Əgər onlara deyirlərsə ki, hər bir vətəndaşa 200 dollar pul veriləcək, sadəcə, onlar bunu təhqir kimi qəbul edirlər ki, görün Azərbaycan xalqı haqqında nə fikirdədirlər? Əgər onlar hakimiyyətə gəlsələr, Azərbaycan xalqı ilə necə rəftar edəcəklər? Biz bunu 1990-cı illərin əvvəllərində görmüşük. Azərbaycan xalqı da bunu görübdür, yaxşı xatırlayır və Azərbaycanı bərbad vəziyyətə salan, bu ölkəni talayan, Azərbaycanda vətəndaş müharibəsini başlayan, Azərbaycanı uçuruma sürükləyən qüvvələrə Azərbaycan siyasətində heç vaxt yer olmayacaqdır. Azərbaycan xalqı buna heç vaxt imkan verməyəcəkdir.

Bir-iki kəlmə də xarici siyasət haqqında demək istəyirəm. Çünki parlamentin funksiyası həm də parlamentlərarası əlaqələri möhkəmləndirməkdən ibarətdir. Artıq bizim müxtəlif beynəlxalq təşkilatlarla çox səmərəli əməkdaşlığımız var. Mən hesab edirəm ki, parlament bu məsələyə böyük diqqət göstərməlidir. Mən də, yəqin siz də xarici səfərlərdə bunun

şahidi oluruq ki, Azərbaycan haqqında məlumat kifayət qədər deyildir. Azərbaycan həqiqətləri barədə dünya ictimaiyyətinin o qədər də xəbəri yoxdur. Ona görə hər bir nümayəndə heyətinin səfəri həm də bu məqsədi daşımalıdır. Təsadüfi deyil ki, son iki il ərzində bir sıra xarici ölkələrdə Azərbaycanın səfirlikləri açılıbdır. Bu o məsqədi daşıyır. Yəni bir tərəfdən, diplomatiyamız daha fəal, çevik olsun, digər tərəfdən, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə olduğu kimi çatdırılsın. Ona görə parlamentin də bu istiqamətdə böyük addımları olmalıdır. Bütövlükdə, parlamentin bu sahədə fəaliyyəti təqdirəlayiqdir və daha da güclənməlidir.

Azərbaycanın xarici siyasəti dəyişməz olaraq qalır. Biz öz siyasətimizi ilk növbədə, Azərbaycan xalqının maraqları üzərində qururuq və bu siyasət bundan sonra da davam etdiriləcəkdir. Biz bütün dostlarımızla, tərəfdaşlarımızla yaxşı münasibətlərin olmasını istəyirik. Mən çox məmnunam ki, qonşularımızla münasibətlərimiz çox yüksək səviyyədədir və gündən-günə güclənir. Bu çox vacibdir. Çünki biz burada, bu bölgədə yaşayırıq. Qonşularımız arasında yaşayırıq. Əlbəttə, qonşularla yaxşı münasibətlərin qurulması ölkədə və bölgədə sabitliyin, əməkdaşlığın əsaslarını möhkəmləndirir. Digər tərəfdən, Azərbaycan regional müstəvidə çox fəal iştirak edir və mübaliğəsiz demək olar ki, artıq regionda lider dövlətə çevrilib və öz mövqelərini möhkəmləndiribdir.

Bizim Avroatlantik strukturları ilə əməkdaşlığımız çox səmərəlidir və müsbətdir. Bu istiqamətə böyük diqqət göstərilir və xarici siyasətimizin bu istiqaməti növbəti illərdə daha da güclənməlidir. Avropa İttifaqı ilə əlaqələr yüksək səviyyədədir. Azərbaycan beş ildir Avropa Şurasının üzvüdür və Avropa Şurası ilə artıq çox gözəl əməkdaşlıq edir. Onu da demək istəyirəm ki, bunu indi yeni seçilmiş deputatlar da bilsinlər. Avropa Şurası yalnız Azərbaycan üzrə məruzəçilərdən ibarət deyildir. Bunu da bilin.

Avropa Şurası o təşkilatdır ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə qəbul edibdir. Bax,

o qətnamədə Ermənistanı işğalçı dövlət kimi ifşa edibdir. İlk dəfə olaraq yazılmışdır ki, Ermənistan! Yazılmamışdır ki, hansısa erməni qüvvələri, yaxud ermənilər. Yazılmışdır ki, Avropa Şurasının bir ölkəsi Avropa Şurasının digər ölkəsinə qarşı təcavüz edibdir. Bu təcavüz nəticəsində 20 faiz torpaq işğal altına düşüb, 1 milyondan artıq qaçqın-köçkün yaranıbdır. Ona görə biz bu istiqaməti gərək yaxından təqib edək və Avropa Şurası ilə əməkdaşlığımızı daha da möhkəmləndirək.

İslam Konfransı Təşkilatı ilə bizim çox gözəl əməkdaşlığımız var. İslam Konfransı Təşkilatı o təşkilatdır ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair öz qərarlarını dəfələrlə ortaya qoymuşdur. Bütövlükdə, islam dünyası ilə bizim münasibətlərimiz daha da fəal olmalıdır. İslam həmrəyliyi prinsipləri daha da geniş tətbiq olunmalıdır. Şübhəsiz ki, bu təşkilatla bizim əməkdaşlığımız prioritet xarakter daşıyır.

Azərbaycan MDB çərçivəsində fəaliyyət göstərir və öz fəaliyyətini davam etdirəcəkdir. Mən MDB-nin zirvə görüşlərində iştirak edirəm. O görüşlər də imkanlar yaradır ki, MDB ölkələrinin dövlət başçıları ilə ikitərəfli formatda müzakirələr aparılsın. Nüfuzu artmaqda olan GUAM təşkilatında Azərbaycan fəal rol oynayır. Hamımız yaxşı bilirik ki, GUAM-ın yaranmasında Azərbaycanın və onun lideri Heydər Əliyevin ən böyük rolu olmuşdur. Bu gün bu təşkilat, necə deyərlər, yeni bir müstəviyə qədəm qoyur. Təşkilatın yeni perspektivləri açılır və əlbəttə, Azərbaycanın bu təşkilatda iştirakı təşkilatın daha da güclənməsinə xidmət göstərir.

Əlbəttə, bizim üçün ən ağrılı, ən problemli olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bildiyiniz kimi, danışıqlar aparılır. Prezidentlər, xarici işlər nazirləri görüşürlər. Müsbət hal ondan ibarətdir ki, artıq danışıqlar Praqa prosesi çərçivəsində aparılır. Praqa prosesi də hamımız bilirik ki, mərhələli həll deməkdir. Bu həmişə bizim mövqeyimiz olubdur. Həmişə demişik ki, Dağlıq Qarabağ problemi yalnız mərhələli həll əsasında öz həllini tapa bilər. Bu

gün bu istiqamətdə işlər aparılır. Müxtəlif variantlar müzakirə olunur.

Deyə bilərəm ki, Minsk qrupunun fəaliyyəti son zamanlar daha da gözəgörünən olubdur. Bu da təqdirəlayiq bir haldır. Minsk qrupunun fəaliyyəti onu göstərir ki, həqiqətən, indi Minsk qrupunun və onun həmsədrlərinin marağı var ki, bu məsələ öz həllini tapsın. Ancaq istəyirəm indi burada öz mövqeyimi bir daha bildirim. Bunu həm Minsk qrupuna, həm də Ermənistan rəhbərliyinə, bu məsələ ilə məşğul olan bütün başqa tərəflərə demişəm, bu gün də deyirəm. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Başqa heç bir variant müzakirə olunmur. Başqa heç bir variant nəzərdən keçirilmir. Bu bizim prinsipial mövqeyimizdir.

Mən bunu çox müsbət hal kimi qiymətləndirirəm ki, artıq bu tezis münaqişənin həlli ilə məşğul olan tərəflərdə də öz çəkisini artırır. Bu bizim prinsipial mövqeyimizdir. Bu o həddir ki, bu həddən o tərəfə biz heç vaxt, heç bir güzəştə gedə bilmərik. Bəzi hallarda deyirlər ki, qarşılıqlı güzəştlər olmalıdır. Mən sual verirəm, bizim nəyimiz var ki, onu ermənilərə güzəştə gedək? Bizim torpaqlarımız işğal altındadır, bizim soydaşlarımız qaçqın-köçkün şəraitində yaşayırlar. Bizim Ermənistana məxsus nəyimiz var ki, onlara qaytaraq? Ona görə qarşılıqlı güzəştlər deyəndə, gərək bilək, biz nəyi nəzərdə tuturuq. Azərbaycan tərəfindən indiki şəraitdə, Azərbaycanın gücləndiyi bir dövrdə, hərbi büdcəmiz 600 milyon dollar səviyyəsinə qalxdığı bir dövrdə – bu da son hədd deyil – bölgədə liderlik mövqelərini möhkəmləndirdiyi bir dövrdə on ildən artıq danışıqların aparılması da böyük güzəştdir. Bunu hamı bilməlidir.

Bizim səbrimiz tükənməz deyildir. Biz öz sülh siyasətimizi bəyan etmişik. Bizim bu danışıqlarda qalmağımız da onu göstərir ki, məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu gün bir daha deyirəm, hələ ki, sülh prosesinin potensialı tükənməyibdir. Ona görə gərək biz bundan istifadə edək. Amma nə vaxta qədər?! On ildən artıqdır atəşkəs rejimində yaşayırıq. On

ildən artıqdır danışıqlar gedir və heç bir nəticə yoxdur. İndi biz diplomatik uğurlardan danışsaq, onun hələlik heç bir əhəmiyyəti yoxdur. Baxmayaraq ki, Birləşmiş Millətlər Təşkilatı artıq bu məsələ ilə bağlı ciddi məşğul olur və gündəliyə məsələ salınıbdır. ATƏT-in faktaraşdırıcı missiyası bizim xahişimizlə və təkidimizlə bölgəyə, işğal olunmuş torpaqlara öz nümayəndələrini göndərmişdir. Orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Avropa Şurası tərəfindən çox müsbət qətnamə qəbul edilmişdir. Bütün bunlar bizim diplomatik uğurlarımızdır. Ancaq əgər məsələ öz həllini tapmırsa, bunların heç bir əhəmiyyəti yoxdur. Biz çalışırıq və çalışacağıq ki, bütün imkanlardan istifadə edib məsələni sülh yolu ilə həll edək. Ancaq eyni zamanda, biz güclü olmalıyıq. Güclü olan dövlət hər şeyə qadirdir. Biz iqtisadi potensialımızı gücləndirməliyik, büdcəmizi artırmalıyıq, siyasi çəkimizi artırmalıyıq və Azərbaycan güclü dövlət olandan sonra istənilən məsələni asanlıqla həll edə bilər.

Əziz dostlar!

Hörmətli deputatlar!

Mən sizin vaxtınızı çox almaq istəmirəm. Düzdür, mən bura üçün bir az darıxmışam. İki ildir ki, buradan ayrılmışam. Amma onu da bilirsiniz ki, mənim həyatımın səkkiz ili deputat kimi, bu binada keçibdir. Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir. Burada əyləşənlərin bir çoxu ilə biz birlikdə işləmişik, çalışmışıq və bu gün də işləyirik. Baxmayaraq ki, mən artıq başqa vəzifədəyəm, amma bizim əlaqələrimiz davam edir. Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir – ölkəmizi möhkəmləndirmək, gücləndirmək, Azərbaycan xalqının rihaf halını yaxşılaşdırmaq, güclü, zəngin dövlət yaratmaqdır.

Mən bu gün bu kürsüdən çıxış edərkən, əlbəttə, o illəri də xatırlayıram, öz fəaliyyətimi xatırlayıram. Bir daha deyə bilərəm ki, müstəqil Azərbaycan Respublikasının millət vəkili, Milli Məclisin deputatı olmaq böyük şərəfdir və böyük məsuliyyətdir. Mən sizə arzu edirəm ki, bu şərəfli missiyanızı

uğurla icra edəsiniz, səmərəli işləyəsiniz və doğma vətənimizin çiçəklənməsi üçün öz töhfənizi verəsiniz. Sağ olun, sizə uğurlar arzulayıram.

**M u r t u z  Ə l ə s g ə r o v:** Möhtərəm cənab Prezident!

İcazə verin, çox dərin və məzmunlu çıxışınıza görə Sizə öz adımdan, Milli Məclis deputatları adından minnətdarlığımı bildirim. Əmin olduğumu bildirmək istəyirəm ki, Sizin bu çıxışınızda qaldırılan məsələlər, müddəalar üçüncü çağırış Milli Məclisin iclaslarında daim rəhbər göstəriş kimi nəzərə alınacaqdır.

İndi isə gündəliyin ikinci məsələsinə keçirik. Növbəti məsələ Hesablayıcı Komissiyanın seçilməsidir. Milli Məclisin daxili nizamnaməsinin ikinci maddəsinə görə, Hesablayıcı Komissiyanın tərkibinə namizdələri ilk iclasa sədrlik edən göstərir. Ona görə də Hesablayıcı Komissiyanın tərkibini deputatların diqqətinə təqdim edirəm: Məlahət Həsənova, Zahid Orucov, Rafael Hüseynov, Xanhüseyn Kazımlı, Mixail Zabelin, İsa Həbibbəyli, Qüdrət Həsənquliyev.

*Nizamnaməyə əsasən, namizədlər bütövlükdə səsə qoyularaq təsdiq edildilər.*

İndi isə üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının əsas məsələsinə, yəni Milli Məclisin sədrinin seçilməsi məsələsinə keçirik. Milli Məclisin daxili nizamnaməsinin 31-ci maddəsinə görə, Milli Məclisin sədri vəzifəsinə namizədi deputatlar irəli sürə bilər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Azı 10 deputat tərəfdar çıxdığı halda, namizədlərin adları səsvermə bülleteninə daxil olunur. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir. Milli Məclisin ən qocaman deputatı və parlament seçkilərindən ən çox deputat mandatı qazanmış Yeni Azərbaycan Partiyası sədrinin müavini kimi, mən bu gün sizin qarşınızda Milli Məclisin sədri vəzifəsinə deputat Oqtay Əsədovun namizədliyini irəli sürürəm. Hesab edirəm ki, bu vəzifəyə Oqtay Əsədov tamamilə layiqdir. Siz onu tanıyırsınız, birinci və ikinci çağırış Milli Məclisin deputatı olmuşdur. Ona görə onu təklif

edirəm. Mən 9 ildən artıqdır ki, Milli Məclisə sədrlik edirəm. İndi bu kürsüyə artıq qocaman deputat kimi qalxdım. Güman edirəm ki, cavan deputat kimi gəlmişdim, indi isə qocaman deputat kimi gedirəm.

Cənab Prezident, bütün fəaliyyətim boyu gördüyüm işlər haqqında Sizə dəfələrlə hesabat vermişəm. Qısaca olaraq demək istəyirəm ki, bütün gördüyüm işlər, həyata keçirdiyimiz tədbirlər sizinlə birlikdə olub və mən həmişə Milli Məclisin hər bir deputatı ilə bilavasitə məsləhətləşmişəm. Çalışmışam ki, Milli Məclisin işi möhtərəm prezidentimiz İlham Əliyevin tələb etdiyi səviyyəyə qaldırılsın. Siz bilirsiniz ki, mən Yeni Azərbaycan Partiyasının sıralarında olmağımla fəxr edirəm.

Mən uzun illər Azərbaycanın ümummilli lideri, ulu öndərimiz Heydər Əliyevin yaxın silahdaşlarından olmuşam. Heydər Əliyev bütün həyatı boyu Azərbaycanı müstəqil dövlət kimi görmək arzusu ilə yaşayırdı və fəxr edirəm ki, indi onun layiqli davamçısı, müdrik prezidentimiz İlham Əliyev bu yolda öz fəaliyyətini ləyaqətlə davam etdirir. Hesab edirəm ki, mənim təklifimi qəbul edəcəksiniz. Qocaman deputat kimi, mən ən layiqli adamı Milli Məclisin sədrliyinə namizəd göstərdim və güman edirəm ki, Siz o namizədə öz səsinizi verəcəksiniz.

Yenə də deyirəm, mən 9 il sizin gözünüzün qabağında işləmişəm və gördüyüm işlər haqqında hər il sizə hesabat vermişəm. İndi isə yaşımla bağlı istəyirəm istirahət edəm. Eyni zamanda, sizinlə birlikdə Milli Məclisdə olacaq, deputat kimi fəaliyyət göstərəcəyəm. Möhtərəm Prezidentimiz, partiyanın sədri kimi, mən buna görə Sizə, bütün deputat həmkarlarıma öz dərin minnətdarlığımı bildirirəm.

Əgər başqa təklifiniz yoxdursa, deməli, Milli Məclisin sədri vəzifəsinə yalnız bir nəfərin – deputat Oqtay Əsədovun namizədliyi göstərilir.

**Oqtay Əsədov:** Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli deputatlar, xanımlar və cənablar!

İcazə verin, Azərbaycan Respublikası Milli Məclisinin sədri vəzifəsinə namizədliyimi irəli sürmüş deputat həmkarlarıma öz

səmimi minnətdarlığımı bildirim. Hamınızı əmin edim ki, əgər Milli Məclis mənə etimad göstərərsə, bu şərəfli vəzifəni layiqincə yerinə yetirməyə çalışacağam.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin qabaqcıl dünya dövlətləri sırasına çıxarılması üçün görülən işlərə var gücümlə kömək göstərəcək və buna çalışacağam. Azərbaycanın inkişafının indiki mərhələsində parlamentin üzərinə çox böyük və məsul vəzifələr düşür. Bu vəzifələrin layiqincə yerinə yetirilməsi üçün Milli Məclisdə bütün başqa tədbirlərlə yanaşı, çevik idarəçilik mexanizminin tətbiq edilməsi də zəruridir.

Parlamentimiz öz işini daha da təkmilləşdirəcək demokratik dünya dövlətlərinin qanunvericilik orqanları səviyyəsinə yüksəlməlidir. Əmin ola bilərsiniz ki, mənə etimad göstərdiyiniz təqdirdə, möhtərəm prezidentimiz cənab İlham Əliyevin siyasi xəttinin parlament səviyyəsində həyata keçirilməsi mənim başlıca məqsədim olacaqdır. Bu vəzifəni yerinə yetirmək üçün bütün bacarığımı, biliyimi sərf edəcəyəm.

Diqqətinizə görə minnətdaram.

**İlham Əliyev:** Mən istəyirəm ki, biz Murtuz müəllimə bir daha öz təşəkkürümüzü bildirək. Murtuz müəllim çox görkəmli siyasətçi, hüquqşünas, Yeni Azərbaycan Partiyasını yaradanlardan biridir. Uzun illər Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur. Murtuz müəllim bütün illər ərzində Azərbaycan dövlətçiliyinə xidmət etmişdir. Parlamentə 9 il ərzində çox böyük məharətlə rəhbərlik etmişdir. Həmişə öz mövqeyini ortaya qoymuşdur. Əlbəttə, parlament qanunvericilik orqanıdır. Ancaq eyni zamanda, siyasi mübarizə meydanıdır və bu siyasi mübarizədə Murtuz müəllim həmişə birmənalı mövqedə idi. Onun fəaliyyəti nəticəsində son illər ərzində, 9 il ərzində parlament çox böyük qanunlar qəbul etmişdir. İki mindən çox qanun qəbul olunmuşdur. Biz müxtəlif konvensiyalara qoşulmuşuq.

Bu gün Azərbaycanda yeni bir siyasi mədəniyyətin, yeni bir ənənənin təməli də qoyuldu. Murtuz müəllim özü yeni spikerin namizədliyini irəli sürdü və bu gün Oqtay Əsədov spiker seçildi. Mən xahiş edirəm, biz hamımız Murtuz müəllimi bir daha təbrik edək. O, deputat kimi, öz fəaliyyətini davam etdirəcək və bizimlə birlikdə səmərəli işləyəcəkdir. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Deputat Murtuz Ələsgərov prezident İlham Əliyevə xoş sözlərinə görə dərin minnətdarlığını bildirdi.*

**O q t a y Ə s ə d o v:** Zati-aliləri möhtərəm cənab Prezident!

Hörmətli deputatlar!

Mənə etimad göstərib Azərbaycan Respublikası Milli Məclisinin sədri seçdiyinizə görə səmimi-qəlbdən sizə minnətdarlığımı bildirirəm. Mən parlament çoxluğunu təşkil edən, ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının nümayəndəsiyəm.

Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlı olan, onun layiqli davamçısı möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə günbəgün inkişaf edib möhkəmlənən bu partiyanın sıralarında olmağımla fəxr edirəm. Son 5 ildə sizinlə bərabər mən də bu partiyanın siyasi xəttinin Milli Məclisdə həyata keçməsi üçün var qüvvəmi sərf etmişəm. Bundan sonra da əlimdən gələni edəcəyəm. Ölkəmizin qanunvericilik orqanı öz fəaliyyətini daha da təkmilləşdirəcək, möhtərəm prezidentimizin arzuladığı kimi, qabaqcıl dünya ölkələrinin parlamentləri səviyyəsinə yüksələcəkdir.

Hörmətli deputatlar, 2005-ci ildə parlament seçkiləri ölkəmizin demokratik inkişafında mühüm bir mərhələ oldu. Milli Məclisə seçkilərin azad, ədalətli və şəffaf şəraitdə keçirilməsi üçün Azərbaycan dövlətinin rəhbərliyi tərəfindən bütün zəruri tədbirlər görülmüşdür. Azərbaycan xalqı və dünya ictimaiyyəti prezident İlham Əliyevin müasir demokratik standartlara cavab verən seçkilərin keçirilməsinə yönəlmiş

siyasi iradəsinin reallığa çevrilməsini məmnunluqla qarşılamışdır. Ölkəmizdə bərqərar olan demokratik mühitdə keçirilmiş seçkilər nəticəsində xalqın etimadını qazanan namizədlər parlamentin üzvü mandatını əldə etmişlər. Seçkilər nəticəsində Yeni Azərbaycan Partiyasının üzvləri parlamentdə yerlərin əksəriyyətini qazanmışlar. Bu fakt prezident İlham Əliyev başda olmaqla, partiyamızın xalq qarşısında çox böyük nüfuza malik olduğunu nümayiş etdirmişdir.

Parlament seçkiləri demokratiyanın təntənəsinə çevrilmiş, ölkəmizin Avropa xalqları ailəsinə inteqrasiyası yolunda irəliyə doğru mühüm addım olmuşdur. Azərbaycan parlamentində xalqımızın özünün seçdiyi insanlar təmsil edilmişlər. Bu parlament qarşısında duran bütün vəzifələrin öhdəsindən gəlməyə tamamilə qadirdir.

Beləliklə, üçüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisi fəaliyyətə başlamışdır. Bu münasibətlə icazə verin, mən də üçüncü çağırış Milli Məclisə seçilmiş bütün deputatları ürəkdən təbrik edim və onlara öz işlərində böyük uğurlar arzulayım.

Yeri gəlmişkən, bir məsələnin üzərində dayanmaq istəyirəm. Azərbaycanda olduğu kimi, dünyanın bütün başqa ölkələrində də seçkilər keçirilir. Hər yerdə qalib gələnlər də, məğlubiyyətin acısını dadanlar da olur. Amma az-az ölkələr ola bilər ki, orada seçkini uduzan qüvvələr öz məğlubiyyətini Azərbaycanın dağıdıcı radikal müxalifəti kimi, bu qədər həsəd və qısqanclıq hissləri ilə qarşılasınlar. Xalq arasında dayağı olmayan bu qüvvələr indi də seçkinin nəticəsini şübhə altına almaq, Azərbaycan iqtidarının fəaliyyətinə qara yaxmaq, müxtəlif beynəlxalq təşkilatlara üz tutmaq istəyirlər. Amma onların bütün bu səyləri əbəsdir. Azərbaycanda siyasi radikalizm və ekstremizm dövrünə çoxdan son qoyulmuşdur. Heç bir qüvvə böyük əzm, iradə və uzaqgörənlik, ağır zəhmət hesabına yaradılmış ictimai-siyasi sabitliyi pozmağa, bir vaxtlar baş verdiyi kimi, cürbəcür çirkin üsullardan istifadə edərək,

küçələrdən hakimiyyətə gəlməyə qadir deyildir. Heç kəs Azərbaycanı demokratik inkişaf yolundan döndərə bilməz.

Hörmətli deputatlar!

İkinci çağırış Milli Məclis artıq tarixə çevrilmişdir. Ötən dövrdə parlament səmərəli işləmişdir. Milli Məclisin 311 iclası keçirilmiş, ümumən 1042 akt, o cümlədən 909 qanun və 133 qərar qəbul edilmişdir. Görülmüş işləri qeyd etməklə yanaşı, mən ölkəmizin qanunvericilik orqanı qarşısında dayanan vəzifələr haqqında öz mülahizələrimi söyləmək istəyirəm.

Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin işə başlaması ölkəmiz üçün çox əlamətdar bir dövrə təsadüf edir. Bu gün Azərbaycan Cənubi Qafqaz bölgəsində mühüm coğrafi-siyasi mövqe tutan, demokratik, hüquqi dövlət quruculuğu yolunda qazandığı uğurları ilə dünyanın diqqətini özünə cəlb edən gənc müstəqil, suveren bir dövlətdir. Əldə etdiyimiz nailiyyətlər göz qabağındadır. Bunları xalqımız da, dünya ictimaiyyəti də layiqincə qiymətləndirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dünyada analoqu olmayan bir sürətlə inkişaf edir. Ümumi daxili məhsul və dövlət büdcəsinin mədaxili ildən-ilə çoxalır. Bildiyiniz kimi, bu ilin dövlət büdcəsi 2 milyard 200 milyon yeni Azərbaycan manatı idi. Gələn ilin büdcəsi 3,5 milyard yeni Azərbaycan manatıdır. Dövlətimizin gəlirlərinin durmadan artması Azərbaycanın demokratik cəhətdən inkişaf etmiş qüdrətli bir dövlətə çevrilməsini, xalqımızın rifah halının daha da yüksəlməsini təmin edəcəkdir. Üçüncü çağırış Milli Məclisin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən quruculuq işlərinin hüquqi bazasının yaradılmasını təşkil etməkdir. Azərbaycanda dövlət hakimiyyətinin bir şaxəsi olan Milli Məclis özünün bütün fəaliyyəti ilə prezidentin daxili və xarici siyasətini bundan sonra da fəal surətdə dəstəkləyəcəkdir. Ölkədə uğurla davam etdirilən siyasi, iqtisadi, hüquqi, sosial islahatların, demokratikləşmə prosesinin hüquqi mexanizmini

daha da inkişaf etdirməli və təkmilləşdirməlidir. Parlamentin bütün fəaliyyəti Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğuna, vətəndaş cəmiyyətinin yaradılmasına, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsinə kömək göstərilməsinə yönəldiləcəkdir. Milli Məclis qanun yaradıcılığı və qanunvericilik fəaliyyətində qabaqcıl dünya təcrübələrindən, Avropa parlamentlərinin ənənələrindən bəhrələnməlidir.

Qanunvericilik hakimiyyəti səlahiyyətlərini həyata keçirərkən parlament Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına əsaslanmalı, öz fəaliyyətində demokratik, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsiplərini genişləndirməlidir. Qanun yaradıcılığı prosesində Milli Məclis Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı, mərkəzi və yerli dövlət orqanları, ölkənin aparıcı elm, təhsil və yaradıcılıq mərkəzləri ilə sıx qarşılıqlı əlaqə saxlamalıdır.

Parlamentdə qanun layihələrinin qəbulu zamanı beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmalıdır. Qanunvericilik proseslərinin səmərəliliyini artırmaq üçün Avropa dəyərləri milli dəyərlərimizlə üzvi şəkildə birləşdirilməlidir. Milli Məclis iqtisadiyyatda köklü dəyişikliklər aparılmasını, ölkəyə xarici sərmayələrin cəlb edilməsini, dövlətimizin neft strategiyasının həyata keçirilməsini, aqrar islahatların qanunvericilik bazasının möhkəmləndirilməsini, ordu quruculuğu, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin tənzimlənməsini, əhalinin sosial müdafiəsini, qaçqınlara və məcburi köçkünlərə qayğı göstərilməsini, ətraf mühitin mühafizəsini, qanunun aliliyinin təmin olunmasını, milli dəyərlərimizin qorunmasını, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını, mədəniyyətin, elm və təhsilin inkişaf etdirilməsini daim diqqət mərkəzində saxlamalıdır.

Məlum olduğu kimi, Azərbaycan Respublikası BMT-nin, Avropa Şurasının insan hüquqları və azadlıqları ilə bağlı bir sıra konvensiyalarına qoşulmuşdur. Zənnimcə, yeni parlamentin qarşısında duran ən vacib vəzifələrdən biri də insan hüquqları və azadlıqlarını təmin edən beynəlxalq hüquq normalarını milli

qanunvericiliyə daxil etməkdən ibarət olmalıdır. Parlament ölkəmizdə qətiyyətlə həyata keçirilən iqtisadi islahatların ardıcıl surətdə davam etdirilməsinə, özəlləşdirmənin genişləndirilməsinə, aqrar bölmədə ərzaq müstəqilliyinin möhkəmləndirilməsinə yönəldilən qanunların qəbul edilməsinə xüsusi diqqət verməlidir. Qüvvədə olan qanunvericiliyin yeni qəbul olunmuş Avropa standartlarına uyğunlaşdırılması üçün zəruri qanunvericilik aktlarını hazırlayıb qəbul etməlidir.

Milli Məclis ən böyük dərdimiz olan Dağlıq Qarabağ problеminin ölkəmizin ərazi bütövlüyünün qorunması şərtilə, dinc yolla nizama salınması üçün möhtərəm prezidentimizin həyata keçirdiyi siyasəti bundan sonra da fəal surətdə dəstəkləməli, Ermənistanın işğalı nəticəsində yurdundan didərgin düşmüş qaçqınların və məcburi köçkünlərin, eləcə də əhalinin aztəminatlı təbəqələrinin, xalqın güzəranın yaxşılaşdırılmasını, valideyn himayəsindən məhrum olmuş uşaqlara qayğı göstərilməsini təmin edən qanunvericilik aktlarını qəbul etməlidir. Dövlətimizin gənclər və qadın siyasətinin həyata keçirilməsi üçün zəruri qanunvericilik tədbirləri görülməlidir.

Parlament ölkədə müvəffəqiyyətlə həyata keçirilən hüquqi islahatların başa çatdırılmasına, ölkəmizin inkişafının təmin olunmasına yönəldilən yeni qanunlar qəbul etməlidir. Beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrin daha da möhkəmləndirilməsi və genişləndirilməsi sahəsində Milli Məclisin üzərinə məsuliyyət düşür. Ölkənin ali qanunvericilik orqanı Parlamentlərarası İttifaq, Avropa Şurası Parlament Assambleyası, ATƏT-in Parlament Assambleyası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası, MDB Parlamentlərarası Assambleyası, İslam Konfransı Təşkilatı, NATO Parlament Assambleyası, Avropa Parlamenti və digər beynəlxalq qurumlarla əlaqələri daha da genişləndirməlidir. Bir sözlə, görüləcək işlərimiz çoxdur.

Möhtərəm cənab Prezident!

Ötən dövrdə parlamentin fəaliyyətində Sizin qayğı və diqqətinizi həmişə hiss etmişik. Siz Konstitusiyada təsbit edilmiş

qanunvericilik təşəbbüsü hüququnuza əsaslanaraq, Avropa standartlarına uyğun qanunların hazırlanıb qəbul edilməsi işinə dəyərli töhfələr vermisiniz. Azərbaycan parlamentində qanun yaradıcılığı və qanunvericilik işinin daha da gücləndirilməsi və təkmilləşdirilməsi üçün həyata keçirdiyiniz tədbirləri xalqımız minnətdarlıq hissi ilə qarşılayır. Sizi əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi dövlətimizin və xalqımızın ehtiyacları və tələbatı üzərində quracaq, Milli Məclisin dünyanın inkişaf etmiş ölkələrinin parlamentləri səviyyəsinə yüksəlməsinə çalışacağam.

Hörmətli deputatlar!

Əminəm ki, sizinlə birlikdə səmərəli fəaliyyət göstərəcək, Azərbaycan Respublikası parlamentinin üzvü adını şərəflə qoruyacağıq.

Diqqətinizə görə minnətdaram.

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abişoviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Sizin seçkilərdə qazandığınız qələbə dövlətçiliyin və hüquq qaydasının möhkəmlənməsinə, cəmiyyətin həyatının bütün sahələrində demokratik dəyişikliklər aparılmasına yönəldilmiş xəttinizin bütün xalq tərəfindən dəstəkləndiyinə şəksiz sübutdur. Ürəkdən şadam ki, dost Qazaxıstan müstəqilliyə qovuşduqdan sonra Sizin rəhbərliyinizlə əsaslı siyasi və sosial-iqtisadi islahatların həyata keçirilməsində, Dünya Birliyinə dinamik inteqrasiyada böyük uğurlara nail olmuşdur.

Əminəm ki, birgə səylərimiz gələcəkdə də Azərbaycan ilə Qazaxıstan arasında ənənəvi dostluq, mehriban qonşuluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və genişlənməsinə, beynəlxalq və regional təşkilatlarda qarşılıqlı surətdə faydalı əlaqələrimizə yönəldiləcəkdir.

Hörmətli Nursultan Abişoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 dekabr 2005-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT PALATASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 dekabr 2005-ci il*

*ABŞ Ticarət Palatasının ölkələrimizin iqtisadi əməkdaşlığının inkişafında mühüm rol oynamasından məmnun qaldığını vurğulayan dövlətimizin başçısı dedi ki, Azərbaycanın iqtisadiyyatı inkişaf edir, büdcəsi artır, ikitərəfli əlaqələrimizin səviyyəsi bizi çox qane edir. Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq əvvəllər enerji sektoru ilə məhdudlaşırdısa, indi getdikcə iqtisadiyyatın digər sahələrini də əhatə edir. Amerikadan böyük şirkətlərin bundan sonra da Azərbaycana gələcəyinə ümid edirəm.*

*Prezident İlham Əliyev dedi ki, Vaşinqtonda ABŞ Ticarət Palatasında çox vacib görüşlər keçirilmişdir. Azərbaycan ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Əməkdaşlığımızın bütün sahələrində inkişaf var. Əminəm ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlıq bundan sonra da uğurla davam edəcəkdir. Dövlətimizin başçısı ABŞ-ın bir çox aparıcı şirkətlərinin Azərbaycanda fəal iştirakından məmnunluğunu bildirdi.*

*ABŞ Ticarət Palatası nümayəndə heyəti adından danışan səfir Rino Harniş iqtisadi və ticarət əlaqələrinin ölkələrimizin ikitərəfli əməkdaşlığında mühüm rol oynadığını bildirdi. O, Azərbaycan ilə ABŞ arasında iqtisadi əməkdaşlığa dair birgə işçi qrupunun ötən həftə Vaşinqtonda keçirdiyi görüşlərin son dərəcə uğurlu olduğunu söylədi. Cənab Rino Harniş dedi ki,*

*həmin tədbirdə Azərbaycan hökuməti ilə ABŞ hökuməti arasında qarşıdakı altı ay üçün fəaliyyət planı razılaşdırılmışdır. Bu çox əhəmiyyətlidir və hesab edirəm ki, Azərbaycan–Amerika münasibətlərinin inkişaf etdirilməsi baxımından böyük önəm daşıyır.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*6 dekabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına səfərə yola düşmüşdür.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak etmək üçün dekabrın 6-da Səudiyyə Ərəbistanı Krallığına gəlmişdir.*

*Ciddə şəhərinin Kral Əbdüləziz adına Beynəlxalq hava limanında dövlətimizin başçısının qarşılanma mərasimi oldu.*

*Səudiyyə Ərəbistanı Krallığının və Azərbaycan Respublikasının, eləcə də İslam Konfransı Təşkilatının üzvü olan digər ölkələrin dövlət bayraqları ilə bəzədilmiş hava limanında Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısını Ciddə vilayətinin qubernatoru şahzadə Məşəl bin Məcid bin Əbdüləziz, Məkkə vilayətinin qubernatoru şahzadə Əbdülməcid bin Əbdüləziz, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Elman Araslı, Səudiyyə Ərəbistanının ölkəmizdəki səfiri Əli Həsən Əhməd Cəfər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Dövlətimizin başçısı Səudiyyə Ərəbistanı Krallığının, Ciddə şəhərinin rəsmi şəxsləri ilə görüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev Ciddədən Məkkə şəhərinə yola düşdü.*

## MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Ciddədən İslam dünyasının əsas müqəddəs şəhəri olan Məkkəyə gəlmişdir.*

*Həzrəti Məhəmməd (s) bu torpaqda doğulmuş, peyğəmbərliyə çatmış, islam dini Məkkədə yaranmışdır. Məkkədəki Allah evi Kəbə Həzrəti Məhəmməd Peyğəmbərin (s) dövründən başlayaraq bütün dünya müsəlmanlarının ən birinci müqəddəs yerinə çevrilmişdir. Sonralar Kəbə və müqəddəs «Zəmzəm» çeşməsi, Səfa və Mərva təpələri arasında əzəmətli məscid tikilmişdir. Hər il həcc ziyarəti zamanı dünyanın ən müxtəlif güşələrindən gələn milyonlarla müsəlman Kəbənin ətrafına dolanır, müqəddəs Qara daşı öpür, məsciddə namaz qılır.*

*Azərbaycan prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər xüsusi libas geyinərək əl-Həram məscidinə gəldilər. Bir neçə mərtəbəli və doqquz minarəli məscid öz gözəlliyi və əzəməti ilə insanı heyran edir.*

*Ziyarətgahın rəhbərləri dövlətimizin başçısını mehribanlıqla qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və onu müşayiət edən şəxslər Kəbənin ətrafına dolandılar, məsciddə namaz qıldılar.*

*Sonra Səfa və Mərva təpələrinin ziyarəti başlandı. Azərbaycan prezidenti və nümayəndə heyətinin üzvləri bu iki təpə arasındakı bir kilometrlik məsafəni yeddi dəfə qət etdilər.*

*Ümrə ziyarəti başa çatdıqdan sonra dövlətimizin başçısı əl-Həram məscidini seyr etdi. Azərbaycan prezidentinə məscid haqqında ətraflı məlumat verildi. Azərbaycan prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri davam edir.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

*Allah rəhmət eləsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*7 dekabr 2005-ci il*

## MƏKKƏDƏ İSLAM KONFRANSI TƏŞKİLATININ ÜÇÜNCÜ FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*7 dekabr 2005-ci il*

*Səudiyyə Ərəbistanı Krallığında, islam dünyasının ən müqəddəs şəhəri olan Məkkədə İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü fövqəladə Zirvə toplantısının təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün əl-Səfa sarayına gəldi. Dövlətimizin başçısını Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz Al Səud böyük hörmət və ehtiramla qarşıladı. Zirvə toplantısında İslam Konfransı Təşkilatının üzvü olan 57 ölkədən 50-nin dövlət başçısı, habelə yüksək vəzifəli şəxsləri, nüfuzlu beynəlxalq təşkilatların təmsilçiləri iştirak edirlər.*

*İslam Konfransı Təşkilatının üçüncü fövqəladə Zirvə toplantısını Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz təbrik nitqi ilə açaraq, dövlət və hökumət başçılarını salamladı. O, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə Zirvə toplantısının üzv ölkələr üçün faydalı olacağını vurğulayaraq dedi ki, bu konfrans islam dünyasının inkişafında, onun birliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə islama inamın daha da gücləndirilməsində mühüm rol oynayacaqdır.*

*Sonra müqəddəs Qurani-Kərimdən ayə oxundu.*

*İKT-nın yeni sədri, Malayziyanın Baş naziri Abdulla Əhməd Badavi və təşkilatın Baş katibi Ekmələddin İhsanoğlu məruzələrlə çıxış edərək ötən Zirvə toplantısından sonra görülmüş işlərdən danışdılar, islam ölkələrinin siyasi, iqtisadi*

*əlaqələrinin genişləndirilməsinin vacibliyini bildirdilər. Natiqlər vurğuladılar ki, beynəlxalq terrorizmə qarşı birgə mübarizə islam ölkələrinin əsas məqsədlərindən biridir və bu istiqamətdə bütün səylər birləşdiriləcəkdir. Pakistanda baş vermiş dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılmasında bu ölkəyə yardım göstərilməsinin zəruriliyi də vurğulandı. Məruzəçilər Kəşmir problemi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Kipr məsələsi və İsrail–Fələstin münaqişəsinin həllinə, habelə islama qarşı yönəldilmiş hər cür təzyiqlərin aradan qaldırılmasına toxunaraq bildirdilər ki, İKT-nın üzvü olan dövlətlər haqq işinin müdafiəsi üçün öz səylərini daha da gücləndirəcək, terrora və təcavüzə məruz qalmış ölkələri bundan sonra da dəstəkləyəcəkdir.*

*Sonra dövlət və hökumət başçıları xatirə olaraq Qurani-Kərimin rəmzi kitabı üzərinə əl izlərini qoydular. İKT-nın Baş katibi E.İhsanoğlu bildirdi ki, bu mərasimin ilk dəfə müqəddəs Məkkə şəhərində həyata keçirilməsindən məqsəd islam aləminin birliyini, sülhün, əmin-amanlığın, təhlükəsizliyin dəstəklənməsini dünyaya bir daha bəyan etməkdir. Zirvə toplantısı çərçivəsində dövlət və hökumət başçılarının iştirakı ilə İslam Konfransı Təşkilatının yeni iqamətgah binasının tikilməsini bildirən lövhənin açılış mərasimi də oldu. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etdi.*

*Sonra Zirvə toplantısının iştirakçıları üzv ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirdilər, əl-Səfa sarayının eyvanından müqəddəs Kəbəni və Məkkə şəhərinin mənzərəsini seyr etdilər. Daha sonra ali qonaqlar əl-Həram məscidində namaz qıldılar.*

*Fasilədən sonra İslam Konfransı Təşkilatının fövqəladə toplantısı qapalı iclaslarda öz işini davam etdirdi.*

*Dövlət başçıları növbə ilə çıxış etdilər. Azərbaycan prezidenti İlham Əliyev toplantıda nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Kral həzrətləri, İki Müqəddəs Məscidin xadimi! Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri!

Hörmətli bacılar və qardaşlar!

İlk növbədə, Sizi bu mühüm hadisə – İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının üçüncü fövqəladə Zirvə görüşünün işinə uğurlar arzulayıram.

Bizə göstərilən qonaqpərvərliyə görə İki Müqəddəs Məscidin xadimi, Səudiyyə Ərəbistanının Kralı, qardaşımız Abdullah ibn Əbdüləziz Al Səuda və onun hökumətinə dərin minnətdarlığımı bildirirəm. Əminəm ki, müqəddəs Məkkə şəhərində keçirilən bu Zirvə görüşü İslam həmrəyliyinin daha da möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb edəcəkdir.

57 dövləti birləşdirən İslam Konfransı Təşkilatı dünyanın nüfuzlu təşkilatlarından biri olaraq, beynəlxalq münasibətlərdə vacib rol oynayır. Təşkilat ona üzv olan dövlətlərin qarşılaşdığı problemlərin həlli prosesində səmərəli fəaliyyət göstərir, digər dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı anlaşmanın bərqərar olmasına öz töhfəsini verir. Yarandığı vaxtdan etibarən İslam Konfransı Təşkilatı müasir dünyanın müxtəlif problemlərinin həllinə güclü təsir göstərir və münaqişələrin aradan qaldırılmasında iştirak edir.

İslam Konfransı Təşkilatı dünyada sülhün və əmin-amanlığın bərqərar olması naminə ardıcıl səylər göstərir. Biz İslam Konfransı Təşkilatının beynəlxalq terrorizmə qarşı barışmaz mövqeyini yüksək qiymətləndirir, BMT-nin himayəsi altında terrorizmlə mübarizə üzrə Beynəlxalq Mərkəzin yaradılmasına dair Kral Abdullah bin Əbdüləzizin təşəbbüsünü dəstəkləyirik. Eyni zamanda, biz beynəlxalq terrorizmi islam dini ilə əlaqələndirənlərə qəti etirazımızı bildiririk. Belə bir tezis tamamilə səhvdir, əsassızdır və qəbuledilməzdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra İslam Konfransı Təşkilatına üzv olmuşdur. Biz Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə sıx əməkdaşlığına xüsusi əhəmiyyət veririk. Quruma üzv olan ölkələrin xarici işlər nazirlərinin 30-cu və turizm nazirlərinin 5-ci konfransları gələn il ölkəmizdə keçiriləcəkdir.

Azərbaycan bir qədər əvvəl İslam Konfransı Təşkilatının Gənclər Forumunun yaradılmasının təşəbbüskarı olmuş və forumun təsis konfransı 2004-cü ilin dekabrında Bakı şəhərində keçirilmişdir.

Eyni zamanda, ölkəmiz üçün, eləcə də bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində İslam Konfransı Təşkilatının və digər ölkələrin dəstəyini yüksək dəyərləndirirəm. Fürsətdən istifadə edib, bu dəstəyə görə öz minnətdarlığımı bildirirəm.

Artıq 15 ildir ki, Azərbaycan qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, nəticədə torpaqlarımızın 20 faizi işğal edilmiş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Dağlıq Qarabağda və digər yeddi rayonda qədim mədəniyyət abidələri məhv edilmiş, məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, müsəlman sivilizasiyasının izləri yer üzündən silinmişdir. Hərbi təcavüz və etnik təmizləmə nəticəsində 20 mindən çox azərbaycanlı öldürülmüş, 50 mindən çox adam əlil olmuş, 4 mindən çox adam əsir və itkin düşmüş, girov götürülmüşdür. Uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüşlər.

Fürsətdən istifadə edərək, mən öz torpaqlarından qovulmuş qaçqın və məcburi köçkünlərə göstərilən köməyə görə İslam Konfransı Təşkilatının və donor ölkələrin rəhbərlərinə minnətdarlığımı bildirirəm.

Azərbaycanda erməni terrorçularının törətdikləri 30-dan artıq terror aktları nəticəsində 2 mindən çox günahsız Azərbaycan vətəndaşı qətlə yetirilmiş, on minlərlə insan xəsarət almışdır. Terror aktlarında dinlə bağlılıq axtaranlardan fərqli olaraq, biz ermənilərin törətdikləri vəhşiliklərə bu mövqedən yanaşmırıq. Terrorçuluğun dini kökləri yoxdur.

Azərbaycan münaqişəsinin beynəlxalq hüququn normaları və prinsiplərinə uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində ədalətli şəkildə nizama salınmasını, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası qətnamələrinin, İKT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatların qərarlarının yerinə yetirilməsini tələb edir.

Mən bir daha vurğulamaq istəyirəm ki, münaqişə etnik təmizləmə və suveren dövlətin ərazilərinin de-fakto ilhaq olunması əsasında deyil, beynəlxalq hüquq normaları əsasında həll edilməlidir. Biz ərazi bütövlüyümüzlə bağlı heç bir güzəştə getməyəcəyik.

Münaqişə Azərbaycanın iqtisadiyyatına ağır zərbə vurmuşdur. Lakin biz daxili ehtiyatlarımızı səfərbər edərək, sosial-iqtisadi böhranın aradan qaldırılmasına nail olduq. Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Azərbaycan siyasi və iqtisadi sabitlik ölkəsidir.

1996-cı ildən 2004-cü ilədək olan dövrdə hər il iqtisadi artım təqribən 10 faiz olmuşdur. 2005-ci ilin 11 ayı ərzində isə ÜDM-in artımı 24 faiz, sənaye istehsalının artımı isə 30 faiz olmuşdur. Təkcə son iki ildə ölkədə 300 mindən çox yeni iş yeri açılmışdır. Azərbaycan dövlətinin iqtisadi siyasətində əhalinin həyat səviyyəsinin yüksəldilməsi, onun sosial təminatının yaxşılaşdırılması əsas yer tutur. Bu məqsədlə 2006-cı ildə dövlət büdcəmiz təqribən 70 faiz artacaqdır.

Bu fürsətdən istifadə edərək, biz üzv ölkələr arasında qarşılıqlı iqtisadi əməkdaşlığa öz töhfəmizi vermək istəyirik. Bu gün buna böyük ehtiyac duyulur. Biz qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi vasitəsilə bir-birimizin iqtisadiyyatına yardım etməliyik. Bunun üçün hazırda yaxşı imkanlar mövcuddur. Təşkilata üzv olan ölkələrdə müasir infrastruktur var. Biz Azərbaycanda qardaş ölkələrlə iqtisadi əməkdaşlığa böyük diqqət yetiririk. Biz bir-birimizin mallarını almalıyıq, dost ölkələrin sərmayələri üçün daha yaxşı mühit yaradılmasında bir-birimizə yardım etməliyik. Beləliklə, biz iqtisadi inkişafımıza töhfə verə biləcəyik. Bu çox vacib məsələdir və Azərbaycanda ikitərəfli iqtisadi əlaqələrə təkan vermək məqsədi ilə daha böyük addımları atmağa hazırıq.

Mən islam həmrəyliyinə, İslam Konfransı Təşkilatının prinsiplərinə və məqsədlərinə sadiq olduğumu bildirirəm, sülh, sabitlik və tərəqqi naminə hamını öz səylərini birləşdirməyə çağırıram. Mən sizin hamınıza və xalqlarınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*7 dekabr 2005-ci il*

### Pakistan prezidenti Pərviz Müşərrəf ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Məkkə şəhərində, İslam Konfransı Təşkilatının üçüncü fövqəladə Zirvə toplantısı çərçivəsində Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəf ilə görüşmüşdür.*

*Görüş zamanı ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişlənməsindən, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişafından məmnunluqla danışıldı. Dövlət başçıları Azərbaycan ilə Pakistan arasında əlaqələrin daha da genişlənəcəyinə əminliyini vurğuladılar, beynəlxalq təşkilatlar, o cümlədən İKT çərçivəsində əməkdaşlığın daim inkişafından razı qaldıqlarını bildirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev Pakistanda baş vermiş zəlzələnin ağır nəticələrinin aradan qaldırılması ilə bağlı gedən işlərlə maraqlandı.*

*Pakistan prezidenti Pərviz Müşərrəf bu sahədə Azərbaycan hökumətinin göstərdiyi yardıma görə minnətdarlığını bildirdi. Prezident Pərviz Müşərrəf Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesi ilə də maraqlandı.*

*Dövlətimizin başçısı İlham Əliyev problemin sülh yolu həlli ilə bağlı gedən danışıqlar prosesi barədə məlumat verdi. Pakistanın dövlət başçısı münaqişənin ədalətli şəkildə, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həlli məsələsində ölkəsinin mövqeyini bir daha vurğuladı.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.*

## İran prezidenti Mahmud Əhmədinejad ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində, İKT-nın üçüncü fövqəladə toplantısı çərçivəsində İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev İranda baş vermiş təyyarə qəzası ilə bağlı başsağlığı verdi. Dövlətimizin başçısı dedi ki, ölkələrimiz arasında əlaqələr müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, energetika sahəsində uğurla inkişaf edir və bu, regionda əməkdaşlığın daha da genişlənməsi işinə xidmət edir. Yaxın vaxtlarda ölkələrimiz arasında qaz mübadiləsi əsasında İrandan Naxçıvana mavi yanacaq verilməsinə başlanması əlaqələrimizin uğurla inkişafının yaxşı nümunəsi olacaqdır. Dövlətimizin başçısı İran prezidentini bu münasibətlə keçiriləcək tədbirdə iştirak etməyə dəvət etdi.*

*Prezident Mahmud Əhmədinejad başsağlığına görə Azərbaycan prezidentinə dərin minnətdarlığını bildirdi, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluğunu söylədi. O, Azərbaycan və İran xalqları arasında ümumi tarixi dəyərlərə əsaslanan əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı. İran prezidenti Naxçıvana təbii qaz verilməsinə başlanması ilə əlaqədar mərasimdə iştiraka dair dəvəti minnətdarlıqla qəbul etdiyini bildirdi, eyni zamanda, Azərbaycan prezidenti İlham Əliyevi İrana rəsmi səfərə dəvət etdi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi oldu.*

## Tacikistan prezidenti İmaməli Rəhmonov ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində İKT-nın üçüncü fövqəladə Zirvə toplantısı çərçivəsində Tacikistan prezidenti İmaməli Rəhmonov ilə görüşmüşdür.*

*Görüş zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən iqtisadi əlaqələrin inkişaf etdirilməsi ilə bağlı konkret layihələr üzərində iş aparılmasının vacibliyi vurğulandı. Hər iki ölkənin regionda daha geniş bazarlara çıxmaq üçün böyük potensiala malik olduğu bildirildi.*

*Dövlət başçıları qarşılıqlı maraq doğuran bir sıra məsələlərə də toxundular. Tacikistan prezidenti İmaməli Rəhmonov Azərbaycan prezidenti İlham Əliyevi öz ölkəsinə rəsmi səfərə dəvət etdi.*

## Türkiyə Böyük Millət Məclisinin sədri Bülənd Arınç ilə görüş

*İslam Konfransı Təşkilatının üçüncü fövqəladə Zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə Türkiyə Respublikası Böyük Millət Məclisinin sədri Bülənd Arınç ilə görüşmüşdür.*

*Görüşdə iki dost və qardaş ölkə arasında bütün sahələrdə münasibətlərin yüksək səviyyədə olduğu vurğulandı, parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin həyata keçirilməsinin zəruriliyi bildirildi.*

*Söhbət zamanı Türkiyənin bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini dəstəklədiyi bir daha vurğulandı. Azərbaycan prezidenti İlham Əliyev qardaş Türkiyənin bu sahədə dəyişməz mövqeyinə görə təşəkkürünü bildirdi.*

## Əfqanıstan prezidenti Həmid Kərzai ilə görüş

*İKT-nın üçüncü fövqəladə Zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın*

*7-də Məkkə şəhərində Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai ilə görüşmüşdür.*

*Prezident Həmid Kərzai ölkəsinin Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verdiyini, ikitərəfli əməkdaşlıqla bağlı konkret istiqamətlərin müəyyənləşdirilməsinin əhəmiyyətini qeyd etdi. Azərbaycanın regionda böyük nüfuza malik olduğunu xüsusi vurğulayan Əfqanıstan rəhbəri dövlətimizin başçısı İlham Əliyevi Əfqanıstana rəsmi səfərə dəvət etdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Əfqanıstan arasında əlaqələrin genişlənəcəyinə əminliyini söylədi.*

*Dövlət başçıları hər iki tərəfi maraqlandıran bir sıra digər məsələləri də müzakirə etdilər.*

## Bruney Sultanı Həssənal Bolikah ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Bruney Sultanı Həssənal Bolikah ilə görüşmüşdür.*

*Görüş zamanı ikitərəfli əlaqələr, regional məsələlər, İKT-nın gələcək perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edildi.*

## İKT-nın Baş katibi Ekmələddin İhsanoğlu ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkə şəhərində İslam Konfransı Təşkilatının üçüncü fövqəladə Zirvə toplantısı çərçivəsində İKT-nın Baş katibi Ekmələddin İhsanoğlu ilə görüşmüşdür.*

*Ekmələddin İhsanoğlu İslam Konfransı Təşkilatının fəaliyyətinin gələcək perspektivi məsələsinə toxunaraq bu qurumun sosial və iqtisadi proqramlara daha çox cəlb olunmasının əhəmiyyətini vurğuladı. Təşkilatın üzvü olan ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin genişlənməsi üçün konkret işlər*

*görüldüyünü söyləyən E.İhsanoğlu bildirdi ki, biz İKT dövlətləri xarici işlər nazirlərinin Bakıda keçiriləcək konfransına böyük əhəmiyyət veririk.*

*Azərbaycan prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatı çərçivəsində gələcəkdə həyata keçiriləcək layihələrin praktiki nəticələrinin vacibliyini vurğuladı. Azərbaycanın bu təşkilatla əməkdaşlığının daim genişlənməsindən məmnunluğunu söyləyən prezident İlham Əliyev İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Bakıda keçiriləcək konfransı ilə bağlı hazırlıq işlərinin yüksək səviyyədə getdiyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə İslam Konfransı Təşkilatı arasında əməkdaşlıq və digər məsələlər ətrafında fikir mübadiləsi edildi.*

## Uzaq Şərq Federal Dairəsində səlahiyyətli nümayəndə Kamil İshakov ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Məkkədə İslam Konfransı Təşkilatında müşahidəçi statusu ilə iştirak edən Rusiya nümayəndə heyətinin başçısı, RF Prezidentinin Uzaq Şərq Federal Dairəsindən səlahiyyətli nümayəndəsi Kamil İshakovla görüşmüşdür.*

*Söhbət zamanı prezident İlham Əliyev Kazan şəhərinin salınmasının 1000 illiyi ilə əlaqədar keçirilən yubiley tədbirlərində iştirakını xatırlatdı.*

*Azərbaycan ilə Rusiya arasında müxtəlif sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyinin vurğulandığı görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

* * *

*İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham*

*Əliyevin İordaniya Kralı II Abdullah və Banqladeşin Baş naziri xanım Xalidə Ziya Rəhman ilə də qısa görüşləri oldu.*

*Zirvə toplantısının birinci iş günü başa çatdıqdan sonra Minadakı Kral sarayında Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz Al Səud tərəfinədən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verildi. Azərbaycan prezidenti İlham Əliyev ziyafətdə iştirak edirdi.*

*Azərbaycan prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanına səfəri davam edir.*

## Malayziyanın Baş naziri Abdulla Əhməd Badavi ilə görüş

*AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Məkkədə İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı çərçivəsində Malayziyanın Baş naziri Abdulla Əhməd Badavi ilə görüşmüşdür.*

*Görüş zamanı ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın müxtəlif sahələri, o cümlədən iqtisadi əlaqələrin genişlənməsi, beynəlxalq məsələlər, İKT çərçivəsində əməkdaşlıqın gələcək perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının üçüncü fövqəladə Zirvə toplantısının dekabrın 8-də üçüncü qapalı iclası keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda iştirak edirdi.*

*İclasda iştirak edən dövlət və hökumət başçıları Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Səudiyyə Ərəbistanı Krallığının rəhbərlərinə təşəkkürlərini bildirdilər.*

*İslam Konfransı Təşkilatının fövqəladə Zirvə toplantısının yekunlarına əsasən, «Müqəddəs Məkkə Bəyannaməsi» qəbul olundu.*

*Səudiyyə Ərəbistanının Kralı Abdullah ibn Əbdüləziz Al Səud Zirvə toplantısını bağlı elan etdi.*

### Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də İslam Konfransı Təşkilatının üçüncü fövqəladə toplantısı başa çatdıqdan sonra Məkkədən Ciddə şəhərinin beynəlxalq hava limanına gəldi.*

*Prezident İlham Əliyevi Səudiyyə Ərəbistanı Krallığının yüksək vəzifəli şəxsləri, Azərbaycanın ər-Riyaddakı səfiri Elman Araslı, Səudiyyə Ərəbistanının Bakıdakı səfiri Əli Həsən Əhməd Cəfər və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Vətənə qayıtdı.*

## ŞEVRON–AVRASİYA ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU QAY HOLLİNQSVORT İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 dekabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şevron–Avrasiya şirkətinin icraçı direktoru Qay Hollinqsvortu qəbul etmişdir.*

*Ölkəmizə səfərə gəlməkdən məmnunluğunu bildirən qonaq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının ikinci ildönümünün gələn həftə tamam olması ilə əlaqədar dövlətimizin başçısına dərin hüznlə başsağlığı verdi.*

*O, Azərbaycan ilə Şevron–Avrasiya şirkətinin əməkdaşlığının genişlənəcəyinə əmin olduğunu vurğuladı.*

*Cənab Qay Hollinqsvortun Azərbaycan Dövlət Neft Şirkətinin rəhbərləri ilə keçirdiyi görüşdən xəbərdar olduğunu nəzərə çatdıran prezident İlham Əliyev dedi ki, sizin gələcəkdə Azərbaycanda həyata keçirmək istədiyiniz layihələr barədə mənə məlumat verilmişdir. Bütün bunlar çox böyük önəm daşıyır. Azərbaycan nəhəng enerji layihələrinin təşəbbüskarı və iştirakçılarındandır. Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsinin həyata keçirilməsi başa çatmışdır. Bu, dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığı daha da inkişaf etdirmək üçün gözəl zəmin yaratmışdır.*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ–ALİLƏRİ CƏNAB MORİS LOYENBERGERƏ**

Hörmətli cənab Prezident!

İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə İsveçrə arasındakı münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, dostluq və əməkdaşlığımız, ikitərəfli əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İsveçrə xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2005-ci il*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ–ALİLƏRİ
CƏNAB NURSULTAN NAZARBAYEVƏ**

Hörmətli Nursultan Abışoviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və bütün dost Qazaxıstan xalqını ürəkdən təbrik edirəm.

Əminəm ki, ikitərəfli əlaqələrimizin bundan sonra da inkişafı və dərinləşməsi, irimiqyaslı transmilli layihələrin həyata keçirilməsində uğurlu qarşılıqlı fəaliyyətimiz, regional və beynəlxalq strukturlarda əməkdaşlıq və qarşılıqlı dəstəyimiz ölkələrimizin və xalqlarımızın firavanlığı və tərəqqisi, regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, dost Qazaxıstan xalqına isə sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2005-ci il*

**BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bəhreyn arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 dekabr 2005-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*12 dekabr 2005-ci il*

*Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin vəfatından iki il keçir. İki ildir ki, ulu öndərimizin, əbədiyaşar prezidentimizin Fəxri xiyabandakı məzarı xalqımızın müqəddəs ziyarətgahına çevrilmişdir.*

*Dekabrın 12-də – xalqımızın dahi oğlunun əbədiyyətə qovuşmasının ikinci ildönümü günü paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, idarə, müəssisə və təşkilatların kollektivləri, eləcə də xarici ölkələrdən gəlmiş çoxsaylı qonaqlar sübh tezdən Fəxri xiyabanı ziyarət edərək, Azərbaycanın dahi oğlunun xatirəsini dərin ehtiramla anır, burada ucaldılmış əzəmətli abidə-kompleksinin önünə əklillər, gül dəstələri qoyur, görkəmli şəxsiyyətə Allah-təaladan rəhmət diləyirdilər.*

*Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və onun ailə üzvləri Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.*

*Fəxri xiyabanda fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın dövlət himni səsləndi.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ümummilli liderimizin ruhuna dua oxudu.*

*Azərbaycan prezidentinin ailə üzvləri, mərhumun yaxınları məzarın önünə gül dəstələri düzdülər.*

*Dövlətimizin başçısı və ailə üzvləri görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın, tanınmış ictimai-siyasi xadim Əziz Əliyevin və əməkdar elm xadimi, professor Tamerlan Əliyevin də məzarlarını ziyarət edərək gül qoydular.*

*Milli Məclisin, Nazirlər Kabinetinin, Prezidentin İcra Aparatının rəhbərləri, parlamentin deputatları, nazirlər, komitə sədrləri, şirkət, konsern və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri, xarici ölkələrin səfirləri, dini konfessiyaların rəhbərləri ulu öndərin məzarını ziyarət etdilər.*

**NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş təyyarə qəzası nəticəsində çoxlu insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Nigeriya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 dekabr 2005-ci il*

# TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURƏDDİN ARASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 dekabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Cümhuriyyətinin İğdır bələdiyyəsinin sədri Nurəddin Arasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rəhbərlik etdiyi nümayəndə heyətinin dövlətimizin başçısı ilə görüşdən böyük məmnunluq duyduğunu bildirən qonaq iğdırlı azərbaycanlıların salamlarını prezident İlham Əliyevə çatdırdı, iğdırlıların dövlətimizin başçısına olan böyük sevgisini, ehtiramını ifadə etdi.*

*Nurəddin Aras dedi: Hörmətli cənab Prezident, biz Sizi təkcə Azərbaycanda yaşayan azərbaycanlıların deyil, həmçinin bütün dünyada olan azərbaycanlıların prezidenti kimi qəbul edirik və bunu ürəkdən təsdiq edirik. Bizim, Türkiyənin İğdır şəhərində yaşayan azərbaycanlıların Bakıya gəlişimizin məqsədi ümummilli lider Heydər Əliyevin əziz xatirəsi önündə baş əymək, onu yad etməkdir. İğdır azərbaycanlıları Sizi çox sevirlər. Biz orada Sizin rəhmətlik atanız, ümummilli liderimiz Heydər Əliyevin adına park salmışıq və həmin yerdə onun büstünü qoymuşuq. Eyni zamanda, Naxçıvandan İğdıra gedən yolun kənarında bulvar salmışıq və ona Sizin adınızı vermişik. İstərdik ki, Sizi İğdırda görək, dəvətimizi qəbul edib gələsiniz, özünüzü evinizdəki kimi hiss edəcəksiniz. Buna əmin ola bilərsiniz. Gəlsəniz, bizi çox xoşbəxt edərsiniz.*

*Səmimi sözlərə görə təşəkkürünü bildirən prezident İlham Əliyev Türkiyə ilə Azərbaycan arasında əlaqələrin çox sürətlə inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Türkiyənin müxtəlif vilayətlərindən xeyli sayda insanın Bakıya gəlməsindən məmnunluğunu bildirdi.*

*Prezident İlham Əliyev dedi: İğdırla Naxçıvan arasında həmişə sıx bağlılıq olmuşdur və bu indi də davam edir. Bu gün bizim aramızda dostluq və qardaşlıq münasibətləri mövcuddur və bu həmişə belə olacaqdır. Sizi Azərbaycanda ürəkdən salamlayıram. Azərbaycan, Naxçıvan üçün ən çətin illərdə həmişə Türkiyədən, o cümlədən İğdırdan kömək gəlmişdir. Həmin vaxt «Ümid körpüsü»nün tikilməsi nəticəsində Naxçıvan blokadanı yara bilmişdir. Mənim salamlarımı, sevgimi bütün iğdırlılara çatdırmağı xahiş edirəm.*

## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA* NİTQ

*Müslüm Maqomayev adına Dövlət Filarmoniyası*

*14 dekabr 2005-ci il*

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycanda böyük bayramdır. Azərbaycan Milli Elmlər Akademiyasının 60 illik yubileyi qeyd olunur. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu illər ərzində akademiya böyük və şərəfli yol keçmişdir. Bu barədə hörmətli akademiklərin çıxışlarında və baxdığımız videofilmdə kifayət qədər məlumat verilmişdir. Azərbaycanda 60 il ərzində çox güclü elm məktəbi yaradılmışdır, güclü elm potensialı formalaşdırılmışdır və çox görkəmli, peşəkar elm xadimləri Azərbaycanın inkişafında öz mühüm rolunu oynamışlar. Bu gün bu gözəl ənənələr davam edir, Azərbaycan elmi yeni mərhələyə qədəm qoyur. Azərbaycanda elmə olan diqqət və qayğı artmaqdadır.

Bu gün çıxışlarda və baxdığımız videofilmdə xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan elminin inkişafında rolu haqqında deyilmişdir. Bu həqiqətən də belədir. Bütün dövrlərdə – 1970-ci illərdə, ondan sonra, 1990-cı illərdə Heydər Əliyevin elmə diqqət və qayğısı çox yüksək səviyyədə idi. O çox gözəl bilirdi ki, hər bir ölkənin, hər bir xalqın tərəqqisində elmin inkişafı müstəsna rol oynayır. Müxtəlif ölkələrin tarixinə, keçmişinə, təcrübəsinə nəzər salaraq görürük

---

* Йыьынъагда АМЕА-нын президенти академик Мащмуд Кяримов йубилей мярузяси иля чыхыш етди.

ki, ölkənin inkişafını, potensialını elmin inkişafı müəyyən edir. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, onu da görəcəyik. Nə təbii ehtiyatlar, nə coğrafi vəziyyət yox, məhz intellektual potensial, məhz elmin səviyyəsi o ölkələrin tərəqqisini müəyyən edir, təmin edir və ölkəni inkişaf etmiş ölkəyə çevirir.

Əlbəttə, ulu öndər Heydər Əliyev bütün bunları yaxşı bilirdi və 1970-ci illərdə respublikaya rəhbərlik edən zaman Azərbaycanda güclü elm infrastrukturunun yaranmasında, peşəkar kadrların hazırlanmasında çox fəal iştirak edirdi. Ondan sonra, 1990-cı illərin əvvəllərində Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə vəziyyət bütövlükdə çox acınacaqlı idi. Ölkədə xaos, böhran hökm sürürdü. Faktiki olaraq, bütün sahələrdə tənəzzül müşahidə olunurdu. Ancaq 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra bütün sahələrə təkan verildi, o cümlədən Azərbaycan elminə.

Təsadüfi deyil ki, ulu öndərin ilk görüşlərindən biri də məhz Elmlər Akademiyasının binasında Azərbaycan ziyalıları ilə keçirilmişdir. O görüş çox rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir.

Hər bir ölkənin təbii ki, öz siyasəti var, öz siyasi prioritetləri var. Hər bir ölkənin inkişafında şübhəsiz ki, ölkəni idarə edən, ona rəhbərlik edən şəxsin iradəsi və proqramı əsas yer tutur. Eyni zamanda ictimai fikir çox böyük əhəmiyyətə malikdir. Xüsusilə indiki zəmanədə ki, Azərbaycan demokratik inkişaf yolunda çox böyük addım atmışdır. Azərbaycanda bütün demokratik ölkələrə xas olan təsisatlar qurulubdur. Belə olan halda, ictimai rəyin ölkənin siyasətinin və gələcəyinin müəyyənləşməsində çox böyük rolu var. İctimai rəyi də cəmiyyətin elitası – akademiklər, Elmlər Akademiyasının üzvləri, görkəmli xadimlər formalaşdırır. Bu baxımdan o görüş,

həqiqətən, Azərbaycanın 1990-cı illərin əvvəlində düşdüyü böhrandan çıxış yollarını müəyyən edirdi. O görüş cəmiyyətimizi birləşdirdi. O, sadəcə bir görüş deyildi. Yəni mən bunu xüsusilə vurğulamaq istəyirəm ki, o görüşdən sonra Azərbaycanın hərtərəfli inkişafı sürətlə aparılmağa başladı, Azərbaycan cəmiyyəti daha da sıx birləşdi və cəmiyyətin aparıcı təbəqəsi, cəmiyyətimizin elitası bütün işlərdə çox fəal iştirak etməyə başladı.

Çox sevindirici hal ondan ibarətdir ki, bu ab-hava, bu ənənələr, meyllər bu gün də davam edir. İndi Azərbaycan yeni bir inkişaf mərhələsindədir. Azərbaycanın qarşısında yeni çağırışlar, yeni vəzifələr durur. 1990-cı illərin uğurları, yaradılmış möhkəm təməl və bizim iqtisadi uğurlarımız, siyasi sahədəki fəaliyyətimiz, bölgədəki mövqeyimizin möhkəmlənməsi Azərbaycanı bu gün tamamilə yeni bir müstəviyə gətirib çıxardı. Bu gün Azərbaycanın uğurlu inkişafı təkcə bizim üçün, xalqımız üçün deyil, bütün bölgə üçün böyük əhəmiyyət kəsb edir. Bu inkişafın istiqamətlərini biz müəyyən etməliyik, hamımız birlikdə müəyyən etməliyik. Azərbaycan Respublikasının Prezidenti kimi, mən xalqdan aldığım dəstək nəticəsində bu siyasəti aparıram, eyni zamanda biz hamımız – Azərbaycanın cəmiyyəti, cəmiyyətin aparıcı hissəsi bu işdə fəal iştirak etməlidir və edir. Bu da məni çox sevindirir. Çünki bizim məqsədimiz, amalımız birdir: ölkəmizi daha da möhkəmləndirmək, Azərbaycan cəmiyyətinin demokratik inkişafına nail olmaq, onu möhkəmləndirmək, Azərbaycanda sosial-iqtisadi problemləri tezliklə həll etmək, ölkəmizin bölgədəki mövqelərini daha da möhkəmləndirmək. Bütün bu istiqamətlərdə nəticələr, uğurlar var, gözəl ənənələr davam edir.

Şəxsən mən Azərbaycanın qarşısında yaxın gələcəkdə və uzaq gələcəkdə ciddi problem görmürəm. Çünki ölkəmizin inkişafı davamlıdır, dayanıqlıdır. Bu gün aparılan siyasət xalqın iradəsini əks etdirir. Belə olan halda, bütün proqramlarımız uğurla icra olunacaqdır.

Azərbaycan elminin gələcək inkişafı da daim diqqət mərkəzindədir. Artıq burada səsləndi ki, müəyyən konkret addımlar atılmışdır. Bu bir daha onu göstərir ki, bizim siyasətimiz, proqramlarımız reallığı əks etdirir, reallığa əsaslanır və bunun praktiki nəticələri də var. Qərar qəbul olunur, dərhal icra edilir və ondan sonra nəticə də əldə olunur. Bundan sonra da Azərbaycan elminin inkişafına diqqət, qayğı göstəriləcəkdir. Elmin maddi-texniki bazasının möhkəmlənməsi işində addımlar atılacaq və şübhə etmirəm ki, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapacaqdır.

Fundamental elmin inkişafı böyük əhəmiyyət kəsb edir. Azərbaycanın bu sahədəki uğurları çox böyükdür. Mən ümid edirəm ki, bu istiqamətdə inkişaf gələcəkdə də davam edəcəkdir.

Eyni zamanda humanitar elmlərin inkişafına böyük diqqət göstərilməlidir. Bu sahədə də böyük uğurlar var. Ancaq hesab edirəm ki, biz bu sahədə daha da fəal olmalıyıq və daha da ciddi işlər görməliyik. Çünki sirr deyil ki, bizim bədnam qonşularımız yaxın və uzaq tarixi təhrif edərək, Azərbaycana müxtəlif istiqamətlərdən total hücuma keçiblər. Əgər 1990-cı illərin əvvəllərində onların təbliğatı yalnız yalan və böhtan üzərində qurulmuşdusa, bu gün bu taktika bir qədər dəyişibdir. Çünki 1990-cı illərdə Azərbaycan faktiki olaraq dünya ictimaiyyətindən təcrid edilmiş vəziyyətdə idi. Ermənistan və dünya erməniləri, erməni lobbisi Azərbaycan haqqında uydurmalar, iftiralar yayırdı. Bizim isə imkanımız yox idi ki, bunu təkzib edək. Ona görə o zaman bu təbliğat çox kobud şəkildə aparılırdı və böhtan xarakteri alırdı.

Bu gün Azərbaycan Dünya Birliyinin dəyərli üzvünə çevrilibdir. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda fəal işləyir. Bu gün biz öz təbliğat işimizi daha da səmərəli qururuq. Çünki bizim təbliğatımız reallığa, faktlara əsaslanır, yalana yox. Yəni bu gün Azərbaycanı sadəcə olaraq ləkələmək mümkün deyildir. Ona görə ermənilər yeni bir taktikaya əl atıblar. O da ondan ibarətdir ki, yaxın və keçmiş tarix təhrif olunsun, Dağlıq Qarabağ münaqişəsinin səbəbi təhrif olunsun, Azərbaycan

təcavüzkar bir ölkə kimi təqdim edilsin. Eyni zamanda bizim uzaq tariximiz təhrif olunur.

Misal üçün, Azərbaycanda heç kimə sirr deyil ki, ermənilər Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa qonaq kimi gəlmişlər. Keçən əsrin 70-ci illərində orada onların gəlişini əks etdirən bir abidə qoyulmuş, ermənilərin Qarabağa gəlişinin 150 illik yubileyi qeyd olunmuşdu. Ancaq bizdən başqa bunu az adam bilir.

Mən müxtəlif beynəlxalq təşkilatlarda, keçmişdə də, indi də dövlət başçıları ilə görüşlərdə dəfələrlə bu faktı xüsusilə vurğulayıram. Çünki bu bir daha göstərir ki, ermənilərin heç bir haqqı yoxdur iddia etsinlər ki, Dağlıq Qarabağ keçmişdə onlara məxsus olubdur. Ancaq mən görürəm ki, dünyada bunu bilən çox azdır. Biz bunu bilirik, amma bu, kifayət deyildir. Gərək biz bu həqiqətləri Dünya Birliyinə çatdıraq. Biz gərək yazılmış kitabları müxtəlif dillərə tərcümə etdirək.

Bu gün burada səsləndi, yeni imkanlar mövcuddur. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsilə indi biz istənilən auditoriyaya öz fikirlərimizi, həqiqətlərimizi çatdıra bilərik. Bu işləri internet vasitəsilə daha da fəal şəkildə görmək lazımdır. Ona görə burada həm akademiyanın üzərinə böyük vəzifə düşür, eyni zamanda bütün müvafiq orqanların üzərinə böyük vəzifə düşür. Biz gərək bu fəaliyyəti birgə davam etdirək. Mən demirəm ki, biz də qonşularımız kimi tarixi təhrif edək. Yox, biz sadəcə olaraq, həqiqətləri, uzaq tarixin və yaxın tarixin həqiqətlərini dünyaya çatdırmalıyıq. Mən ümid edirəm ki, bu sahədə ciddi işlər görüləcəkdir. Çünki qeyd etdiyim kimi, baxmayaraq ki, müəyyən işlər görülüb, əlbəttə, bu bizi qane edə bilməz. Bunu etmək üçün bütün lazımi şərait yaradılacaq, əlavə vəsait ayrılacaqdır. Biz bu işləri proqram şəklində aparmalıyıq.

Bütövlükdə Azərbaycanın inkişafının müxtəlif sahələrini, istiqamətlərini biz gərək beynəlxalq ictimaiyyətin diqqətinə daha dolğun çatdıraq. Çünki əfsuslar olsun ki, Azərbaycan haqqında kifayət qədər məlumat yoxdur. Bizi istəməyən qüvvələr, erməni lobbisi və onun havadarları bəzi hallarda

qəsdən Azərbaycanı ləkələmək istəyirlər, Azərbaycanı qeyri-demokratik ölkə kimi təqdim etmək istəyirlər. Bunun da səbəbləri aydındır. Çünki bütün istiqamətlərdə Azərbaycanın uğurlu siyasəti bu gün böyük üstünlük təşkil edir. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində. Çünki tarixi həqiqət bizim tərəfimizdədir. Qeyd etdiyim kimi, biz bunu daha da fəal şəkildə dünya ictimaiyyətinə çatdırmalıyıq. Bölgədə gedən siyasi proseslər də Azərbaycanın mövqeyini möhkəmləndirir. Regional əməkdaşlıq çərçivəsində Ermənistanla Azərbaycan arasında olan bu fərq hər kəsə aydındır. İqtisadi potensial baxımından indi Azərbaycan Ermənistandan bir neçə dəfə üstündür. Gələcəkdə aramızda olan bu uçurum daha da dərinləşəcəkdir.

Münaqişənin hüquqi həlli yolları yenə də Azərbaycanın xeyrinədir. Çünki biz münaqişənin yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında həll olunmasını tələb edirik və bu məsələdə heç bir güzəştə getməyəcəyik. Ermənistanın mövqeyi, sadəcə, onların arzularına əsaslanır və yalan tarixə əsaslanır.

Bir də deyirəm, bütün istiqamətlərdə Azərbaycanı ləkələmək, Azərbaycanı hörmətdən salmaq, Azərbaycanda gedən prosesləri yanlış şəkildə Dünya Birliyinə çatdırmaq cəhdləri var. Biz bunu hiss edirik. Xüsusilə parlament seçkiləri ərəfəsində bu özünü daha da qabarıq göstərmişdir. Xarici mətbuatda Azərbaycan haqqında həqiqəti əks etdirməyən, tamamilə yalan, böhtan xarakterli məlumatlar kifayət qədər idi. Biz araşdırdıq və gördük ki, onların böyük hissəsi erməni lobbisinin sifarişi ilə işıq üzü görübdür. Biz buna hazır olmalıyıq. Bir daha deyirəm, bu sahədə daha böyük işlər görülməlidir, biz daha fəal olmalıyıq. Mən ümid edirəm ki, bizim fəallığımız gözəl nəticələrini verəcəkdir.

Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmlənməsi işində əlavə addımlar atılacaqdır. İndiyədək olanlar ilk addımlardır. Biz gərək bu maddi-texniki bazanı daha da möhkəmləndirək. Akademiyanın nəzdində fəaliyyət göstərən institutlara daha böyük həcmdə kömək göstərək. Əlbəttə,

akademiya sistemində çalışan insanların maaşları, əmək haqları qaldırılmalıdır və biz bunu edəcəyik. Amma o da aydındır ki, bütün bu məsələlər ölkənin iqtisadi potensialına bağlıdır. Məhz buna görə bizim son illər ərzində çox böyük diqqətimiz məhz bu sahəyə yönəldilmişdir. Azərbaycanda güclü iqtisadi potensialın yaranması, Heydər Əliyevin neft strategiyasının uğurla icra olunması, Azərbaycanda iqtisadi sahədə liberallaşma siyasətinin aparılması öz gözəl nəticələrini verməkdədir. Bizim büdcəmiz artır, xərclərimiz artır. Demək olar ki, bütün sahələrdə irəliləyiş var. Ümumi daxili məhsul, o cümlədən sənaye istehsalı dünyada bənzəri olmayan sürətlə artır. Bu, sadəcə, makroiqtisadi göstərici deyildir. Bu makroiqtisadi göstəricilər Azərbaycanda yaşayan hər bir ailənin həyatında öz əksini tapmalıdır. Hər bir vətəndaş imkan əldə etməlidir ki, işlə təmin olunsun, yaxşı maaş alsın, onun övladları yaxşı şəraitdə oxusunlar. Ona görə də bu gün həm iqtisadi inkişaf proqramı, regionların inkişafı proqramı uğurla icra edilir, həm də sosial məsələlərə çox böyük diqqət göstəriləcəkdir. Azərbaycanda məktəblər, xəstəxanalar, digər sosial infrastruktur yaradılmalı və möhkəmlənməlidir. İqtisadi potensialımız daha da güclü olan halda, əlbəttə, elmə daha da böyük sərmayələr qoyulacaqdır.

Azərbaycan neft ölkəsidir. Bu gün burada qeyd olundu ki, Azərbaycan alimləri bizim neft yataqlarının kəşf olunmasında çox böyük işlər görmüşlər. Əgər alimlərimiz o yataqları kəşf etməsəydilər, bu gün Azərbaycanın neft potensialı o qədər zəngin olmazdı. Bu gün bizim transmilli layihələrimiz icra oluna bilməzdi. Yaxud bunun icrası bəlkə də on il, iyirmi il, otuz il yubana bilərdi. Bizim isə vaxtımız yoxdur. İndi dəyişən dünyada gedən bu proseslərə gərək biz hazır olaq. Ona görə hər bir yubanma, hər bir ləngimə bizim əleyhimizə işləyir.

Biz çevik siyasət aparırıq. İqtisadi islahatları cəsarətlə aparırıq. O cümlədən siyasi islahatları da aparırıq. Azərbaycanda siyasi və iqtisadi islahatların aparılması paralel şəkildə getməlidir. Biz buna nail olmuşuq və bu, uğurumuzu təmin edəcəkdir.

Burada qeyd olundu, milli ensiklopediyanın birinci cildi artıq hazırdır və iki gün bundan əvvəl mənə təqdim olunubdur. Mən birinci varianta baxmışdım, bəzi iradlar olmuşdu, indi ikinci variantına baxacağam. Bu çox böyük işdir, tarixi bir hadisədir. 1970-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Sovet Ensiklopediyası yaranmışdır. Düzdür, əlbəttə, o zaman müəyyən ideoloji çərçivələr var idi və orada siyasi məsələlərə, tarixə aid olan məsələlərə bəzi hallarda ideoloji nöqteyi-nəzərdən yanaşılırdı. Ancaq eyni zamanda o ensiklopediyada Azərbaycanın qədim tarixi, etnoqrafiyası, arxeologiyası, təbiəti və başqa sahələri öz əksini tapmışdır. İndiki ensiklopediya isə müstəqil Azərbaycan Respublikasının Ensiklopediyası olacaqdır.

Burada bu gün çox düzgün qeyd olundu ki, ensiklopediyalar, adətən, bir mərhələ başa çatandan sonra, yaxud yeni mərhələyə qədəm qoyulanda yaradılır. Azərbaycan indi yeni mərhələdədir. Azərbaycan müstəqil dövlət kimi formalaşmışdır. Müstəqillik sadəcə olaraq rəmzi atributlar deyildir. Bu gün Azərbaycan sözün əsl mənasında həm daxildə, həm xaricdə, həm bölgədə, həm də dünyada müstəqil siyasət aparır.

Əlbəttə, müstəqil Azərbaycanın öz milli ensiklopediyası olmalıdır. Bu, 25 cilddən ibarət böyük bir əsər olacaqdır. Azərbaycan haqqında bütün məlumatlar orada öz əksini tapacaqdır. Çox müfəssəl, eyni zamanda, həqiqətə uyğun bir əsər olacaqdır. Mən bir vəzifə kimi qarşıya qoymuşam ki, orada heç bir tərifə yol verilməməlidir. Hansısa siyasi konyuktura naminə orada heç bir düzəliş edilməməlidir. Çünki bu ensiklopediya 10 il, 20 il, 100 il qalacaqdır. Əlbəttə, burada bütün hadisələr – uzaq və yaxın keçmişin hadisələri olduğu kimi öz əksini tapmalıdır. Ona görə ki, ensiklopediya üzərində böyük kollektiv işləyir və mən əminəm ki, ensiklopediya çox yüksək səviyyədə hazırlanacaq, Azərbaycan xalqına təqdim olunacaqdır.

Eyni zamanda latın qrafikası ilə çap olunmuş kitablar artıq paylanılıbdır. Biz bu məsələyə də çox operativ qaydada yanaşdıq, bunu qısa müddət ərzində təşkil etdik. Bəlkə də 10 il

ərzində görülə biləcək işlər bir-iki il ərzində görüldü və bu iş bundan sonra da davam edəcəkdir.

Akademiyanın tərkibində fəaliyyət göstərən muzeylərin təmirinə başlanmışdır. Azərbaycan Tarix Muzeyi indi əsaslı təmirə saxlanılıb və bu çox yüksək səviyyədə görüləcəkdir. Dünyanın, Avropanın ən qabaqcıl mütəxəssisləri dəvət edilib və Hacı Zeynalabdin Tağıyevin evi onun tikdirdiyi kimi, bəlkə ondan da gözəl bərpa olunacaqdır. Eyni zamanda muzeyin eksponatlarını nümayiş etdirmək üçün bütün şərait, bütün lazımi avadanlıq quraşdırılacaqdır.

O cümlədən Azərbaycan Ədəbiyyatı Muzeyində də təmir işləri gedir. Biz gələcəkdə bunu daha da böyük həcmdə edəcəyik. Azərbaycanın bütün mədəniyyət ocaqları – muzeylər, teatrlar, digər infrastrukturlar bərpa olunmalıdır. Çünki bunlar xalqa xidmət edən müəssisələrdir, binalardır. Onların bir çoxu tarixi əhəmiyyət kəsb edir. İndi bizim imkanımız var, onları ən yüksək səviyyədə bərpa etməli və xalqın sərəncamına verməliyik.

Əziz dostlar!

Mən çox şadam ki,  bu bayramda sizinlə birlikdəyəm. Çalışacağam ki, akademiyanın inkişafında bundan sonra da öz əməyimi əsirgəməyim. Mən bir daha demək istəyirəm, bu, qəti fikrimdir ki, hər bir ölkənin normal inkişafı üçün ilk növbədə, bilik, savad, elmin inkişafı lazımdır. Azərbaycanda çox güclü elmi potensial vardır. Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri çox dəyərli şəxslərdir. Həm elm sahəsində, həm də ictimai həyatda xalqın hörmətini qazanmış insanlardır və biz bu insanlarla fəxr edə bilərik. Mən də fəxr edirəm ki, Azərbaycan Milli Elmlər Akademiyası bu gün yüksək səviyyədədir. Çalışmalıyıq ki, gələcəkdə öz işimizlə, əməyimizlə akademiyaya kömək göstərək, onun bütün məsələlərini həll edək və Azərbaycanda elmin gələcək inkişafına nail olaq.

Sizi bu gözəl bayram münasibətilə bir daha təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun!

**YAPONİYANIN İMPERATORU**
**ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Təvəllüd günü münasibətilə Sizə və Sizin simanızda bütün Yaponiya xalqına ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlığın daha da inkişafı, əlaqələrimizin hərtərəfli genişlənməsi istiqamətində daim səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Yaponiya xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2005-ci il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın milli bayramı – İmperatorun Təvəllüd günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Yaponiya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, mövcud əməkdaşlığımız bundan sonra da uğurla davam edəcək və öz əhatə dairəsini daim genişləndirəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı bildirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2005-ci il*

## BEYNƏLXALQ VALYUTA FONDUNUN YAXIN ŞƏRQ VƏ MƏRKƏZİ ASİYA ÜZRƏ DEPARTAMENTİ DİREKTORUNUN MÜAVİNİ JÜLİAN BERENQAUTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 dekabr 2005-ci il*

*Görüşdə qonaq bildirdi ki, Bakıya səfərdən məqsəd Azərbaycanın müvafiq qurumları ilə məsləhətləşmələr aparmaqdır. O dedi ki, Azərbaycanda proqramlar uğurla həyata keçirilir, müzakirələr zamanı ölkənin 2005-ci il büdcəsinin yerinə yetirilməsi və 2006-cı ildə iqtisadi inkişaf məsələlərinə diqqət yetiriləcəkdir.*

*2005-ci ildə Azərbaycanda iqtisadi artım sürətinin, makroiqtisadi sabitliyin yüksək səviyyədə olduğunu vurğulayan cənab Jülian Berenqaut büdcə siyasətinin, xarici siyasətin uğurla həyata keçirilməsinin və digər amillərin bu proseslərdə böyük rol oynadığını söylədi. Qonaq əmin olduğunu bildirdi ki, BVF ilə Azərbaycan arasında əməkdaşlıq bundan sonra da uğurla davam etdiriləcəkdir.*

*Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığından məmnunluğunu ifadə edən, ölkəmizin iqtisadi sahədə böyük nailiyyətlər qazandığını bildirən dövlətimizin başçısı büdcə artımını, qlobal enerji layihələrinin həyata keçirilməsini və digər uğurları iqtisadi inkişafımızın əsas göstəriciləri kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanda makroiqtisadi sabitliyin qorunub saxlanılması istiqamətində konkret işlər həyata keçirilir. İqtisadi siyasətdə tarazlaşdırma prin-*

*siplərinə xüsusi diqqət yetirildiyini nəzərə çatdıran dövlətimizin başçısı dedi ki, indi ölkəmiz yeni inkişaf mərhələsinə daxil olmuşdur. Yaxın illərdə Azərbaycana böyük maliyyə vəsaitləri daxil olacaq və biz bundan səmərəli istifadə olunması məsələsinə böyük diqqət yetiririk. Prezident İlham Əliyev bu baxımdan Azərbaycanın dünyanın aparıcı maliyyə qurumları, o cümlədən Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini vurğuladı.*

*Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Azərbaycanın Beynəlxalq Valyuta Fondu ilə əməkdaşlığı bundan sonra da uğurla inkişaf edəcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*19 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Naxçıvan Beynəlxalq Hava Limanında fəxri qarovul dəstəsi düzülmüşdü.Prezident İlham Əliyevi hava limanında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər qarşıladılar. Milli geyimli oğlan və qız prezidentə gül-çiçək təqdim etdilər.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Hava limanına gəlmiş minlərlə naxçıvanlı prezident İlham Əliyevi hərarətlə salamladı.*

### Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından Naxçıvan şəhərinin mərkəzində tikiləcək Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmək üçün tikinti meydancasına yola düşdü.*

*Yolboyu şəhərin minlərlə sakini dövlətimizin başçısını səmimiyyətlə salamlayırdı.*

*Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbov prezident İlham Əliyevə məlumat verdi ki, 1385 kvadratmetr*

*sahəsi olacaq 5 mərtəbəli Diaqnostika-Müalicə Mərkəzində reanimasiya şöbəsi, stasionar şöbələr də fəaliyyət göstərəcəkdir. Tikinti işləri bir il ərzində başa çatdırılacaq və burada ən müasir standartlara cavab verən avadanlıq quraşdırılacaqdır.*

*Prezident İlham Əliyev tikintinin təməlinin qoyulduğunu bildirən gilizi bünövrəyə atdı və ilk beton qarışığını tökdü.*

## NAXÇIVAN ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*19 dekabr 2005-ci il*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı**

Möhtərəm Prezident!

Ölkə rəhbəri kimi, muxtar respublikaya – bu qədim yurda hər səfəriniz unudulmaz günlər kimi yadda qalır, əhalini daha böyük nailiyyətlərə, quruculuğa, tikib-yaratmağa sövq edir. Əgər Naxçıvana birinci səfərinizdən müasir standartlara cavab verən beynəlxalq hava limanı, hərbi hissənin yeni korpusu və xidmət infrastrukturları, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanası, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi üçün yeni institut binası, Əlillərin Bərpa Mərkəzi, Yeyinti Sənayesi Kompleksi kimi mühüm sosial və müdafiə əhəmiyyətli obyektlər həyata vəsiqə aldısa, ikinci səfəriniz zamanı ulu öndərimizin adını daşıyan məktəbin, Naxçıvan üzgüçülük mərkəzinin, Mülki müdafiə regional mərkəzinin açılışını etdiniz.

Bu qədim yurda yaraşıq verən tikililər, muxtar respublikanın rayonlarında, kənd yerlərində inşa olunan onlarca məktəb, səhiyyə obyekti, emal müəssisələri, əlillər, qaçqın və köçkünlər üçün evlər, inzibati binalar Naxçıvanda Sizin yadigarlarınızdır, davam və inkişaf etdirdiyiniz Heydər Əliyev quruculuq xəttinin bəhrələridir.

Bu gün onların sırasına daha bir vacib obyekt – Naxçıvan Diaqnostika Mərkəzi daxil olur.

Cənab Prezident, muxtar respublika sakinlərinin sağlamlığına ən böyük bir töhfə olan bu obyektin tikintisi üçün Sizə

naxçıvanlıların sonsuz minnətdarlığını və dərin ehtiramını bildirirəm.

Qurub-yaratmaq, əhalinin qayğısına qalmaq ulu öndərimizin dövlətçilik fəaliyyətinin üstün istiqaməti, idarəetmə fəlsəfəsi idi. Aqillərin belə bir kəlamı var: « Əgər hökmdarlar müdrik olsaydı, bəşəriyyət necə də xoşbəxt olardı». Azərbaycan xalqı xoşbəxtdir ki, onun belə bir müdrik rəhbəri, ümummilli lideri vardır. Bu gün Azərbaycan əldə etdiyi bütün nailiyyətlərə görə möhtərəm Heydər Əliyevə borcludur. Ulu rəhbərimiz olduqca qısa zaman kəsiyində əsrlərə bərabər işlər gördü. Müstəqil Azərbaycan dövlətini yaratdı, onun inkişafının ən üstün istiqamətlərini müəyyənləşdirdi. Təkcə xalqı xoşbəxt etməyin yolunu göstərmədi, həm də bu yolun əsasını qoydu. Bu quruculuq yolu Heydər Əliyev yoludur. Xalqımız, dövlətimiz bu yolla gedərək, ölkə rəhbəri hörmətli İlham Əliyevin rəhbərliyi altında bu yolu davam etdirərək hər gün yeni uğur qazanır, yeniliyə, tərəqqiyə qovuşur. Azərbaycan inkişaf etdikcə, Heydər Əliyevin siyasəti, adı və ənənələri də yaşayır.

Bu unudulmaz gündə bütün uğurlarımızın təminatçısı olan ümummilli liderimizin əziz xatirəsini bir daha yad edirik.

Azərbaycan ümummilli liderimizin şah əsəridir. Bu əsərin son 35 illik tarixini vərəqləsək, aydın görmək mümkündür ki, möhtərəm Heydər Əliyev daim xalqı, onun rifahını düşünmüşdür.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin birinci dövründə – ötən əsrin 70-ci illərində həyata keçirilən sosial siyasət xalqın mədəniyyətinin, tarixi ənənələrinin bərpası ilə yanaşı, irimiqyaslı tədbirlərin həyata keçirilməsini, səhiyyə - sağlamlıq müəssisələrinin yaradılmasını da nəzərdə tuturdu. Keçmiş imperiyanın aqrar əlavəsi olan, əhalisi yoxsulluq şəraitində yaşayan, geridə qalmış respublikada bütün bunları həyata keçirmək isə ilk baxışda asan deyildi. Lakin ümummilli liderimizin qətiyyəti, iradəsi nəticəsində Azərbaycan geriliyin daşını atdı, iqtisadiyyatı inkişaf edən, əhalisinin güzəranı yaxşılaşan lider respublikaya çevrildi. Bu dövrdə aparılan

məqsədyönlü siyasət nəticəsində ölkə həyatının bir çox sahələri kimi, tibb elmi və səhiyyə də sürətlə inkişaf etdi. Səhiyyə şəbəkəsi genişləndirildi, tibbi kadrların hazırlanması sahəsində mühüm nailiyyətlər qazanıldı. Təkcə Bakıda yox, rayonlarda və ən ucqar kəndlərdə də yeni xəstəxana və dispanserlər, tibb məntəqələri yaradıldı.

1987-ci ildə ümummilli liderimiz siyasi hakimiyyətdən istefa verəndən sonra ölkə həyatında geniş mənada sosial fəlakət başlandı. Müəssisələr, xəstəxanalar dağıdıldı. Əlillərə, veteranlara, ziyalılara münasibət dəyişdi. Ölkəni məhvə aparan bu mənfur siyasətə, dağıdıcı psixologiyaya ümummilli liderimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə son qoyuldu. Azərbaycan yenidən öz doğru yoluna – Heydər Əliyev quruculuq xəttinə qayıtdı.

Yeni şəraitdə Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasını ümummilli liderimiz belə müəyyənləşdirmişdi: «Strateji xəttimiz – sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur».

Bu yol bu gün ümummilli liderimizin quruculuq xəttinin davamçısı, ölkə prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Möhtərəm Heydər Əliyev 2002-ci ildə Naxçıvana səfəri zamanı demişdi: «Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım və arzularım yerinə yetirilsin». Cəmi bir il sonra, 2003-cü ildə Azərbaycan xalqına məşhur müraciətində ümummilli liderimiz bu planları, arzuları yerinə yetirəcək şəxsiyyətin İlham Əliyev olduğunu bəyan edərək dedi: «O, yüksək intellektli və praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcəkdir».

Artıq üçüncü ildir ki, hörmətli prezidentimiz ümummilli liderimizin ümidlərini şərəflə doğruldur. Xalqın ona olan inam və etimadını doğruldur.

Xalq inamı birdən-birə yaranmır. Bu, konkret işə və nəticəyə söykənir.

Bu inamın kökündə hörmətli İlham müəllimin siyasətçi və millət vəkili kimi, Avropa Şurası Parlament Assambleyasındakı gərgin və səmərəli fəaliyyəti, daim ölkəmizin milli maraqlarından çıxış etməsi dayanırdı.

Bu inamın kökündə Milli Olimpiya Komitəsinin Prezidenti kimi gördüyü işlər dayanırdı. Qısa müddətdə görülən tədbirlər nəticəsində Azərbaycan əvvəllər beynəlxalq yarışlara çətinliklə vəsiqə qazanan ölkədən beynəlxalq yarışların keçirildiyi ölkəyə çevrildi. Bakıda və ölkəmizin regionlarında, o cümlədən Naxçıvanda olimpiya idman kompleksləri, üzgüçülük mərkəzləri, digər idman obyektləri tikilib gənclərin sərəncamına verildi.

Bu inamın kökündə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti kimi, kifayət qədər mürəkkəb bir şəraitdə Azərbaycanın milli və iqtisadi maraqlarına cavab verən neft müqavilələrinin reallaşdırılmağa başlanmasına nail olması dayanırdı.

Bu sahələrdə liderliyə nail olan və onun qorunub saxlanmasını təmin edən möhtərəm prezidentimiz Azərbaycanın regionda da lider ölkəyə çevrilməsini təmin etmişdir.

Bu, yeni şəraitdə Heydər Əliyev yolunun davam etdirilməsinin ən gözəl nümunəsidir.

Ümummilli liderimizin müəyyənləşdirdiyi quruculuq proqramı bütün sahələrdə, o cümlədən sosial inkişaf sahəsində də davam etdirilir. Ölkə prezidentinin 2004-cü il 11 fevral tarixli fərmanı ilə təsdiq olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəldilmiş yeni mərhələnin əsasını qoymuşdur. İqtisadiyyat inkişaf etdikcə, özəlləşdirmə prosesləri dərinləşdikcə, sosial məsələlərə diqqət daha da artır. Bu məsələdə ardıcıl siyasət yeridilməsinin vacibliyini bildirən ölkə

prezidenti demişdir: «Prezident Heydər Əliyevin siyasəti nəticəsində əldə edilmiş uğurlar bizə imkan verir ki, Azərbaycanda ən çətin vəziyyətdə olan xəstələrə, əlillərə böyük qayğı və diqqət göstərək. Bu siyasət bizə imkan verir ki, lazımlı xəstələrə kömək edəcək müəssisələr tikilsin, istifadəyə verilsin. Azərbaycanda bu siyasət davam edəcəkdir. Buna alternativ ola bilməz».

Möhtərəm Prezident!

Siz ölkəmizin rayonlarına hər səfərinizdə vacib sosial obyektlərin açılışında və ya təməlqoyma mərasimlərində iştirak edirsiniz, onlara xeyir-dua verirsiniz. 2004-cü ildə Naxçıvana səfəriniz zamanı Sizin tapşırığınızla ayrılmış vəsait hesabına alınmış və Naxçıvan Respublika xəstəxanasında quraşdırılmış Yaponiya istehsalı olan kompüter tomoqrafiya aparatının istifadəyə verilməsi mərasimində iştirakınız bu sahəni şəxsi nəzarətə götürməyinizin əyani ifadəsi idi. Bu gün daha vacib bir obyektin – Naxçıvan Diaqnostika Mərkəzinin təməlinin qoyulmasında iştirak etdiniz. Bütün bunlar əsası ümummilli liderimiz tərəfindən qoyulan xəttin – insanların sağlamlığının qorunması, buna hər cür qayğı göstərilməsi kimi dövlət siyasətinin davam etdirilməsinin nümunəsidir.

Bu nəinki Naxçıvan Muxtar Respublikasında, hətta ətraf regionlarda da analoqu olmayan bir mərkəz olacaqdır. Naxçıvanda diaqnostika mərkəzinin tikilməsi müayinə üçün başqa ölkələrə müraciət edən xəstələrə muxtar respublika ərazisində yüksək tibbi xidmət göstərilməsinə şərait yaradacaqdır. Bu, blokada şəraitində yaşayan, ölkəmizin əsas ərazisinə gediş-gəliş imkanı məhdud olan muxtar respublika əhalisi üçün çox böyük diqqət və qayğı deməkdir. Bu diqqətə və yüksək dövlət qayğısına görə Sizə bir daha minnətdarlığımızı bildiririk.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

Əziz naxçıvanlılar!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizə dərin hörmət və məhəbbətimi bildirirəm. Mən çox şadam ki, bu gün yenidən Naxçıvandayam, qədim Naxçıvan torpağındayam, sizinlə birlikdəyəm. Azərbaycanın bütün bölgələri sürətlə inkişaf edir, o cümlədən Naxçıvan xüsusilə böyük sürətlə inkişaf edir. Uzun illər ərzində blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri gedir, yeni müəssisələr yaranır, yeni iş yerləri açılır, sosial obyektlər inşa edilir. Bir sözlə, Naxçıvan yaşayır və sürətlə inkişaf edir. Bu məni çox sevindirir. Çünki mən istəyirəm ki, Azərbaycanın hər bir bölgəsi, hər bir iqtisadi zonası sürətlə inkişaf etsin, bu yüksək inkişaf sürəti daha da artsın və nəticə etibarilə Azərbaycan xalqı daha da yaxşı yaşasın.

Bilirsiniz ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvana həmişə böyük diqqət və qayğısı var idi. Bütün dövrlərdə siz bunu hiss edirdiniz. Xüsusilə, 1990-cı illərin əvvəllərində naxçıvanlılar Heydər Əliyevi özünə rəhbər seçəndən sonra. Həmin ağır, çətin vəziyyətdə Naxçıvanda sabitliyin təmin olunması, Naxçıvanda inkişafın təmin olunması məhz Heydər Əliyevin və naxçıvanlıların birgə fəaliyyəti nəticəsində mümkün olmuşdur. Naxçıvanlılar bu çətin sınaqdan şərəflə çıxdılar və o illər ərzində təməli qoyulmuş layihələr, işlər bu gün öz bəhrəsini verməkdədir.

1993-cü ildən sonra, Azərbaycan xalqı Heydər Əliyevi prezident vəzifəsinə seçəndən sonra Azərbaycanın bütün istiqamətlərdə inkişafı başladı. Düzdür, o vaxt Azərbaycanda geniş, dərin böhran müşahidə olunurdu. Çünki Azərbaycanı

1990-cı illərin əvvəllərində çətin vəziyyətə salan qüvvələr faktiki olaraq, ölkəmizi idarəolunmaz hala gətirib çıxarmışdı. Ölkədə xaos, hərc-mərclik, anarxiya, iqtisadi tənəzzül hökm sürürdü. Sabitlik pozulmuşdu, vətəndaş müharibəsi başlanmışdı. O çətin anlarda xalq Heydər Əliyevin ətrafında birləşərək, öz siyasi liderinə dəstək verərək, Azərbaycanı bu çətin vəziyyətdən çıxara bilmişdi. Ondan sonra Azərbaycanın tarixi yalnız və yalnız inkişafla bağlı oldu, quruculuqla bağlı oldu. Azərbaycanda iqtisadi tənəzzülün qarşısı alındı və bu gün Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bütün istiqamətlərdə Azərbaycanda inkişaf var və biz çalışmalıyıq ki, bunu daha da genişləndirək.

Naxçıvanın sosial-iqtisadi həyatında Heydər Əliyevin 1990-cı illərdəki fəaliyyəti bizim hamımıza çox yaxşı bəllidir və tanışdır. Məhz ulu öndərin təşəbbüsü ilə Naxçıvan Beynəlxalq aeroportu tikilib istifadəyə verildi və bu gün dünyanın ən ağır yük təyyarələrinin qəbul olunmasına imkanlar var. Bunun nə demək olduğunu hamımız yaxşı başa düşürük. Bu aeroport məxsusi xarakter daşıyır və Naxçıvanın uzun illər, əsrlər boyu normal yaşamasını təmin edəcəkdir.

Eyni zamanda, ulu öndərin təşəbbüsü ilə Naxçıvanda çoxlu məktəblər, digər sosial infrastruktur yarandı. Vayxır su anbarı onun təşəbbüsü ilə inşa edildi və bu gün istismara veriləcəkdir.

Vayxır su anbarının Naxçıvanın kənd təsərrüfatının inkişafında çox böyük rolu var. Nəzərə alsaq ki, «Aqrolizinq» Səhmdar Cəmiyyətinin xətti ilə artıq kənd təsərrüfatı texnikası gətirilmişdir, yaxın zamanlarda kənd təsərrüfatının inkişafı daha da geniş vüsət alacaqdır.

Bu siyasət bu gün də davam edir – Naxçıvana daim diqqət və qayğı olmalıdır. Naxçıvan blokada şəraitində yaşayır. Azərbaycanın əsas hissəsindən ayrı yaşayır və hər bir qurum, hər bir nazirlik, hər bir təşkilat Naxçıvana xüsusi diqqət və qayğı göstərməlidir. Bu, Heydər Əliyevin siyasəti olubdur ki, mənim siyasətimdir və mən onu bundan sonra da davam etdirəcəyəm.

Bu günlərdə Naxçıvanın həyatında çox önəmli hadisələr baş verir. Uzun fasilədən sonra, 15 ildən sonra Naxçıvana təbii qazın verilməsi təmin olunubdur. 15 il naxçıvanlılar qazsız yaşadılar. Çətin şəraitdə, qışda soyuqda, şaxtada yaşadılar, ancaq bütün bu çətinliklərə baxmayaraq, dözdülər və nəhayət, biz Naxçıvana qazın verilməsinə nail olduq. Bir il bundan əvvəl İran ilə Azərbaycan arasında imzalanmış sazişə əsasən, böyük işlər görüldü, bütün müvafiq tədbirlər görüldü və bu günlərdə Naxçıvana qazın verilməsi təmin olundu. Deyə bilərəm ki, bu, tarixi bir hadisədir. Bu, Naxçıvan Muxtar Respublikasının inkişafına verilən çox böyük təkandır. Hər bir inkişafın təməlində enerji daşıyıcıları – qaz, elektrik enerjisi və digər yanacaq növləri dayanır. Onlar olmayan halda heç bir inkişaf mümkün deyil, heç bir yeni müəssisə yaradıla bilməz, heç bir bina tikilə bilməz. Çünki hər şey buna bağlıdır. Ümid edirəm ki, Naxçıvana verilən təbii qaz yaxın zamanlarda həm əhaliyə xidmət edəcək, həm də sənaye potensialının möhkəmlənməsində və güclənməsində öz rolunu oynayacaqdır. Eyni zamanda, Naxçıvan Elektrik Stansiyasında təmir-bərpa işləri aparılır və ümid edirəm ki, bir neçə aydan sonra stansiya işə düşəcəkdir. Stansiya təxminən 50 meqavat gücündədir. Gələn il Naxçıvanda 10 ədəd modul tipli elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Bu da haradasa, əlavə 90 meqavat elektrik enerjisi verilməsini təmin edəcəkdir. Bir sözlə, gələn il Naxçıvanda istehsal olunacaq elektrik enerjisinin həcmi haradasa, 140–150 meqavat səviyyəsinə çatacaqdır. Nəzərə almalıyıq ki, Vayxır su anbarında da kiçikhəcmli su elektrik stansiyası tikilir. Bu gün isə Naxçıvanda yalnız 10 meqavat elektrik enerjisi istehsal olunur. Qalan hissəsi İrandan və Türkiyədən alınır. Yəni əlavə 140–150 meqavat gücün təmin edilməsi Naxçıvanda elektrik enerjisi problemini tamamilə aradan qaldırmalıdır və gələcəkdə onun davamlı inkişafına gözəl şərait yaradacaqdır. Bütün bu işlər bir məqsəd güdür. O da ondan ibarətdir ki, Naxçıvan daha da güclənsin, Naxçıvanda

insanlar daha yaxşı yaşasınlar, onların bütün məsələləri öz həllini tapsın.

Bildiyiniz kimi, sosial sahəyə də böyük diqqət göstərilir və bu gün bu gözəl Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimi bunun çox bariz nümunəsidir. Qısa müddət ərzində, bir il ərzində bu diaqnostika mərkəzi tikilməlidir və burada ən yüksək səviyyədə xidmət göstəriləcəkdir. Bizim siyasətimiz həmişə sosialyönümlü olmuşdur. Heydər Əliyev siyasəti sosialyönümlü olub, mənim də siyasətim bundan ibarətdir. Çünki biz xalq üçün yaşayırıq, xalq üçün işləyirik və elə etməliyik ki, xalq bütün məsələlərdə özünü rahat hiss etsin. Heç bir çətinliyi olmasın.

Mən ümid edirəm ki, naxçıvanlılar xəstələnməyəcəklər, naxçıvanlılar çox sağlamdırlar. Amma adam hərdənbir xəstələnəndə də, gərək normal şəraitdə müayinədən keçsin, müalicə olunsun.

Burada dünyada mövcud olan ən yüksək avadanlıq quraşdırılacaqdır. Bu həm memarlıq baxımından gözəl bina olacaq, eyni zamanda, burada cərrahiyyə şöbəsi də açılacaqdır. Ürək-damar xəstəlikləri müalicə ediləcək, süni böyrək aparatı, ən müasir diaqnostika avadanlığı olacaqdır. Bir sözlə, bundan sonra tibbi xidmət almaq üçün nə Bakıya, nə də xaricə getməyə ehtiyac qalmayacaqdır.

Sosial sahəni möhkəmləndirmək, gücləndirmək bizim əsas vəzifəmizdir. Eyni zamanda, bildiyiniz kimi, həkimlərin maaşı 30 faiz qaldırılıbdır. Bu meyllər davam edəcəkdir. Azərbaycanın iqtisadi potensialı gücləndikcə bütün bu məsələlər öz həllini tapacaqdır. Ona görə iqtisadi inkişafın təmin olunması Azərbaycanda işsizliyin aradan qaldırılması, yoxsulluğun azaldılması bizim prioritet məsələlərimizdir.

Mən çox şadam ki, bu gün Azərbaycan iqtisadi inkişaf baxımından da dünyada lider dövlətdir. 2005-ci ilin on bir ayında bizim iqtisadiyyatımız 25 faiz artıbdır. Müqayisə üçün deyə bilərəm ki, ən inkişaf etmiş ölkələrdə bu göstərici 2-3 faizdir, bəlkə də o ölkələrlə Azərbaycanı müqayisə etmək

düzgün olmaz, çünki həmin ölkələrdə bütün mümkün olan resurslardan artıq istifadə olunubdur. Amma, adətən, biz özümüzü keçmiş postsovet ölkələri ilə müqayisə edirik. Deyə bilərəm ki, MDB məkanında ümumi daxili məhsulun artımı orta hesabla 2005-ci ildə haradasa 5,6,7 faiz olmuşdur. Azərbaycanda isə 25 faizdir. Sənaye istehsalı 30 faiz artıb, yoxsulluq 10 faiz azalıbdır. Gələn il də azalmalıdır. Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır. Son iki il ərzində 300 mindən artıq yeni iş yeri açılıbdır. Qarşımıza qoyduğumuz bütün proqramlar həyatda öz əksini tapır. Azərbaycanda uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı proqramı özünün nəticələrini verməkdədir və mən heç şübhə etmirəm ki, yaxın illərdə, yaxın gələcəkdə bu inkişaf daha da sürətlə gedəcəkdir.

Heydər Əliyevin neft strategiyası uğurla icra edilir. Bu gün təməlini qoyduğumuz diaqnostika mərkəzinin tikintisini də mən Azərbaycan Dövlət Neft Şirkətinə tapşırmışam. Bir müddət bundan əvvəl belə bir təşəbbüs irəli sürmüşdüm ki, Dövlət Neft Şirkəti Azərbaycanın bütün bölgələrində müasir diaqnostika-müalicə mərkəzləri inşa etməlidir. İndi bizim gəlirlərimiz artıb, Heydər Əliyevin neft strategiyası artıq öz gözəl nəticələrini verməkdədir. Bizim büdcəmiz artıq 4 milyard dollara çatıbdır. Belə olan halda, əlbəttə ki, bütün bu vəsaitlər ilk növbədə, sosial sahəyə yönəldilməlidir. Mən hesab edirəm ki, gələcəkdə bu proseslər daha da sürətlə gedəcəkdir. Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla inşa edilir, gələn il istismara veriləcəkdir. Ondan sonra Azərbaycan xəzinəsinə hər il milyardlarla dollar vəsait daxil olacaqdır. Bu vəsait xalqın rifah halının yaxşılaşmasına, Azərbaycanda güclü infrastrukturun yaranmasına, möhkəmlənməsinə yönəldiləcəkdir. Məktəblər, xəstəxanalar, yollar, elektrik stansiyaları tikmək, qaz xətləri çəkmək – bütün bunlar bizim planlarımızdadır. Son iki ilin təcrübəsi onu göstərir ki, qarşımıza qoydugumuz bütün vəzifələr icra olunur. Biz öz işimizi proqram çərçivəsində aparırıq, düşünülmüş strategiya və taktika çərçivəsində aparırıq. Belə olan halda nəticələr də var.

Düzdür, ölkədə problemlər də çoxdur. Bu problemlərin əsası sosial xarakterli problemlərdir. Yoxsulluq, işsizlik – bunlar da həll edilir. Bunları həll etmək üçün güclü iqtisadiyyat olmalıdır. Bizim büdcəmiz gələn il 70 faiz artacaqdır. Onun böyük hissəsi maaşların qaldırılmasına, pensiyaların, tələbələrin təqaüdlərinin və digər kateqoriyadan olan insanların əmək haqlarının qaldırılmasına yönəldiləcəkdir. Minimum əməkhaqqı Azərbaycanda ildə iki dəfə qaldırılır. Əlbəttə ki, bu səviyyə bu gün bizi qane edə bilməz. Çünki minimum əməkhaqqı insanın minimum tələbatını ödəməlidir. Hələ ki, buna imkanımız yoxdur. Amma o da olacaqdır. Azərbaycanda artıq orta əməkhaqqı 130–140 dollardır. MDB ölkələrinə nəzər salsaq görərik ki, biz ən qabaqcıl yerlərdəyik. Bir sözlə, Azərbaycanın uğuru, inkişafı üçün bütün lazımlı tədbirlər görülür, bütün proqramlar tərtib olunur və icra mexanizmləri də mövcuddur. Bunu etmək üçün siyasi iradə lazımdır, o da bizdə var. Xalqın dəstəyi lazımdır, o da var. Xalqla iqtidar arasında birlik lazımdır, o da var.

Azərbaycanda iqtisadi inkişafla bərabər, siyasi proseslər də çox uğurla gedir. Azərbaycanda sabitlik qorunub saxlanılır, Azərbaycanda Heydər Əliyev siyasəti davam etdirilir. İki il bundan əvvəl, prezident vəzifəsinə seçiləndən sonra andiçmə mərasimində çıxış edərkən demişdim ki, mən Heydər Əliyev siyasətinə sabiq olacağam, bu yoldan heç vaxt dönməyəcəyəm və Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Bu gün mən hesab edirəm ki, iki il ərzindəki təcrübə, görülən işlər onu göstərdi ki, biz faktiki işlərlə, əməli addımlarla sübut etdik ki, bu gün Azərbaycanda bu siyasət yaşayır və əbədi yaşayacaqdır.

Hər bir ölkənin inkişafında ən mühüm rol oynayan başlıca amil sabitlikdir, əmin-amanlıqdır. Azərbaycanda bu qorunub saxlanılır, Azərbaycan uğurla inkişaf edir. Azərbaycanda iqtisadi məsələlər həllini tapır və eyni zamanda siyasi proseslər də müsbət istiqamətdə gedir. Bu istiqamətdə atılmış çox dəyərli addım bu yaxınlarda keçirilmiş parlament seçkiləridir. Parlament seçkiləri Azərbaycanda demokratiyanın inkişafı, vətəndaş cəmiyyətinin, vətəndaş həmrəyliyinin möhkəmlənməsi

işində çox mühüm bir hadisə idi, mühüm bir proses idi. Mən çox şadam ki, Azərbaycanda parlament seçkiləri çox yüksək səviyyədə keçdi. Seçkilər ərəfəsindəki, həm də seçkilərdən sonrakı bütün proseslər bir daha onu göstərdi ki, Azərbaycan xalqı öz seçiminə sadiqdir. Parlament seçkilərində bizim siyasətimizə verilən səslər, verilən dəstək bizi daha da gücləndirir. Mənə daha da böyük güc verir və bütün islahatları – siyasi və iqtisadi islahatları, sosial islahatları daha da inamla aparacağıq. Azərbaycan xalqının iradəsi parlament seçkilərində öz əksini tapdı. Azərbaycanlılar, Azərbaycan vətəndaşları real işə səs verdilər, real siyasətə səs verdilər, görülən işlərə səs verdilər. Boş vədlərə yox, yalan sözlərə yox, böhtana yox, uydurmaya yox, təxribata yox! Azərbaycan xalqı azərbaycançılığa səs verdi. Ona səs verdi ki, Azərbaycanın taleyi, Azərbaycanın müqəddəratı Azərbaycanda həll olunsun. Ona səs verdi ki, prezident bu islahatları daha da cəsarətlə aparsın. Ona səs verdi ki, Azərbaycanda gedən bu müsbət işlər davam etdirilsin. İqtisadi sahədə, siyasi sahədə, sosial sektorda, ordu quruculuğunda, regionların inkişaf strategiyasında – haraya baxsaq bu inkişafı, bu irəliləyişi görərik. Mən istəyirəm ki, bu inkişaf daha da sürətlə getsin. Amma buna vaxt lazımdır. O vaxt da uzaqda deyildir.

Heydər Əliyevin Azərbaycan tarixində gördüyü işlərin, demək olar ki, hamısı bu gün davam etdirilir. Onun neft strategiyası Azərbaycana böyük uğurlar gətirəcək, böyük imkanlar açacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik. Xalq bizim bütün qərarlarımızda iştirak etməlidir, öz sözünü deməlidir və mən şübhə etmirəm ki, bundan sonra da belə olacaqdır.

Əziz dostlar, mən bir daha sizi ürəkdən salamlayıram. Mən doğrudan da çox şadam ki, bu gün yenidən Naxçıvanndayam, sizinlə birlikdəyəm. Naxçıvan hər bir azərbaycanlı üçün çox əziz, doğma yerdir. Mənim üçün çox əziz, dağ yeridir. Mənim atamın vətənidir, mənim vətənimdir. Biz hamımız çalışmalıyıq ki, Naxçıvan həmişə yaşasın, inkişaf etsin, çiçəklənsin!

Prezident seçkilərindən sonra bu mənim Naxçıvana üçüncü səfərimdir. Bundan sonra bu səfərlər daha da çox olacaqdır, daha da böyük tədbirlərdə iştirak edəcəyik. Hər dəfə Naxçıvana gələndə ümid edirəm ki, yeni, gözəl obyektin açılışında, yaxud da ki, təməlqoyma mərasimində iştirak edəcəyik. Naxçıvan inkişaf edəcək, naxçıvanlılar daha da yaxşı yaşayacaqlar, Azərbaycan xalqı irəliyə gedəcəkdir!

Sağ olun!

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA

*19 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseylə tanış olmuşdur.*

*Ali Baş Komandanı Müdafiə naziri general-polkovnik Səfər Əbiyev və liseyin rəisi general-mayor Rasim Əliyev qarşıladılar.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin liseyin həyatində ucaldılmış büsbütün önünə gül qoydu.Sonra Ali Baş Komandan kursantları salamladı. Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev liseyin kursantları qarşısında nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Əziz kursantlar!

Mən sizi salamlayıram, sizə cansağlığı, uğurlar arzulayıram.

Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Ulu öndər Heydər Əliyev bütün dövrlərdə – 1970-ci illərdə Azərbaycanda rəhbərlik etdiyi dövrdə və ondan sonra, 1990-cı illərdə müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi, vətəninə ləyaqətlə xidmət etmişdir. Bütün dövrlərdə onun həyat və fəaliyyəti xalqa xidmət etməkdən ibarət olmuşdur. 1970-ci illərdə Azərbaycanda çox güclü iqtisadi və sənaye potensialı yaradılmışdır. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda fabriklər, zavodlar, kənd təsərrüfatının inkişafına təkan verən

infrastruktur obyektləri tikilib istifadəyə verilmişdir. Azərbaycan müttəfiq respublikalar arasında qabaqcıl yerlərdə idi. Ancaq 1980-ci illərin sonundan başlayaraq və 1990-cı illərin əvvəllərinə qədər Azərbaycana rəhbərlik etmiş səriştəsiz, bacarıqsız, xəyanətkar rəhbərlər Azərbaycanı çox bərbad vəziyyətə salmışdılar. Azərbaycan keçmiş sovet respublikaları arasında birinci yerdən axırıncı yerə düşmüşdü. Bu bir daha onu göstərir ki, tarixdə bu şəxsiyyətin rolu çox önəmlidir. Xüsusilə keçid dövründə yaşayan ölkələrdə. Liderin, birinci şəxsin, prezidentin fəaliyyəti və rolu o ölkənin inkişafını müəyyən edir. Ya ölkə inkişaf edir, möhkəmlənir, güclənir, ya da ki, tənəzzülə uğrayır.

1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycana hakimiyyətə qayıdandan sonra ölkədə bütün istiqamətlərdə güclü inkişafa təkan verildi. Azərbaycanda iqtisadi islahatlar aparılmağa başladı, ölkəmiz beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirdi. Azərbaycan çox böyük həcmdə xarici investisiyalar cəlb etmişdi və ölkənin hərtərəfli inkişafı başlanmışdı. 1990-cı illərin ortalarında, demək olar ki, xaos və böhranın bütün qalıqları aradan götürülmüşdü və iqtisadi inkişaf başlanmışdı. Əgər bu dinamikaya nəzər salsaq görərik ki, 1995–96-cı illərdən başlayaraq bu günə qədər Azərbaycanın iqtisadiyyatı çox yüksək sürətlə inkişaf edir.

Biz bunu bütün istiqamətlərdə hiss edirik, o cümlədən təhsil sahəsində. Bildiyiniz kimi, 1970-ci illərdə ulu öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb yarandı. Bu, keçmiş sovet respublikalarında analoqu olmayan bir məktəb idi. İndi Azərbaycan ordusunda xidmət edən zabitlərin, generalların bir çoxu məhz o məktəbin məzunlarıdır. O vaxt Azərbaycan müstəqil dövlət deyildi. Amma Heydər Əliyev sanki bu müstəqilliyi görürdü, gələcəyi görürdü ki, bir gün Azərbaycan müstəqil olacaq və müstəqil Azərbaycana ordu lazım olacaq və o orduda xidmət edən peşəkar kadrlar lazım olacaqdır. Cəmşid Naxçıvanski adına məktəbin Azərbaycanın müstəqil ordusunun formalaşmasında çox böyük xidməti olmuşdur və bu indi də davam edir.

1998-ci ildə isə Naxçıvanda yenə də Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına hərbi məktəbin filialı açıldı.

Keçən il isə mənim sərəncamımla artıq bu filial Heydər Əliyev adına Hərbi Liseyə çevrildi. Bu gün burada çox gözəl şərait yaradılıbdır. Yaxşı oxumaq, hərbi işi mənimsəmək üçün gözəl imkanlar var, ən müasir səviyyədə korpuslar tikilib istifadəyə verilib, avadanlıqla təchiz olunubdur. Bir sözlə, əminəm ki, burada kursantlar yaxşı oxumaq, yaxşı bilik almaq üçün, hərbi işi öyrənmək üçün yaxşı imkanlara malikdirlər.

Bütövlükdə təhsil sahəsinə çox böyük diqqət göstərilir və göstərilməlidir. Hər bir ölkənin, hər bir millətin inkişafında bilik, savad ən böyük rol oynayır. İnkişaf etmiş ölkələrin təcrübəsini təhlil edərkən bunu görürük. Hansı ölkələr daha sürətlə inkişaf edir, hansı ölkələrdə elmi-texniki tərəqqi özünü daha qabarıq büruzə verir? O ölkələrdə ki, təhsilə böyük investisiyalar qoyulub, büdcə xərcləri nəzərdə tutulub və insanlar biliklidi, savadlıdırlar.

Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilibdir. Bu bizim siyasətimizi göstərir, bizim prioritetlərimizi göstərir. Düzdür, biz bu sahədə bütün ehtiyaclarımızı ödəyə bilmirik. Bu da təbiidir. Çünki təhsil sisteminə çox böyük həcmdə invenstisiyalar qoyulmalıdır. Azərbaycanda 4500-dən çox ümumtəhsil məktəbi var. Onların böyük əksəriyyəti artıq çox yararsız vəziyyətdədir. Təmirə ehtiyac var, yeni məktəbərin tikilməsinə ehtiyac var və bu proqram həyata keçirilir. Təkcə bu il Azərbaycanda 130 yeni məktəb tikilib və təmir olunubdur. Gələn il də bu, nəzərdə tutulur, Azərbaycanda bütövlükdə təhsil infrastrukturu yeniləşməlidir.

Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinfi yaradılacaq və internetə çıxış təmin olunacaqdır. Çünki bizim gənclərimiz, şagirdlərimiz, kursantlarımız dünyada baş verən bütün hadisələri bilməlidirlər, yeni müasir informasiya texnologiyalarına yiyələnməlidirlər. Onlar dünyada gedən proses-

ləri təhlil etmək üçün imkanlar əldə etməlidirlər. Bunu etmək üçün, əlbəttə ki, kompüterləşmə proqramı öz rolunu oynayacaqdır.

Eyni zamanda, Azərbaycanda ordu quruculuğuna da böyük diqqət göstərilir. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıdanda Azərbaycanda, demək olar ki, nizami ordu yox idi. Ayrı-ayrı silahlı birləşmələr, müxtəlif siyasi qurumlara tabe olan dəstələr mövcud idi. Ordu quruculuğu prosesi məhz 1993-cü ildən sonra başlandı. Bu gün Azərbaycanda çox güclü nizami ordu var. Ordunun hazırlığı çox yüksək səviyyədədir və maddi-texniki bazası da möhkəmlənibdir. Bu siyasət açıq şəkildə aparılır, bəyan edilir. Bu siyasətin real nəticələri Azərbaycanda hərbi xərclərin artmasıdır. Əgər 2004-cü ildə hərbi xərclər 175 milyon dollar səviyyəsində idisə, 2006-cı ildə 600 milyon dollar səviyyəsində olacaqdır. Orduya ayrılan xərclər iki ildə dörd dəfə artırılır.

Bu bizim siyasətimizi əks etdirən rəqəmlərdir. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda, biz ordumuzu gücləndirməliyik. Ordumuzu gücləndirmək üçün, əlbəttə, iqtisadi imkanlar olmalıdır. Ona görə bizim iqtisadi proqramlarımız, regionların sosial-iqtisadi inkişaf proqramlarımız icra edilir. Azərbaycanda güclü iqtisadiyyatın yaranması bizim müstəqil ölkə kimi yaşamağımız deməkdir. Müstəqil ölkə kimi yaşamaq üçün gərək müstəqil siyasət aparasan. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparır və bizim siyasətimiz yalnız və yalnız Azərbaycan xalqının milli maraqları üzərində qurulubdur. İqtisadi imkanlar artdıqca orduya ayrılan xərclər daha da artacaqdır. 600 milyon dollar çox xərc deyil, biz müdafiə xərclərimizi bundan sonra da artıracağıq. Elə etməliyik ki, bu sahədə heç bir vəsait problemi, yaxud da ki, çatışmazlıq olmasın. Yenə də deyirəm, Azərbaycan müharibə şəraitində yaşayır. Bizim torpaqlarımız işğal altındadır və əminəm ki, hərbi potensialın güclənməsi danışıqlar prosesində də öz rolunu oynayacaqdır.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Bizim danışıqlarda iştirakımız

bunu bir daha göstərir. Biz istəyirik ki, beynəlxalq hüquq normaları tətbiq olunsun, işğalçı qüvvələr bizim torpaqlarımızdan çıxsın və bir milyondan artıq soydaşımız öz doğma torpaqlarına qayıda bilsin. Ancaq eyni zamanda, biz güclü ordu yaratmalıyıq, güclü hərbi potensial yaratmalıyıq ki, istənilən anda öz doğma torpaqlarımızı azad edə bilək.

Danışıqlar 10 ildən artıqdır ki, davam edir, nəticə də yoxdur. Düzdür, ümidlər var, hələ ki, tükənməyib və məhz buna görə də Azərbaycan bu günə qədər danışıqlarda iştirak edir. Biz danışıqlar prosesini axıra qədər sınamalıyıq. Yəni danışıqlar resursundan sona qədər istifadə etməliyik. Ancaq görsək ki, bunun heç bir əhəmiyyəti yoxdur, biz başqa variantları da nəzərdən keçirməliyik.

Azərbaycan öz mövqelərini möhkəmləndirir. Bizim ölkəmiz bölgədə lider dövlətə çevrilibdir. İqtisadi potensialımız artır, siyasi çəkimiz artır, beynəlxalq aləmdə nüfuzumuz artır. Ordumuz da güclənir, daha da güclü olmalıdır, daha da hazırlıqlı olmalıdır və istənilən anda torpaqların azad olunmasında iştirak etməlidir. Bizim siyasətimiz bundan ibarətdir və mən çox sevinirəm ki, Azərbaycanda həm ordumuzun maddi-texniki bazası möhkəmlənir və həm də peşəkar ordu kadrları yetişir.

Bax, bu liseydə dərs alan, təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyünün hərb yolu ilə bərpa olunmasında iştirak edəcəklər. Bu proseslər paralel şəkildə getməlidir: peşəkar ordu və güclü maddi-texniki baza. Bu gün Azərbaycanda biz bunu görürük. Bizim iqtisadi potensialımız artdıqca bunu daha da böyük həcmdə, böyük səviyyədə edəcəyik.

Əziz kursantlar, bir daha sizi ürəkdən salamlayıram, arzu edirəm ki, yaxşı oxuyasınız, yaxşı, gözəl biliyə malik olasınız və doğma ölkəmizin inkişafında fəal iştirak edəsiniz. Sağ olun.

* * *

*Sonra liseyin hərbi marşı ifa olundu. Kursantlar təntənəli marşla Ali Baş Komandanın qarşısından keçdilər.*

*Prezident İlham Əliyev liseyin tədris mərkəzi, qərargahı ilə tanış oldu. 450-dək kursant və zabit üçün nəzərdə tutulan yataqxananın ayrı-ayrı otaqlarına baxdı və buradakı şəraiti yüksək qiymətləndirdi.*

*Ali Baş Komandana məlumat verildi ki, kursantlar liseyi bitirəndən sonra Bakıdakı ali təhsil ocaqlarına göndərilirlər. Liseydə texniki fənlər üzrə müxtəlif sinif otaqları, idman, konfrans salonları, kitabxana, kompüter otağı fəaliyyət göstərir.*

**Dövlətimizin başçısı liseydə yaradılmış Heydər Əliyev guşəsinə də baxdı və fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:**

*«Əziz kursantlar, Heydər Əliyev adına liseydə təhsil almaq həm böyük şərəf, həm də böyük məsuliyyətdir. Ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycan xalqına həsr edilmişdir. Müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. Biz, ulu öndərin davamçıları Heydər Əliyev siyasətini əbədi yaşatmalıyıq. Ölkəmizi onun qoyduğu yolla irəliyə aparmalıyıq.*

*Əziz kursantlar, yaxşı oxuyun, hərb işini mükəmməl öyrənin, ölkəmizin inkişafında fəal iştirak edin.*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*19.12.2005,*
*Naxçıvan»*

* * *

*Sonra Ali Baş Komandan lisevin yeməkxanası ilə tanış oldu, kursantlara verilən yeməklərin keyfiyyəti ilə maraqlandı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA

## Heydər Əliyev adına su anbarının istifadəyə verilməsi mərasimi

*19 dekabr 2005-ci il*

*Dekabrın 19-da Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev adına su anbarı istifadəyə verilmişdir. Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir. Mərasimə toplaşan minlənlə insan dövlətimizin başçısını hərarətlə və böyük mehribanlıqla qarşıladı.*

*Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev adına su anbarının və magistral kanalların planı ilə tanış oldu. Məlumat verildi ki, su anbarı vasitəsilə ətraf rayonların yaşayış məntəqələri su ilə təmin olunacaqdır. Suvarılacaq 16 min hektarın 6 min hektarı əkin dövriyyəsinə yeni daxil edilmiş sahələrdir və bu, yerli əhali tərəfindən yüksək qiymətləndirilir. Kanallar üzərində 60 qurğu yerləşdirilmişdir. 100 milyon kubmetr su tutumu olan bu anbarın tikintisinə 1980-ci ildə, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdı. Lakin o, Moskvaya getdikdən sonra inşaat işləri yarımçıq qalmışdı. Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu nəhəng obyektin tikintisi bərpa olunmuşdur.*

*Prezident İlham Əliyev su anbarının istifadəyə verilməsini bildirən düyməni basdı və su boru vasitəsilə kanallara axdı. Prezident bu prosesi böyük maraqla izlədi və bu mənzərəli yerdə xatirə şəkli çəkdirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu su anbarı əhalini su ilə təmin etməklə yanaşı, həm də elektrik enerjisinə olan tələbatı qismən ödəyəcəkdir. Eyni zamanda,*

*burada turizmin və çay balıqçılığın inkişafı üçün də imkanlar yaradılacaq, yeni iş yerləri açılacaqdır. Ətraf sahələr yaşıllığa qərq olacaqdır.*

*Prezident İlham Əliyev mərasimə toplaşanlarla görüşdü, onları bu tarixi hadisə münasibətilə təbrik etdi. Sakinlər su anbarının istifadəyə verilməsini ulu öndərin Naxçıvana göstərdiyi diqqət və qayğının daha bir təzahürü kimi qiymətləndirdilər, onun tarixi xidmətlərini xatırladılar. Dahi şəxsiyyətin siyasətinin bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən məmnunluqlarını ifadə etdilər.*

## Şahbuz rayonunun Ayrınc kəndində orta məktəb binasının açılışı

*Dekabrın 19-da Şahbuz rayonunun Ayrınc kəndində 144 yerlik orta məktəb binasının açılışı olmuşdur.*

*Bu münasibətlə keçirilən təntənəli mərasimin iştirakçıları prezident İlham Əliyevi böyük hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyev məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Ayrınc kənd məktəbinin məzunları arasında görkəmli insanlar var və onlar Azərbaycan elmi üçün böyük xidmətlər göstərmişlər. Məktəbin bir il ərzində tikilib istifadəyə verilmiş yeni binasında 11 sinif otağı, idman salonu, kitabxana, kompüter otağı, tibb otağı var.*

*Prezident İlham Əliyev sinif otaqlarını gəzdi, şagirdlərlə görüşüb söhbət etdi, onların təhsilləri ilə maraqlandı. Onların yaxşı oxumalarını arzuladı və bunun üçün hər cür şəraitin yaradılacağını bildirdi.*

*Müəllimlər prezidentə təşəkkür edərək, ucqar kəndlərdə belə təhsil ocaqlarının tikilməsini gələcək nəsillərə göstərilən qayğı kimi qiymətləndirdilər.*

*Prezident İlham Əliyev məktəbin açılışına toplaşan kənd sakinləri ilə görüşdü, onların qarşısında çıxış etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz kənd sakinləri!

Hörmətli dostlar!

Sizi bu gün bu orta məktəbin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu cür orta məktəblərin açılması gələcək üçün, Azərbaycan üçün, uşaqların təhsili üçün faydalıdır və bu onların dəyərli insanlara çevrilməsi üçün vacibdir. İstəyirik ki, burada gənclər yaxşı təhsil alsınlar və gələcək üçün, Azərbaycan üçün, bizim cəmiyyətimiz üçün dəyərli insanlara çevrilsinlər. Bilik hər şeyi həll edir, savad hər şeyi həll edir. Bu gün oxumaq üçün, yaşamaq üçün bu cür gözəl şəraitiniz var. Ölkəmizdə əmin-amanlıqdır, sülhdür, inkişaf var. İndi Azərbaycanın ən ucqar kəndlərində bu cür gözəl məktəblər, xəstəxanalar, digər binalar tikilir. Bu onu göstərir ki, ölkəmizdə inkişaf var, tərəqqi var. İnsanların həyat səviyyəsi daha da yaxşı olmalıdır, daha da böyük işlər görülməlidir: iqtisadi inkişaf, sosial-iqtisadi inkişaf proqramları, kənd təsərrüfatının inkişafı. Siz yaxşı bilirsiniz ki, kənd yerində əsas məsələ kənd təsərrüfatının inkişafıdır. İndi bu istiqamətdə də vacib qərarlar qəbul edilibdir. Yeni texnika var, gübrələr gətiriləcək, insanlar gərək daha da yaxşı yaşasınlar, mənim məqsədim budur və hər dəfə belə bir gözəl, yeni məktəbi, xəstəxananı, binanı görəndə ürəyim sevinir. Bu o deməkdir ki, Azərbaycan inkişaf edir, yaşayır, bizim müstəqil dövlətimiz möhkəmlənir.

Bu şəraiti bizə xalqımızın lideri Heydər Əliyev yaratdı. Onun əməyi nəticəsində, onun gördüyü işlər nəticəsində bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil ölkədir. Yenə də deyirəm, iqtisadi inkişaf var, sabitlik var, əmin-amanlıq var, asayiş qorunur, saxlanılır. Cəmiyyətdə vətəndaş birliyi, həmrəyliyi var. Bundan başqa nə olmalıdı? Bunlar hər bir inkişafı təmin edən amillərdir. İndi bizdən asılıdır ki, hərəmiz öz yerimizdə daha da yaxşı işləyək, ümumi işimizə töhfəmizi verək. Hər halda, Azərbaycanın son illərdəki inkişafı deməyə əsas verir ki, biz düzgün istiqamətdə irəliləyirik, ulu öndər Heydər Əliyevin qoyduğu yolla gedirik və bundan sonra da heç

kim, heç bir qüvvə, heç bir hadisə bizi bu yoldan döndərə bilməyəcək.

Çox şadam ki, bu gün sizinlə görüşə gəlmişəm. Ümid edirəm ki, bundan sonra da sizin vətəninizdə – Azərbaycanda, Naxçıvanda, Azərbaycanın hər bir yerində inkişaf daha da sürətlə gedəcəkdir. Belə gözəl məktəblər tikiləcək, insanları narahat edən başqa məsələlər öz həllini tapacaq, əmək haqları qaldırılacaqdır. Bir sözlə, biz möhkəm, qüdrətli Azərbaycanımızı gərək hərtərəfli inkişaf etdirək. Bu işdə sizə uğurlar arzulayıram, cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun. Uşaqlar yaxşı oxusunlar və heç bir problem olmasın. Hər halda, mən buna çalışıram ki, Azərbaycanda hər bir insan yaxşı yaşasın.

## Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət və Gənclik Mərkəzinin açılışı

*Dekabrın 19-da Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan şəhərindəki Əcəmi seyrəngahına gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin hələ sağlığında burada ucaldılmış abidəsini ziyarət etdi və gül dəstəsi qoydu.*

*Sonra Əcəmi seyrəngahı yaxınlığında yerləşən Gənclik Mərkəzinin təntənəli açılışı oldu. Buraya toplaşan on minlərlə insan dövlətimizin başçısını alqışlarla qarşıladı.*

*Prezident İlham Əliyev Gənclik Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi və onunla tanış oldu. Məlumat verildi ki, 400 yerlik salonu olan bu mədəniyyət ocağında gənclər üçün kinofilmlər nümayiş etdiriləcək, konsertlər, tamaşalar təşkil olunacaqdır. Mərkəz ən müasir tələblərə cavab verir.*

*Prezident İlham Əliyev Mərkəzin salonuna gəldi, burada «Ulu torpaq, ulu öndər» filminə baxdı. Filmdə əbədiyaşar prezident Heydər Əliyevin gənclərlə görüşləri, yeni idman obyektlərinin açılışı, eləcə də Naxçıvan Muxtar Respublikasına səfərləri zamanı keçirdiyi tədbirlərdəki çıxışları, Ali Məclisdə keçirdiyi görüşlər və müşavirələr öz əksini tapmışdır.*

## Naxçıvan şəhərində Kitab evinin açılışı

*Dekabrın 19-da Naxçıvan şəhərində Kitab evinin açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak edirdi.*

*Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, Kitab evi ilə tanış oldu.*

*Üçmərtəbəli binanın birinci mərtəbəsində məktəb ləvazimatı, dərsliklər, ikinci mərtəbədə Naxçıvanda istehsal olunan məktəbli geyimləri, idman ləvazimatı satılır. Üçüncü mərtəbədə isə müxtəlif ədəbiyyat, o cümlədən bədii əsərlər, uşaq ensiklopediyası, qanun topluları, ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən kitablar toplanmışdır.*

*Dövlətimizin başçısı Kitab evinin əhalinin maariflənməsi işinə çox böyük töhfə verəcəyini bildirdi, müasir tələblərə uyğun tikilən binanın Naxçıvan şəhərini gözəlləşdirdiyini vurğuladı.*

*Sonra prezident İlham Əliyev buraya toplaşan sakinlərlə görüşüb söhbət etdi, problemləri ilə maraqlandı. Sakinlər onlara göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*19 dekabr 2005-ci il*

Axşamınız xeyir!

Bu gün Naxçıvan üçün, Azərbaycan üçün bir neçə tədbirdə birlikdə iştirak etdik. Bir daha gördüm ki, Naxçıvan inkişaf edir, burada böyük işlər görülür, həm respublikanın iqtisadi potensialı güclənir, yeni müəssisələr, fabriklər, iş yerləri açılır, həm də sosial xarakterli tədbirlər, tikinti işləri çox geniş vüsət alıbdır. Bu məni çox sevindirir. Çünki Azərbaycanın inkişafı məhz bundadır: iqtisadi potensialın möhkəmlənməsi və sosial problemlərin həlli. Hər iki istiqamətdə Naxçıvanda çoxlu uğurlar var və mən sizi bu münasibətlə ürəkdən təbrik edirəm.

Keçən il mən iki dəfə Naxçıvanda olmuşdum. Bir ildən artıqdır ki, gəlmişdim buraya və bu müddətdə böyük dəyişiklikləri görürəm: yeni tikintilər, müasir, çox böyük zövqlə tikilmiş binalar, abadlıq, quruculuq işləri. Blokada şəraitində yaşayan respublikanın belə böyük uğurlar əldə etməsində, əlbəttə ki, sizin hamınızın, hər birinizin əməyi var.

Xüsusilə mən Naxçıvan Muxtar Respublikasının rəhbərini, Vasif Talıbovu bu münasibətlə təbrik etmək, ona minnətdarlığımı bildirmək istəyirəm. Bunu təkcə mən yox, Naxçıvana gələn hər bir qonaq, hər bir xarici nümayəndə, vətəndaş qeyd edir. Bu məni çox sevindirir. Mən əmin edirəm ki, gələcəkdə bu gözəl işlər davam etdiriləcəkdir.

Bu illərdə Naxçıvanın gələcək perspektivləri müəyyən olunur. Hamımız bilirik ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana həmişə böyük diqqət, qayğı göstərirdi. Məhz onun təşəbbüsü ilə bu nəhəng, böyük layihələr ərsəyə gəldi.

Əlbəttə, biz hamımız çalışmalıyıq əlimizdən gələni edək ki, Naxçıvan daha da möhkəmlənsin, müasirləşsin, zənginləşsin və burada güclü potensial yaransın.

Mən bu gün qeyd etdim ki, hər bir bölgənin inkişafında enerji daşıyıcılarının rolu ən önəmli xarakter daşıyır. Bu baxımdan 2005–2006-cı illər burada ciddi dönüş illəri olacaqdır. Çünki gələn il təxminən 140-150 meqavat əlavə gücün işə salınması böyük bir nailiyyətdir. Deyə bilərəm ki, Azərbaycanda bütövlükdə son illər ərzində, 5-6 ildə təxminən 500-600 meqavat əlavə güc işə salınıbdır. Naxçıvanda isə bir ildə 140-150 meqavat olacaqdır. Buraya İranla mübadilə yolu ilə təbii qazın verilməsi həm sosial, həm iqtisadi amildir. Eyni zamanda mən göstəriş verdim ki, Naxçıvanda iki asfalt zavodu qurulsun və yolların salınması üçün lazım olan texnika da gətirilsin. Mənim bu məsələyə dair müvafiq sərəncamım var, vəsait ayrılıbdır və burada yol tikintisi daha da sürətlə gedəcəkdir. Bilirsiniz ki, bu indi bizim prioritet məsələmizdir. Gərək hər bir ən ucqar kəndə yol çəkilsin. Bunu etmək üçün, əlbəttə ki, texnika, vəsait lazımdır. Onların hər biri var. Bu gün Azərbaycanın iqtisadiyyatı dünyada ən yüksək sürətlə inkişaf edir. Bizim büdcəmiz artır. Təbii ki, bütün infrastruktur layihələrinə ayrılmış xərclər artır. Sosial məqsədlərə ayrılmış xərclər artır. Maaşlar, pensiyalar və sair qaldırılır.

Naxçıvan üçün önəmli olan digər məsələ Azərbaycanın qalan ərazisi ilə hava körpüsünün normal fəaliyyətidir. Bəzi hallarda buna təbiət də müdaxilə edir. Məsələn, bu gün mən də, haradasa, 3 saat gecikdim. Çünki hava dumanlı idi, təyyarə uça bilmirdi. Ancaq bu, əlbəttə, təbiət məsələsidir. Bu da faktdır ki, Azərbaycanda, o cümlədən Naxçıvanda iqtisadi-sosial inkişaf gücləndikcə, təbii ki, uçuşların sayı da artmalıdır. Mənə verilən məlumata görə, indi gündə 4 reys vardır. Mən göstəriş verdim ki, bu uçuşların sayı artırılsın. Bu gün «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoruna göstəriş verdim ki, bu məsələyə baxılsın. O mənə dedi ki, artıq məsələ öz həllini tapıbdır.

**C a h a n g i r  Ə s g ə r o v** *(«Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru)***:** Bəli, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Nə vaxtdan artacaqdır?

**C a h a n g i r  Ə s g ə r o v:** Yanvarın 1-dən.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, gələcəkdə bu, kifayət etməyəcəkdir. Çünki mən əminəm ki, uçuşlar daha da çox lazım olacaqdır. Bəlkə bu məqsədlə əlavə təyyarələr də alınmalıdır. Hər halda, bu məsələyə də baxarsınız.

Bu gün həm Şahbuz rayonunda, həm də Naxçıvan şəhərində sosial infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimləri keçirilmişdir. Bu da çox gözəl haldır, ümumi inkişafın göstəricisidir. Naxçıvanda ən müasir standartlara cavab verəcək yeni Diaqnostika–Müalicə Mərkəzi tikiləcəkdir. Şahbuzda isə ucqar dağ kəndində çox gözəl məktəb tikilibdir, bu gün onun açılışını etdik. Gənclik Mərkəzi, Kitab evi – bütün bunlar məni çox sevindirir. Bir daha demək istəyirəm ki, bu, inkişafın təzahürüdür, əlamətidir.

Azərbaycanın bütün bölgələrində inkişaf gedir. Biz bunu təmin etmək üçün çox dəyərli proqramlar təsdiq etmişik və onları həyata keçiririk. Əlbəttə, yeni məsələlər də ortaya çıxır. Çünki heç bir proqramda bütün məsələləri əks etdirmək mümkün deyildir. Proqramlar konseptual xarakter daşıyır, eyni zamanda, təbii ki, orada görüləcək konkret işlər də təsdiq edilir. Ancaq həyat bir yerdə dayanmır, yeni məsələlər ortaya çıxır, həllini tələb edən yeni məqamlar ortaya çıxır. Ona görə mən istərdim ki, bugünkü toplantıda bunları müzakirə edək və əgər ehtiyac olarsa, əlavə tədbirlərin görülməsi üçün lazımi addımları ataq.

Yəqin yadınızdadır, keçən il sentyabr ayında biz Naxçıvana qazın verilməsi məsələsini müzakirə etdik. O vaxt haradasa bir ay keçmişdi ki, İranla bizim aramızda müqavilə imzalanmışdı. Biz dərhal burada müşavirə keçirdik, «Azəriqaz»a, yerli orqanlara göstərişlər verildi və bir il ərzində artıq buna nail olduq. İndi, 15 illik fasilədən sonra Naxçıvana təbii qazın verilməsinə başlanıbdır.

Onu da bilirsiniz ki, bütün abunəçilərə pulsuz, hədiyyə olaraq qaz plitələri də verildi. Həm hündür mərtəbəli binalarda, həm də fərdi evlərdə yaşayanlara. «Azəriqaz»ın sədri mənə məruzə edərək demişdi ki, belə bir xahişlər, müraciətlər olubdur. Dedim ki, bunu mütləq həll edin.

Biz o müşavirədə qazın verilməsi məsələsini müzakirə edirdik və yadımdadır, demişdim ki, bu birinci mərhələdir. Birinci mərhələ ondan ibarətdir ki, keçmişdə qazlaşdırılmış evlərə, məntəqələrə qazın verilməsinə nail olaq. Ondan sonra ikinci mərhələdə qazlaşdırılmamış məntəqələrə, kəndlərə qazın verilməsi olacaqdır. Biz bu gün birinci mərhələni, demək olar ki, həll etdik. Ona görə indi ikinci mərhələ gəlir. Sonra üçüncü mərhələ həll olunacaqdır. Beləliklə, bütün muxtar respublika sakinləri təbii qazla təmin olunacaqlar. Ona görə biz bu gün gərək bu məsələ ilə məşğul olaq.

Bir sözlə, görülən bütün işlər, əldə olunmuş uğurlar bir daha onu göstərir ki, biz düz yoldayıq. Naxçıvanda görülən işlər, əldə edilmiş uğurlar bir daha bunu sübut edir. Geniş abadlıq, quruculuq işləri gedir və biz hamımız çalışmalıyıq əlimizdən gələni edək ki, Naxçıvana kömək göstərək.

Bilirsiniz ki, mən bütün nazirlərə göstəriş vermişəm ki, onlar ulu öndər Heydər Əliyevin tapşırığını unutmasınlar. Çünki Heydər Əliyev tapşırıq vermişdi ki, bütün nazirlər vaxtaşırı Naxçıvana gəlməlidir, muxtar respublikanın rəhbərliyi ilə daim əlaqə saxlamalıdır və onlardan tələb olunan bütün işləri görməlidirlər. Amma sonra eşitdim ki, bir fasilə yarandı. Ona görə ciddi göstəriş verdim ki, bu praktika bərpa olunsun. Bütün qurumlar, nazirliklər gərək bu işdə fəal iştirak etsinlər.

İndi isə mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbova söz verirəm.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı

Möhtərəm cənab Prezident!

Ümummilli liderimizin yolu ilə gedən Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu gün Sizin rəhbərliyinizlə hərtərəfli inkişafa nail olmuşdur. Qəbul etdiyiniz «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq bu inkişaf dinamik xarakter almışdır və hər il artan sürətlə davam edir.

Muxtar Respublikanın inkişafını əks etdirən göstəricilər son iki ildə daha da yaxşılaşmışdır. Təkcə bir faktı qeyd edim ki, cari ilin 11 ayında ümumi daxili məhsul istehsalında, sənaye, tikinti və kənd təsərrüfatında, xarici ticarət dövriyyəsində əldə olunan göstəricilər 2004-cü ilin illik göstəricilərini ötüb keçmişdir. Bu ilin 11 ayında ümumi daxili məhsulun həcmi ötən ilin 11 ayı ilə müqayisədə 25,1 faiz artaraq, 1 trilyon 339 milyard 775 milyon manat olmuşdur.

Təbii ehtiyatlardan və imkanlardan istifadə olunmaqla sənayenin inkişaf etdirilməsi diqqət mərkəzindədir. 11 ayda 190 milyard 753 milyon manat dəyərində sənaye məhsulu istehsal olunub ki, bu da ötən ilin illik göstəriciləri ilə müqayisədə 62 milyard 978 milyon manat çoxdur. Yeni emal və sənaye müəssisələrinin tikilməsi davam etdirilir. İlin əvvəlindən bəri 14 müəssisə tikilmiş, 6 istehsal sahəsində isə inşaat işləri davam etdirilir.

Bu ilin 11 ayında 14 sənaye müəssisəsi istifadəyə verilmiş, bunlarda 259 yeni iş yeri açılmışdır. 6 sənaye müəssisəsinin tikintisi isə davam etdirilir. Tikinti sektorunda işlərin həcmi hər il artır. Bu ilin əvvəlindən bəri tikintidə bütün maliyyə mənbələri hesabına 506 milyard 791 milyon manatlıq sərmayədən istifadə olunmuşdur. Bu, 2004-cü ilin illik göstəricilərindən 105 milyard 810 milyon manat çoxdur.

Hər il olduğu kimi, bu il də məktəblərin tikintisi diqqət mərkəzində saxlanmış, 3724 şagird yerlik 16 orta məktəb binası tikilmiş, 594 şagird yerlik 1 orta məktəb binası isə əsaslı təmir

olunmuşdur. Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusu tikilmiş, Milli Elmlər Akademiyası Bioresurslar İnstitutunun və Naxçıvan Musiqi Kollecinin binaları əsaslı təmir olunmuşdur.

Əhalinin sağlamlığının qorunmasına diqqət artırılmışdır. Bu il Kəngərli rayonunda 40 çarpayılıq yeni xəstəxana binası, 15 kənddə tibb məntəqələri tikilmiş, 11 kənddə sağlamlıq mərkəzləri yaradılmış, Muxtar Respublika Uşaq Xəstəxanasının, Gigiyena və Epidemiologiya Mərkəzinin binaları yenidən qurulmuşdur. Culfa rayonunda «Darı Dağ» arsenli su müalicəxanası tikilib istifadəyə verilmişdir.

Mədəniyyətin inkişafı da diqqət mərkəzindədir. Naxçıvan şəhərində yeni Kitab evi tikilmiş, Ordubad rayon mədəniyyət evi, Yusif Məmmədəliyevin ev-muzeyi, Naxçıvan şəhərində Gənclik Mərkəzinin binası əsaslı təmir olunmuşdur. Culfa rayonunda Xanəgah abidə kompleksi, Naxçıvandakı tarixi Cümə məscidi əsaslı təmir və bərpa olunur. Heydər Əliyev muzey-kompleksində yenidənqurma işləri aparılır.

Bu ilin 11 ayında 37 inzibati bina tikilmiş, 28-i isə əsaslı təmir olunmuşdur. Qaçqın və məcburi köçkünlər üçün 100 fərdi yaşayış evi tikilərək istifadəyə verilmişdir. Müharibə əlilləri üçün Naxçıvan şəhərində 36 mənzilli yaşayış binası, ayrı-ayrı rayonlarda 3 fərdi mənzil tikilmişdir.

Əhali tərəfindən tikilən fərdi yaşayış evlərinin ümumi sahəsi 2004-cü ilin 11 ayı ilə müqayisədə 45,5 faiz artaraq, 40 min 267 kvadratmetr olmuşdur.

Yolların təmirinə və yeni yolların salınmasına diqqət artırılmışdır. Naxçıvan şəhərinin Heydər Əliyev prospektində və Nizami küçəsində asfalt örtüyünün təzələnməsi başa çatmışdır. Culfa–Ordubad magistral avtomobil yolu bərpa olunur. 3 körpü tikilərək, 1 körpü isə əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Ümumiyyətlə, 100 kilometrə yaxın şəhər, kənd yollarına və magistral yola yeni asfalt salınmışdır.

15 ildən artıq blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında energetika, nəqliyyat və rabitə sektorlarının

fəaliyyətindən çox şey asılıdır. Cari ildə energetika sektorunun inkişaf etdirilməsi, əhalinin elektrik enerjisi və təbii qazla təminatının yaxşılaşdırılması sahəsində mühüm işlər görülmüşdür. Ölkə prezidentinin himayəsi ilə İrandan Naxçıvana təbii qazın nəqli bərpa olunmuşdur. Culfa–Naxçıvan yüksəktəzyiqli magistral qaz kəməri, Naxçıvan–Cəhri kəmərinin, habelə şəhərdaxili qaz xətlərinin çəkilişi başa çatdırılmış, çoxmərtəbəli binalarda daxili qaz xətləri çəkilmişdir. Həmçinin bütün rayon mərkəzlərini mavi yanacaqla təmin etmək üçün mövcud qaz xətləri əsaslı təmir olunmuşdur.

Möhtərəm Prezident!

Ümummilli liderimiz Azərbaycana rəhbərliyinin birinci dövründə əfsanə sayılan Naxçıvana qaz kəmərinin çəkilməsini reallığa çevirdisə, bu gün Siz bu siyasətin tükənməz yaradıcı gücünü bir daha nümayiş etdirdiniz: mürəkkəb geosiyasi şəraitə baxmayaraq, Naxçıvana yeni təbii qaz kəməri çəkməklə bu qədim yurdun xilasına imza atdınız. Bu həyati əhəmiyyətli məsələyə göstərdiyiniz böyük diqqət və qayğıya görə Sizə bir daha Naxçıvan əhalisinin minnətdarlığını çatdırıram.

Muxtar respublikanın elektrik təchizatını yaxşılaşdırmaq məqsədi ilə mövcud istilik elektrik stansiyasında turbinlərin qaz yanacağına keçirilməsini təmin etmək üçün tədbirlər görülür. Heydər Əliyev su anbarında 4,5 meqavat gücündə su elektrik stansiyasının tikintisi yaxın vaxtlarda başa çatacaqdır.

Türkiyə Respublikasından daxil olan elektrik enerjisinin istifadəçilərə yüksək keyfiyyətlə və minimum itki ilə verilməsini təmin etmək üçün Şərur rayonunda 80 meqavat gücündə ikidövrəli yeni transformator yardımçı stansiyası tikilmiş, Sədərək rayonunda 10, Babək rayonunda isə 16 meqavat gücü olan yeni yardımçı stansiyada tikinti-quraşdırma işləri başa çatdırılmışdır.

Cari ilin 11 ayında nəqliyyat sektorunda yük və sərnişin daşımalarında əhəmiyyətli artım müşahidə olunmuş, ötən ilin

müvafiq dövrü ilə müqayisədə yük və sərnişin daşınması müvafiq olaraq 6,3 faiz və 12,7 faiz artmışdır.

Rabitə müəssisələri də əhaliyə və təşkilatlara göstərilən xidmətin həcmini artırmışdır. On bir ayda 10 milyard 79 milyon manatlıq xidmət göstərilmişdir ki, bu da ötən ilin 11 ayı ilə müqayisədə 1 milyard 726 milyon manat çoxdur. Avtomat telefon stansiyalarının nömrə tutumu 41200-ə çatmışdır.

Muxtar respublikada kəndlərin inkişafı əsas diqqət yetirilən sahələrdən biridir. Əhalinin 70 faizdən çoxu kənddə yaşayır. Ümumi daxili məhsul istehsalının üçdə biri kənd təsərrüfatının payına düşür. Bu sahənin inkişafı istər əhalinin zəruri məhsullara olan tələbatının ödənilməsində, istərsə də mövcud emal müəssisələrinin ahəngdar işinin təmin olunmasında böyük əhəmiyyətə malikdir. Ona görə də muxtar respublika iqtisadiyyatında aqrar sektorun inkişafına üstün istiqamət verilir. Təkcə bu ilin 11 ayı ərzində 2004-cü ilin illik göstəricisi ilə müqayisədə 34 milyard 477 milyon manatlıq çox, yəni 424 milyard 751 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Hər il olduğu kimi, bu il də taxılçılığın inkişafı aparıcı sahə kimi qalmışdır. 2005-ci ildə 24 min 150 hektar sahədən 93 min 206 ton taxıl götürülmüş, məhsuldarlıq hər hektardan 38,6 sentner olmuşdur. Ötən ilin göstəriciləri ilə müqayisədə taxıl istehsalı 9 min 650 ton artmışdır.

Taxılçılıqla yanaşı, kartofçuluğun inkişafına da diqqət yetirilir. Cari ildə kartof əkilmiş 1990 hektar sahədən 26 min 318 ton və ya hər hektardan 132 sentner məhsul götürülmüşdür. Məhsul istehsalı ötən illə müqayisədə 9 min 260 ton, məhsuldarlıq isə 25,8 sentner artmışdır.

2005-ci ilin 11 ayında meyvə bağlarından 36 min 432 ton meyvə yığılmışdır ki, bu da 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur. Muxtar respublikada istehsal olunmuş meyvə və tərəvəzin yerli tələbatdan çox olması onun ixracına da imkan vermişdir. Belə ki, bu ilin 11 ayında 843 ton meyvə-tərəvəz ixrac olunmuşdur.

Muxtar respublikada bitkiçiliklə yanaşı, heyvandarlıqda da inkişaf sürəti yüksəkdir. 2005-ci ilin ötən dövrü ərzində qaramalın sayı keçən ilin müvafiq dövründəkindən 7795 baş artaraq 91 min 880 başa çatmış, davarların sayı isə 69 min 885 baş artaraq 574 mindən çox olmuşdur.

Bunun sayəsində muxtar respublikanın daxili bazarında heyvandarlıq məhsullarının qiyməti sabit olaraq qalır.

Bütövlükdə kənd təsərrüfatında inkişafını stimullaşdıran əsas amil bu sahə üzrə emal müəssisələrinin yaradılması hesabına tələbatın artmasıdırsa, ikinci tərəfdən, yeni texnikaların alınaraq gətirilməsi və meliorasiya tədbirlərinin görülməsidir.

Təkcə 2005-ci ildə muxtar respublikaya 14 ədəd kombayn, 11 ədəd traktor, 9 ədəd kotan, ümumiyyətlə, 55 adda kənd təsərrüfatı texnikası gətirilərək lizinq yolu ilə mülkiyyətçilərə verilmişdir.

Kənd təsərrüfatında meliorasiya işlərinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi davam edir. 2005-ci ilin ötən dövrü ərzində muxtar respublikada 4 yeni nasos stansiyası tikilmiş, 2 nasos stansiyası əsaslı təmir olunmuş, 5 subartezian quyusu qazılmışdır. Bu müddətdə 3 kəhriz bərpa olunmuşdur. 3 kəhrizdə isə bərpa işləri davam etdirilir. Naxçıvançay üzərində inşa olunan Heydər Əliyev su anbarı 16 min 830 hektar sahənin suvarılmasına imkan verəcəkdir ki, bunun da 6 min 919 hektarı əkin dövriyyəsinə yeni cəlb olunan torpaqlardır. Bu isə əlavə məhsul istehsalı, yeni iş yerləri deməkdir.

Hazırda muxtar respublikada dağ kəndlərinin inkişafı, zəruri infrastrukturun yaradılması diqqət mərkəzindədir. Yollar çəkilir, körpülər salınır, tikilən məktəblərdə, bir qayda olaraq, həkim məntəqələri də istifadəyə verilir. Dağlıq ərazilərdə aqrar sahənin inkişaf etdirilməsi üçün müxtəlif layihələr həyata keçirilir, kənd əhalisinə kreditlər, arı ailələri, məhsuldar toxum sortları, müxtəlif meyvə tingləri, kənd təsərrüfatı alətləri verilir.

Muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün əlverişli mühitin yaradılmasına, özəl bölmənin inkişafına hərtərəfli yardım göstərilir. Həyata keçirilən islahatlar öz nəticəsini

vermәkdәdir. Tәkcә bir faktı göstәrmәk kifayәtdir ki, cari ilin 11 ayında ümumi daxili mәhsulun 81 faizi özәl bölmәdә istehsal olunmuşdur. Sәnayedә özәl bölmәnin payı 72 faiz, kәnd tәsәrrüfatında 99 faiz, nәqliyyatda 78 faiz, ticarәtdә 99,9 faiz tәşkil etmişdir. Bütün bu görülәn işlәrin mәrkәzindә bir mәqsәd dayanır: әhalinin rifah halının yaxşılaşdırılması, yeni iş yerlәrinin açılması, mәşğulluq sәviyyәsinin yüksәldilmәsi.

Yeni iş yerlәrinin açılması ilә әlaqәdar qarşımıza qoyduğunuz vәzifәlәrin icrası olaraq mәlumat vermәk istәyirәm ki, 2003-cü ilin oktyabrın 1-dәn 2005-ci ilin oktyabrın 1-dәk olan dövrdә 16 min 65 yeni iş yeri yaradılmışdır. Bunun 7716-sı 2005-ci ilin 11 ayı әrzindә açılmışdır. Bunlardan 3935-i daimi iş yerlәridir.

Әhalinin hәyat sәviyyәsinin yaxşılaşdırılması sosial-iqtisadi inkişafın әsas göstәricisidir. Әgәr 2004-cü ilin 11 ayında muxtar respublikada әhalinin pul gәlirlәrinin hәcmi 948 milyard 259 milyon manat olmuşdursa, cari ilin 11 ayında nominal pul gәlirlәrinin hәcmi 303 milyard manatdan çox artaraq, 1 trilyon 251 milyard 890 milyon manat tәşkil etmişdir. Adambaşına pul gәlirlәrinin hәcmi isә 3 milyon 341 min manata çatmışdır.

Antiinflyasiya tәdbirlәri ilә әlaqәdar olaraq hәr hәftәnin şәnbә günlәri Naxçıvan şәhәrindә kәnd tәsәrrüfatı mәhsullarının satış yarmarkası tәşkil edilmişdir. Bunun nәticәsindә әhali kәnd tәsәrrüfatı mәhsullarını bazar qiymәtlәrindәn ucuz qiymәtә әldә edә bilmişdir. Cari ilin iyun ayından etibarәn keçirilәn hәr yarmarkada istehsalçılara 60-70 milyon manatlıq kәnd tәsәrrüfatı mәhsulu satılmışdır. Bu gün muxtar respublikada orta aylıq әmәkhaqqı 426 min manat tәşkil edir ki, bu da ötәn ilin müvafiq dövrü ilә müqayisәdә 27,8 faiz çoxdur.

Cәnab Prezident, Sizin tәrәfinizdәn minimum әmәkhaqqının 3 dәfә qaldırılması, hәmçinin ayrı-ayrı kateqoriya inzibati orqan işçilәrinin, alimlәrin, aspirantların, ali vә orta ixtisas tәhsili mәktәblәrinin tәlәbә vә şagirdlәrinin tәqaüdlәrinin, habelә elmi vә fәxri adlara görә verilәn tәqaüdlәrin artırılması muxtar respublikada 40 min 859 nәfәrә şamil olunmuşdur.

Aparılan məqsədyönlü tədbirlər muxtar respublikanın xarici ticarət dövriyyəsinin artmasına da səbəb olmuşdur. Əgər 2004-cü ildə xarici ticarət dövriyyəsinin ümumi həcmi 39 milyon 73 min ABŞ dolları olmuşdursa, bu ilin 11 ayında müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən aparılan əməliyyatlar nəticəsində 52 milyon 893 min ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi yaranmışdır. Bu da keçən ilin illik göstəricisi ilə müqayisədə 13 milyon 820 min ABŞ dolları və ya 35,4 faiz artım deməkdir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı büdcə daxil-olmalarının həcminə də təsir göstərmişdir. 2005-ci ilin 11 ayı ərzində Naxçıvan Muxtar Respublikasının büdcəsinə bütün mənbələr hesabına 93 milyard 770 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2004-cü ilin büdcəsinin müvafiq göstəricisindən 16 milyard 772 milyon manat çoxdur.

Möhtərəm Prezident, bir məsələni də qeyd edim ki, muxtar respublikanın büdcəsi Sizin diqqət və qayğınızla hər il artmışdır. Belə ki, 2004-cü ildə muxtar respublikanın büdcəsi 241 milyard 137 milyon manat, 2005-ci ildə 351 milyard 650 milyon manat olmuş, 2006-cı ildə isə 514 milyard 247 milyon manat müəyyən edilmişdir.

Naxçıvan şəhərinin büdcəsi isə artıq altıncı ildir ki, subsidiyasız planlaşdırılır. Tikinti-abadlıq işlərinin həcminin və saxlanma xərclərinin ildən-ilə artmasına baxmayaraq, Naxçıvan şəhərində aparılan işlərin maliyyələşdirilməsində heç bir problem yaranmamışdır.

Həyata keçirilən quruculuq tədbirləri, yeni iş yerlərinin açılması bir vaxtlar iş ardınca Bakıya və digər şəhərlərə gedən yerli sakinlərin geri qayıtmasına səbəb olmuşdur. Belə ki, təkcə bu ilin 11 ayında əvvəllər muxtar respublikanı tərk etmiş 1145 ailə geri qayıtmışdır. Eyni zamanda 2005-ci ilin ötən dövrü ərzində muxtar respublikada satılmış mənzil və ya fərdi yaşayış evlərinin 324-ü geri qayıtmış ailələr tərəfindən alınmışdır. Ötən 11 ayda muxtar respublika əhalisinin sayı 3849 nəfər artaraq 376 min 531 nəfər olmuşdur. Bütün bunlar blokada şəraitinin

çətinliklərinə baxmayaraq, ümummilli liderimizin inkişaf strategiyasının, bu xəttin ölkə prezidenti tərəfindən uğurla davam etdirilməsinin konkret bir regionda nəticələridir.

Diqqətinizə görə sağ olun.

## «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri Əlixan Məlikovun çıxışı

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Bu gün biz xüsusilə əlamətdar bir tədbirə – 15 illik fasilədən sonra blokada şəraitində olan, lakin tam həyatı ilə yaşayan və çalışan, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi münasibətilə toplaşmışıq.

Cənab Prezident, mən «Azəriqaz» QSC-nin çoxminlik kollektivi adından böyük fərəh və iftixar hissi ilə Sizə məruzə edirəm ki, verdiyiniz tapşırığın birinci mərhələsi uğurla həyata keçirilmişdir.

Belə ki, 2004-cü ilin avqust ayında bu işə başlanmış və onun hər bir icra mərhələsində bilavasitə Sizin, möhtərəm cənab Prezident, verdiyiniz tapşırığa və müəyyən etdiyiniz müddətlərə müvafiq təsdiq edilmiş proqramla işlərin həyata keçirilməsi nəticəsində Naxçıvan Muxtar Respublikasının əhalisinin mənzillərinə mavi yanacaq verilmişdir ki, bu da sərt iqlimi olan muxtar respublika üçün xüsusilə vacibdir.

Naxçıvan Muxtar Respublikasının qaz təminatı layihəsi texnoloji baxımdan çox mürəkkəb bir layihədir və bunu nəzərə alaraq layihənin icrası aşağıdakı prinsiplər əsasında həyata keçirilir.

Birincisi, layihənin mərhələ-mərhələ həyata keçirilməsi, ikincisi, muxtar respublikada mümkün olan ərazilərdən mövcud nəqletmə sistemindən istifadə etmək, üçüncüsü, qaz borularının istismarı hər hansı bir şəkildə texniki təhlükəsizlik baxımından qeyri-mümkün hesab edildikdə, boruların yenidən çəkilməsi və avadanlığın təzələnməsi, dördüncüsü, qaz təsərrüfatı infrastrukturunun bərpa edilməsində mümkün qədər dünya

standartlarına cavab verən texnologiyalardan və avadanlıqdan istifadə edilməsi. Yuxarıda qeyd olunan prinsiplərə əsasən işlərin icra müddətləri aşağıdakı kimi nəzərdə tutulmuşdur: birinci mərhələ 2005-ci ilin sonuna qədər, ikinci mərhələ 2006-cı il, üçüncü mərhələ 2007-ci il.

Birinci mərhələdə Naxçıvan Muxtar Respublikasında qaz təminatının bərpası layihəsi çərçivəsində qısa bir müddətdə 70 kilometrə qədər yüksək təzyiqli və 250 kilometrə qədər orta və aşağı təzyiqli qaz kəmərləri çəkilmişdir. Bu kəmərlər bir çox hallarda çətin və mürəkkəb relyefli ərazilərdən çəkilmişdir.

Bundan əlavə, ölçü qovşaqlarının, qazpaylayıcı stansiyaların tikintisi, şəhər və rayon mərkəzlərinin qazlaşdırılması həyata keçirilmişdir. Qaz təminatının bərpası ilə eyni vaxtda əhali abonentlərin mənzilləri və evləri mətbəx sobaları və qaz sayğacları ilə təmin olunmuşdur. Bu mərhələdə 11 minə yaxın əhali abonent qazla təmin ediləcəkdir.

Cəmi bir il ərzində Astarada analoqu olmayan irihəcmli, mürəkkəb texnologiyası olan və sutkada 2 milyon kubmetr təbii qazı 55-57 atmosfer təzyiqlə nəqletmə sisteminə ötürən kompressor stansiyası tikilmişdir.

Təbii qazın keyfiyyətinin kimyəvi tərkibini müəyyən edən xüsusi laboratoriya və dünya standatlarının tələblərinə cavab verən ölçü qovşağı da tikilib istismara verilmişdir. Lakin layihənin ən mühüm komponenti Azərbaycan və İran sərhədindəki Araz çayından qaz kəmərinin çəkilməsidir. Belə ki, Araz çayının boru keçən hissəsinin uzunluğunun cəmi 290 metr olduğuna baxmayaraq, xüsusi bənd tikilmiş, birinci mərhələdə çayın bir hissəsində, sonra isə həmin üsulla ikinci hissəsində qaz kəməri çəkilmişdir.

Azərbaycan Respublikası və İran İslam Respublikası arasında bağlanmış müqaviləyə əsasən orta hesabla 350 milyon kubmetr təbii qazın verilməsi və tələbat artdıqca 500 milyon kubmetrə çatdırılaraq Naxçıvan Muxtar Respublikasına təhvili nəzərdə tutulmuşdur. Birinci mərhələnin ümumi dəyəri 246,9 milyard manat təşkil edir ki, bunun da 84,3 milyard manatı

büdcədən, qalan 162,6 milyard manatı «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyəti vəsaiti hesabına icra olunmuşdur. Cənab Prezident, bu layihənin birinci mərhələsinin belə bir qısa müddətdə həyata keçirilməsi şəxsən Sizin gündəlik diqqət və qayğınızın nəticəsidir.

Layihənin ikinci mərhələsində həyata keçiriləcək işlər əsasən aşağıdakılardır:

1.Rayon mərkəzlərində yerləşən fərdi evlərə təbii qazın verilməsi üçün birinci mərhələdə çəkilmiş əsas magistral qaz kəmərlərindən daşıyıcı, paylayıcı və daxili qaz xətlərinin çəkilməsi. Cəmi 10828 evdə mətbəx qaz sobalarının və qaz sayğaclarının quraşdırılması;

2. Vaxtilə qazlaşdırılmış yaşayış məntəqələrinə, kəndlərə daşıyıcı, paylayıcı və daxili qaz xətlərinin çəkilməsi və qaz sayğaclarının quraşdırılması. Bu evlərin sayı 31 min 939-dur. Bu mərhələdə təbii qazın verilməsi üçün bütün boru xətləri yenidən çəkilir, onların üzərində şkaflar və digər qaz tənzimləyiciləri, eyni zamanda qaz sayğacı quraşdırılır. İkinci mərhələdə cəmi 42 min 767 abonent qazla təmin olunacaqdır.

İkinci və üçüncü mərhələlər üzrə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyəti tərəfindən texniki-iqtisadi hesabat hazırlanıb və bu mərhələnin icrası üçün tələb olunan vəsait 144 milyard manat səviyyəsində müəyyən edilmişdir.

Möhtərəm cənab Prezident, tələb olunan vəsaitin Naxçıvan Muxtar Respublikasına ayrılması məqsədəuyğun olardı. Belə ki, işlərin bu qaydada həyata keçirilməsi ilə bağlı əlavə dəyər vergisi, gömrük və digər rüsumların Naxçıvan Muxtar Respublikasının büdcəsinə daxil olmasını təmin edərdi. İkinci mərhələnin icra müddəti 2006-cı il müəyyən olunmuşdur.

Layihənin üçüncü mərhələsində, ümumiyyətlə, qazlaşdırılmamış yaşayış məntəqələrinin qazlaşdırılması nəzərdə tutulmuşdur. Bu mərhələdə həmin məntəqələrə, kəndlərə daşıyıcı, paylayıcı və daxili qaz kəmərlərinin çəkilişi, onların üzərində tənzimləyicilərin quraşdırılması və yerdə qalan 11 min 742 fərdi evdə qaz sayğaclarının qoyulması nəzərdə

tutulmuşdur. İlkin hesablamalara görə, bu yaşayış məntəqələrinin qazlaşdırılması üçün 61 milyard manat vəsait tələb olunur. Ümumilikdə təbii qaz təminatının bərpası nəticəsində 67 min 115 abonentin qazla təmin olunması planlaşdırılmışdır.

Təbii qaz ekoloji cəhətdən neft məhsullarından və iqtisadi cəhətdən elektrik enerjisindən daha sərfəlidir. Naxçıvan Muxtar Respublikasının təbii qaz təchizatı bərpa olunduğu təqdirdə enerji daşıyıcısı kimi işlədilən neft məhsullarına və elektrik enerjisinə qənaət ediləcəkdir. Bu da Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatının inkişafına böyük töhfə olacaqdır. Muxtar Respublikanın qaz təminatındakı 15 illik fasilə nəticəsində qarşıya çıxan bir sıra məsələlər də həll olunmuşdur. Belə ki, təbii qaz infrastrukturunun bərpası ilə yanaşı, bu sistemi istismar edəcək strukturlar üçün rayon mərkəzlərində müasir tələblərə cavab verən 8 inzibati binanın, işçi heyəti, qaz təsərrüfatı üçün xüsusi təyinatlı maşın-mexanizmlərin, nəqliyyat vasitələrinin alınması, təbii qazın uçotunun aparılması üçün kompüter sisteminin yaradılması təmin edilmişdir. Eyni zamanda bütün bu işlərin icrası nəticəsində muxtar respublikanın qaz təsərrüfatında 380 iş yeri bərpa edilmiş və əlavə açılmışdır.

Möhtərəm cənab Prezident!

Bütün çətinliklərə baxmayaraq, Naxçıvan Muxtar Respublikasının qaz təminatının bərpası işləri vaxtında yerinə yetirilib və 15 illik fasilədən sonra muxtar respublika əhalisinin evlərinə mavi yanacaq daxil olur.

Cənab Prezident, ümidvaram ki, Sizin daimi qayğınızla Naxçıvan Muxtar Respublikasının qaz təminatı layihəsinin ikinci, üçüncü mərhələləri də həyata keçiriləcək və bütövlükdə layihədə nəzərdə tutulmuş işlər uğurla başa çatdırılacaqdır.

Diqqətinizə görə sağ olun.

**İ l h a m  Ə l i y e v:** Gələn il Naxçıvana nə qədər qaz veriləcək?

**Ə l i x a n M ə l i k o v:** Cənab Prezident, gələn il Naxçıvan Muxtar Respublikasına 200 milyon kubmetr qaz verilməsi nəzərdə tutulmuşdur.

**İ l h a m Ə l i y e v:** Bütövlükdə əhaliyə 200 milyon kubmetr qaz veriləcək.

**Ə l i x a n M ə l i k o v:** Ümumilikdə, digər istehlak da. Burada elektrik stansiyası da bərpa olunur.

**İ l h a m Ə l i y e v:** Mən ona görə soruşuram. Çünki birincisi, o elektrik stansiyası qazla işləyəcək, ikincisi də, modul elektrik stansiyaları quraşdırılacaqdır.

**Ə l i x a n M ə l i k o v:** İndi elektrik stansiyalarında magistral qaz xətti hazırdır.

**İ l h a m Ə l i y e v:** Elektrik stansiyası nə qədər istehlak edəcəkdir?

**Ə l i x a n M ə l i k o v:** Bu, mərhələ-mərhələ olacaq, ilk növbədə birinci blok işə düşməlidir.

**İ l h a m Ə l i y e v:** Bilirəm, orada haradasa 50 meqavat güc olmalıdır.

**Ə l i x a n M ə l i k o v:** Bəli. Tam gücü ilə işləsə, ümumilikdə illik 150 milyon kubmetr.

**İ l h a m Ə l i y e v:** Bəs modul tipli stansiya?

**Ə l i x a n M ə l i k o v:** Modul tipli stansiyanın tələbatını hələ bilmirəm.

**İ l h a m Ə l i y e v:** Hesab edin ki, orada 90 meqavat elektrik enerjisi istehsal olunacaq. Təxminən nə qədər…

**Ə l i x a n M ə l i k o v:** Bakıda, yəni analoji olaraq, haradasa 150 milyondan 400 milyon kubmetrə qədərdir.

**İ l h a m Ə l i y e v:** Mən elə ona görə soruşuram. Çünki biz bir il bundan əvvəl İranla qaz mübadiləsi haqqında saziş imzalayanda o vaxt nə modul tipli stansiyaların qurulması, nə də elektrik stansiyasının bərpası məsələsi gündəlikdə var idi. Yəni sadəcə olaraq, biz əhalinin tələbatının ödənilməsini nəzərdə tutduq. Amma son bir il ərzində iki böyük layihə üzə çıxdı. Yəni biz onları icra etməyə başladıq. Ona görə gələcəkdə qazın mübadilə həcminin artırılması məsələsi də çıxacaqdır.

**V a s i f  T a l ı b o v:** Cənab Prezident, o stansiyalarda 300 milyon kubmetr işlənəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Ancaq hər iki stansiyada 300 milyon?

**V a s i f  T a l ı b o v:** Bəli.

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, müqavilənin şərtlərinə əsasən İran tərəfi ilə elə razılığa gəlinibdir ki, biz maksimum 500 milyon kubmetr tələb etmişik. Əgər ikitərəfli razılıq olarsa, tələb etdiyimiz qazdan asılı olaraq onlara verdiyimiz qazı da artırmalıyıq. 500 milyon kubmetrdən artıq olarsa da, biz Naxçıvana əlavə qaz ala bilərik. Bu şərt nəzərə alınıbdır.

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, aydındır. Oradan Naxçıvana nə qədər qaz götürəcəyiksə, o qədər də onlara Astaradan ötürəcəyik. Sadəcə olaraq, gərək biz nəzərdə saxlayaq, çünki bu, ən azı haradasa 500 milyon kubmetr olacaqdır.

Bəs bu boru kəmərinin gücü nə qədərdir?

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, Siz keçən il qərar verdiniz ki, həmin boru kəmərinin diametrini artıraq. 500 millimetrdir. Bu bizə imkan verəcək ki, 1 milyard kubmetr qazı nəql edə bilək.

**İ l h a m  Ə l i y e v:** Biz gərək gələcəyi fikirləşək. Naxçıvanın sənaye potensialı güclənəcək, tələbat artacaqdır. Ona görə 500 milyon kubmetr ancaq bu gün lazımdır. Əgər bu iki stansiya işləsə, əhaliyə birinci mərhələdə 200 milyon kubmetr qaz veriləcəkdir. İkinci mərhələdə nə qədər olacaqdır?

**Ə l i x a n  M ə l i k o v:** Təxminən 300 milyon kubmetr.

**İ l h a m  Ə l i y e v:** Yəni biz yaxşı ki, ehtiyat üçün böyük diametrli boru çəkdik.

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, istilik qazanxanaları da nəzərə alınmalıdır. Çünki onlar da mavi yanacaqdan istifadə edəcəkdir.

**İ l h a m  Ə l i y e v:** Biz «Azəristiliktəchizat» Açıq Səhmdar Cəmiyyətini yaratdıq. O, Azərbaycanın bütün istilik sistemini bərpa etməlidir. Əlbəttə, ilk növbədə Bakının. Çünki Bakıda çoxlu hündürmərtəbəli evlər var. Ondan sonra bütün başqa şəhərlərdə də

yeni, müasir məhəllədaxili qazanxalar tikiləcəkdir. Yəni bunların hamısı qaz tələb edir. Bu, böyük bir layihədir, uzunmüddətli proqramdır. Bu proqramın icrası nəticəsində, əlbəttə, bütün sahələr inkişaf edəcəkdir.

Bəs sayğaclarla bağlı vəziyyət necədir?

**Ə l i x a n M ə l i k o v:** Cənab Prezident, hər bir mənzildə sayğac quraşdırılır. Yəni sayğacsız qaz vermirik. Artıq digər istehlakçılar da müraciət edirlər – yəni özəl müəssisələr, hansısa qazanxana. Əlbəttə, bizim tələbimiz odur ki, həmin özəl müəssisə sifarişçi kimi, obyektin layihəsini verməlidir, sayğac almalıdır və biz də qazı müqavilə şərti ilə verəcəyik. Ancaq ikinci və üçüncü mərhələdə fərdi evlərdə sayğacların «Azəriqaz»ın hesabına quraşdırılması nəzərdə tutulmuşdur.

**İ l h a m Ə l i y e v:** Mən hesab edirəm ki, biz ikinci mərhələyə başlamalıyıq. Bizim planlarımızda bu var idi. Bir daha qeyd etmək istəyirəm, bir il bundan əvvəl biz bu barədə danışırdıq ki, birinci mərhələni icra edək, ondan sonra ikinci mərhələyə keçək. Gərək maliyyə ehtiyatlarını həm «Azəriqaz» özü axtarsın, həm də mərkəzləşmiş qaydada biz axtaraq. Çünki bizim ən böyük problemimiz ondadır ki, yığım çox aşağı səviyyədədir. Bizdə yığım nə qədərdir?

**Ə l i x a n M ə l i k o v:** Cənab Prezident, yığım 30 faiz təşkil edir.

**İ l h a m Ə l i y e v:** 30 faiz. Dünyada qazın qiyməti qalxır, gələcəkdə daha da kəskin şəkildə qalxacaqdır. İndi görürük ki, bu bölgəyə, buradakı ölkələrə qaz nəql edən, ixrac edən Rusiya qiyməti qaldırıbdır. Onlar tərəfindən verilmiş yeni təklif əvvəlki qiymətdən təxminən iki dəfə bahadır. Əgər biz bu il min kubmetr qazı 60 dollara alırdıqsa, gələn il üçün yeni qiymət 110 dollar təklif olundu. Bizdə isə daxili satış qiyməti 49 dollardır. Onun da cəmi 30 faizi yığılır. Nəzərə alsaq ki, biz ildə Rusiyadan 4,5 milyard kubmetr qaz idxal edirik, deməli, əgər 110 dollardan hesablasaq, ildə Azərbaycan ancaq qazın alınmasına görə Rusiyaya 500 milyon dollar pul ödəyir. Bunun müqabilində nə qədər yığırsınız?

**Ə l i x a n  M ə l i k o v:** 30 faiz.

**İ l h a m  Ə l i y e v:** Yox, pul şəklində. Biz 500 milyon dollar ödəyirik.

**Ə l i x a n  M ə l i k o v:** Təxminən 380–400 milyon manat.

**İ l h a m  Ə l i y e v:** Yox, dollarla haradasa 80 milyon. Yəni burada yaranan fərq 420 milyon dollardır. Mən hələ ancaq idxal qazını götürürəm. Nəzərə alsaq ki, Azərbaycan özü də qaz hasil edir. Bu il nə qədər qaz hasil etmişik?

**N a t i q  Ə l i y e v***(Sənaye və Energetika naziri)***:** Cənab Prezident, 4,5 milyard kubmetr.

**İ l h a m  Ə l i y e v:** Onun nə qədər hissəsi daxili tələbata getdi?

**N a t i q  Ə l i y e v:** 4,5 milyardın hamısı və hətta əlavə də verilir, haradasa 5 milyard kubmetr.

**İ l h a m  Ə l i y e v:** Faktiki olaraq 5 milyard kubmetr də verilir, bunun müqabilində pul ödənilmir. Əgər bunu da dünya qiyməti ilə hesablasaq, bu da 600 milyon dollar edəcəkdir. Yəni Azərbaycan dövləti hər il ancaq qazda əhaliyə və müəssisələrə 1 milyard dollar dotasiya verir.

Bilirsiniz, bizim büdcəmiz 4 milyard dollardır, özü də bu, gələn il olacaqdır. Bu il 2,2 milyard, ondan əvvəlki ildə isə 1,5 milyard dollar olmuşdur. Bunun 1 milyard dollarını əhaliyə dotasiya veririk. Mən hələ elektrik enerjisini götürmürəm. Elektrik enerjisində də vəziyyət buna bənzərdir. Bu il «Azərenerji»yə 2 milyon ton mazut verilmişdir. 2 milyon mazutun dünya qiyməti, tonunu 200 dollardan hesablasaq, 400 milyon dollar edir. Neft Şirkətinə nə qədər pul ödəyiblər?

**N a t i q  Ə l i y e v:** Çox aşağı faizdir.

**İ l h a m  Ə l i y e v:** Bunu da əlavə etsək, Azərbaycan ildə təxminən 1 milyard 500 milyon dollar pul itirir. İndi biz deyirik ki, bazar iqtisadiyyatı prinsipləri ilə yaşayırıq. Doğrudan da belədir. İqtisadiyyatımız da bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Özəlləşdirmə prosesi gedir. Ümumi daxili məhsulumuzda özəl sektor, səhv etmirəmsə, 75 faiz təşkil edir. Amma bazar iqtisadiyyatı prinsipi ilə yaşayan hansı ölkədə 1

milyard 500 milyon dollar – builki büdcənin təxminən 60–70 faizi – dotasiya verilir?! Mən demək istəyirəm ki, biz hamımız bunları bilməliyik.

Əlbəttə, mən anlayıram ki, insanların bəzilərinin bunu ödəməyə imkanı yoxdur. Biz bunu başa düşürük və bilirsinz, bu ilin əvvəlində «Azəriqaz»a göstəriş vermişdim: görürsünüz ki, harada imkan yoxdur, siz insafla yanaşın. Ancaq bu vəziyyət dözülməzdir, belə davam edə bilməz. Bu ona gətirib çıxarır ki, enerji sektorunda qarşılıqlı ödəməmələr yaranır. Neft Şirkəti qazı alıb «Azəriqaz»a verir. «Azəriqaz» onu müəssisələrə, əhaliyə verir, pulunu ala bilmir və Neft Şirkətinə pulu ödəmir. Neft Şirkəti mazutu emal edir, nefti mazuta çevirib «Azərenerji»yə verir. «Azərenerji» onu yandırır, yəni mazut istehlakçılara gedir, əvəzində pul yığa bilmir və Neft Şirkətinə ödəyə bilmir. Ona görə mən Sənaye və Energetika Nazirliyi qarşısında bu vəzifəni qoydum ki, nəhayət, gərək bu məsələdə bir sistem yaradaq.

Düzdür, biz ildən-ilə öz iqtisadi potensialımızı artırırıq. Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra, əlbəttə, bizim maddi vəziyyətimiz daha da yaxşı olacaqdır. Amma gərək bu məsələ tənzimlənsin. Çünki bu dotasiyalar çox davam edə bilməz.

Gələn il üçün hər halda, sizdə proqram hazırdır. İndi biz baxırıq ki, maliyyə vəsaitini həll edək. Ondan sonra ikinci, sonra üçüncü mərhələni həyata keçirək ki, Naxçıvanda bütün məntəqələr qazla təmin olunsun. Əlbəttə, siz gərək yığımı təşkil edəsiniz ki, bu işdə problem olmasın. Ümumiyyətlə, qaz, işıq məhsuldur. Onun qiyməti var. İnsanlar dükana gedəndə çörək, yağ alanda onun pulunu ödəyirlər. Qaz, işıq da məhsuldur, onun da qiyməti var, o da ödənilməlidir. Ona görə siz də çalışmalısınız ki, bu sahədə nizam-intizam daha da güclənsin.

**Ə l i x a n  M ə l i k o v:** Cənab Prezident, aydındır.

**İ l h a m  Ə l i y e v:** İndi artıq qazın verilməsi başlayıbdır, mənzillərə verilir?

**V a s i f  T a l ı b o v:** Bəli, 3 minə yaxın mənzilə verilir.

**İ l h a m  Ə l i y e v:** Təzyiq necədir, yaxşıdır?
**V a s i f  T a l ı b o v:** Bəli, yaxşıdır.
**İ l h a m  Ə l i y e v:** Çox yaxşı.

## YEKUN NİTQİ

Yenə də deyirəm ki, enerji sektorundakı işlərimiz ölkəmizin iqtisadi inkişafında, sosial məsələlərin həllində böyük əhəmiyyət kəsb edir. Çox önəmli məsələ enerji təhlükəsizliyidir. Azərbaycan bölgədə yeganə ölkələrdən biridir ki, biz öz gücümüzə arxalanaraq enerji tələbatımızı ödəyə bilərik və ödəyirik. İndi kifayət qədər neft hasil edilir. Əlbəttə, qaz bizim tələbatımızı ödəmir. Amma lap fərz etsək ki, sabah Azərbaycana başqa yerdən qazın nəqli dayandı, biz vəziyyətdən çıxarıq. Sadəcə olaraq, əlavə nefti emal zavodlarımıza verərək daha çox mazut əldə edəcəyik və bununla vəziyyətdən çıxacağıq.

Bizim öz potensialımız da güclənir. Gələn il «Şahdəniz» qaz yatağından ilk qaz hasil ediləcəkdir. İndi bütün bu hadisələrə mən televiziya kanalları ilə baxaraq, bir daha o illəri xatırlayıram. 1996-cı ildə «Şahdəniz» qaz-kondensat yatağı ilə bağlı müqavilə hazırlanarkən xalqımızın ümummilli lideri Heydər Əliyev müşavirə çağırdı. Neft Şirkətinin bütün rəhbər işçiləri iştirak edirdi. Məsələ nədə idi? Azərbaycanın uğurlu inkişafına mənfi yanaşan, yəni bunu istəməyən, indi son parlament seçkilərində özünü növbəti dəfə biabır edən Rəsul Quliyev etiraz məktubu yazmışdı ki, Azərbaycan xarici şirkətlərlə «Şahdəniz» qaz yatağı ilə müqavilə imzalamamalıdır, bu bizə lazım deyildir. Yazırdı ki, mən sübut edə bilərəm ki, bu, Azərbaycan üçün sərfəli müqavilə deyildir. Onda ölkə prezidenti müşavirə çağırdı. Neft Şirkətinin bütün rəhbər işçiləri – prezidenti, vitse-prezidentləri orada idi və geniş müzakirə, fikir mübadiləsi aparıldı. Əlbəttə ki, Neft Şirkətinin bütün nümayəndələri, rəhbər işçiləri elmi əsaslarla, adi məntiqlə və çox belə sadə bir izahatla sübut etdilər ki, «Şahdəniz» üzrə müqavilə məhz 1996-cı ildə imzalanmalıdır.

Sonra gec ola bilər. Çünki bu, nəhəng bir rezervuardır, nəhəng bir yataqdır. Onun işlənməsi, ondan əvvəl kəşfiyyat işlərinin aparılması bir neçə il aparır. O vaxt nəzərdə tutulmuşdu ki, minimum 3-4 il kəşfiyyat işləri aparılacaq, ondan sonra quyular qazılacaq, platformalar tikiləcək və yalnız bundan sonra qaz çıxarılacaqdır. Əgər biz indi vaxt itirsək, onda bu qaz heç vaxt çıxmayacaq. Azərbaycanın isə buna ehtiyacı var.

Yadımdadır ki, o ciddi çıxışlardan sonra Rəsul Quliyev bizə əməli bir izahat da verə bilmədi və müşavirəni tərk etdi. Əlbəttə, o vaxt demək çətin idi ki, bunun belə hərəkətlərinin səbəbi nə idi. Amma indi tarixi təhlil edərkən, onun sonrakı hərəkətlərinə fikir verərkən görürük ki, onun məqsədi, sadəcə olaraq, ondan ibarət idi ki, Azərbaycan bu inkişaf yoluna çıxmasın. Azərbaycanda vəziyyət daha da pisləşsin. Çünki o vaxt məkrli planları onun ürəyində var idi. Əgər o vaxt «Şahdəniz» müqaviləsi imzalanmasaydı, bu gün biz doğrudan da çıxılmaz vəziyyətdə olardıq.

İndi isə gələn ildən başlayaraq «Şahdəniz» qaz yatağından qaz çıxacaq və ondan sonra xaricdən gələn heç bir əlavə qaza ehtiyacımız olmayacaqdır. Bu bir də onu göstərir ki, bizim ulu öndərimiz nə qədər Azərbaycanın gələcəyini düşünürdü. 1996-cı ildə yaxşı başa düşürdük ki, ordan qaz haradasa 8-9 ildən sonra hasil ediləcəkdir. Belə də oldu. 1996-cı ildən artıq on il keçibdir. Yəni gələcəyi düşünmək, öz xalqını düşünmək, gələcək nəsilləri düşünmək – dövlət adamını, dövlət liderini məhz bu amillər səciyyələndirir. Gələn il «Şahdəniz»dən ilk qaz çıxarılacaq, ondan sonrakı illərdə daha da böyük həcmdə olacaq və biz nəinki öz tələbatımızı ödəyəcək, eyni zamanda qaz ixrac edən ölkəyə çevriləcəyik. Müvafiq sazişlər də imzalanıbdır və bizim neft strategiyamız, Heydər Əliyevin neft strategiyası bu gün uğurla icra edilir və bizə imkan verir ki, heç kimdən asılı olmayaq.

MDB ölkələrində baş verən proseslərə baxın. Qaz amili çox ciddi amildir. O bəzi ölkələri çıxılmaz vəziyyətə salır. Çünki əgər qaz yoxdursa, deməli, sənaye dayanacaqdır. Sənaye

dayanacaqsa, böhran yaranacaq və bu, fəlakətli, faciəvi nəticələrlə sonuclana bilər. Ancaq Azərbaycan bu baxımdan özünü çox əhəmiyyətli hiss edir. Mən enerji təhlükəsizliyi deyəndə bunu nəzərdə tuturam. Bu uzaqgörənlik əsl dövlət adamını fərqləndirir. 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ağır, çətin vəziyyətdə məhz o uzaqgörənliyin, xalqa olan sədaqətin və dövlətçiliyin nümunəsi idi. O müqavilə imzalanandan sonra Azərbaycanda bədnam qüvvələr çevriliş planlarına əl atdılar, sui-qəsd planlarına əl atdılar. Nəyə görə? Çünki bizi istəməyən qüvvələr yaxşı başa düşürdülər ki, neft müqaviləsinin imzalanması, ondan sonrakı müqavilələrin imzalanması Azərbaycanın müstəqilliyini təmin edəcəkdir.

Həmişə deyirəm, bu gün də demək istəyirəm, müstəqillik sadəcə olaraq, bir atribut deyildir. Çox ölkə var ki, onun bayrağı da var, himni də var, amma müstəqil siyasət apara bilmir. Kiminsə təsiri altında yaşayır, kimdənsə asılıdır. Xüsusilə, Azərbaycan kimi ölkələr ki, keçmişdə müstəqillikdən məhrum olmuşdular, müstəmləkə kimi yaşayırdılar. İstər XVIII əsrdə, istər XX əsrdə. XX əsrdə sadəcə, bu başqa bir formada idi.

Bu gün biz müstəqil dövlət kimi yaşayırıq, güclənirik və öz siyasətimizi ancaq Azərbaycan xalqının milli maraqları üzərində qururuq. Bu gün bu siyasəti aparmaq üçün, əlbəttə, bir daha və bir daha qeyd etməliyik ki, bunun səbəbkarı xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. O olmasaydı, bu gün Azərbaycanın, ümumiyyətlə, taleyini təsəvvür etmək çətin olardı. «Əsrin müqaviləsi» imzalanmasaydı, biz bu vəsaiti haradan götürəcəkdik? Haradan Azərbaycana 25 milyard dollar sərmayə qoyulacaqdı? Bu sərmayə qoyulmasaydı, Azərbaycanda evlərmi tikiləcəkdi, xəstəxanalarmı tikiləcəkdi, hotellərmi tikiləcəkdi, müəssisələrmi tikiləcəkdi, iş yerlərimi açılacaqdı? Haradan olacaqdı bunlar? O hadisə, o addım bizim müqəddəratımızı müəyyən etdi və bu gün biz hamımız çalışmalıyıq ki, əldə edilmiş uğurları daha da möhkəmləndirək, Azərbaycanda yaranmış bu əlverişli şəraitdən maksimum dərəcədə istifadə edək. Öz iqtisadi potensialımızı gücləndirək, Heydər Əliyev neft strategiyasını axıra

qədər aparaq və bütün çətinliklərə baxayaraq, onu başa çatdıraq. Azərbaycanda ictimai-siyasi vəziyyəti sabit şəkildə saxlayaq.

Erməni lobbisi və onların havadarları həmişə Azərbaycana düşmənçilik mövqeyində olmuşlar. Bu gün isə bizim gücümüzdən ehtiyatlanaraq, Azərbaycana qarşı çox çirkin kampaniya aparırlar. Azərbaycanı ləkələmək üçün, qeyri-demokratik dövlət kimi təqdim etmək üçün və sübut etmək üçün ki, ermənilər belə bir dövlətdə sərbəst, azad yaşaya bilməzlər. Yəni məqsəd budur. Amma bizim içimizdə də belələri var. Bu gün Avropa Şurasına məktub yazan müxalifət, onlar kimin dəyirmanına su tökür?

Azərbaycanda parlament seçkiləri keçirildi, Azərbaycan xalqının iradəsi seçkilərdə öz əksini tapdı. Amerika Dövlət Departamenti tərəfindən təyin edilmiş şirkət rəy sorğusu, ekzit-pol keçirdi. Onun nəticələri rəsmi nəticələrlə 90-95 faiz üst-üstə düşdü. Yaxşı, hansı ölkədə 100 faiz mükəmməl seçkilər keçirilib? Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxın, görün orada hansı hadisələr baş verir. Yəni belə olan halda, bütün beynəlxalq birlik bu seçkiləri tanıdığı bir halda, Azərbaycan xalqının iradəsi bu seçkilərdə tam şəkildə əks olunduğu bir halda və bu seçkilərin nəticələri ilə bağlı cəmiyyətdə heç bir mübahisə doğuracaq məsələ üzə çıxmadığı bir halda, o üzdəniraq, dırnaqarası, xəyanətkar siyasətçilər Avropa Şurasına məktub yazırlar ki, Azərbaycana qarşı sanksiyalar tətbiq olunsun. O məqamda ki, Avropa Şurasında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə olunacaqdır.

Mən Avropa Şurasında nümayəndə heyətinə rəhbərlik edən zaman biz nail olduq ki, bu məsələ gündəliyə salınsın. Baxmayaraq ki, ermənilər bütün imkanlardan istifadə etmişdilər, bütün lobbisini işə salmışdılar ki, məsələ gündəliyə salınmasın. Alınmadı. Biz onu gündəliyə saldıq. Yaxşı, indi Azərbaycana qarşı sanksiya tətbiq olunacaqsa – birincisi, bu, qeyri-real bir şeydir, amma fərz edək – kim bundan faydalanacaq? Ermənilər. Deməli, nədir bu? Bu, milli xəyanət-

dir. Müxalifətin bütün hərəkətləri bax, bu amillərlə müşahidə olunur. Mən, sadəcə olaraq, parlament seçkiləri ərəfəsində bu məsələ ilə bağlı çalışırdım ki, öz fikirlərimi ifadə etməyim. Mən istəmirdim ki, prezident kimi, mənim fikirlərim, yaxud da ki, təhlilim seçkilərin nəticəsinə təsir göstərsin. Mən çalışırdım ki, bütün namizədlərə bərabər şərait yaradılsın. Çalışırdım ki, maksimum dərəcədə şəffaflıq olsun. Azərbaycan xalqı özü öz səsini versin və müəyyən etsin ki, kimə səs vermək istəyir.

Bugünkü müxalifətin bütün hərəkətləri Ermənistanın Azərbaycana qarşı etdiyi hərəkətlərlə üst-üstə düşür. Onların prinsipi budur ki, ölkə nə qədər pis olsa, bizim üçün o qədər yaxşıdır. Daha anlamırlar ki, artıq onlar yaxşı ola bilməz, heç vaxt. Bu son parlament seçkiləri müxalifətin sonudur. Bunu biz də bilirik, xarici təşkilatlar da bilir, onların ümid bəslədiyi dairələr də bilir və onlardan üz döndəriblər. Çünki bu cür ola bilməz, belə yaramaz. Müxalifət olmalıdır və mütləq olmalıdır. Çünki iqtidar–müxalifət münasibətləri nəticəsində ideyalar ortaya çıxır. Düzgün qərarlar ortaya çıxır. Müxalifət bir növ iqtidarı bəzi addımlardan çəkindirir. Amma bizim müxalifət Azərbaycana düşmənçilik mövqeyindədir. Azərbaycana qarşı çox çirkin kampaniya aparır. Erməni lobbisi ilə birləşiblər və Azərbaycana qarşı kampaniya aparırlar. Yenə də deyirəm, Azərbaycanın gələcəyi çox parlaq olacaqdır. Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir.

Mən bu gün tarixdən bəzi hadisələri xatırladarkən, bəzi misalları gətirərək bir daha demək istəyirəm ki, bizim inkişafımız bundadır. Bu gün ən əlverişli vəziyyət Azərbaycandadır. Bizim iqtisadi potensialımız, enerji siyasətimiz, coğrafi vəziyyətimiz, dünyadakı mövqeyimiz – bütün istiqamətlərdə uğurlar var. Biz bunu qorumalıyıq, saxlamalıyıq. Prezident kimi, mən iki il bundan əvvəl bu məsuliyyəti öz üzərimə götürmüşəm. Demişəm ki, Azərbaycanda Heydər Əliyev siyasəti davam etdiriləcək, Azərbaycan xalqının maraqları təmin olunacaqdır. Son parlament seçkiləri onu göstərdi ki, heç bir təzyiq heç bir əhəmiyyət kəsb etmir. Mən öz fəaliyyətimdə

xalqın dəstəyinə, iradəsinə arxalanıram. Mənim üçün bundan başqa heç nə yoxdur. Kim nə deyirsə, desin. Bilirəm ki, bu, Azərbaycan xalqı üçün lazımdır, onu edəcəyəm. Seçkilər onu bir daha göstərdi. Biz hamımız çalışmalıyıq ki, Azərbaycanda bu gözəl ab-hava davam etdirilsin. Asayiş, istimai-siyasi sabitlik pozulmasın. Çünki əgər bu pozularsa, ölkəmiz çox çətin vəziyyətə düşər, sabitlik olmayan yerdə heç bir inkişaf mümkün deyildir. Heç bir vətəndaş cəmiyyəti mümkün deyildir. Biz bu yolun tərəfdarıyıq, biz demokratiyanın, söz azadlığının, plüralizmin, siyasi proseslərin tərəfdarıyıq. Ancaq bütün bunlar bəzi qüvvələr tərəfindən Azərbaycan dövlətçiliyinə qarşı istifadə olunmamalıdır. Bunları, sadəcə olaraq, ona görə deyirəm ki, mənim fikirlərimi biləsiniz. Onsuz da bilirsiniz, həmişə bütün tədbirlərdə, toplantılarda, xalqla görüşlərimdə öz ürək sözlərimi deyirəm. Çünki xalq prezidentin mövqeyini, prezidentin fəaliyyətini bilməlidir. Mənim fəaliyyətim son iki il ərzində xalqın qarşısında olubdur və bundan sonra da olacaqdır.

Bir sözlə, biz düz yoldayıq, bizim işimiz haqq işidir, nəticələr də onu göstərir. Çalışmalıyıq ki, daha da yaxşı işləyək, daha da səmərəli işləyək. Harada qüsurlar var, çatışmazlıqlar var, onu aradan qaldıraq və güclü dövlət yaradaq. Müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Biz gərək bunu qoruyaq, möhkəmləndirək və Azərbaycanı inamla irəliyə aparaq. Bu işdə sizin hamınıza uğurlar arzulayıram.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA

*20 dekabr 2005-ci il*

### Ali Baş Komandan İlham Əliyev «N» hərbi hissəsində

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dekabrın 20-də səhər Naxçıvandakı «N» hərbi hissəsində olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Səfər Əbiyev Ali Baş Komandana hərbi hissənin görüşə hazır olması barədə raport verdi. Əsgər paltarı geymiş oğlan və qızlar Azərbaycan prezidentini salamladılar, gül dəstələri təqdim etdilər.*

*Naxçıvan qarnizonunun rəisi, general-leytenant Kərəm Mustafayev şəxsi heyətin Ali Baş Komandanın gəlişi şərəfinə düzülməsi barədə raport verdi. Azərbaycan prezidenti əsgərləri salamladı. Hərbi orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndi.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi hissəyə döyüş bayrağını təqdim etdi, şəxsi heyəti bu münasibətlə təbrik etdi.*

*Sonra şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçdi. Ali Baş Komandan hərbi hissənin döyüş texnikası, əsgər yataqxanası, tədris otaqları ilə tanış oldu, Heydər Əliyev guşəsinə baxdı.*

*Prezidentə məlumat verildi ki, hərbi hissənin yeni binasında əsgər yeməkxanası, tibb məntəqəsi, poçt vardır, əsgərlər üçün lazım olan bütün şərait yaradılmışdır. Hazırda hissənin ərazisində yeni stadion tikilir, idman qurğuları quraşdırılır. Şəhərcikdə yaşayan hərbçi ailələri üçün yeni yaşayış binası inşa olunmuş, istirahət parkı salınmışdır. Hərbi hissənin ərazisində 10 minə qədər bəzək və meyvə ağacları əkilmişdir.*

*Sonra Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev hərbi hissənin növbətçi divizionunda hava hücumundan müdafiə sistemi ilə tanış oldu, silahlara, texnikaya baxdı, döyüş növbəsində duran hərbçilərlə görüşdü.*

## İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN NAXÇIVANA SƏFƏRİ

*20 dekabr 2005-ci il*

*Dekabrın 20-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Naxçıvan Beynəlxalq hava limanında İran prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmədyarov, İranın Bakıdakı və Azərbaycanın Tehrandakı səfirləri qarşıladılar.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi binasının önündəki meydanda İran İslam Respublikası Prezidentinin təntənəli qarşılanma mərasimi oldu. Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan prezidenti İlham Əliyev İran prezidenti Mahmud Əhmədinejadı səmimiyyətlə qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi İran prezidentinə raport verdi. İranın və Azərbaycanın dövlət himnləri səsləndirildi. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Azərbaycan nümayəndə heyəti İran prezidentinə, İran nümayəndə heyəti isə Azərbaycan prezidentinə təqdim olundu.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

*20 dekabr 2005-ci il*

*Dekabrın 20-də Naxçıvan MR Ali Məclisinin binasında Azərbaycan prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycanla İran arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən iqtisadi, humanitar və mədəni əlaqələrin inkişafından məmnunluq ifadə olundu, bu əlaqələrin daha da möhkəmlənəcəyinə əminlik vurğulandı. Hökumətlərarası razılaşmaya əsasən, İran ərazisi ilə Naxçıvana təbii qazın verilməsini əlamətdar hadisə kimi qiymətləndirən prezidentlər bunun iqtisadi layihələrin həyata keçirilməsində əməkdaşlığın yaxşı nümunəsi olduğunu bildirdilər.*

* * *

*Dekabrın 20-də Azərbaycan və İran prezidentlərinin təkbətək görüşündən sonra danışıqlar dövlət başçılarının iştirakı ilə geniş tərkibdə davam etdirildi.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin vəziyyəti, habelə perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı. Bu münasibətlərin gələcəkdə daha da möhkəmləndirilməsinin zəruriliyi, hər iki ölkənin birgə iqtisadi layihələrin həyata keçirilməsi istiqamətində səyləri xüsusi vurğulandı. Eyni zamanda müştərək komissiyanın*

*fəaliyyətinin genişləndirilməsi, qarşılıqlı səfərlərin artırılmasının vacibliyi bildirildi. İqtisadi əməkdaşlıq çərçivəsində İran ərazisi ilə Naxçıvan Muxtar Respublikasına təbii qaz verilməsi qarşılıqlı işbirliyinin real sübutu, xalqlarımızın dostluq münasibətlərinin daha bir təzahürü kimi qiymətləndirildi.*

*Görüşdə mədəni, humanitar əlaqələrə də toxunuldu və bu sahələrdə qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Dövlət başçıları Azərbaycan və İran arasında dostluq əlaqələrinin möhkəm təməllər üzərində qurulduğunu bir daha vurğuladılar.*

* * *

*Geniş tərkibdə görüş başa çatdıqdan sonra sənədlərin imzalanması mərasimi oldu. Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Mahmud Əhmədinejad «Azərbaycan Respublikası və İran İslam Respublikası arasında energetika sahəsində əməkdaşlıq haqqında memorandum»u imzaladılar.*

*Sonra Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və İranın Xarici İşlər naziri Mənuçehr Mottəki «Azərbaycan Respublikasının Hökuməti və İran İslam Respublikasının Hökuməti arasında inkişaf yardımından istifadəyə dair icra memorandumu»nu imzaladılar.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT MAHMUD ƏHMƏDİNEJADIN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*20 dekabr 2005-ci il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi bir daha ürəkdən salamlayıram və sizə xoş gəlmisiniz deyirəm.

Bir müddət bundan əvvəl biz hörmətli cənab prezidentlə Məkkə şəhərində görüş keçirdik və ikitərəfli əlaqələri müzakirə etdik, geniş fikir mübadiləsi apardıq. Mən cənab Əhmədinejadı Naxçıvana dəvət etdim ki, burada görüşək. Həm İrandan Naxçıvana qazın verilməsini qeyd edək, eyni zamanda, yenidən görüşüb ikitərəfli əlaqələri – aramızda olan siyasi-iqtisadi, mədəni əlaqələri müzakirə edək. İki ölkə arasında əlaqələr çox yüksək səviyyədədir. Biz çox səmərəli əməkdaşlıq edirik və bu əməkdaşlığın praktiki nəticələri vardır.

Çox sevindirici haldır ki, imzalanmış sənədlər, sazişlər qısa müddət ərzində həyatda öz əksini tapır və icra olunur. Bugünkü görüşlərdə də müvafiq nazirlərə konkret tapşırıqlar verildi, bizim əməkdaşlığımızın gələcək addımları müzakirə edildi və bir daha əmin olduq ki, iki dost, qardaş ölkə arasında əlaqələr yüksələn xətlə davam edir. Bizim aramızda qarşılıqlı anlaşma var, əməkdaşlıq var, dostluq var və əminəm ki, bu səfərdən sonra bütün sahələrdə əlaqələrimiz daha da möhkəmlənəcəkdir.

İran ilə Azərbaycan qonşu, dost ölkələrdir. Bizim aramızda olan əməkdaşlıq həm ölkələrimiz üçün, həm də bölgə üçün çox əhəmiyyətlidir. Bölgədə sülhün, təhlükəsizliyin, əmin-amanlığın bərqərar olunması çox böyük əhəmiyyət kəsb edir. Bizim ölkələrimiz bu işə öz töhfəsini verir. Əlbəttə, iqtisadi əlaqələrin genişlənməsi bizim maraqlarımıza uyğundur. 15 ildən sonra Naxçıvana təbii qazın verilməsi tarixi bir hadisədir. Gələcəkdə bizi birləşdirən daha çox başqa-başqa layihələr olacaqdır. Bu layihələr bizi daha da sıx birləşdirəcəkdir.

Bu gün keçirilmiş görüşlər, apardığımız danışıqlar məni bir daha əmin etdi ki, gələcəkdə bizim ölkələrimiz sıx əməkdaşlıq edəcək və hələ çoxlu layihələri birgə həyata keçirəcəklər. Sağ olun.

## İran prezidenti Mahmud Əhmədinejadın bəyanatı

Bismillahir-Rahmanir-Rahim!

Çox şadam ki, bu gün burada vaxtilə aramızda razılıq əldə olunmuş layihənin – qazın verilməsi ilə bağlı təntənəli açılış mərasimində iştirak etmək mənə nəsib olub və iştirak edirəm. Mənim əziz dostum, qardaşım, hörmətli cənab prezident İlham Əliyev qeyd etdi ki, bizim münasibətlərimiz çox yaxşı inkişaf edir və bu əlaqələrin yaxşı əsası, təməli qoyulubdur.

Azərbaycanın inkişafı, müstəqilliyi və başucalığı İranın inkişafı, müstəqilliyi və başucalığı deməkdir. Biz həmişə Azərbaycan dövlətinin sevincli və qəmli günlərinə şərik olacağıq. Amma ümidvarıq və arzu edirik ki, Azərbaycan dövlətinin, xalqının qəmli günləri heç bir vaxt olmasın. Mənim əziz dostum, qardaşımla çox yaxşı müzakirələrimiz, danışıqlarımız oldu. Biz münasibətlərimiz haqqında bir daha danışıqlar apardıq və indiyə qədər imzalanmış, razılaşdırılmış layihələr və məsələlər ətrafında fikir mübadiləsi edib, bunları bir daha gözdən keçirdik. Münasibətlərimizi gələcəkdə daha da inkişaf etdirmək məsələlərinə də toxunduq. Nəqliyyat sahəsində əlaqələri inkişaf etdirmək məsələsindən başlayaraq, energetika,

qaz və neft, mədəniyyət, elm sahələrində əməkdaşlığı genişləndirmək, siyasi sahədə ikitərəfli və beynəlxalq səviyyədə münasibətləri genişləndirmək və digər məsələləri bir daha müzakirə etdik.

Mən bir daha əmin oldum ki, bizim münasibətlərimiz yaxşı təməl üzərində qoyulub və inkişaf edir. Çox şadıq ki, münasibətlərimiz yaxşı təməl üzərində qurulubdur. Qətiyyətlə bir daha qeyd etmək istərdim ki, dost, qardaş Azərbaycanla münasibətlərimizin bütün sahələrdə inkişafı üçün heç bir məhdudiyyət qoymuruq.

Neft, qaz, energetika sahəsində əməkdaşlıq və bu sahələrdə ikitərəfli münasibətlərdən də kənara çıxaraq, çoxtərəfli münasibətlər qurmaq sahəsində də fikir mübadiləsi apardıq. Belə qərara gəldik ki, yaxın gələcəkdə dövlətlərarası müştərək komissiyanın fəaliyyətini gücləndirək və yaxın gələcəkdə onun növbəti iclasları keçirilsin. Xarici işlər nazirlərimizə tapşırıq verildi ki, bütün məsələləri nəzarət altında saxlasınlar və bunların icra olunmasını sürətləndirsinlər. Belə qərara gəldik ki, Azərbaycanda mənim dostum, qardaşım cənab Əliyev və İranda mən indiyə qədər razılığa gəldiyimiz məsələlərin icrasına özümüz də birbaşa nəzarət edək. İndiyə qədər razılıq əldə etdiyimiz məsələlərin icrası iki qardaş xalq arasında və şəxsən cənab Əliyevlə mənim aramda dostluğun inkişafının daha da möhkəmlənməsinin bir təminatıdır.

Naxçıvana təbii qaz verilməsi münasibətilə Naxçıvan əhalisinə, rəhbərliyinə, bütün Azərbaycan xalqına və dövlətinə təbrik sözlərimi çatdırıram. Mən belə hesab edirəm ki, bizim görüşümüz o zaman həyata keçirilir ki, razılaşdırılmış məsələ icra mərhələsinə gəlib çatır. Səmimi, mehriban qarşılanmaya görə əziz dostum, qardaşım cənab Əliyevə və onun əməkdaşlarına böyük təşəkkürümü bildirirəm.

İkitərəfli münasibətlərimizin müxtəlif sahələrdə inkişafı, əməkdaşlığımızın daha da genişlənməsi dost, qardaş xalqımızın mənafeyinə və eyni zamanda regionda sülhün, əmin-amanlığın bərqərar olunmasına xidmət edir. Arzu edirəm ki, bu xoşniyyətli

fikirlərimiz tezliklə həyata keçirilsin və iki dost, qardaş xalqın mənafeyinə, rifahına xidmət etsin. Təşəkkür edirəm.

* * *

**S u a l: Mən Azərbaycan prezidenti cənab İlham Əliyevə və İran prezidenti cənab Mahmud Əhmədinejada salamlarımı yetirirəm. Sualım hər iki prezidentədir. Azərbaycan–İran münasibətlərinin iqtisadi, siyasi sahədə indiki vəziyyətini və gələcək inkişafını necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Bizim aramızda olan əlaqələr çox yüksək səviyyədədir. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra İranla Azərbaycan arasında olan əlaqələr sürətlə inkişaf edir və bu gün çox yüksək zirvəyə gəlib çatıbdır. Siyasi əlaqələrimiz güclənir və qısa müddət ərzində prezidentlərin iki görüşünün keçirilməsi bunun əyani təzahürüdür. Müxtəlif qurumlar bir-biri ilə sıx əlaqə saxlayır, nazirlər, məclis üzvləri, digər vəzifəli şəxslər çoxlu səfərlər edirlər. Ümid edirəm ki, gələcəkdə bu meyllər davam edəcəkdir. Onu da qeyd etmək istəyirəm ki, İran bütün dövrlərdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir və bütün beynəlxalq təşkilatlarda bizim mövqeyimizə səs vermişdir. Biz buna görə İran rəhbərliyinə minnətdarıq. İqtisadi sahədə də uğurlar göz qabağındadır. Müştərək komissiya səmərəli işləyir və bu gün qeyd etdiyimiz hadisə – İrandan Naxçıvana təbii qazın verilməsi məhz iqtisadi, eyni zamanda siyasi əlaqələrimizin bariz nümunəsidir. Adətən, dünya praktikası onu göstərir ki, belə böyük layihələr, onların icrası bir neçə il aparır. Amma bizdə bu, sadəcə olaraq, bir il ərzində baş verdi. Bu onu göstərir ki, burada həm siyasi iradə var, eyni zamanda iqtisadi maraqlar var. Bütün bu amillər bir yerdə olanda, əlbəttə, ölkələr arasında əlaqələr daha da möhkəmlənir və bu bizim maraqlarımıza cavab verir.

Gələcək əməkdaşlığa gəldikdə isə, mən bu əməkdaşlığa çox böyük nikbinliklə və ümidlərlə baxıram. Mən əminəm ki, möhkəm təməl üzərində qurulmuş əlaqələr gələcəkdə də davam edəcək, möhkəmlənəcək və iki xalqın maraqlarına cavab verəcəkdir.

**M a h m u d Ə h m ə d i n e j a d:** Mənim bu suala cavabım Sizin dediklərinizlə eynidir. Elə mənim də cavabım belə ola bilərdi. .

**S u a l: Mənim sualım hər iki prezidentədir. Cənab Prezidentlər, Azərbaycanla İran arasında münasibətlər inkişaf etməkdədir. Artıq Siz bu münasibətlərin iqtisadi perspektivləri barədə danışdınız, siyasi məsələlərə də toxundunuz. Azərbaycan və İran xalqları arasında çox böyük qədim, mədəni ənənələr mövcuddur. Bu baxımdan xalqlarımızın mədəni, humanitar əlaqələrinin perspektivləri barədə nə deyə bilərsiniz?**

**M a h m u d Ə h m ə d i n e j a d:** Mən bu sahədə əməkdaşlığı belə qiymətləndirərdim: iki dost, qardaş xalq arasında əməkdaşlıq iki qardaş arasında olan münasibətlərin nümunəsidir. Biz müxtəlif sahələrdə əməkdaşlıq edirik. Bu əməkdaşlığımız hər iki dost, qardaş xalqın, hər iki dost, qardaş dövlətin mənafeyinə xidmət edir. Bu münasibətlərin inkişafı, eyni zamanda, regionda sabitliyin, əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.

O ki qaldı humanitar və mədəni əlaqələrin inkişafına, bunu deyə bilərəm ki, biz hörmətli cənab prezidentlə də fikir mübadiləsi apardıq və bu məsələlərin üzərində xüsusi dayandıq. Belə qərara gəldik ki, mədəniyyət, incəsənət sahəsində münasibətlərimizi, əlaqələrimizi daha da inkişaf etdirməliyik. Ayrı-ayrı incəsənət qrupları, idmançılar qarşılıqlı surətdə tədbirlər, yarışlar, ədəbi gecələr keçirməlidirlər. Bu, əməkdaşlıq münasibətlərimizi daha da möhkəmləndirməlidir.

Hörmətli həmkarım, cənab prezident çox yerdə qeyd etdi ki, bizim münasibətlərimiz o qədər möhkəmlənməlidir ki, heç kəs bu münasibətlərə xələl gətirə bilməsin. Bu, həqiqətən də belə

olacaqdır. Bizim münasibətlərimiz əsl dost, qardaş münasibətləridir. Biz bir-birimizin xoş günlərinə sevinmişik, kədərli günlərdə isə kədərlənmişik. Hər iki xalq kədərli günlərində həmişə qarşılıqlı surətdə bir-birinə əl uzadıb, lazımi kömək və yardım göstəribdir. Amma qeyd etməliyəm ki, sevincli günlərimiz daha çox olub, həmin günlərə daha çox sevinmişik.

**İ l h a m Ə l i y e v:** Mən qeyd etmək istəyirəm ki, biz bu barədə çox ətraflı söhbət etdik. Belə bir fikrə gəldik ki, aramızda olan əlaqələr bu sahədə və bütün başqa sahələrdə çox xüsusi xarakter daşıyır. Elə ölkələr var, məsələn, onları hansısa müvəqqəti, yaxud da uzunmüddətli maraqlar birləşdirir, hansısa konkret layihələr birləşdirir. Amma bizim ölkələrimizi həm də çox dərin tarixi köklər birləşdirir. Qədim mədəniyyət əlaqələri birləşdirir. Xalqlarımızın bir-birinə olan sevgi-məhəbbəti birləşdirir. Bu çox möhkəm təməldir. Bu möhkəm və sağlam təməl üzərində ikitərəfli əlaqələr qurulur, möhkəmlənir və inkişaf etdirilir. Ona görə bizim mədəniyyət, humanitar sahələrdə olan əlaqələr mədəniyyətimizin bir hissəsidir.

Bizim xalqlar qardaş xalqlardır və bu qardaşlıq indi də möhkəmlənir, davam etdirilir. Əminəm ki, gələcəkdə bütün sahələrdə – siyasi, iqtisadi, mədəni və başqa sahələrdə əməkdaşlığımız güclənəcəkdir.

* * *

*Mətbuat konfransı başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Mahmud Əhmədinejad Muxtar Respublikanın Ali Məclisinin binası qarşısında Naxçıvan şəhəri ictimaiyyətinin nümayəndələri ilə görüşdülər. Ağsaqqallar, gənclər, məktəblilər dövlət başçılarını səmimiyyətlə salamladılar və onların qədim Naxçıvana gəlmələrindən sevinc duyduqlarını bildirdilər.*

*Prezident Mahmud Əhmədinejad Naxçıvan sakinlərinə təşəkkür edərək müasir dünyada elmə, mədəniyyətə, təhsilə yüksək qiymət verildiyini söylədi, gələcək nəsillərin savadlı*

*olması üçün gənclərin yaxşı oxumasını tövsiyə etdi. O, yaxşı təhsil almaq üçün şəraitin olmasının zəruriliyini vurğulamaqla yanaşı, bildirdi ki, müəyyən dövrdən sonra dövləti indiki gənclərin idarə etməsi üçün onların savadlı olması, yüksək təhsil alması vacibdir.*

*Prezident İlham Əliyev Azərbaycanda elmə, təhsilə, gənclərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışdı. Dövlətimizin başçısı məhz bu məqsədlə ən ucqar kəndlərdə, o cümlədən ötən gün Şərur rayonunun Ayrıc kəndində müasir tələblərə cavab verən orta məktəb binasının istifadəyə verildiyini xatirlatdı, Azərbaycanın məktəblərinin kompüterlərlə təchiz olunması üçün tədbirlər görüldüyünü bildirdi.*

# NAXÇIVANA TƏBİİ QAZIN VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*20 dekabr 2005-ci il*

*Naxçıvan Muxtar Respublikasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə dekabrın 20-də təntənəli mərasim keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Mahmud Əhmədinejad mərasimdə iştirak etdilər.*

*«Naxçıvanqaz» Məhdud Məsuliyyətli Cəmiyyətin yeni binası qarşısına toplaşan sakinlər dövlət başçılarını alqışlarla qarşıladılar.*

*Prezidentlər İlham Əliyev və Mahmud Əhmədinejad ilk qazın verilməsini bildirən məşəli alovlandırdılar. Bununla da Naxçıvan əhalisinin təbii qaza olan 15 illik həsrətinə son qoyuldu. Sakinlər bu tarixi hadisəni böyük sevinclə qarşıladılar.*

*Prezident İlham Əliyev və prezident Mahmud Əhmədinejad «Naxçıvanqaz» MMC-nin binasının rəmzi açılışını bildirən lenti kəsdilər, burada İrandan Naxçıvana çəkilmiş qaz xəttinin baş planına, kəmərin keçdiyi ərazinin xəritəsinə, eləcə də evlərdə quraşdırılacaq qaz pilətələrinə və sayğaclara baxdılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Mahmud Əhmədinejad mərasimdə çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, dostlar!

Bu gün çox tarixi bir gündür, çox gözəl bir gündür. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olundu,

15 ildən sonra Naxçıvana qaz verildi. Bu çox böyük hadisədir, tarixi bir hadisədir. Bu münasibətlə mən sizin hamınızı təbrik edirəm.

Bir il bundan əvvəl iki dost, qardaş ölkə arasında saziş imzalandı ki, mübadilə yolu ilə Naxçıvan qazla təmin olunsun. Bir ildən sonra biz bu gözəl mərasimi keçiririk. Bu gün bizimlə bərabər bu mərasimdə İran İslam Respublikasının Prezidenti hörmətli dostum, qardaşım Mahmud Əhmədinejad iştirak edir. Xahiş edirəm onu SAlamlayaq.

Naxçıvana təbii qazın verilməsi iki ölkə arasında olan əlaqələrin təzahürüdür, onun nəticəsidir. İranla Azərbaycan arasında çox yaxın münasibətlər vardır. Bu gün keçirdiyimiz görüşdə bir daha əmin olduq ki, həm siyasi, həm iqtisadi, mədəni, həm də bütün başqa sahələrdə bizim aramızda qarşılıqlı anlaşma var, inam var, gözəl əməkdaşlıq var. Bu çox vacibdir. Çünki qonşular arasında münasibətlər məhz belə olmalıdır. Məhz bu münasibətlərin nəticəsində birgə layihələr icra olunur, birgə məsələlər öz həllini tapır.

Naxçıvana İrandan təbii qazın verilməsi bu istiqamətdə atılmış çox böyük bir addımdır. Ancaq son addım deyildir. Bundan sonra böyük birgə layihələr icra olunacaq, enerji mübadiləsi məsələsi öz həllini tapacaqdır. Bilirsiniz ki, İrandan gələn qazla işləyən elektrik stansiyaları bu yaxınlarda işə düşəcəkdir və biz Naxçıvanı elektrik enerjisi ilə tamamilə təmin etmək iqtidarında olacağıq. Bu bir daha onu göstərir ki, siyasi iradə olan yerdə, qarşılıqlı maraq olan yerdə və dostluq, qardaşlıq münasibətləri olan yerdə istənilən məsələ öz həllini tapır.

Bu gün təbiət də bizim tərəfimizdədir. Mən dünən Naxçıvana uçanda bir neçə saat Bakıda gözlədim. Çünki Bakıda hava buludlu idi, dumanlı idi. Bu gün də fikirləşdim ki, bizim qonağımız gələndə, görəsən hava necə olacaq, problem yaranmayacaq? Görürsünüz ki, hava da açıldı.

Bu, gözəl bayramdır. Bu bayram münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, Naxçıvan bundan sonra da

inkişaf etsin, çiçəklənsin, möhkəmlənsin. Naxçıvanda insanlar yaxşı yaşasınlar, onların sosial problemləri öz həllini tapsın. Elektrik enerjisi, qaz təchizatı, sosial infrastrukturun inkişafı – bütün bunlar görülən işlərin nəticələridir.

Əziz naxçıvanlılar, bu bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

## İran prezidenti Mahmud Əhmədinejadın çıxışı

Bismillahir-Rahmanir-Rahim!

Mən çox şadam ki, bu bayramda sizin yanınızdayam və bu mərasimdə iştirak edirəm. Çox şadam ki, indi burada qaz şöləlləndi və bundan sonra Naxçıvan əhalisi bu nemətin rahatlığından tam istifadə edəcəkdir. Mənim burada olmağım iki ölkə arasında olan möhkəm, dərin əlaqələrin daha da genişlənməsini göstərir. Bu əlaqələr nəticəsində iki ölkənin xalqları, hökumətləri arasında münasibətlərin günbəgün genişlənməsinin şahidi olacağıq.

On il bundan əvvəl Naxçıvanda bir görüşüm olubdur. Çox istərdim ki, Naxçıvana yenə də gəlim və buranın inkişafının şahidi olum. Allaha şükür olsun ki, sizin respublikanız günbəgün inkişafdadır. Buna görə Sizi və əziz qardaşımı, cənab Əliyevi təbrik edirəm.

Bu gün cənab Əliyevə və mətbuat nümayəndələrinə də dedim ki, biz Azərbaycanla əlaqələrin genişlənməsinə heç bir məhdudiyyət qoymuruq. İstəyirdim Naxçıvana gəlim və Sizinlə görüşüm. Allaha şükür edirəm ki, mənim niyyətimi gerçəkləşdirdi və bu istəyimə çatdım.

Çox sevinirəm ki, sizin şad üzlərinizi görürəm və sizi yaxından ziyarət edirəm. Arzulayıram ki, iki ölkə arasında səfərlər daha da artsın və daha yaxşı razılaşmalara nail olaq.

Sizi təbii qazın verilməsi ilə əlaqədar bir daha təbrik edirəm. Mübarək olsun və sizin üçün xeyirli olsun deyir, hamınızı Allaha tapşırıram.

* * *

*Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın şərəfinə ziyafət verildi.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*20 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Mahmud Əhmədinejad Naxçıvan şəhərindəki Əcəmi seyrəngahına gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin hələ sağlığında burada ucaldılmış abidəsini ziyarət etdilər və gül dəstələri qoydular.*

*İranın dövlət başçısı ulu öndər Heydər Əliyevin ölkələrimiz arasında dostluq münasibətlərinin yaranmasında və inkişaf etdirilməsindəki xidmətlərini xatırladaraq dahi şəxsiyyətə Allahdan rəhmət dilədi.*

*Sonra dövlət başçıları Əcəmi seyrəngahını gəzdilər. Onlar açıq səma altında yaradılmış muzeyə maraqla baxdılar. Burada Naxçıvanın qədim tarixinə aid nadir tapıntılar, müxtəlif eksponatlar Azərbaycanın tarixi, mədəniyyəti haqqında ətraflı təsəvvür yaradır. Xalqımızın qədim mədəniyyətə malik olduğunu sübut edən bu eksponatlar təkcə Azərbaycan xalqının yox, bütövlükdə Şərq xalqlarının tarixini yaşadır.*

*Prezidentlər İlham Əliyev və Mahmud Əhmədinejad Azərbaycan memarlığının görkəmli nümayəndəsi Əcəmi Əbubəkir oğlu Naxçıvaninin XII əsrdə yaratdığı və təkcə milli memarlığımızın deyil, ümumən Şərq memarlığının incilərindən sayılan Mömünə xatın türbəsini seyr etdilər. Prezidentlərə Atabəylər dövlətinin tarixinə dair ekspozisiya barədə məlumat verildi. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəgiz, onun arvadı Mömünə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan buradakı sərdabədə dəfn olunmuşlar.*

*Naxçıvan Dövlət Xalça Muzeyi, burada saxlanılan el sənəti nümunələri ilə tanışlıq da dövlət başçılarında xoş təəssürat yaratdı. Bildirildi ki, Azərbaycanın qədim xalçaçılıq sənətinin ənənələri bu gün də yaşadılır.*

*Gəzinti başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevlə İran prezidenti Mahmud Əhmədinejad sağollaşdılar və İranın dövlət başçısı öz ölkəsinə yola düşdü.*

* * *

*Əcəmi seyrəngahına toplaşan sakinlər prezident İlham Əliyevə yaxınlaşaraq onunla görüşdülər, muxtar respublikanın sosial-iqtisadi inkişafına göstərdiyi böyük diqqət və qayğıya, o cümlədən təbii qazın verilməsinə görə, habelə ulu öndərin siyasətini davam etdirdiyinə görə dərin minnətdarlıqlarını bildirdilər.*

*Dövlətimizin başçısı səmimi münasibətə görə təşəkkürünü bildirərək, tarixi hadisə – Naxçıvana mavi yanacağın verilməsi münasibətilə sakinləri bir daha təbrik etdi, muxtar respublikada gedən abadlıq, quruculuq işlərini, iqtisadi inkişafı yüksək qiymətləndirdi və bu qədim diyarda yaşayan insanlara bundan sonra da diqqət göstəriləcəyini vurğuladı.*

* * *

*Dekabrın 20-də Azərbaycan prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatdı.*

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Bakıya qayıtdı.*

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏYƏ

Möhtərəm Şeyxülislam həzrətləri!

Sizi – Qafqaz müsəlmanlarının liderini, Azərbaycanın görkəmli dini-ictimai xadimini əlamətdar yubiley – şeyxülislamlıq fəaliyyətinizin 25 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Siz təkcə Azərbaycanda və ümumən Qafqazda deyil, bütün beynəlxalq aləmdə geniş tanınan, çağdaş dünyamızın nüfuzlu din xadimləri və dövlət adamları tərəfindən ehtiramla qəbul edilən, böyük hörmətə və nüfuza sahib olan şəxsiyyətsiniz.

Xalqımızın ümummilli lideri Heydər Əliyev dini-ictimai fəaliyyətinizi yüksək dəyərləndirərək deyirdi: «Müqəddəs dinimiz olan islamın gözəl ənənələrinin ölkəmizdə, eləcə də bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində Şeyxülislam Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Onun Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyi illər ərzində bu dini qurum islam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində Allahşükür Paşazadənin tutduğu əsl vətəndaş mövqeyi onun ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığını nümayiş etdirdi».

Ulu öndərin xidmətləriniz barədə yüksək qiymətini xatırlamaqla, müstəqil Azərbaycan dövlətçiliyinin bərqərar olunmasında, onun təməllərinin möhkəmləndirilməsində ardıcıl fəaliyyətinizi, eyni zamanda, dövlət-din münasibətlərinin milli maraqlarımıza uyğun tənzimlənməsi, cəmiyyətdə vətəndaş

birliyinin təmin olunması və dini-mənəvi sabitliyin qorunub saxlanılması işinə verdiyiniz töhfəni minnətdarlıq hissi ilə qeyd edirəm. Bu gün ölkəmizin dünyada tolerantlıq örnəyi kimi tanınmasında və Azərbaycanın Qafqazda mənəvi mərkəz olaraq qəbul edilməsində sizin müstəsna xidmətləriniz vardır.

Çoxillik uğurlu fəaliyyətiniz, dünyada gedən mürəkkəb ictimai-siyasi proseslərdə, konfessiyalararası münasibətlərin tənzimlənməsi sahəsində yüksək fəallığınız, dini-mənəvi və bəşəri ideallara sadiqliyiniz sizə, haqlı olaraq, həm ölkəmizdə, həm də xaricdə böyük hörmət qazandırmışdır. Siz çox beynəlxalq dini təşkilatlarda, nüfuzlu elmi-dini mərkəzlərdə Azərbaycanı layiqincə təmsil edirsiniz. Dini-ictimai xadim kimi, Azərbaycan həqiqətlərini, Qarabağ probleminin və əsassız erməni iddialarının mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırır, bütövlükdə Qafqaz regionunda sülhün və əmin-amanlığın bərqərar olunmasında çoxşaxəli fəaliyyət göstərirsiniz.

Möhtərəm Şeyxülislam həzrətləri!

Bu gün siz həyatınızın kamillik mərhələsini yaşayırsınız. Əminəm ki, bundan sonra da xalqımızın milli-mənəvi birliyi və əmin-amanlığı uğrunda yorulmadan çalışacaq, Azərbaycanın şərəfli adını daim uca tutacaqsınız. Bu xeyirxah yolda sizə uzun ömür, möhkəm cansağlığı arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 20 dekabr 2005-ci il*

## GÜRCÜSTAN PATRİARXI II İLİA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 dekabr 2005-ci il*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Şeyxülislam vəzifəsində fəaliyyətinin 25 illiyi münasibətilə Bakıda keçirilən tədbirdə Gürcüstan Patriarxı II İlianın iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı Azərbaycan və gürcü xalqları, ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, dostluq münasibətlərinin daim inkişaf etdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Gürcüstan Patriarxlığı ilə Qafqaz Müsəlmanları İdarəsi arasında yaranmış gözəl əlaqələrin ölkələrimizin əməkdaşlığının daha da möhkəmlənməsinə töhfə verdiyini nəzərə çatdırdı.*

*Patriarx II İlia gürcü xalqı adından dövlətimizin başçısını salamladı, prezident Mixeil Saakaşvilinin ən səmimi arzularını, dərin ehtiramını prezident İlham Əliyevə çatdırdı. O, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Şeyxülislam kimi fəaliyyətinin 25 illiyi münasibətilə Bakıda keçirilən tədbirdə məmnunluqla iştirak etdiyini vurğuladı.*

*Prezident İlham Əliyev səmimi salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstan prezidenti Mixeil Saakaşviliyə çatdırmağı xahiş etdi.*

## RUSİYA MÜFTİLƏR ŞURASININ SƏDRİ RAVİL QAYNUDDİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev ilə görüşdən çox məmnun qaldığını bildirən qonaq Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin Şeyxülislam vəzifəsində fəaliyyətinin 25 illiyi münasibətilə Bakıda keçirilən tədbirdə iştirakını böyük məmnunluqla vurğuladı.*

*Ravil Qaynuddin Rusiyada yaşayan müsəlmanlar adından dövlətimizin başçısını salamladı, Şeyxülislam Hacı Allahşükür Paşazadənin keçmiş sovet respublikalarında yaşayan müsəlmanlar arasında hörmət qazandığını bildirdi.*

*Prezident İlham Əliyev Rusiya Müftilər Şurasının sədri Ravil Qaynuddinin Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadənin Şeyxülislam vəzifəsində fəaliyyətinin 25 illiyi münasibətilə keçirilən tədbirdə iştirakından məmnun olduğunu vurğuladı.*

## *bp*-nin AZƏRBAYCANDAKI BAŞ TƏMSİLÇİ PREZİDENTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 dekabr 2005-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bp-nin Azərbaycandakı Baş təmsilçi prezidenti Devid Vudvordu qəbul etmişdir.*

*Azərbaycan ilə bp arasında əməkdaşlığın daim inkişaf etdiyini bildirən dövlətimizin başçısı Bakı–Tbilisi–Ceyhan, «Şahdəniz» kimi qlobal enerji layihələrinin həyata keçirilməsi işinin çox uğurla getdiyini vurğuladı.*

*Azərbaycanda böyük inkişaf əldə olunduğunu bildirən prezident İlham Əliyev Dövlət Neft Fondundan ayrılan vəsaitlərdən sosial proqramların həyata keçirilməsi, xəstəxanaların, məktəblərin inşası məqsədi ilə istifadə edildiyini nəzərə çatdırdı. Dövlətimizin başçısı bütün bunları birgə fəaliyyətin uğurlu nəticələri kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycanın bu şirkətlə əməkdaşlığı bundan sonra da genişlənəcəkdir.*

*Cənab Devid Vudvord 2005-ci ildə əldə olunmuş nailiyyətlər, növbəti il üçün planlaşdırılmış işlər barədə prezident İlham Əliyevə məlumat verdi. O bu ilin əməkdaşlıq baxımından çox uğurlu olduğunu söylədi. 2005-ci ilin may ayında Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinə ilk neftin vurulduğunu xatırladan Devid Vudvord bu il üçün nəzərdə tutulan planların artıqlaması ilə yerinə yetirildiyini məmnunluqla vurğuladı.*

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ GELA BEJUAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 dekabr 2005-ci il*

*Ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan, müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini qeyd edən dövlətimizin başçısı Gürcüstanın Xarici İşlər Nazirliyinin əməkdaşlığımızın genişlənməsində rolunu nəzərə çatdırdı.*

*Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin Gürcüstan hissəsinin istifadəyə verilməsinə həsr olunmuş təntənəli mərasimdə iştirakını məmnunluqla xatırladı.*

*Ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyini vurğulayan dövlətimizin başçısı Xarici İşlər naziri cənab Gela Bejuaşvilinin Azərbaycana səfərinin uğurlu keçəcəyinə əmin olduğunu bildirdi.*

*Prezident Mixeil Saakaşvilinin səmimi salamlarını və xoş arzularını çatdıran Gela Bejuaşvili Gücüstan rəhbərinin təbrik məktubunu prezident İlham Əliyevə təqdim etdi. O, Azərbaycan və Gürcüstan prezidentləri arasındakı səmimi münasibətlərin ölkələrimizin əlaqələrinin inkişafında xüsusi rol oynadığını bildirdi. Azərbaycan ilə Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin daim genişləndiyini vurğulayan qonaq əmin olduğunu bildirdi ki, əməkdaşlığımız bundan sonra da inkişaf edəcəkdir.*

*Prezident İlham Əliyev səmimi salamlara və təbrik məktubuna görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstan prezidentinə çatdırmağı xahiş etdi.*

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ VƏ BİR QRUP DİN XADİMİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 dekabr 2005-ci il*

**Ş e y x ü l i s l a m  A l l a h ş ü k ü r  P a ş a z a d ə:** Bismillahir-Rahmanir-Rahim!

Hörmətli cənab Prezident həzrətləri!

Bu gün bizim üçün həqiqətən də xoş gündür. Sizin iltifatınız, dini-mənəvi dəyərlərə verdiyiniz qiymət, Sizin xalqımızın milli ənənələrinə verdiyiniz qiymət göstərir ki, inşaallah, Azərbaycanın mənəvi dəyərləri get-gedə daha da yüksələcəkdir. Azərbaycan həm iqtisadi, həm mənəvi və həm də tarixi baxımdan yüksəlişdədir və deyə bilərəm ki, MDB dövlətləri arasında zirvədədir. Ulu öndərimiz Heydər Əliyevə Allah rəhmət eləsin, biz onu yaddan çıxara bilmərik. Allah-təalanın köməyi ilə Azərbaycanı bu səviyyəyə gətirib çıxaran o olmuşdur və indi Siz, İlham Əliyev həzrətləri bu işi uğurla və şərəflə davam etdirirsiniz. Azərbaycan xalqı, onun əksəriyyətini təşkil edən müsəlmanlar, eləcə də din xadimləri, mənəviyyat sahibləri, elm sahibləri Sizdən çox razıdırlar və Sizə, Azərbaycanın parlaq gələcəyinə inanırlar. Ona görə də mən elə bilirəm ki, bizim bugünkü gəlişimiz bir neçə cəhətdən önəmlidir.

Heydər Əliyev həzrətləri ilə bizim görüşlərimiz çox olub, xaricdə çox olmuşuq. Deyə bilərəm ki, onun mənim həyatımda və şeyxülislamlığın tarixində çox böyük rolu olmuşdur. İnanın, mən bilirəm və bunu dəfələrlə demişəm, sovet dövlətinin dağıldığı dövrdə mənim Qafqazda şeyxülislamlığı bacarmağım ancaq və ancaq onun siyasəti, uzaqgörənliyi sayəsində mümkün

olmuşdur. Əvvəllərdə də və sonrakı dövrlərdə də onun mənə tövsiyələri olmuşdur. Mən çox fəxr edirəm ki, həmişə ulu öndərlə bir cəbhədə olmuşam, bir yerdə olmuşam və ondan bəhrələnmişəm. Bundan sonra da onun tövsiyələrini axıra qədər yerinə yetirəcəyəm.

Bu gün O, həyatda bizimlə bərabər deyil, amma onun davamçısı İlham Əliyev həzrətləri bizimlədir. Əgər mən bir saat, beş saat onun yanında olmuşamsa, Siz onun yanında böyümüsünüz, ondan bəhrələnmisiniz. İndi görün, biz Sizdən nə qədər bəhrələnməliyik, nə qədər öyrənməliyik. Çünki O, bir dərya idi, biz onun yanında bir damlayıq. Siz də o dərya ilə damlanın arasındasınız. Ona görə biz də Sizdən öyrənməyi bacarmalıyıq və öyrənirik.

Onu da deyə bilərəm ki, Heydər Əliyev həzrətləri mənə tövsiyə etdi ki, Ruhani İdarəsini bir az elmiləşdir, müasirləşdir, oraya elmi bir nəfəs gətir. Onun tövsiyəsi ilə mən Qafqaz Müsəlmanları İdarəsi nəzdində Elmi-Dini Şura yaratdım. Bizim Elmi-Dini Şurada din xadimləri də var, çox görkəmli alimlər var, filosoflar da var. Onun beş nəfəri Sizin prezident seçkilərindəki vəkillərinizdir. Bütün vəkilləri götürəndə onun iyirmi faizi bizim Elmi-Dini Şuranın payına düşür. Amma biz o dövrdə də hesab edirdik və indi də hesab edirik ki, biz hamımız Sizin vəkillərinizik və əlbəttə, indi də bunu davam etdiririk. Həqiqətən də bunun bəhrəsini görürük. Qafqaz Müsəlmanları İdarəsinin bütün dünyada məşhur olması da bunu göstərir. Mənim şeyxülislamlıq fəaliyyətimin 25 illiyində həqiqətən çox fərəhləndim ki, çağırılmayan insanlar da gəldi. Yəni mən yüz əlli adam çağırmışdım, amma səkkiz yüz adam gəldi. Yəni, özləri bildilər gəldilər. 35 dövlətdən nümayəndələr gəldi və mən bilirəm ki, heç dəvət olunmamış, eşidib gəldilər. Bu özü bir daha göstərir ki, bu gün mənəviyyatımız sağlamdır, göstərilən yol doğru yoldur və inşaallah, bu tolerantlıq yolu ilə də gedəcəyik. Oradakıların hamısı müsəlman deyildi, xristianların, yəhudilərin də nümayəndələri, katolik kilsəsi rəhbərinin nümayəndəsi də vardı. Bu tolerantlığın bünövrəsini qoyan da Sizin atanızdır və bu gün də Siz davam etdirirsiniz.

Əlbəttə, mən Sizin məktubunuza görə də öz minnətdarlığımı bildirmək istəyirəm. Siz hər dəfə mənə müraciət edəndə, hər dəfə məktub göndərəndə daha çox məsuliyyət hiss edirəm. Daha çox fikirləşirəm ki, Allah-təala mənə daim imkan yaratsın ki, Azərbaycanın bütövlüyü üçün, müstəqilliyi üçün və dini-mənəvi dəyərlərin saxlanması üçün əlimdən gələni edəm. Onun üçün də biz bu gün buradayıq. Şeyxülislamlar çox olub, amma bugünkü, bəhrələnmiş şeyxülislamlığın bünövrəsini qoyan Heydər Əliyev həzrətləri olubdur. Əlbəttə, mən çox arzu edirdim ki, bizim də bir rəmzimiz olsun, o daim yaşasın və dünyada bilinsin ki, şeyxülislamlıq daimidir, inşaallah, daimi də davam edəcəkdir. Hələ Heydər Əliyev həzrətlərinin dövründə, onun məsləhəti ilə mən Şeyxülislam ordenini yaratmışdım. Əlbəttə, bu ordeni ona təqdim etmək nəsib olmadı. Siz bilirsiniz, Elmi-Dini Şura və Qazılar Şurası belə qərara aldılar ki, vəfatından sonra bu ordenlə təltif edilsin.

İkinci bir məclisimiz oldu, bu məclisdə qəti şəkildə bildirildi ki, bu ordeni yalnız İlham Əliyev həzrətlərinə verəndən sonra başqalarına verəcəyik. Bu ordeni ona görə veririk ki, biz Sizinləyik, Sizə yaxınıq, bizi Sizdən ayırmaq olmaz. Ona görə ki, Siz həqiqət carçısısınız, biz də Sizə kömək edən adamlarıq. Müsəlmanlar həmişə Sizinlədir. Başqa dindarlar da Sizinlədir, həqiqətən, onlar da Sizi çox istəyirlər.

Sizi təkcə müsəlmanlar deyil, Azərbaycanda yaşayan başqa dinlərdən olanlar, başqa millətlər də çox istəyir. Əgər xalq bir adamı istəyirsə, həmişə Allah da onu çox istəyir. Mən Sizin bu yaxınlarda Kəbə evində elədiyiniz niyyətləri, elədiyiniz ibadətləri də görmüşəm. Siz özünüz üçün dua etmirdiniz, Siz xalq üçün dua edirdiniz. Mən eşidirdim ki, Qarabağın azad olunması üçün dua edirdiniz. Ona görə də mən bir daha Sizə təşəkkürümü bildirirəm və Allaha dua edirəm ki, İlahi Sizin kimi bir prezidenti bizə bəxş etmişdir, Allah-təala onu saxlasın, ailəsini saxlasın. Gələcəkdə onun rəhbərliyi ilə Azərbaycanı biz xoşbəxt görək, azad görək.

İndi də icazə verin, mən Sizə ünvanlanan qərarı oxuyum:

«Bismillahir-Rahmanir-Rahim!

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və Elmi-Dini Şurası qərara alır:

İlham Heydər oğlu Əliyev ulu öndər Heydər Əliyev həzrətlərinin tarixi ənənələrini uğurla davam etdirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin edilməsi, dini, milli-mənəvi dəyərlərin dirçəldilməsi, ölkədə tolerantlığın bərqarar olunması sahəsində göstərdiyi dəyərli xidmətlərinə görə Şeyxülislam ordeni ilə təltif edilsin.

Şeyxülislam Allahşükür Paşazadə».

Sonra Hacı Allahşükür Paşazadə prezident İlham Əliyevə Şeyxülislam ordenini təqdim etdi.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, hörmətli şeyx həzrətləri, əziz dostlar. Bu yüksək mükafata görə, yüksək ordenə görə, məni təltif etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, Azərbaycanda gedən proseslər, hökm sürən sabitlik, milli birlik, tolerantlıq bizim ölkəmizi daha da gücləndirir. Siz ulu öndər Heydər Əliyevin fəaliyyəti haqqında öz fikirlərinizi ifadə etdiniz. Bu, həqiqətən də belədir. Azərbaycanda normal cəmiyyətin yaranmasında onun müstəsna xidmətləri olmuşdur. Bütün sahələrdə – istər iqtisadi potensialın inkişafında, istər xarici siyasətimizin möhkəmlənməsində və uğurla aparılmasında, istərsə də ölkəmizin, xalqımızın dini-mənəvi ənənələrinin inkişafında, onların qorunub saxlanmasında onun çox böyük xidmətləri olmuşdur. Mən bu barədə öz fikirlərimi dəfələrlə bildirmişdim, demişdim ki, hörmətli şeyx həzrətləri, ulu öndərlə sizin şəxsi dostluğunuz, şəxsi əlaqələriniz Azərbaycanda bu gözəl ab-havanın yaranmasında çox mühüm rol oynamışdır. Biz bu şəraitdə yaşayırıq və bizə bu, bir növ təbii görünür. Amma başqa ölkələrin təcrübəsinə, tarixinə, bu gününə nəzər salanda görürük ki, Azərbaycanda hökm sürən milli birlik, vətəndaş birliyi, tolerantlıq başqa ölkələrdə çox nadir hallarda müşahidə olunur.

Azərbaycan bu baxımdan bir örnək olmalıdır, bir nümunə olmalıdır. Bizdə bütün xalqlar, bütün konfensiyaların

nümayəndələri özlərini çox rahat hiss edirlər, eyni, bərabər hüquqa malikdirlər. Təbii ki, bu bizim Konstitusiyamızda təsbit olunubdur. Amma ən önəmlisi odur ki, real həyatda da biz bunu görürük. Heydər Əliyev siyasi xəttinin davamçısı kimi mən əlimdən gələni edirəm ki, onun siyasəti, onun müəyyən etdiyi istiqamətlər Azərbaycanda davam etdirilsin. Böyük qürur hissi ilə deyə bilərəm ki, bütün istiqamətlərdə biz buna nail olduq. İqtisadi inkişaf baxımından, siyasi proseslərin inkişafı baxımından, sabitliyin, milli birliyin möhkəmləndirilməsi baxımından Azərbaycanda bu siyasət davam etdirilir.

Əlbəttə ki, həyat yerində durmur, qarşımıza yeni vəzifələr, yeni çağırışlar çıxır. Dünya dəyişir, bölgəmiz də dəyişir. Məsələn, son iki il ərzində bizim bölgəmizdə və dünyada çox ciddi proseslər, ciddi hadisələr baş verir. O hadisələr ki, ölkələrin inkişafına, onların təhlükəsizliyinə təsir göstərir. Bu baxımdan Azərbaycanda bu gözəl ab-havanı qoruyub saxlamaq, Azərbaycanı, sözün əsl mənasında, əmin-amanlıq, əməkdaşlıq məkanına çevirmək və bunu qoruyub saxlamaq, bu, əlbəttə ki, hesab edirəm böyük uğurlardır, böyük nəticələrdir. Tutaq ki, Azərbaycandan, Bakıdan hansı tərəfə – istər şimala, istər cənuba, istər qərb istiqamətinə – baxsaq, görərik ki, bütün istiqamətlərdə yeni təhlükələr ortaya çıxır. Yeni münaqişə ocaqları yaranır. Azərbaycanın coğrafi və geosiyasi vəziyyəti elədir ki, bölgədə gedən proseslər bizim təhlükəsizliyimizə və inkişafa təsir edə bilər. Ona görə bu mümkün olan risklərin azaldılması, bölgədəki bütün ölkələrlə normal əlaqələrin qurulması və davam etdirilməsi bizim təhlükəsizlik şəraitində yaşamağımızı təmin edir. Ölkə prezidenti kimi, mənim əsas vəzifəm budur ki, Azərbaycanda sabitlik davam etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın və bizim milli maraqlarımız təmin olunsun və ölkəmiz möhkəmlənsin, güclənsin. Bu da var, bunu bütün istiqamətlərdə müşahidə edirik. Yenə də deyirəm, mən çox şadam ki, bizim nəzərdə tutduğumuz bütün proqramlar öz həllini tapır.

Hər bir ölkənin normal inkişafı üçün, bütün siyasi, iqtisadi və başqa amillərlə yanaşı, milli-mənəvi dəyərlər də çox əhəmiyyətli yer tutur. Ulu öndər Heydər Əliyev istər 1970-ci illərdə, istərsə də 1990-cı illərdə müstəqil Azərbaycanın prezidenti kimi, öz fəaliyyətində milli-mənəvi dəyərlərə həmişə böyük diqqət göstəribdir. Çünki çox gözəl başa düşürdü ki, ölkəmizin inkişafı məhz dərin tarixi, mədəni və dini köklər üzərində qurulmalıdır. Müstəqil Azərbaycanın uğurları, bu istiqamətdə atılmış addımlar ölkəmizi daha da möhkəmləndirir. Biz öz tariximizə qayıtdıq. Öz ənənələrimizi davam etdiririk və mənəvi cəhətdən bizim cəmiyyətimiz çox sağlamdır. Bizim millətimizə xas olan bu gözəl ənənə davam etdirilir. Bizim xalqımız, Azərbaycanın bütün vətəndaşları bundan bəhrələnirlər.

Bu baxımdan, əlbəttə ki, Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti, bütün Qafqazın şeyxi kimi, sizin fəaliyyətiniz bizim ölkəmizi daha da gücləndirir. Eyni zamanda, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirir.

Bu günlərdə sizin fəaliyyətinizin 25 illik yubileyi qeyd olundu. Əfsuslar olsun ki, o gün mən Naxçıvanda idim. İran İslam Respublikasının Prezidenti oraya səfər edirdi. Ona görə mən Naxçıvana səfəri təxirə sala bilmədim. Ancaq məktubumda öz ürək sözlərimi ifadə etdim. Ondan sonra, axşam Naxçıvandan qayıdarkən sizinlə görüşdük, mən sizi təbrik etdim və qonaqlarla da görüşdüm. Məni də həm sevindirir, həm də bütövlükdə gözəl bir göstəricidir ki, dünyanın müxtəlif ölkələrindən çox dəyərli insanlar, böyük dini rəbhərlər sizi təbrik etmək üçün Azərbaycana gəlmişdilər. Bu sizə olan böyük hörmətin nəticəsidir, böyük məhəbbətin əlamətidir. Əlbəttə ki, bu bizim ölkəmizə də çox böyük bir dayaqdır. Bizim ölkəmizin mövqelərini möhkəmləndirir.

Mən Gürcüstan Patriarxı və Rusiya Müftilər Şurasının rəhbəri ilə görüşlərimdə onu vurğuladım ki, biz fəxr edirik ki, bütün Qafqazın şeyxi azərbaycanlıdır, Azərbaycan nümayəndəsidir. O görüşlər əsasında bir daha gördüm ki, onlar sizə lider

kimi, mənəvi rəhbər kimi baxırlar. Bunu mən başqa tədbirlərdə də müşahidə etmişəm. Biz sizinlə birlikdə bir neçə beynəlxalq tədbirlərdə iştirak etmişik. Vatikanda, ondan sonra Səudiyyə Ərəbistanında səfərlərdə, son İslam Konfransı Təşkilatının Məkkə şəhərində keçirilmiş zirvə görüşündə yenə birlikdəydik. Orada mən müxtəlif dinlərin nümayəndələrinin sizə olan hörmət və ehtiramını gördüm. Bu, böyük bir nailiyyətdir. Əlbəttə ki, həm sizin şəxsi nailiyyətinizdir, həm də bütün Azərbaycan xalqının nailiyyətidir. Çünki bu bizim ölkəmizi, millətimizi daha da gücləndirir. Ona görə mən bir daha sizi yubiley münasibətilə təbrik etmək istəyirəm.

Bizim gələcəkdə çoxlu işlərimiz var. Bilirsiniz ki, bu son müddət ərzində bir neçə layihə üzərində birlikdə işləyirik. Həm Bibiheybət məscidinin tikintisi başa çatdırılmalıdır, həm də Təzəpir məscidi əsaslı təmir olunmalıdır və artıq bu yaxınlarda işlər başlanacaqdır. Biz mart ayında Məkkədə olarkən, müqəddəs Kəbədə dua edərkən – siz onu bilirsiniz – niyyət eləmişdim ki, Bakıda yeni, böyük, əzəmətli məscid tikilsin. Artıq ilkin işlər başlanmışdır, yer müəyyən edilmişdir, indi orada hazırlıq işləri gedir, layihə üzərində işləyirlər. Mən tapşırıq verdim ki, o sizə də təqdim olunsun. Ondan sonra birlikdə baxarıq və Elmi-Dini Şura ilə bərabər öz iradlarınızı verərsiniz. Mən istəyirəm ki, çox möhtəşəm, əzəmətli, yeni məscid tikilsin və bütün müsəlmanlar bundan bəhrələnsinlər.

Yenə də bu yüksək mükafata görə sizə təşəkkür edirəm.

## QIŞ AYLARINDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN VƏ ƏHALİNİN ELEKTRİK ENERJİSİ VƏ TƏBİİ QAZLA TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİNƏ VƏ 2006-cı İLDƏ BU SAHƏDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident sarayı*

*23 dekabr 2005-ci il*

**İ l h a m Ə l i y e v:** Bugünkü müvaşirə energetika sektorundakı vəziyyətlə bağlıdır.

Biz gərək vəziyyəti təhlil edək və gələcək addımlar haqqında fikir mübadiləsi aparaq. Xüsusilə qış aylarında sənaye müəssisələrinin və əhalinin elektrik enerjisi ilə, qazla təmin edilməsi məsələsi bizi narahat edir. Bütövlükdə 2005-ci il ərzində bu sahədə vəziyyətdə müsbətə doğru irəliləyiş müşahidə olunurdu. Xüsusilə yaz, yay aylarında işıqla bağlı problem, demək olar ki, olmamışdır. Qaz təchizatı da yaxşılaşmışdır. Amma bizim tələbatımızı, əhalinin tələbatını tam ödəmir.

2006-cı il üçün əlavə tədbirlər nəzərdə tutulubdur. Bildiyiniz kimi, yeni elektrik stansiyalarının tikintisi nəzərdə tutulur və haradasa, ilin sonuna qədər 50-dən çox modul tipli elektrik stansiyası tikiləcəkdir. Bu bizə təxminən 500 meqavata qədər əlavə enerji gücü verəcəkdir. Eyni zamanda, qaz hasilatı da artacaqdır. Yəni həm Dövlət Neft Şirkətinin hasil etdiyi qazın həcmi artacaq, həm də «Şahdəniz» yatağından ilin sonuna qədər müəyyən həcmdə qaz hasil ediləcəkdir. «Azəri», «Çıraq» yataqlarından çıxarılan səmt qazı da müqaviləyə əsasən, pulsuz olaraq Azərbaycana veriləcəkdir. Ona görə biz bütövlükdə yanacaq-energetika balansına baxmalıyıq. Çünki hasilat artacaq, tələbat da artacaqdır.

Bildiyiniz kimi, bu yaxınlarda İran ərazisi ilə Naxçıvana qaz verilməsi layihəsi başa çatdı. Uzun fasilədən sonra Naxçıvana qaz verilməsi təmin olundu.

Amma onu da bilirik ki, bunun müqabilində Azərbaycandan İrana qaz verilir. Yəni bu, mübadilə yolu ilə həll olunan məsələdir. Eyni zamanda, tikiləcək yeni elektrik stansiyaları da qazla işləyəcəkdir. Belə olan halda qaza tələbat daha da artacaqdır. Naxçıvana veriləcək qazın bir hissəsi orada tikiləcək elektrik stansiyalarında istifadə olunacaqdır. 2006-cı ildə Naxçıvanda daxili elektrik enerji istehsalı, haradasa, 140 meqavata çatacaqdır. Bu gün bu, 10 meqavatdır. Yəni bu da qaz tələb edir. Ona görə bütün bu məsələlərə biz gərək kompleks şəkildə baxaq.

Nəzərə almalıyıq ki, 2006-cı ildə Lerik rayonu da qazlaşdırılmalıdır. Bu barədə göstəriş verilibdir, Lerikə qaz xətti çəkiləcəkdir. Lerik çox az rayonlardandır ki, ümumiyyətlə, orada qazlaşdırma aparılmamışdır. Yardımlı rayonu da qazlaşdırılacaqdır.

Bakının qaza tələbatı artır, yeni binalar tikilir, yeni müəssisələr işə başlayır. Onu da deməliyəm ki, bu günə qədər Bakı kəndləri də qazla tam təmin olunmayıbdır. Bu çox dözülməz bir haldır və 2006-cı ildə buna son qoyulmalıdır. Bakı kəndləri, Bakı şəhəri tam şəkildə qazla təmin edilməlidir. Bütün bunlara gərək kompleks şəkildə baxaq. Yəni bizim ehtiyatlarımız nə qədərdir, hasilat da nə qədər olacaq, neft hasilatı nə qədər olacaq, zavodlarımızda nə qədər neft emal ediləcəkdir. Onu da bilirsiniz ki, Rusiya indi Cənubi Qafqaz ölkələri üçün ixrac qazının qiymətini təxminən iki dəfə qaldırıbdır. Əgər biz bu il qazın min kubmetrini 60 dollara alırdıqsa, gələn il bu olacaq 110 dollar. Bu günlərdə yeni müqavilə imzalandı və Azərbaycan Rusiyadan min kubmetri 110 dollara qaz alacaqdır. Bu bizim üçün əlavə yükdür, büdcəmiz üçün əlavə gərginlik yaradacaqdır. 2006-cı ildə Rusiyadan 4,5 milyard kubmetr qaz alınacaqdır. Baxmayaq ki, qiymət iki dəfə qalxdı, biz qazın həcmini azaltmadıq və

Azərbaycan dövləti bu yükü öz üzərinə götürdü. Biz istəmirdik ki, bu yük əhalinin üstünə düşsün.

Bütün bunlar əlavə maliyyə vəsaiti tələb edir. Təkcə Rusiyadan alınacaq qazın qiyməti, haradasa 5 milyon dollar olacaqdır. Mən bu günlərdə Naxçıvanda olarkən bu barədə ətraflı izahat verdim, bir də demək istəyirəm. Dövlətin əhaliyə və Azərbaycanda fəaliyyət göstərən müəssisələrə dotasiyası 1 milyard 500 milyon dollar səviyyəsindədir. Təxminən 1 milyard dollar ancaq qaz təchizatındadır. İdxal olunan və Neft Şirkəti tərəfindən çıxarılan qazın bazar qiyməti, haradasa, 1 milyon dollara bərabərdir. Neft Şirkəti tərəfindən elektrik stansiyalarına verilən 2 milyon ton mazutun dəyəri təxminən 400–500 milyon dollardır. Azərbaycan dövləti gələn il əhaliyə və müəssisələrə 1 milyard 500 milyon dollar dotasiya verəcəkdir.

Ona görə bütün bu məsələlər gərək kompleks şəkildə öz həllini tapsın. Biz bu il «Azəristiliktəchizat» Səhmdar Cəmiyyətini yaratdıq və onun vasitəsilə müəyyən işlər görülür, binalara istilik verilir. Gələn  il bu daha da geniş vüsət alacaqdır və əlbəttə ki, elektrik enerjisinə olan tələbatı azaltmalıdır. Yəni burada müəyyən qənaət olmalıdır. Bizim qaz anbarlarımıza təxminən 1 milyard kubmetrə qədər qaz vurulubdur. Eyni zamanda, mazut ehtiyatımız 300 min tondan çoxdur.

Yəni mən hesab edirəm ki, qış aylarında yanacaqla təminat yaxşı olmalıdır. Buna imkanlar var, resurslar var, bütün tədbirlər vaxtında görülür, o cümlədən, dediyim kimi, Rusiya ilə – «Qazprom»la müqavilə bağlanıbdır. İndi «Azərenerji»dən, «Azəriqaz»dan, Dövlət Neft Şirkətindən, emal zavodlarından asılıdır ki, əhaliyə və müəssisələrə tam həcmdə elektik enerjisi və qaz verilsin.

Ona görə də mən hesab edirəm ki, bugünkü müşavirə çox zəruridir, vacibdir. Biz gərək bütün bunları kompleks şəkildə müzakirə edək. Həm qış ayları üçün hansı tədbirlər nəzərdə tutulmuşdur, eyni zamanda, bütövlükdə 2006-cı ildə nə işlər görülməlidir, hansı addımlar atılmalıdır – bunları biz bu gün sizinlə müzakirə edəcəyik.

**SUDAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ**

Hörmətli cənab Prezident!

Sudan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi çatdırıram.

Əminəm ki, ölkələrimiz arasında yananmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sudan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 dekabr 2005-ci il*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Azadlıq günü münasibətilə Sizi və Sizin simanızda bütün Kuba xalqını təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Kuba münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 dekabr 2005-ci il*

## AZƏRBAYCANIN YENİ MANATININ TƏQDİMAT MƏRASİMİNDƏ* NİTQ

*Bakı,*
*«Excelsior» hoteli*

*28 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə ötən əsrlərdə Azərbaycanda dövriyyədə olmuş sikkələrdən ibarət sərgiyə baxdı. Prezidentə məlumat verildi ki, burada Sasani sikkələri (IV–VII əsrlər), respublikamızın ərazisində tapılmış və dövriyyədə olmuş antik dövrə aid xarici ölkə sikkələri, Makedoniyalı İsgəndərin sikkələrinə bənzədilərək kəsilən Albaniya (Qafqaz) sikkələri, Ərəb xilafətinin və Azərbaycan feodal dövlətlərinin (Şirvanşahlar, Sacilər, Rəvvadilər, Şəddadilər) sikkələri, Atabəylər dövləti və onun vassallarının (XII–XIII əsrlər), Teymurilərin (XIV əsr) Azərbaycanda zərb olunan sikkələri, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövründə (XV–XVI əsrlər) işlədilən sikkələr, Azərbaycan xanlıqlarının sikkələri (XVIII–XIX əsrlər), 1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə istifadə edilən kağız pullar, eləcə də dünya dövlətlərində hazırda istifadə olunan pul nişanları və ölkəmizdə dövriyyədə olan milli valyutamız nümayiş etdirilir.*

*Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin iştirakı ilə Milli Bankın yeni binasının açılışı mərasimini əks etdirən fotoguşəyə də baxdı.*

*Sonra Azərbaycanın yeni manatının təqdimat mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar!

---

* Мярасими Милли Банкын Идаря Щейятинин сядри Елман Рцстямов ачды.

Bu gün çox gözəl bir gündür, çox əlamətdar bir gündür. Azərbaycanın yeni manatının təqdimatını keçiririk. Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbirk edirəm.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra öz pul vahidini də tətbiq etmişdir. Bizim manatımız müstəqilliyimizi əks etdirən çox mühüm əlamətlərdən biri idi. Ancaq illər keçir, əlbəttə, qarşımıza yeni vəzifələr çıxır, ölkəmiz inkişaf edir, müasirləşir, zənginləşir. Belə olan halda, yeni manatın təqdim olunması, dövriyyəyə buraxılması məsələsi gündəliyə çıxmışdır. Bu barədə qərar qəbul olundu və Elman Rüstəmov bu haqda kifayət qədər məlumat verdi.

Manat çox gözəl dizayna malikdir. Üzərində Azərbaycanın mədəniyyətini, tarixini, keçmişini, bu gününü və gələcəyini əks etdirən təsvirlər mövcuddur. Ümid edirəm ki, uzun illər, onilliklər ərzində bu manat Azərbaycan xalqına, vətəndaşlarına xidmət edəcək, ölkəmiz daha da zənginləşəcək və Azərbaycan iqtisadiyyatı daha da inkişaf edəcəkdir.

Azərbaycanın ilk manatı dövriyyəyə buraxılanda ölkəmizdə iqtisadi sahədə vəziyyət o qədər də ürəkaçan deyildi. Daha doğrusu, iqtisadi böhran hökm sürürdü, iqtisadiyyatımız tənəzzülə uğrayırdı, inflyasiya yüksək həddə çatmışdı və hətta hiperinflyasiya mövcud idi. Bütövlükdə, iqtisadi inkişafdan söhbət getmirdi. Söhbət ondan gedirdi ki, bu dəhşətli tənəzzülün qarşısı necə alınsın, hansı yollarla, hansı addımlarla alınsın. Hamımızın yadındadır ki, məhz 1993-cü ildən sonra, xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ölkədə ictimai-siyasi vəziyyət sabitləşdi, eyni zamanda, iqtisadi inkişaf üçün də gözəl şərait yaradıldı. Əgər statistikaya nəzər salsaq görərik ki, 1996-cı ildən başlayaraq bu günə qədər, 2005-ci ilə qədər Azərbaycan iqtisadiyyatı orta hesabla ildə 10 faiz artmışdır. Yəni, bu illər ərzində bizim iqtisadiyyatımız iki dəfə artmışdır. Belə olan halda, əlbəttə, yeni manatın dövriyyəyə buraxılması məsələsi də çox vacib idi.

Bu gün Milli Bankın İdarə Heyətinin sədri bu barədə dedi, yəni nə üçün biz yeni manatı məhz indi dövriyyəyə buraxırıq.

Bu gün Azərbaycan yeni böyük inkişafın astanasındadır. Bu günə qədər görülmüş işlər, aparılmış islahatlar ölkəmizi iqtisadi cəhətdən çox gücləndirdi. Artıq Azərbaycanda çox möhkəm iqtisadi təməl qurulubdur. Bundan sonrakı illər isə sözün əsl mənasında, Azərbaycanın intibah dövrü olacaqdır. Bu il ölkə iqtisadiyyatı 26 faiz artıbdır. Bu, dünyada analoqu olmayan bir göstəricidir. Sənaye istehsalı 30 faizdən çox artıbdır. Azərbaycanda orta aylıq əməkhaqqı ilin sonuna 140 dollar səviyyəsindədir. Əhalinin pul gəlirləri 25-26 faiz artıbdır. Bütün sosial ödəmələr də artıbdır. Azərbaycanda çox böyük investisiya layihələri həyata keçirilir. Əgər əvvəlki illərdə biz daha çox xarici sərmayə cəlb etməklə məşğul idiksə, artıq Azərbaycan büdcəsi imkan verir ki, öz daxili imkanlarımızın hesabına böyük, irimiqyaslı layihələr həyata keçirilsin. Bu layihələr sənaye sektorunda, xidmət sektorunda, humanitar sektorda həyata keçirilir.

Bir sözlə, bizim iqtisadiyyatımız artır. Ümid edirəm ki, gələcək illərdə müsbət meyllər daha da artacaqdır. İndiki zəmanədə Azərbaycanda makroiqtisadi sabitliyin qorunması daha da böyük önəm daşıyır. Fürsətdən istifadə edib demək istəyirəm ki, son illər ərzində, 10 il ərzində Azərbaycanda makroiqtisadi sabitlik qorunub saxlanılmışdır. Əlbəttə, bu işdə Milli Bankın böyük rolu olmuşdur. Milli Bankın siyasəti, düşünülmüş strategiyası Azərbaycanda makroiqtisadi vəziyyətin normal çərçivədə saxlanılmasına xidmət göstərir.

Hamımız xatırlayırıq ki, bu ilin əvvəlində inflyasiya bir qədər yüksəlmişdi, təxminən 15 faizə çatmışdı. Bu da bizi çox narahat etdi. Amma təxirəsalınmaz tədbirlər nəticəsində inflyasiyanın səviyyəsi aşağı salındı. İlin sonunda Azərbaycanda inflyasiyanın səviyyəsi 9,8 faizdir. Gələcək illərdə Azərbaycana çox böyük həcmdə valyuta gətiriləcəkdir. Heydər Əliyevin adını daşıyan, onun təşəbbüsü ilə inşa edilən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismarından əldə ediləcək gəlirlər Azərbaycan xəzinəsinə daxil olacaqdır. Əlbəttə, bu bizim makroiqtisadi sabitliyimizə müəyyən dərəcədə mənfi təsir

göstərə bilər. Ona görə gələcək illərdə bizim iqtisadi siyasətimiz daha da dəqiq olmalıdır. Biz hər bir addımımızı ölçüb-biçməliyik. Çünki ölkənin böyük ehtiyacları var, böyük tələbatı var.

Gələn ilin büdcəsi 4 milyard dollar səviyyəsində olacaqdır. Bu da son hədd deyil, yəni bundan sonra da bizim büdcəmiz kəskin şəkildə artırılacaqdır. Əməkhaqları, pensiyalar qaldırılır. Bütün bu amillər istər-istəməz inflyasiyanın yüksəlməsinə gətirib çıxara bilər. Ona görə Milli Bankın fəaliyyətindən çox şey asılıdır. Mən ümid edirəm və keçmiş təcrübə onu göstərir ki, Milli Bankın siyasəti bizə imkan verəcək ki, makroiqtisadi vəziyyət normal çərçivələrdə saxlanılsın və Azərbaycan yüksək inflyasiya ilə üzləşməsin.

Bütün bu göstəricilər, bu nailiyyətlər bir daha onu göstərir ki, Azərbaycan düz yoldadır. Bizim siyasətimiz düşünülmüş siyasətdir. İstər iqtisadi siyasətimiz, istər xarici siyəsətimiz, ölkədə gedən proseslər, ictimai-siyasi asayişin, sabitliyin qorunması – bütün bu amillər bir-biri ilə sıx bağlıdır və ölkəmizin davamlı və dayanıqlı inkişafı üçün bunların hamısı başlıca şərtdir. İqtisadi inkişaf sürətinə görə Azərbaycan bu il dünyada birinci yerdədir. Biz bunu qürur hissi ilə qeyd edirik. Amma gələcək planlarımız da böyük planlardır. Regionların sosial-iqtisadi inkişafı, böyük, irimiqyaslı investisiya layihələri, Azərbaycanda güclü sosial infrastrukturun yaranması, əhalinin rifah halının yaxşılaşması – bütün bunlar bizim planlarımız-dadır. Son iki il ərzində görülən işlər onu göstərir ki, nəzərdə tutulmuş bütün məsələlər həyatda öz əksini tapır.

Azərbaycanda Heydər Əliyev siyasəti uğurla davam etdirilir. 1990-cı illərin ortalarında başlanmış və uğurla davam etdirilən çox cəsarətli iqtisadi islahatlar Azərbaycanı iqtisadi inkişaf baxımından qabaqcıl ölkəyə çeviribdir. Bunu həm biz deyirik, eyni zamanda, bizimlə bərabər işləyən ən mötəbər beynəlxalq maliyyə qurumları da qeyd edir.

Mən Azərbaycanın inkişaf perspektivlərinə çox böyük nikbinliklə baxıram. Bir daha qeyd etmək istəyirəm ki, bütün

istiqamətlərdə bizim addımlarımız uğurlu olmuşdur. Bir dənə də səhv addım olmayıbdır. Atdığımız bütün addımlar Azərbaycanın möhkəmlənməsinə, dövlət müstəqilliyinin möhkəmlənməsinə, Azərbaycan xalqının rahat, firavan yaşamasına yönəldilibdir.

Bir neçə gündən sonra yeni manatın dövriyyəyə buraxılması da ölkəmizin tarixində çox böyük və əhəmiyyətli hadisədir. Yeni manatın dövriyyəyə buraxılması sadəcə, yeni banknotun buraxılması deyildir. Bunun çox böyük mənası var. Bu, Azərbaycanın inkişaf dinamikasının təzahürüdür. Azərbaycanın gələcək inkişaf perspektivlərinin nə qədər gözəl olmasının təzahürüdür. Bütövlükdə, Azərbaycanın Dünya Birliyində öz yerini tutmasının təzahürüdür. Ölkəmiz zənginləşir, müasirləşir, bütün sahələrdə ən yüksək texnologiyalar Azərbaycanda tətbiq olunur. Mənim siyasətim də məhz bundadır. Azərbaycanda yeni yaradılan, yeni inşa edilən, yaxud qurulan hər bir obyekt, qaldırılan hər bir təşəbbüs dünyanın ən yüksək standartlarına cavab verməlidir. Bu bizim siyasətimizdir və mən çox şadam ki, bu gün, Yeni il ərəfəsində biz yeni manatın təqdimatını qeyd edirik.

Sizin hamınızı bu münasibətlə bir daha təbrik edirəm. Fürsətdən istifadə edib, sizin hamınızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

## Təqdimat mərasimindən sonra jurnalistlərə verdiyi müsahibə

**S u a l: Cənab Prezident, 2006-cı il Qarabağ münaqişəsinin həllində nə ilə yadda qalacaq və ciddi yenilik gözlənilirmi?**

**C a v a b:** Bildiyiniz kimi, danışıqlar davam edir. Həm prezidentlər səviyyəsində davam edir, eyni zamanda xarici işlər nazirləri də görüşürlər, müzakirələr gedir. Mən dəfələrlə bəyan etmişəm ki, biz gərək bütün imkanları sınayaq, mümkün olan

variantları müzakirə edək. Ondan sonra hər hansı bir açıqlama verilə bilər. Hər halda, bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu münaqişə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Bundan başqa, bundan kənarda heç bir məsələ müzakirə olunmur və müzakirə mövzusu deyildir. Bu mövqe iki il bundan əvvəl Ermənistan prezidenti ilə ilk görüşümdə mənim tərəfimdən irəli sürülmüşdür və o vaxtdan bu günə qədər bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur.

Əlbəttə, 2005-ci ildə müsbət hadisələr baş verdi. İlk növbədə, Praqa posesi başlandı və möhkəmləndi, indi danışıqlar bu çərçivədə aparılır. Bildiyimiz kimi, Praqa prosesi mərhələli həll deməkdir. Digər tərəfdən, başqa beynəlxalq təşkilatlar da bu məsələ ilə bağlı öz fəaliyyətini gücləndiriblər. Birləşmiş Millətlər Təşkilatının gündəliyinə salınmışdır. Ondan sonra ATƏT-in faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlara gəlmişdi və orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Avropa Şurası ilin əvvəlində çox dəyərli qətnamə qəbul etmişdir. Avropa İttifaqı tərəfindən də fəallaşma müşahidə olunur. Yəni bütün bu amillər onu göstərir ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi möhkəmlənir. Bu faktdır. Amma bu hələ o demək deyil ki, bu məsələ öz həllini tapır, yaxud da tapacaqdır. İndi demək çətindir ki, 2006-cı ildə bu məsələ öz həllini tapacaq, yoxsa yox. Əgər Ermənistan beynəlxalq hüquq normalarına riayət etsə, əgər normal ölkəyə xas olan hərəkətlər edərsə, onda, əlbəttə, danışıqlar nəticəyə gətirib çıxara bilər.

**S u a l: Cənab Prezident, bu gün Vartan Oskanyan çıxışında bir daha bəyan edib ki, əgər münaqişənin həll olunmasını istəyiriksə, tərəflərin hər ikisi kompromisə getməlidir. Belə olan halda, Azərbaycanın hansı məsələlərdə kompromisə getməsi mümkündür?**

**C a v a b:** Mən bu barədə də dəfələrlə öz fikrimi demişəm. Kompromislər haqqında çox danışılır və əlbəttə, biz bütün

mümkün olan variantları nəzərdən keçirməliyik. Amma Azərbaycanın nəyi var ki, onu güzəştə getsin?! Mən bunu demişəm, biz heç kimin torpağını zəbt etməmişik. Heç kimə qarşı etnik təmizləmə siyasəti aparmamışıq və bu gün Azərbaycan zərər çəkmiş ölkədir. Ona görə bizim nəyimiz var ki, Ermənistana məxsusdur və ona güzəştə gedək? Burada söhbət, əlbəttə, bölgədə gedən proseslər və o proseslərin bölgədə yaşayan xalqların təhlükəsizliyinə təsirindən gedə bilər. Biz onu başa düşürük ki, bölgədə yaşayan bütün xalqların təhlükəsizliyi təmin olunmalıdır. Bu barədə, əlbəttə, danışmaq olar. Əgər münaqişə öz ədalətli həllini taparsa, əlbəttə, bölgəyə sülhməramlı qüvvələrin gətirilməsi də təbiidir. Yəni biz buna öz razılığımızı verə bilərik. Kommunikasiyalar açıla bilər. Əlbəttə ki, müəyyən iqtisadi əlaqələr qurula bilər. Yəni bu səpkidə məsələlər müzakirə oluna bilər. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və bu barədə Azərbaycan heç bir güzəştə getməyəcəkdir.

**S u a l: Cənab Prezident, Ermənistan tərəfi elə hesab edir ki, Azərbaycan üçün çox vacib olan Bakı–Tbilisi–Ceyhan kəməri gələn il işə düşəndən sonra Azərbaycan ən azı onu qorumaq üçün hərbi münaqişəyə əl atmaqdan çəkinər. Belə fikir tez-tez vurğulanır. Bu, münaqişənin həllinə necə təsir edə bilər?**

**C a v a b:** Bunlar bir-birilə bilavasitə heç bir əlaqəsi olmayan məsələlərdir. Amma onu da bilirik ki, istisna olunmur ki, danışıqlarda bayaq sadaladığım müsbət amillər məhz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin uğurla inşa edilməsi ilə əlaqədardır. Çünki heç kimə sirr deyil ki, bu kəmər Azərbaycanı iqtisadi cəhətdən çox gücləndirəcəkdir. Bu gün artıq Ermənistanla Azərbaycan arasında iqtisadi fərq çox böyükdür. Bizim büdcəmiz artır. Bu bizə imkan verir ki, hərbi büdcəmizi artıraq. Gələn il bilirsiniz ki, iki dəfə artırırıq, yəni bu da son rəqəm deyildir. 600 milyon dollar, yəni hərbi xərclərə yönəldilmiş bu pullar Azərbaycan üçün son hədd deyildir. Bunu hamı bilir.

Ermənistan da bilir, bu məsələ ilə məşğul olan vasitəçilər də bilir.

Bakı–Tbilisi–Ceyhan, əlbəttə, regionda sülhün, təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayacaqdır. Amma eyni zamanda, Azərbaycanı iqtisadi cəhətdən çox gücləndirəcəkdir. Azərbaycan iqtisadi cəhətdən güclənəndən sonra bölgədə yeni vəziyyət yaranacaqdır. Bunu əvvəldən proqnozlaşdırmaq çətindir. Amma hər halda, bu amil bizim əlimizdə çox güclü bir alətdir. Mən şübhə etmirəm ki, biz bundan çox məharətlə istifadə edəcəyik.

**S u a l: Cənab Prezident, 2005-ci ilin sonu hakimiyyətdə bir sıra kadr dəyişiklikləri ilə yadda qaldı. Mətbuatda belə kadr dəyişikliklərinin davamlı olacağı barədə məlumatlar yayılır. Bu dəyişikliklər davam edəcəkmi, yeni ciddi dəyişikliklər gözlənilirmi?**

**C a v a b:** Kadr dəyişiklikləri təbii bir prosesdir və buna bu prizmadan yanaşmaq lazımdır. Bu hər bir ölkədə gedən prosesdir. Deyə bilmərəm ki, Azərbaycanda bu proses 2005-ci ilin sonunda başlayıbdır. Ondan əvvəl də bu gedirdi. Bəlkə 2005-ci ilin sonunda bu özünü daha da qabarıq şəkildə büruzə verdi. Amma bu, təbii prosesdir və buna təbii də yanaşmaq lazımdır. İnsanlar müəyyən vəzifələrdə işləyirlər. Heç bir vəzifə əbədi deyil, heç bir vəzifə heç kimə ömürlük verilmir. Prezidentin də səlahiyyət müddəti var. Ona görə hər bir vəzifəli şəxs də bunu bilməlidir ki, hər bir məmur müəyyən zaman çərçivəsində fəaliyyət göstərir. Əgər onun işində heç bir qüsur yoxdursa, əgər nailiyyətlər varsa, əlbəttə ki, o məmurun fəaliyyəti qiymətləndirilir və yeni vəzifəyə gətirilir. Əksinə, əgər onlar tapşırılan sahədə ciddi pozuntulara yol verirlərsə, işdən götürülürlər. Yəni burada heç bir qeyri-adi məsələ yoxdur.

**S u a l: Cənab Prezident, məlumat var ki, İrandan əlavə 1 milyard kubmetr qaz alınacaqdır. Yəni Rusiyanın «Qazprom» şirkəti tarifləri qaldırmışdır və bunu kompensasiya etmək üçün İrandan qaz alınacaqdır. Bu həqiqətən nə dərəcədə uyğundur?**

**C a v a b:** Bildiyiniz kimi, biz «Qazprom»la 2006-cı il üçün yeni müqavilə imzaladıq. Baxmayaraq ki, qiymət təxminən iki dəfə qaldırıldı, amma biz hesab etdik ki, bu, Azərbaycana lazımdır. Düzdür, 2006-cı il üçün bizim müqaviləmiz var idi və hər min kubmetr üçün 61, yaxud 62 dollar nəzərdə tutulmuşdu. Amma bizim başqa yolumuz yox idi. Ona görə 4 milyard 500 milyon kubmetr qazın alınması haqqında müqavilə imzalandı. Alternativ mənbələr də araşdırılır. Bu da istisna olunmur ki, əgər imkan olarsa, biz İrandan da qaz ala bilərik.

Bilirsiniz ki, indi Naxçıvanla İran arasında mübadilə başlanıbdır. Biz bu kəmərlərin gücünü sınamışıq. Artıq Naxçıvana uzun fasilədən sonra qazın verilməsi bərpa olunubdur. Gələcəkdə ola bilsin ki, müəyyən miqdarda İrandan da qaz alına bilər. Amma bu barədə danışmaq hələlik tezdir. Çünki gərək danışıqlar aparılsın, biz müəyyən razılaşmaya gələk. Amma gələcəkdə, əlbəttə ki, biz öz gücümüzə arxalanmalıyıq. Azərbaycanda 2006-cı ildə «Azəri», «Günəşli», «Çıraq» yataqlarından təxminən 3 milyard kubmetr səmt qazı çıxarılacaqdır. Bilirsiniz ki, «Əsrin müqaviləsi»nə əsasən, bu, Azərbaycana pulsuz verilir. Ümid edirəm ki. ilin sonuna qədər «Şahdəniz» yatağından da qazın hasilatı başlanacaqdır. Bu bizə əlavə həcm verəcək və Rusiyadan alınacaq qaz da bizə kömək edəcəkdir. İmkan olarsa, İrandan da alınar, biz buna da baxarıq.

Bizim tələbatımız artır, yeni stansiyalar tikilir. Əhalinin tələbatı artır. Bir neçə məntəqələrdə, kəndlərdə qazlaşdırma gedir. Ona görə bütün imkanlardan istifadə etməliyik ki, öz tələbatımızı ödəyək.

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm. Sağ olun.

## DÜNYA AZƏRBAYCANLILARINA!

Əziz həmvətənlər!
Hörmətli soydaşlar!

Sizə Azərbaycan xalqının ən mühüm bayramlarından biri olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə müraciət edirəm. 31 dekabr Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bütün dünyada yaşayan soydaşlarımız tərəfindən hər il milli birlik və həmrəylik günü kimi qeyd edilir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu bayramın başlıca qayəsini Azərbaycan dövlətçiliyi, xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, vətənə bağlılıq hissləri və ideyaları təşkil edir.

Ötən dövr ərzində dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsi, məzmunca zənginləşdirilməsi üçün xeyli iş görülmüşdür. Azərbaycanlıların həmrəyliyi ideyası ictimai təşəbbüslərdən və arzulardan əməli işə çevrilmiş, dövlət siyasətinin mühüm istiqamətlərindən biri səviyyəsinə qaldırılmışdır. Azərbaycanlıların yığcam yaşadığı ölkələrdə onların təşkilatlanması, birlik və mütəşəkkilliyinin gücləndirilməsi üçün məqsədyönlü fəaliyyət göstərilmişdir. 2001-ci ilin noyabr ayında Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilmiş Dünya azərbaycanlılarının I qurultayı qarşıda duran vəzifələri müəyyənləşdirdi, azərbaycanlıların öz milli dövləti – Azərbaycan Respublikası ətrafında sıx birləşməsi prosesinə güclü təkan verdi, milli birlik ideyasının inkişafında mühüm rol oynadı. Qurultaydan sonra Xarici Ölkələrdə Yayaşan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı, soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanun qəbul edildi. Soydaşlarımızın təşkilatlanması daha da gücləndi, milli-mənəvi və ümumbəşəri dəyərləri üzvi şəkildə birləşdirən, Azərbaycan xalqına və millətinə mənsubluq hissinə əsaslanan azərbaycançılıq ideyası bütün dünyada yaşayan azərbaycanlılar arasında geniş yayıldı.

Bu gün xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin həyata keçirilməsində, soydaşlarımızın birlik və həmrəyliyinin möhkəmləndirilməsində yeni mərhələnin yaşandığını deyə bilərik. Bu, bir tərəfdən, Azərbaycanın iqtisadi və siyasi cəhətdən güclənməsi, onun regionda lider dövlətə çevrilməsi, beynəlxalq nüfuzunun artması ilə, digər tərəfdən isə, xaricdə yaşayan azərbaycanlılarla işin keyfiyyətcə yeni məzmun kəsb etməsi, qarşıya yeni vəzifələr qoyulması ilə əlaqədardır. Hazırda Azərbaycan dövləti öz qarşısına soydaşlarımızın beynəlxalq konvensiyalarda təsbit olunmuş insan və vətəndaş hüquqlarının müdafiəsi, yaşadıqları ölkələrdə mütəşəkkil təsirli qüvvəyə çevrilməsi, dünya azərbaycanlılarının taleyi üçün məsuliyyətin artırılması kimi vəzifələr qoyur. Bütün dövlət orqanları bu işdə yaxından iştirak etməli, öz konkret vəzifələrini bilməli, əlaqəli şəkildə fəaliyyət göstərməlidirlər. Azərbaycanlı icmalarının yaşadıqları ölkələrin siyasi və iqtisadi həyatına təsirinin gücləndirilməsi, soydaşlarımızın bu ölkələrdə vahid təşkilatlarının yaradılması, aparıcı ölkələrdə nüfuzlu Azərbaycan lobbisinin formalaşdırılması, dost icmalar və lobbilərlə səmərəli əməkdaşlıq qurulması Azərbaycan Respublikasının və xaricdə yaşayan soydaşlarımızın qarşısında duran mühüm vəzifələrdəndir. Azərbaycanlıların milli-mənəvi dəyərlərinin, mütərəqqi ənənələrinin qorunub saxlanması və təbliğ edilməsi, mədəniyyət mərkəzlərinin yaradılması və səmərəli fəaliyyəti üçün məqsədyönlü və müntəzəm tədbirlər həyata keçirilməlidir. Soydaşlarımızın Azərbaycanın iqtisadi və ictimai-mədəni həyatında real iştirakı təmin edilməli, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, yaşadıqları ölkələrlə tarixi Vətən arasında əlaqə və münasibətlərin möhkəmləndirilməsində rolu artırılmalıdır. Xaricdə yaşayan azərbaycanlılar həmçinin məkrli erməni təbliğatının planlarını və fitnə-fəsadlarını vaxtında ifşa etməli, tariximizi və mədəni irsimizi saxtalaşdırmaq, dünya ictimaiyyətini və beynəlxalq təşkilatları çaşdırmaq cəhdlərinin qarşısını daha qətiyyətlə almalı, bu sahədə öz fəaliyyətlərini Azərbaycanın müvafiq dövlət orqanları ilə əlaqələndirməlidirlər.

Hazırda Azərbaycan Respublikası öz tarixinin çox mühüm və məsul bir dövrünü yaşayır. Azərbaycan beynəlxalq birliyə qəti şəkildə inteqrasiya olunur, həyatın bütün sahələrini qabaqcıl dünya meyarlarına uyğunlaşdırır. Bu ilin noyabrında ölkəmizdə keçirilmiş parlament seçkiləri siyasi həyatın demokratikləşdirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində mühüm mərhələ oldu. 2005-ci ildə Azərbaycan iqtisadiyyatı ən yüksək inkişaf templərinə malik olmuş, onun həcmi 26 faiz artmışdır və bu göstəricilərə görə Azərbaycan dünyada birinci yerdədir. Ölkəmizdə iqtisadi, hüquqi və struktur islahatları inamla həyata keçirilir və bu işlər qətiyyətlə davam etdiriləcəkdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli istiqamətində səylər gücləndirilmişdir. Dövrümüzün nəhəng enerji layihələri olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin 2006-cı ildə tam istismara verilməsi bütün regionun simasını dəyişəcək və ölkəmizin qarşısında tamamilə yeni imkanlar açacaqdır. Heydər Əliyevin banisi olduğu neft strategiyasının reallaşdırılması Azərbaycanın beynəlxalq nüfuzunu daha da artıracaqdır. Bütün bu nailiyyətlər onu göstərir ki, Azərbaycan düz yoldadır. Bizim siyasətimiz düşünülmüş siyasətdir. İstər daxili, istərsə də xarici siyasətimiz, ictimai-siyasi sabitliyin qorunması ölkəmizin davamlı və dayanıqlı inkişafı üçün başlıca şərtdir. Beləliklə, Azərbaycanın sürətlə artan potensialı bütün problemlərimizin həllində, o cümlədən dünya azərbaycanlıları ilə bağlı vəzifələrin həyata keçirilməsində güclü amil olacaqdır.

Əziz həmvətənlər, hörmətli soydaşlar!

Bu əziz bayram münasibətilə sizi ürəkdən təbrik edir, hamınıza cansağlığı, firavanlıq, milli birlik və həmrəylik, Vətənimizin tərəqqisi yolunda yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 dekabr 2005-ci il*

## BAKININ SABUNÇU RAYONUNUN ZABRAT QƏSƏBƏSİNDƏ SAĞLAMLIQ MƏRKƏZİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

*29 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyevi qəsəbə sakinləri səmimiyyətlə, hərarətlə salamladılar.*

*Prezident İlham Əliyev burada tikiləcək mərkəzin layihəsi və baş planı ilə tanış oldu. Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verərək bildirdi ki, 4250 kvadratmetr sahəsi olacaq iki-üç mərtəbəli Sağlamlıq Mərkəzində 25 çarpayılıq xəstəxana, o cümlədən reanimasiya şöbəsi fəaliyyət göstərəcək, ümumilikdə, 21 min 300 nəfər yüksək tibbi xidmətlə təmin olunacaqdır. Tikinti işləri 6-7 ay ərzində başa çatdırılacaq və burada ən müasir standartlara cavab verən avadanlıq quraşdırılacaqdır.*

*Prezident İlham Əliyev tikintinin təməlinin qoyulduğunu bildirən gilizi bünövrəyə atdı və ilk beton qarışığını tökdü.*

*Dövlətimizin başçısı sakinləri bu əlamətdar hadisə münasibətilə təbrik etdi.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Haradasa bir ay bundan əvvəl Bakının kənd və qəsəbələrinin inkişafına dair geniş müşavirə keçirildi. Bildiyimiz kimi, artıq iki ildir ki, Azərbaycanda regional inkişaf proqramı həyata keçirilir və demək olar, bütün rayonlarda geniş quruculuq-abadlıq işləri gedir. Həm yollar, qaz xətləri çəkilir, elektrik stansiyaları tikilir, həm də müvafiq infrastruktur yaradılır. O cümlədən Azərbaycanın müxtəlif şəhər və rayonlarında yeni müalicə-diaqnostika mərkəzləri inşa edilməyə

başlanmışdır. Belə olan halda, mən fikirləşdim ki, biz regionları bu proqramla əhatə etdik. Ancaq Bakının kənd və qəsəbələri elə bil ki, kənarda qaldı. Məhz bu məqsədlə bir ay bundan əvvəl müşavirə keçirildi, konkret tapşırıqlar verildi. İndi geniş inkişaf proqramı işlənib hazırlanır. Ümid edirəm ki, gələn ilin yanvar ayında bu proqram hazır olacaq və biz onu təsdiq edəcəyik.

Beləliklə, Bakı kəndlərinin bütün tələbatları ödəniləcəkdir. Yeni yollar salınacaq, müalicə mərkəzləri, sağlamlıq mərkəzləri, məktəblər, elektrik stansiyaları tikiləcək, qaz xətləri çəkiləcək, su təchizatı yaxşılaşacaqdır. Yəni biz bu məsələlərə kompleks şəkildə yanaşırıq. Artıq bu proqramın ilkin addımı atıldı. Baxmayaraq ki, proqram hələ rəsmən təsdiq olunmayıb, mən hesab etdim ki, biz yeni il ərəfəsində bu təməlqoyma mərasimini keçirək və yeni Sağlamlıq Mərkəzinin tikintisinə təkan verək. Bu gün də bunu etdik. Mən ümid edirəm ki, çox qısa müddət ərzində burada gözəl Sağlamlıq Mərkəzi tikilib istifadəyə veriləcəkdir. İnsanlar burada çox yüksək xidmət alacaqlar və bu, Zabrat qəsəbəsi üçün böyük məna, əhəmiyyət kəsb edən bir mərkəz olacaqdır.

İndi Azərbaycanda inkişaf sürətlə gedir. Biz bütün səylərimizi iqtisadiyyatın möhkəmlənməsinə yönəltmişik və 2005-ci ilin yekunları onu göstərir ki, iqtisadiyyatımız bu il ərzində çox sürətlə artıbdır. Əlbəttə, bununla yanaşı, əlavə imkanlar yaranır, əlavə maliyyə vəsaiti əldə edilir. İlk növbədə, biz bu imkanlardan istifadə edib ölkəmizin çox güclü sosial infrastrukturunun yaranmasına çalışmalıyıq. Xəstəxanalar, məktəblər, yollar, elektrik, qaz, su təchizatı – yəni insanları narahat edən məsələlər bunlardır. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Çünki bu günə qədər qəbul edilmiş bütün proqramlar həyatda öz əksini tapır. Maaşlar, pensiyalar artırılır, gözəl binalar, xəstəxanalar, məktəblər tikilir. Hesab edirəm ki, bu gün bu təməlqoyma mərasiminin keçirilməsi ilə Bakı kəndlərinin, qəsəbələrinin yeni inkişaf mərhələsi başlandı.

Mən sizin hamınızı bu münasibətlə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, yeni ildə hər şey yaxşı olsun, heç kim

xəstələnməsin, hamı sağlam olsun. Amma xəstələnəndə də hamı bilməlidir ki, burada gözəl tibb ocağı var və oraya müraciət etmək olar.

Mən bu fürsətdən istifadə edib, sizi qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. Eyni zamanda, dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Sizi bu münasibətlə də təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyevin çıxışını böyük diqqətlə dinləyən və hərarətli alqışlarla qarşılayan sakinlər onlara göstərilən diqqətə və qayğıya görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.*

## BAKININ SABUNÇU RAYONUNUN ZABRAT QƏSƏBƏSİNDƏ 1176 YERLİK ORTA MƏKTƏB BİNASININ TƏMƏLİNİN QOYULMASINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*29 dekabr 2005-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmək üçün bu təhsil ocağının inşa ediləcəyi yerə gəldi. Buraya toplaşan sakinlər, təhsil işçiləri dövlətimizin başçısını alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev yeni məktəb binasının layihəsi ilə tanış oldu.*

*Təhsil naziri Misir Mərdanov prezidentə məlumat verdi ki, «Azkommunallayihə» İnstitutu tərəfindən hazırlanmış layihə əsasında gələn ilin sentyabrında istifadəyə veriləcək bu orta məktəbdə 60 sinif otağı, idman, konfrans salonları, voleybol meydançası, yardımçı otaqlar, ayrıca, istilik sistemi olacaqdır. Müasir standartlara uyğun üçmərtəbəli məktəb Azərbaycanın ən nümunəvi təhsil ocaqlarından biri olacaqdır. Bu, qəsəbə sakinlərinə ən böyük Yeni il hədiyyəsidir.*

*Azərbaycan prezidenti İlham Əliyev tikintinin təməlinin qoyulduğunu bildirən gilizi bünövrəyə atdı və ilk beton qarışığını tökdü.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, bacılar və qardaşlar!

Bu gün çox gözəl bir gündür. Bu gün Zabrat qəsəbəsində yeni məktəbin təməl daşı qoyulur. Eyni zamanda, bir qədər bundan əvvəl yeni Sağlamlıq Mərkəzinin təməl daşı qoyulmuşdur. Bunlar çox böyük hadisələrdir. Hesab edirəm ki,

Zabratın gələcək inkişafına çox güclü təkan verəcək hadisələrdir. Noyabrın 2-də Bakı Şəhər İcra Hakimiyyətində geniş müşavirə keçirilmişdir. Bakının kənd və qəsəbələrinin inkişaf proqramı müzakirə olunmuşdur. İndi artıq inkişaf proqramının ilkin addımları atılır. Baxmayaraq ki, bu proqram hələ rəsmən təsdiqlənməyib, biz bu gün bunun ilkin addımlarını atdıq.

Mən xatırlayıram, o müşavirədə Zabratdan olan ağsaqqal demişdi ki, Zabratda 4 məktəb var. Sonra öyrəndim ki, onların vəziyyəti o qədər də yaxşı deyildir. İndi o məktəblərə də baxmaq, təmir etmək lazımdır. Dedi ki, 4 məktəb var, onların hamısı yolun bir tərəfindədir. Ancaq haradasa, 20 mindən çox insan yolun bu biri tərəfində yaşayır və uşaqlar məktəbə gedəndə gərək o magistral yolu keçsinlər. Bu da onların həyatı və sağlamlığı üçün təhlükəlidir. Mən dərhal göstəriş verdim, məsələyə baxdılar və bu gün burada yeni məktəbin tikintisi başlanır.

Biz insanları narahat edən məsələlərə operativ qaydada baxırıq. Haradan bir siqnal var, haradan bir müraciət var, harada ədalətsizlik var – dərhal bütün bu məsələlərə reaksiya verilir. Belə də olmalıdır. Əhalini narahat edən məsələlər öz həllini ilk növbədə tapmalıdır.

Biz indi yeni inkişaf dövrünü yaşayırıq. Azərbaycanda iqtisadi inkişaf, sosial inkişaf çox sürətlə gedir. Belə olan halda, ilk növbədə, biz diqqətimizi əhalini narahat edən problemlərə yönəltməliyik. Tibb məntəqələri, sağlamlıq mərkəzləri, yeni məktəblər, sosial infrastruktur, mədəniyyət ocaqları, yollar, elektrik stansiyaları, qaz təchizatı, elektrik enerjisi təchizatı o məsələlərdir ki, insanlar gündəlik həyatda bunlarla üzləşirlər. Mən istəyirəm ki, Azərbaycanda bu sahədə heç bir problem olmasın. Bunu etmək üçün kifayət qədər imkanlar var. İlk növbədə, Azərbaycanda aparılmış iqtisadi islahatlar bizim maddi vəziyyətimizi xeyli yaxşılaşdırır.

Gələn il Azərbaycan büdcəsi təxminən 4 milyard dollara bərabər olacaqdır. Azərbaycanda minimum əməkhaqqı ildə iki dəfə qaldırılır, orta aylıq əməkhaqqı artıq müəyyən səviyyəyə

çatıbdır. Əlbəttə, gərək biz çalışaq ki, bunu artıraq. Amma bütün sosial məsələlərin həllinin təməlində iqtisadi islahatlar və iqtisadi addımlar dayanır. Əgər imkan olmasa, əgər ölkəyə valyuta gəlməsə, bizim heç bir planımız həyata keçə bilməz.

Azərbaycanın gələcək inkişafında çox böyük rol oynayacaq, xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisindən sonra ölkəmizə böyük həcmdə maliyyə vəsaiti gələcəkdir. Bu vəsaitdən məharətlə istifadə ediləcək, insanları narahat edən bütün məsələlər – yollar, məktəblər, xəstəxanalar, elektrik stansiyaları və başqa məsələlər öz həllini tapacaqdır.

Təsadüfi deyil ki, biz Bakı kəndlərinin inkişaf proqramını məhz Sağlamlıq Mərkəzinin və məktəbin təməl daşlarının qoyulması ilə başlayırıq. Məktəb savad, bilik deməkdir.

Mən çox istəyirəm ki, Azərbaycan gəncləri bilikli olsunlar, savadlı olsunlar. Çünki müasir dünyada bilik, savad, ümumi səviyyə hər şeyi həll edir. Həyatda yaxşı işlə təmin olunmaq üçün, öz yerini möhkəm tutmaq üçün ilk növbədə, bilik, savad olmalıdır. Ona görə Azərbaycanda indi geniş məktəb tikintisi proqramı başlanmışdır. Təkcə 2005-ci ildə Azərbaycanda 130 məktəb tikilmişdir. Gələn il də məktəblərin tikintisi nəzərdə tutulur. Çünki Azərbaycanda 4500-dən çox məktəb var. Onların bir çoxu artıq yararsız vəziyyətdədir. Harada təmirə ehtiyac var, təmir olunacaq, harada yeni məktəb tikilməlidir, yenisi tikiləcəkdir.

Mənə verilən məlumata görə, bəzi məktəblərdə uşaqlar 3-4 növbə ilə təhsil alırlar. Bu, dözülməz bir haldır. Amma bu da təbii bir məsələdir. Çünki uzun illər ərzində Azərbaycanda məktəb tikintisi sürətlə getmirdi. Azərbaycanda əhalinin sayı artır və yeni məktəblərin tikintisinə böyük ehtiyac var.

Mən çox şadam ki, bu gün sizinlə birlikdəyəm. Çox şadam ki, bu gözəl mərasimdə iştirak edirik. Bu bir daha onu göstərir ki, bizim bütün qərarlarımız, bütün planlarımız həyatda öz əksini tapır. Harada ki, məsələ qoyulur, proqram müəyyən edilir, o, mütləq və mütləq icra olunmalıdır. Bu bizim işimizin

başlıca şərtidir. Verilən hər bir söz, hər bir vəd, elan edilmiş hər bir proqram həyatda mütləq öz əksini tapmalıdır. Bu günə qədər qəbul edilmiş bütün proqramlar çox konkret məna daşıyır. O proqramlarda heç bir populist vəd yoxdur, reallığı əks etdirməyən heç bir məqam yoxdur. Bu, həqiqətən, bizim iş prinsipimizdir. Harada ki, proqram nəzərdə tutulub, o, mütləq icra olunmalıdır, onun çox ciddi nəzarət mexanizmi var və vaxtında icra edilməlidir.

Bax, bu gün təməl daşını qoyduğum Sağlamlıq Mərkəzi, haradasa, may-iyun ayında hazır olacaqdır. Məktəb – bu gün onun təməl daşını qoyuruq – sentyabr ayında qapılarını açmalıdır və ümid edirəm ki, özüm şəxsən gəlib bu məktəbin açılışında iştirak edəcəyəm. Bu onu göstərir ki, Azərbaycan inkişaf edir, Azərbaycan zənginləşir. Düzdür, problemlər çoxdur, işsizlik, yoxsulluq, digər problemlər. Amma onlar öz həllini tapır və tapmalıdır.

Mən ümid edirəm ki, 2006-cı il də Azərbaycan üçün uğurlu olacaqdır.

2006-cı ildə qarşımıza qoyduğumuz bütün məsələlər, proqramlar, planlar həyatda öz əksini tapacaqdır, Azərbaycan daha da inamla irəliyə gedəcəkdir.

Mən məktəbin təməl daşının qoyulması münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Sakinlər, təhsil işçiləri Azərbaycan prezidentinə yaxınlaşaraq, Bakının kənd və qəsəbələrinə dövlət səviyyəsində diqqətin artırılmasına razılıqlarını vurğuladılar, ulu öndər Heydər Əliyevin xidmətlərini məmnuniyyətlə xatırlayaraq, onun müdrik siyasətini uğurla davam etdirən prezident İlham Əliyevi hər zaman dəstəkləyəcəklərini bildirdilər. Dövlətimizin başçısını xalqımızın həmrəylik günü və Yeni il münasibətilə ürəkdən təbrik etdilər.*

# BAKIDA, SƏBAİL RAYONU ƏRAZİSİNDƏ «İSR HOLDİNQ» ŞİRKƏTLƏR QRUPUNA DAXİL OLAN 4 ULDUZLU «PARK İNN AZƏRBAYCAN» (KEÇMİŞ «AZƏRBAYCAN») MEHMANXANASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ* NİTQ

*30 dekabr 2005-ci il*

*Mərasimə toplaşanlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı, qızları Leyla və Arzunu böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Prezident İlham Əliyev mehmanxananın rəmzi açılışını bildirən lenti kəsdi, «İSR İnşaat» tərəfindən yenidən qurulan bina ilə yaxından tanış oldu.*

*«İSR Holdinq» şirkətlər qrupunun prezidenti İsgəndər Xəlilov məlumat verdi ki, on milyon dollardan çox vəsait qoyulan «Park İnn Azərbaycan» mehmanxanasının müasirləşdirilməsində inkişaf etmiş xarici ölkələrin istehsalı olan aksessuar və materiallardan istifadə edilmiş, daxili və xarici görünüşündə isə Avropa və Şərq üslubuna üstünlük verilmişdir.*

*Bildirildi ki, ölkəmizin turizm iqtisadiyyatının inkişafına vacib töhfənin bir hissəsi kimi, 2004-cü ilin sentyabr ayında Brüsseldə Azərbaycanın «Qlobal İnvest Kompany Ltd» və «Rezidor SAS Hospitality» Otel İdarəetmə Qrupu arasında Bakı şəhərindəki «Azərbaycan» mehmanxanasının işlədilməsi ilə bağlı idarəetmə razılığı imzalanmışdır. İndidən belə, «Azərbaycan» mehmanxanası 4 ulduzlu «Park İnn» ticarət markası altında fəaliyyət göstərəcəkdir. «İSR İnşaat» şirkəti tərəfindən həyata keçirilmiş*

---

* Сонра мещманхананын тянтяняли ачылышы олду. Мярасими «ИСР Щолдинг» ширкятляр групунун президенти Исэяндяр Хялилов ачды.

*yenidənqurmadan sonra 248 müasir otağı olan mehmanxananın hər bir otağı fərdi nəzarət edilən hava kondisioneri, interaktiv televiziya sistemi, simsiz rabitə ilə təchiz edilmişdir. 11 mərtəbəli bina restoranlara, barlara, konfrans salonlarına malik çoxməqsədli kompleks kimi nəzərdə tutulmuşdur.*

*İkinci mərtəbə konfrans və banketlər üçün ayrılmışdır. Burada böyük Bal salonu ilə yanaşı, müxtəlif ölçülü 6 konfrans salonu vardır. Bu, «İSR Holdinq»in «Rezidor SAS Hospitality» Otel İdarəetmə Qrupu ilə Azərbaycanda birgə həyata keçirdiyi ikinci mehmanxana layihəsidir. 5 ulduzlu «Radisson SAS Plaza» mehmanxanası 1998-ci ildən etibarən «İSR Plaza» adı ilə fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev «Park İnn Azərbaycan» mehmanxanasının qonaq otaqları, restoran, bar və kafesi, biznes mərkəzi və digər sahələri ilə tanış oldu, görülən işləri yüksək qiymətləndirdi, binanın yuxarı mərtəbəsindən Xəzər dənizini, Milli Parkı, paytaxtımızı seyr etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Bu gün Bakıda yeni gözəl mehmanxana istifadəyə verilir. Mən sizin hamınızı bu münasibətlə təbrik etmək istəyirəm.

Bu mehanxana dünyanın ən yüksək standartlarına cavab verir. Burada müasir avadanlıq quraşdırılıbdır və ümid edirəm ki, bu gözəl mehmanxana Bakının qonaqlarına çox gözəl xidmət edəcəkdir. «İSR Holdinq»i də bu münasibətlə təbrik etmək istəyirəm. Artıq şirkət uzun müddətdir ki, Azərbaycanda çox uğurla işləyir, müxtəlif sahələrdə investisiyalar qoyur. Çox şadam ki, Azərbaycanda «İSR Holdinq» şirkətinin xətti ilə yeni gözəl xidmət infrastrukturu – «Park İnn Azərbaycan» oteli yaradılmışdır.

Bu otelin fəaliyyətə başlaması, eyni zamanda Azərbaycanda ümumi inkişafın dinamikasını göstərir. Çünki əgər Azərbaycanda iqtisadiyyat çox yüksək sürətlə artmasaydı,

əlbəttə, geniş xidmət infrastrukturu da yaranmazdı. Bilirik ki, Azərbaycanda iqtisadi inkişafın gələcəyini müəyyən edən 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» olmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış neft strategiyamız bu gün Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində canlanmaya gətirib çıxarıbdır. Hamımız bilirik ki, neft sənayesinə qoyulan hər bir manat, yaxud da dollar infrastruktur, xidmət sahəsində də eyni məbləğdə vəsaitin qoyulmasına gətirib çıxarır.

Təsadüfi deyildir ki, məhz 1994-cü ildən başlayaraq bu günə qədər Azərbaycanda neft sektorunun inkişafı ilə bərabər, qeyri-neft sektoru da çox sürətlə inkişaf edibdir. Bakıda və artıq Azərbaycanın müxtəlif şəhər və rayonlarında yeni müasir binalar, yaşayış binaları, iş mərkəzləri, mehmanxanalar tikilib istifadəyə verilir. Bu bizim ümumi inkişafımızın təzahürüdür, onun göstəricisidir.

Azərbaycan iqtisadi cəhətdən çox sürətlə inkişaf edir, çox zəngin dövlətə çevrilir. 2005-ci ilin yekunlarına görə, ölkəmizdə gedən islahatların nəticəsində ümumi daxili məhsul 26 faiz artmışdır. Bu da, bildiyiniz kimi, dünyada analoqu olmayan bir göstəricidir. Nə inkişaf etmiş ölkələrdə, nə də keçid dövrünü yaşayan ölkələrdə bu rəqəmə rast gəlinmir. Bu onu göstərir ki, Azərbaycanda islahatlar düzgün istiqamətdə aparılır. Əminəm ki, başladığımız bütün işlər gələcəkdə gözəl nəticələrini verəcəkdir və ölkəmiz daha da müasirləşəcək, daha da zənginləşəcəkdir.

Mehmanxananın açılışı, eyni zamanda onu göstərir ki, Azərbaycanda çox gözəl investisiya mühiti var. Bu baxımdan da Azərbaycan bölgədə qabaqcıl ölkələr sırasındadır. Adambaşına düşən bilavasitə birbaşa xarici sərmayəyə görə Azərbaycan regionda lider dövlətdir. bizdə xarici sərmayələr lazımi səviyyədə qorunur və bu, imkan verir ki, ölkəmizə daha da çox sərmayə gətirilsin. Təkcə 2005-ci ildə ölkə iqtisadiyyatına 3 milyard 600 milyon dollar sərmayə qoyulmuşdur. İnvestisiya mühitinin yaxşı olması, əlbəttə, iqtisadiyyatımızın bütün sahələrinə öz müsbət

təsirini göstərir. Sahibkarlıq inkişaf edir. Bildiyiniz kimi, biz sahibkarlığın inkişafına da böyük diqqət göstəririk və hər il büdcədə sahibkarlığın inkişafına çox böyük məbləğdə pul vəsaiti nəzərdə tutulur. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı üçün kredit şəklində lazımi tədbirlər görülür. Son iki il ərzində 340 min yeni iş yerinin açılması məhz bunun nəticəsində baş veribdir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində mən seçkiqabağı proqramla çıxış edərkən bəyan etmişdim ki, növbəti beş il ərzində Azərbaycanda 600 min yeni iş yeri açılacaqdır. Bu çox böyük rəqəmdir. Xatırlayıram ki, bəziləri bu rəqəmə o qədər də ciddi yanaşmırdı. Amma baxın, həyat onu göstərir ki, verilmiş bütün vədlər və proqramlar həyatda öz əksini tapır. İki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açılıbdır və bu proses sürətlə davam edir. Gələcəkdə də Azərbaycanda sahibkarlığın inkişafına böyük diqqət göstəriləcək, sağlam rəqabət təmin olunacaq və Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranacaqdır. Biz bunun ilkin əlamətlərini bu il də görürük. Ölkəmizin ümumi daxili məhsulunda özəl sektorun çəkisi təxminən 75 faizdir. Bu onu göstərir ki, ölkədə gedən geniş iqtisadi islahatlar real nəticələrə gətirib çıxarıbdır.

Yeni mehmanxanaların tikintisi də onu göstərir ki, ölkəmiz Dünya Birliyinə daha da fəal şəkildə inteqrasiya edir. Çünki Bakıda və artıq Azərbaycanın başqa şəhər və rayonlarında tikilən otellər onu göstərir ki, tələbat artır. Mən xatırlayıram, haradasa, 5-6 il bundan əvvəl Bakıda fəaliyyət göstərən otellər tam gücü ilə işləmirdi. Haradasa, 50 faiz gücü ilə işləyirdi. Amma bu gün Bakıda yer tapmaq çətindir. Ölkəmizə gələn qonaqlar əvvəlcədən sifariş edirlər. Bu onu göstərir ki, tələbat artır. Bazar iqtisadiyyatı prinsipləri məhz bundan ibarətdir. Tələbat artanda, əlbəttə, xidmətlər də göstərilməlidir.

Azərbaycanda bu sahədə tam sərbəstlik var, liberallaşma var və ölkəmizdə gedən çox geniş quruculuq, abadlıq işləri, böyük tikintilər onu göstərir. Harada tikinti var, o ölkədə inkişaf var. Azərbaycana gələn hər bir qonaq, hər bir rəsmi şəxs bunu görür və ölkəmizə səfər etmiş başqa ölkələrin prezidentləri və

hökumət rəhbərləri bunu etiraf edirlər ki, Bakıda gedən tikintinin heç bir başqa yerdə analoqu yoxdur. Bu onu göstərir ki, bizim iqtisadiyyatımız liberal iqtisadiyyatdır.

Azərbaycanda sahibkarlıq dəstəklənir və sahibkarlığın normal aparılması üçün bütün şərait mövcuddur. Biz bu siyasətə gələcəkdə də sadiq olacağıq. Mən əminəm ki, ölkəmizdə bu proseslər 2006–2007-ci illərdə daha da sürətlə gedəcəkdir.

Bildiyiniz kimi, Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri gələn il istismara veriləcəkdir. Ondan sonra ölkə xəzinəsinə böyük həcmdə maddi resurslar daxil olacaqdır və bu bizə imkan verəcəkdir ki, ölkəmizi daha da sürətlə inkişaf etdirək, hərtərəfli inkişaf etdirək.

Ölkəmizdə sosial problemlər öz həllini daha da sürətlə tapmalıdır. Bilirsiniz, bu çox rəmzi xarakter daşıyır. Məsələn, mən dünən Zabrat qəsəbəsində yeni Sağlamlıq Mərkəzinin və məktəbin təməl daşının qoyulmasına həsr edilmiş mərasimlərdə iştirak etmişəm. Yəni Bakının kənd və qəsəbələri üçün hazırlanan proqram yaxın zamanlarda təqdim olunacaq və orada şəhərətrafı kəndlərin bütün problemləri öz həllini tapacaqdır. Bu gün isə ən müasir standartlara cavab verən yeni mehmanxananın açılışındayam. Bu bizim həyatımızın əlamətidir, müasir Azərbaycanın göstəricisidir. Biz dinamik şəkildə inkişaf edirik. Ölkəmizdə yeni müasir binalar, mehmanxanalar, neft, qaz, su kəmərləri, eyni zamanda məktəblər, xəstəxanalar və digər sosial obyektlər tikilir. Ölkəmiz məhz bu cür inkişaf etməlidir. Həm bazar iqtisadiyyatı prinsipləri daha da güclənməlidir, eyni zamanda sosial siyasət daha da fəal, məqsədyönlü olmalıdır və hər bir Azərbaycan vətəndaşı bu gözəl dəyişiklikləri öz gündəlik həyatında hiss etməlidir. Ümumi daxili məhsulun 26 faizə çatması, əlbəttə, çox böyük bir nailiyyətdir. Amma bunu bilən adamlar əksəriyyət təşkil etmir. İqtisadiyyatla məşğul olanlar bilirlər ki, bu nə deməkdir. Ancaq elə etməliyik ki, hər bir vətəndaş, ailə müsbət dəyişiklikləri gündəlik həyatında görsün. Bunu etmək üçün həm maaşlar, pensiyalar, sosial müavinətlər qaldırılmalıdır və həm də bütün digər məsələlər öz həllini tapmalıdır. Amma ilk növbədə, iqtisadiy-

yatımız güclənməlidir. Sərbəst, liberal investisiya mühitinin yaradılması məhz bu məqsədi güdür. Əgər o olmasaydı, investorlarda bizim bu günümüzə və gələcəyimizə inam olmasaydı, buraya heç kim heç vaxt sərmayə qoymazdı. Məsələn, bu gözəl otel bu gün öz qapılarını açmazdı. Ondan sonra, təbii ki, otelin fəaliyyətindən əldə ediləcək gəlirlərdən büdcəmizə vergilər ödənilməzdi, büdcəmiz dolmazdı. Yəni bütün bunlar bir-birilə bağlı olan məsələlərdir. Bu məsələlərdə, şübhəsiz, ölkəmizdə hökm sürən sabitlik, ictimai-siyasi asayiş çox mühüm rol oynayır.

Azərbaycan o ölkədir ki, buraya uzunmüddətli sərmayələr qoyulur. Buraya milyardlarla dollarla ölçülən sərmayələr qoyulur. Yəni bu onu göstərir ki, bizə inam var, ölkəmizin gələcəyinə inam var, ölkəmizin siyasi xəttinin dəyişməz olmasına inam var. bizim ölkəmiz və vənətdaşlarımız bundan faydalanırlar.

Əziz dostlar, mən bu mehmanxananın açılışı münasibətilə sizi bir daha təbrik etmək istəyirəm. Arzu edirəm ki, burada qonaqlara çox yaxşı xidmət göstərilsin, mehmanxananın həyatı və fəaliyyəti uğurlu olsun.

Bu fürsətdən istifadə edib, sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * *

*Mərasim başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev ailə üzvləri ilə birlikdə şəhər gəzintisinə çıxdı və sakinlərlə görüşdü.*

*Bayram ovqatı yaşayan insanlarla hal-əhval tutan dövlətimizin başçısı onlarla söhbət etdi, qayğı və problemləri ilə maraqlandı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik etdi.*

*Paytaxt sakinləri prezident İlham Əliyevə ən xoş arzularını çatdırdılar, 2006-cı ildə Azərbaycan torpaqlarının işğaldan azad olunmasını arzuladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev səmimi sözlərə görə təşəkkürünü bildirdi, sakinlərin problemlərinin həlli ilə bağlı tapşırıq və göstərişlərini verdi. Dövlətimizin başçısı onları bir daha təbrik etdi, cansağlığı, uğurlar, xoşbəxtlik arzuladı.*

## Q E Y D L Ə R

**1. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. –5–10,33–35, 198,286–287,288,289,292–298.

**2. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 5,10, 35,69.

**3. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil

dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu

prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5,6,7,22,27,31,33,34,35,39,49,53,55,60,61, 74,85,106,109,113,125,139,148,164,168,169,170,194,198-199, 201,203,209,210,219,220,221,223,224,227,228,231,232,236, 237,239,240,241,242,245,247,248,250,262,266,267,286,292, 294,295,297,305,307,313,315,321,322,327.

**4. Elçibəy**, Əliyev Əbülfəz Qədirqulu oğlu (1938–2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin

sədri. 1992–93-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuşdur. – 6.

**5. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı gunbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarluq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 6,60, 298.

**6. Vatikan** – Avropada Papa dövləti. Monte-Vatikano təpəliyində, İtaliyanın paytaxtı Roma şəhərinin qərb hissəsindədir. Roma-katolik kilsəsinin siyasi, inzibati və ideoloji mərkəzidir. Vatikan teokratik monarxiyadır. Dövlət başçısı Roma papasıdır. – 9.

**7. II Aleksi (**1929–2010) **–** 1990–2010-cu illərdə Moskvanın və bütün Rusiyanın patriarxı, xristian dinini qorumaq hərəkatının görkəmli nümayəndələrindən biri, Rusiya pravoslav kilsəsində əmin-amanlıq hərəkatının rəhbəri, Avropa Kilsələr Konfransı Şurasının sədri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 10.

**8. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2382 min $km^2$, əhalisi 30,6 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 11.

**9. Əbdüləziz Buteflikay** (d.1937) – Əlcəzair dövlət xadimi, 1999-cu ildən Əlcəzair prezidenti. – 11.

**10. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 78 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 12–28,98–99,115–125,189,201-202.

**11. Əhməd Necdət Sezər** (d.1941) – 2000–07-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 12.

**12. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri seçildi. – 12.

**13. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 13,14,15,17,31,38,39,76, 131,164,165,174,183,184,187,206,207,208,235,265,276,287, 308,309,315.

**14. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. –18,19,39,74,119,141,157, 194,227,261,290,307,310,311,315,321,327.

**15. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 18,157,315.

**16. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 18,26,166,173, 309.

**17. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərə-

bistanı). Azərbaycan 1991-ci ildən İKT-nin üzvüdür. – 18, 26,38,164,174,179,182–193,298.

**18. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 18,20,21, 25,93,130,177–178.

**19. Avropa Birliyi** (AB) – 1951–57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı Avropa İqtisadi Birliyi – (AİB), Avropa Kömür və Polad Birliyi – (AKPB), Avropa Atom Enerjisi Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun vahid valyuta qəbul etməsi – AVRO) bir neçə mərhələ keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-cı ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra – AİB, AKPB və AAEB – Avropa Birliyi yarandı. – 18,24,25.

**20. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 18,19,121,122,288–297.

**21. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 18,19, 121,122.

**22. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 19,59,85,92,94,115,118,119,124,167, 168,169.

**23. OPEK** (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanadadır. – 19.

**24. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 19,37,96,97,113,138,191,259,289,297,300,301,311,312.

**25. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar.

Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 20,21,129.

**26. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Havyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 20.

**27. NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»** – 2008-ci ildən Azərbaycan Respublikası bu planın həyata keçirilməsində iştirak edir. – 20,129.

**28. Rəsul Quliyev,** R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993–96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 21,22,83, 84,87,261,262.

**29. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 21,134,163,309.

**30. İctimai Televiziya və Radio Yayımları Şirkəti** (İTV) – mülkiyyətin xüsusi formasında təşkil edilən tele və radio yayımı. 2004-cü ildə yaradılmışdır. Bu tip teleyayım şirkətinin mülkiyyəti nə dövlətə, nə şəxsi sektora aid olmayıb, «ictimai mülkiyyət» sayılır. Mülkiyyəti və şirkəti cəmiyyətin nüfuzlu insanlarından xüsusi qayda ilə seçilən Şura idarə edir. – 24.

**31. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 25,41,118,163,164,166,173,183,309.

**32. Şimali Kipr Türk Cümhuriyyəti** – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə–Kipr admi-

nistrasiyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk Respublikası (ŞKTR) – Kıbrısı elan etdi. – 26.

**33. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993–2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur.

S.Dəmirəl Türkiyə–Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 27.

**34. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 27,66,74.

**35. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 km$^2$, əhalisi 101,6 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 27,80.

**36. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqə-

ləndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 29–32,96,164.

**37. Böyük Vətən müharibəsi – Bax:** İkinci dünya müharibəsi.

**38. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 29,31.

**39. Ruslan Auşev** (d.1954) – tanınmış Rusiya dövlət və siyasi xadimı, İnquşetiya Respublikasının birinci prezidenti, 1991-ci ildən Beynəlmiləlçi Döyüşçülərin Əlaqələndirmə Şurasının sədri. Sovet İttifaqı Qəhrəmanı, «Sərhədsiz– döyüş qardaşları» Beynəlxalq Ali Şuranın üzvüdür. – 30.

**40. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 31,189-190.

**41. SSRİ,** S o v e t S o s i a l i s t R e s p u b l i k a l a r ı İ t- t i f a q ı – 1922–1991-ci illərdə dünyanın ən böyük və qüdrətli dövlətlərindən biri. Tərkibində 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət olmuşdur. – 31,33.

**42. Azərbaycan Xalq Cəbhəsi** (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 31,85.

**43. Bibiheybət ziyarətgahı –** Bakının Şıx ərazisində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi-Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerləyeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 33–35,298.

**44. İmam Rza** – şiəlik məzhəbinə etiqad edənlərin səkkizinci imamı. – 33.

**45. Həzrəti Hökumə,** H ə k i m ə – İmam Rzanın bacısı. VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir. – 33.

**46. Hacı Hikmət Əlizadə** (d.1954) **–** din xadimi. 1994-cü ildən Bibiheybət məscidinin axundudur. – 33–35.

**47. Həzrəti Əli ibn Əbu Talib (**598–661**)** – Məhəmməd əleyhüssəlamın əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri). İmam Əli islam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmanların bütün vuruşmalarında iştirak etmiş, igidliyi ilə fərqlənmişdir. – 34,60.

**48. İmam Hüseyn,** (əl-Hüseyn əbu Talib) – Əli ibn Əbu Talibin, Məhəmməd peyğəmbər əleyhüssəlamın qızı Fatimədən olan kiçik oğlu. Müsəlmanların üçüncü imamı. 680-ci ildə xəlifə Müaviyənin vəfatından sonra xəlifə Yəzid zamanı islam dinində təhriflər yaranırdı. Məhz buna görə də İmam Hüseyn 70 döyüşçüsü ilə birlikdə Kufə yaxınlığında olan Kərbəlaya gəlir. Tezliklə xəlifənin 4 minlik dəstəsi Hüseynin dəstəsinə basqın edir və qeyri-bərabər döyüşdə Hüseynin dəstəsi tamamilə qırılır. Hüseyn özü onlarla yara alıb həlak olur.

«Hüseyn ən böyük şəhid» adlanır. Kərbəla isə şiələrin başlıca ziyarətgahlarından birinə çevrilir. Bütün şiələr Hüseynin həlak olduğu günü matəm günü kimi (Aşura) qeyd edirlər. – 35,60.

**49. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın

bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 35.

**50. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 35,47–48,67,143.

**51. BBC,** B r i t i ş B r o d k a s t i n q K o r p o r e y ş e n – Böyük Britaniya radio və televiziya verilişləri korporasiyası. Əsası 1927-ci ildə Londonda qoyulmuşdur. 1936-cı ildə televiziya ilə verilişlərə başlamışdır. 1932-ci ildən xarici verilişlər şöbəsi bütün sutka ərzində ingilis və 37 xarici dildə dünyanın hər yerinə xəbərlər yayır. – 36.

**52. ORT** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB-də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 37.

**53. Ramazan bayramı –** müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-Kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xətaların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-Kərim müqəddəs ramazan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. – 38–40,52,68,69–70,87.

**54. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq

edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 38,39–40,179–180,182–193,298.

**55. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 39,183,187.

**56. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 39,176,196.

**57. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 39,101,148–149,181,188, 270–285,297,300,311,312.

**58. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 39.

**59. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-

cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 40,165.

**60. Məkkə –** Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 40,179,180, 182–193,298.

**61. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 41.

**62. Eduard Lintner** (d.1944) – alman siyasətçisi, 2005-ci ildə AŞPA-da sədr müavini olmuşdur. – 41.

**63. Kamboca,** K a m b o c a K r a l l ı ğ ı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 181 min $km^2$, əhalisi 10 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 42.

**64. Norodom Sianuk** (d.1922) – 1945–55 və 1993-cü ildən Kambocanın kralı. 1955-ci ildə atasının xeyrinə taxt-tacı tərk etmişdi. 1955–60-cı illərdə hökumət başçısı, 1970–75 və 1979–90-cı illərdə isə mühacirətdə olmuşdur. 1991-ci ildən yenidən dövlətin başçısı kimi tanındı və Ali Milli Məclisin (Milli barışığın) sədridir. – 42.

**65. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 43.

**66. Aleksandr Kvasnevski** (d.1954) – Polşanın siyasi və dövlət xadimi. 1991–95-ci illərdə Polşa Seyminin deputatı, 1995–2005-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 43.

**67. Anqola,** A n q o l a R e s p u b l i k a s ı – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km$^2$, əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 44.

**68. Duş Santuş,** J o z e E d u a r d o (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri. 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 44.

**69. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 49,50,51,56.

**70. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban

Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 50, 51,323.

**71. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın, IV əsrdən isə Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtı olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 60,201–202,216–238,240–285, 297,300,301,312.

**72. İmam Həsən,** əl-H ə s ə n i b n Ə b u T a l i b (624-669) – Məhəmməd (Əleyhüssəlam) peyğəmbərin nəvəsi, qızı Fatimənin və İmam Əli ibn Əbu Talibin oğlu. Şiələrin ikinci imamı hicrətin əllinci ilində Muaviyənin hiyləsi ilə qırx səkkiz yaşında zəhərlənmiş və vəfat etmişdir. – 60.

**73. Kəbə** – müsəlmanların Məkkədə müqəddəs məbədi. «Qaradaş» Kəbədədir. Kəbə hələ qədimdən bütpərəst tayfaların məbədi olmuşdur. Müsəlmanlar Məkkəni tutduqdan sonra (630) bütlər məhv edildi və Kəbə müsəlmanların ziyarətgahına çevrildi. Kəbəni ziyarət edənlər hacı adlanır. – 60, 180,183,298.

**74. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 63,64,79,194,221,222,261,262,,299,301.

**75. Qurani–Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə)

və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 69,85,86,182.

**76. Elman Rüstəmov,** E l m a n S i r a c o ğ l u (d.1952) – iqtisad elmləri namizədi. 1995-ci ildən Azərbaycan Mərkəzi Bankı İdarə Heyətinin sədridir. – 77,88.

**77. Əli İnsanov,** Ə l i B i n n ə t o ğ l u (d. 1946) –1993–2005-ci illərdə Azərbaycan Respublikasının Səhiyyə naziri olmuşdur. – 82,83,84,85.

**78. İsa Qəmbərov,** İ s a Y u n i s o ğ l u (d.1957) –1990–95-ci illərdə Milli Məclisin deputatı, 1992–93-cü illərdə parlamentin sədri olmuşdur. 1992-ci ildən Müsavat Partiyasının başqanıdır. – 84.

**79. Qorbaçov,** M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985–91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990–91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 85.

**80. Əbdürrəhman Vəzirov,** Ə b d ü r r ə h m a n X ə l i l o ğ l u (d.1930) – 1988–90-cı ilin yanvarınadək Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. – 85.

**81. Ayaz Mütəllibov,** A y a z N i y a z o ğ l u (d.1938) – 1989–90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri,

1990–92-ci illərdə Azərbaycan KP MK-nın Birinci katibi, Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 85.

**82. Əli Həsənov,** Ə l i   Ş a m i l   o ğ l u (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 88.

**83. Əvəz Ələkbərov** (d.1952) – iqtisadçı. Müxtəlif vaxtlarda SSRİ Pensiya fondunun Azərbaycan şöbəsinin müdiri, Azərbaycan Respublikası Pensiya və Sosial Müdafiə Fondunun sədri işləmişdir. 1999–2006-cı illərdə Azərbaycan Respublikası Maliyyə naziri olmuşdur. – 88.

**84. Heydər Babayev,** H e y d ə r   A y d ı n   o ğ l u (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 88.

**85. Fazil Məmmədov,** F a z i l   Ə s ə d   o ğ l u (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 88.

**86. İsmət Abasov,** İ s m ə t   D u r s u n   o ğ l u (d.1954) – iqtisadçı, iqtisad elmləri namizədi. 2008-2013-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri olmuşdur. Hal-hazırda Baş nazirin müavinidir. – 88.

**87. Misir Mərdanov,** M i s i r   C u m a y ı l   o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor. Təd-

qiqatları, əsasən riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998–2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. Hal-hazırda AMEA-nin Riyaziyyat İnstitutunun direktorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 88,319–322.

**88. Mərkəzi Bank,** Azərbaycan Dövlət Mərkəzi Bankı – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 88,304,306,307.

**89. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 88,261.

**90. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASC-nin prezidenti vəzifəsində çalışır. – 88.

**91. «Azəriqaz» – İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət

göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 88,253–256,257–261.

**92. Əlixan Məlikov** (d.1951) – mühəndis. 2000–2009-cu illərdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. – 88,253–256,257–261.

**93. Tofiq İsmayılov,** T o f i q  K a z ı m  o ğ l u (1933–1991) – texnika elmləri doktoru, professor. 1982-ci ildən ömrünün sonuna qədər Kosmik Tədqiqatlar Elm İstehsalat Birliyinin Baş konstruktoru və Baş direktoru vəzifəsində çalışmışdır.

SSRİ Baş Kosmos İdarəsinin Elmi-Texniki Şurasının, SSRİ Elmlər Akademiyası Elmi Şurasının və Dövlət Elm və Texnika komitəsinin üzvü, Azərbaycan Respublikası Kosmonavtika Federasiyasının sədri olmuşdur.

1989-cu ildən SSRİ Xalq deputatı, SSRİ Ali Soveti Rəyasət Heyətinin, Sov.İKP MK və Azərbaycan KP MK-nın üzvü olmuşdur.

1991-ci il noyabrın 20-də Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov Qarabağın Qarakənd kəndi üzərində «Mİ-8» vertolyotunda faciəli surətdə həlak olmuşdur. – 89.

**94. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 94,117,118,131, 166,309.

**95. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 96.

**96. Federasiya Şurası** – 1990-cı il Rusiya Federasiyası Konstitusiyasına əsasən yaradılan qanunverici orqanın yuxarı palatası. – 97.

**97. Svetlana Orlova** (d.1954) – iqtisad elmləri namizədi. Rusiya Federasiyası Şurasının sədr müavini (2001–2013). – 97.

**98. Böyük Millət Məclisi** (BMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 98-99,189.

**99. ABŞ-ın Strateji Araşdırmalar İnstitutu** – ABŞ Ordusunun Strateji Araşdırmalar İnstitutu. İnstitut araşdırmalar və analizlər edir, ABŞ-ın geostrateji və milli təhlükəsizliyini qoruyur. Karlaylada (Pensilvaniya) fəaliyyət göstərir. Strateji Araşdırmalar İnstitutu öz tematikalarına uyğun kitablar və monoqrafiyalar nəşr edir, tematik kollekviumlar keçirir, hesabatlarını çap edirlər. İnstitutun ştatına mülki və hərbi tədqiqatçılar daxildir. – 100.

**100. Latviya,** L a t v i y a   R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 2530 min nəfərdir. İnzibati ərazisi 26 rayona (qəza) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 102.

**101. Vayra Vike–Freyberqa** (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 102.

**102. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 212,4 min km$^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür. Dövlət başçısı sultandır. Paytaxtı Məskət şəhəridir. – 103.

**103. Qabus bin Səid** (d.1940) – 1970-ci ildən Oman sultanı. Sultan həm də ölkənin Baş naziri, Müdafiə naziri və Xarici İşlər naziri vəzifələrini icra edir. Sultan bin Səid ərəb aləmində yenilikçi və reformator kimi tanınır. Qabus öz administrasiyasını müdhiş korrupsionerlərdən təmizləmiş, əhalinin həyat səviyyəsini xeyli qaldırmışdır. – 103.

**104. Livan,** L i v a n R e s p u b l i k a s ı – Qərbi Asiyada, Aralıq dənizinin şərq sahilində dövlət. Sahəsi 10,4 min km$^2$, əhalisi 3,8 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. İnzibati cəhətdən 5 muhafazaya bölünür. Dövlət başçısı prezidentdir. Qanunvericilik orqanı birpalatalı parlamentdir. – 104.

**105. Emil Ləhhud** (d.1936) – 1998–2007-ci illərdə Livanın prezidenti olmuşdur. – 104.

**106. Mirzə Fətəli Axundov** (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist-filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə şöhrət qazanmışdır. 1850–55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. Axundovun fəaliyyətində yeni əlifba uğrunda mübarizə mühüm yer tutur. – 105.

**107. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 106,203–211,218.

**108. İordaniya,** İ o r d a n i y a  H a ş i m i l ə r  K r a l -l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 108.

**109. II Abdulla,** A b d u l l a  b i n  H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdulla kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur. – 108.

**110. Valeri Zorkin** (d. 1943) – hüquqşünas. Hüquq elmləri doktoru, professor. 1991–2005-ci illərdə Rusiya Federasiyası Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 113.

**111. Zərifə xanım,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə

Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 113,199.

**112. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 113.

**113. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə, məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 113,214–215.

**114. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal–şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 122.

**115. Albaniya,** A l b a n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3,2 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 126.

**116. Alfred Moisiu (**d.1929) – Albaniya dövlət və siyasi xadimi. 2002-ci ildən Albaniyanın prezidentidir. –126.

**117. «Mittal Stiil»** – 2006-cı ilə qədər dünyada ən böyük polad şirkəti. Rotterdamda (Niderland) qeydə alınmışdır. Mənzil-qərargahı Londondadır. – 127.

**118. Lakşmi Mittal** (d.1950) – hind mənşəli Britaniya biznesmeni. Dünyada ən böyük metallurgiya kampaniyasının sahibi və yaradıcısı. 2008-ci ildə «Forbs» jurnalının reytinqinə görə dünyada sərvətinə görə (45 milyard ABŞ dolları) 4-cü adamdır. Dünyanın bütün regionlarında «Mittal Stiil» kampaniyasının müəssisələri vardır. – 127.

**119. Bosniya–Hersoqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya–Hersoqovinadan ibarət federativ respublika yarandı. – 128.

**120. Süleyman Tihiç** (d.1951) – Bosniya siyasi xadimi, hakim Demokratik Hərəkat Partiyasının yaradıcılarından biri. 2007–08-ci illərdə Bosniya–Hersoqovina Rəyasət Heyətinin sədri olmuşdur. – 128.

**121. Robert Simmons** – Amerika siyasətçisi. 2004-cü ildən NATO Baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsidir. Pobert Simmons, həmçinin Rusiya–NATO və Ukrayna –NATO-nun başqa təşkilatlarla cərəyan edən münasibətlərə, inteqrasiya, partnyorluğa cavabdehdir. – 129.

**122**. **Ağ ev** – Vaşinqtonda ABŞ prezidentinin iqamətgahı və dəftərxanası (1800-cü ildən).1792–1829-cu illərdə inşa edilmişdir. ABŞ hökumətinə çox zaman Ağ ev deyilir. – 130.

**123. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 131.

**124. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 132.

**125. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–07 və 2007–12-ci illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 132.

**126. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin

tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 133.

**127. Zaid Bin Sultan əl-Nəhəyyan** (1949–2004) – Əbu-Dabi Əmirliyində 250 il hökmranlıq etmiş əl-Nəhəyyan sülaləsinin 14-cü hakimi olmuşdur. –133.

**128. Heyki Talvitiye** (d.1939)–2003–2006-cı illərdə Avropa Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olmuşdur. – 134.

**129. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 135.

**130. Cabir əs-Sabah** – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 135.

**131. Şri-Lanka,** Ş r i -L a n k a  S o s i a l i s t  D e m o k- r a t i k  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqan parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 136.

**132. Mahinda Pacapaksa** (1945) – 2005-ci ildən Şri-Lanka Respublikasının prezidenti. 2004–05-ci illərdə Şri-Lankada Baş nazir olmuşdur. Milli Alyansa daxil olan Şri-Lanka Azadlıq Partiyasının liderlərindən biridir. – 136.

**133. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b- l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 137,141–142.

**134. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian - Demokrat İttifaqı Partiyasının lideri, 2000-ci ildən Almaniyanın Federal kansleridir. – 137.

**135. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 138,304.

**136. Ziya Məmmədov,** Ziya Arzuman oğlu (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolu rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 143.

**137. Namiq Abdullayev** (d.1971) – sərbəst güləş ustası. SSRİ və Azərbaycanın Əməkdar idman ustası. 1994–95-ci illərdə Avropa çempionu, 1996-cı il Atlanta Olimpiya oyunlarında gümüş, 2000-ci ildə Sidney Olimpiya oyunlarında isə qızıl medal qazanmışdır. Azərbaycan Respublikasının «Tərəqqi» və «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 144.

**138. Mənuçehr Möttəki** (d.1953) – 2005–10-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 148–149,272.

**139. Mahmud Əhmədinejad** (d.1956) – 2005–13-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. Xarici siyasətdə ABŞ ilə münasibətlərin olduğu kimi qalmasını və heç bir güzəştə gedilməməsini müdafiə etmiş, BMT-ni fəaliyyətsizlikdə günahlandırmış və İranın nüvə proqramının həyata keçirilməsinin labüd olduğunu bildirirdi. –149,181, 188,270–285.

**140. Tailand,** Tailand Krallığı – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 514 min $km^2$, əhalisi 60 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 150,151.

**141. Bhumibol Adulyadey** (d.1927) – 1950-ci ildən (faktiki 1946-cı ildən) Tailand prezidenti. – 150.

**142. Taksin Şinavatra** (d.1949) – 2001–06-cı illərdə Tailandın Baş naziri olmuşdur. – 151.

**143**. **Finlandiya,** F i n l a n d i y a  R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 152.

**144. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 152.

**145. Murtuz Ələsgərov,** M u r t u z  N ə c ə f  o ğ l u (1928–2012) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünası. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvü, 1996–2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 154,167–168,169,170.

**146. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 164.

**147. Məlahət Həsənova,** M ə l a h ə t  İ b r a h i m  q ı z ı (d.1958) – İkinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədridir. Milli Məclisin Sosial siyasət daimi komitəsinin üzvü, Hesablayıcı komissiyasının sədri,

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. – 167.

**148. Zahid Orucov,** Z a h i d  M ə h ə r r ə m  o ğ l u (d.1972) – mühəndis. Ana Vətən Partiyası sədrinin müavinidir. İkinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Milli Məclisin Təhlükəsizlik və Müdafiə məsələləri daimi komitəsinin üzvüdür. – 167.

**149. Rafael Hüseynov,** R a f a e l  B a b a  o ğ l u (d.1955) – ədəbiyyatşünas, publisist. Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 1993-cü ildən Azərbaycan Respublikası MEA Nizami adına Azərbaycan Milli Ədəbiyyat Müzeyinin direktorudur. –167.

**150. Xanhüseyn Kazımlı,** X a n h ü s e y n  H ü s e y n a ğ a  o ğ l u (d.1942) – iqtisad elmləri doktoru, professor. Azərbaycan Sosial Rifah Partiyasının sədridir. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 167.

**151. Mixail Zabelin** (d.1946) – on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. –

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür. Milli Məclisin Regional məsələlər daimi komitəsinin üzvü, Azərbaycanda Rus icmasının sədri, «Azərbaycan–Rusiya» cəmiyyətinin vitse-prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 167.

**152. İsa Həbibbəyli,** İ s a  Ə k b ə r  o ğ l u (d.1949) – ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın həqiqi üzvü. Naxçıvan Dövlət Universitetinin rektoru olmuşdur. Hal-hazırda AMEA-nın vitsi-prezidentidir. Naxçıvan MR Ali Məclisinin (1-2-ci çağırış)

deputatı olmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. – 167.

**153. Qüdrət Həsənquliyev,** Q ü d r ə t  M ü z ə f f ə r  o ğ l u (d.1965) – hüquqşünas. Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri daimi komitəsinin üzvüdür. – 167.

**154. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 168,169,170–175.

**155. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 174.

**156. NATO Parlament Assambleyası** (NATO PA) – 1955-ci ildə yaradılmışdır. NATO PA Şimali Atlantika İttifaqının konsultativ parlamentlərarası təşkilatı ilə birgə fəaliyyət göstərir. NATO PA Şimali Atlantika İttifaqının bütün üzv dövlətlərin qanunverici orqanları, NATO və onun üzv ölkələrinin parlamentləri arasında əməkdaşlıq əlaqələri yaradır.

NATO PA-da NATO-nun 28 üzv dövlətinin 257 nümayəndəsi var. Assambleyanın rəhbər orqanı Daimi Komitetdir. Onun tərkibinə hər bir nümayəndə heyətinin rəhbəri daxildir.

«Soyuq müharibə»yə son qoyulduqdan sonra Assambleya Mərkəzi və Şərqi Avropa, həmçinin başqa ölkələrlə, NATO ilə sıx əlaqə yaratmağa çalışır. Hazırda Assambleyanın prezidenti Almaniyadan Karl A. Lamersdir. Mənzil-qərargahı Brüsseldədir. – 174.

**157.** A**vropa Parlamenti** – Avropa Şurasının orqanlarından biri. İştirakçı ölkələrin əhalisinə görə ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilir. AP aylıq sessiyaları Strasburqda, fövqəladə iclasları AP-nin komitələri işləyən Brüsseldə, Katibliyi isə Lüksemburqdadır. Azərbaycan 2001-ci ildən Avropa Parlamentinin üzvüdür. – 174,221.

**158. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ -l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 176,196.

**159. ABŞ Ticarət Palatası** – ABŞ-ın geniş işgüzar dairələrin və assosiasiyaların marağını müdafiə edən, kommersiya ilə məşğul olmayan dünyada ən böyük lobbi təşkilatı. 1912-ci ildə yaradılmış, Mənzil-qərargahı ABŞ-ın paytaxtı Vaşinqtondadır. Bir əsr keçməsinə baxmayaraq palatanın tərkibində 300000 min üzvü, 3000 regional palata və ştat palatası, Amerika Ticarət Palatası xarici ölkədə fəaliyyət göstərir. Palatanın rəyinə görə onun üzvlərinin 96% -i kiçik biznes nümayəndələridir.

ABŞ-ın Ticarət Palatası öz missiyasını «bəşəriyyətin inkişafına əsaslanan iqtisadi, siyasi və sosial sistemlərdə azad, həvəsləndirici prinsiplərdə» görür. – 177–178.

**160. Rino Harniş** – diplomat. 2003–06-cı illərdə Azərbaycanda ABŞ-ın Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 177–178.

**161. Elman Araslı** (d.1933) – ərəbşünas. Filologiya elmləri namizədi. Xarici ölkələrdə diplomatik vəzifələrdə çalışmışdır. Moskvada Sovet Dostluq Cəmiyyətləri və Xarici Ölkələrlə Mədəni Əlaqələr Birliyi Yaxın və Orta Şərq ölkələri şöbəsinin müdiri işləmişdir. Əvvəl Səudiyyə Ərəbistanı Krallığında, hazırda isə Qətərdə Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli səfiridir. – 179,193.

**162. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2011) – 2005-ci il Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir. Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur, Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 179,184,191,193.

**163. Ümrə –** Məkkədə kiçik ziyarət mərasimi. Bunu ilin hər hansı bir vaxtında icra etmək olar. Ümrə mərasimi Kəbəyə səcdə etməklə bitir. –180.

**164. Məhəmməd Peyğəmbər** (əleyhüssəlam) (570/571–632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhüssəlam böyük peyğəmbər və «Allahın elçisi» sayılmış, bütün müsəlmanların müqəddəs kitabı «Quran»ı xalqa çatdırmışdır. – 180.

**165. Əl-Həram** – Məkkədə məscid, müsəlmanların ən müqəddəs ziyarətgahı. Bu məscidin həyətinin ortasında Kəbə və müqəddəs Zəmzəm çeşməsi yerləşir. Səfa və Mərva adlanan iki müqəddəs təpə arasında Masa adlı örtülü keçid əl-Əqsanı əl-Həramla birləşdirir. –180,183.

**166. Malayziya** – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 20,4 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 182,192.

**167. Abdulla Əhməd Badavi** (d.1939) – 2003–09-cu illərdə Malayziyanın Baş və Maliyyə naziri olmuşdur. Hakim Milli Cəbhə Partiyasının lideridir. – 182,192.

**168. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. – 182,183,190–191.

**169. Kəşmir problemi** – Asiyada tarixi vilayət. Qədimdə və orta əsrlərdə Hindistan ərazisində yaranmış müxtəlif dövlət birləşmələrinin tərkibində olmuşdur. 1846-cı ildə ingilislər Kəşmiri işğal edib 7,5 milyon rupi ödənclə Sammi knyazlığına vermişlər. 1947-ci ilin avqustunda yaradılan müstəqil Hindistan dövləti Kəşmiri öz ərazisinə qatmağa çalışır. Hal-hazırda Kəşmirin şimal–qərbi Pakistanın, qalan hissəsi isə Hindistanın (1949) nəzarəti altındadır. 1956-cı ildə Kəşmir «Hindistan İttifaqının tərkib hissəsi» elan edildi. Hindistanla Pakistan arasında bir neçə dəfə hərbi münaqişə baş versə də bu problem hələ də öz həllini tapmamışdır. – 183.

**170. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə, 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin

yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 183.

**171. İsrail** – Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 183.

**172. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5-i daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 185.

**173. Pərviz Müşərrəf** (d.1943) – 2001–07-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qərargah rəisi olmuş, 1999-cu ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 187.

**174. Tacikistan,** T a c i k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub–şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5705 min nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 188–189.

**175. İmaməli Rəhmon,** İ m a m ə l i Ş ə r i f o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Ta-

cikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 188–189.

**176. Bülənd** (d.1948) – Türkiyə siyasətçisi 2002–07-ci illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. Hazırda Bülənd Arınc Türkiyə hökumətində Baş nazirin müavini və hökumət sözçüsüdür. – 189.

**177. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–02-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 189–190.

**178. Bruney,** B r u n e y D ə r ü s s a l a m – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavandır. – 190.

**179. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 190.

**180. Kamil İshakov** (d.1949) – Rusiya dövlət və siyasi xadimi. 1989–2005-ci illərdə Kazan şəhərinin meri, 2005–2007-ci illərdə Rusiya Federasiyası Prezidentinin Uzaq Şərq dairəsində səlahiyyətli nümayəndəsi. – 191.

**181. Kazan** – Tatarıstanın paytaxtı. Volqa çayının sol sahilində, Kazanka çayının mənsəbindədir. Şəhəri XIII əsrin 2-ci yarısında bulqarlar salmışlar. 1399-cu ildə Moskva knyazlığının qoşunları dağıtmış, 30–40 il sonra yenidən tikilmişdir. XV əsrdən Kazan xanlığının mərkəzi olmuşdur. 1552-ci ildə Rus dövlətinə birləşdirilmişdir. –191.

**182. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 126,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4

vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkədir. – 191.

**183. Xalidə Ziya Rəhman** (d.1945) – 1991–96 və 2001–2006-cı illərdə Banqladeşin Baş naziri olmuşdur. – 191.

**184. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 195.

**185. Moris Loyenberger** (d.1946) – hüquqşünas. İsveçrə dövlət və siyasi xadimi. 2001–06-cı illərdə İsveçrənin prezidenti 2000, 2009-cu illərdə İsveçrənin vitse-prezidenti olmuşdur. – 195.

**186. Bəhreyn,** B ə h r e y n  d ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 0,69 min km$^2$, əhalisi 598 min nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manamadır. – 197.

**187. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2001-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 197.

**188. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadimi, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Əziz Əliyev müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə Komissarının müavini və Xalq Səhiyyə Komissarı, Azərbaycan Dövlət Tibb

İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 199.

**189. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor.

Professor Tamerlan Əliyev 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin və səmərələşdirici təklif, ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 199.

**190. Nigeriya,** N i g e r i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 103,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı prezidentdir. Paytaxtı Abusadır. – 200.

**191. Olusequn Obasanco** (d.1937) – Nigeriya siyasi və dövlət xadimi, 1999-cu ildən Nigeriyanın prezidenti. – 200.

**192. «Ümid körpüsü»,** H ə s r ə t k ö r p ü s ü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (*Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri*) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nın keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliy-

yat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. – 202.

**193. Azərbaycan Tarix Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 211.

**194. Hacı Zeynalabdin Tağıyev** (1838–1924) – məşhur messenat, maarifpərvər. Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti»ni, toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı ticarət bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Savadı olmayan Hacı savadsızlığın acısını duymuş və buna görə də Vətən övladlarının, xüsusilə, kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir. Qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir. 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı.

Hacı Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 211.

**195. Azərbaycan Ədəbiyyatı Muzeyi,** Azərbaycan Respublikası MEA Nizami adına Milli Azər-baycan Ədəbiyyatı Muzeyi – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədə-biyyatı, 1991–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 211.

**196. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhə-ridir. – 212,213,222.

**197. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatoru. İmperator Hirohitonun oğlu. – 212.

**198**. **Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. –213.

**199. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 216–285.

**200. Vasif Talıbov,** Vasif Yusif oğlu (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 216,218–222,242,246–253,270.

**201. Səfər Əbiyev,** Səfər Axundbala oğlu (d.1950) – general-polkovnik. 1995-2013-cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdur. – 231,268.

**202. Şahbuz** – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ləğv edilərək ərazisi əvvəl Naxçıvana (1978), sonra Babək rayonuna verilmişdi. 1965-ci ildən yenidən müstəqil rayondur. Sahəsi 0,82 min $km^2$, əhalisi 21500 nəfərdir. – 238,244.

**203. Yusif Məmmədəliyev,** Y u s i f H e y d ə r o ğ l u (1905–1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Məmmədəliyevin əsas elmi işləri neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsində aviasiyanın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947–50-ci və 1958–61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 247.

**204. Cahangir Əsgərov,** C a h a n g i r C ə l a l o ğ l u (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktorudur. – 244.

**205. Culfa –** Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Şimal–şərqdə Ermənistan, cənubda İranla həmsərhəddir. Sahəsi 1,0 min $km^2$, əhalisi 37 min nəfərdir. – 247.

**206**. **Cümə məscidi –** Naxçıvanda memarlıq abidəsi. XVIII–XIX əsrlərdə Hüseyn Təbrizi adlı şəxs tərəfindən tikilmişdir. Ümumi sahəsi təqribən 1000 $m^2$-dir. Bir minarəlidir. 2000-ci ildən Naxçıvan şəhər məscidi kimi fəaliyyət göstərir. – 247.

**207. Şərur** – Naxçıvan MR-də şəhər. Naxçıvan şəhərindən 66 km şimal–qərbdə, Şərur düzündədir. Əhalisi 6315 nəfərdir. Şərurun salındığı tarix hələlik dəqiq müəyyənləşdirilməsə də, buranın hələ eradan əvvəl məskunlaşdırıldığı məlumdur. – 248.

**208. Babək** (1978-ci ilədək Naxçıvan rayonu) – Naxçıvan MR-da inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1,17 min $km^2$, əhalisi 72,5 min nəfərdir. – 248.

**209. Sədərək** – Naxçıvan MR-da inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min $km^2$, əhalisi 12,9 min nəfərdir. – 248.

**210. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 $km^2$, əhalisi 87,4 min nəfərdir. – 258.

**211. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmişdir.

I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 260.

**212**. **«Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 262,299,312.

**213. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 264,312.

**214. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–04-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 270,272.

**215. Əcəmi Əbubəkr oğlu Naxçıvani** (XII əsrin 20-ci illəri – XII əsrin sonu) – orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Möminə xatın türbəsini, böyük Cümə məscidini və mənbələrdə «Darülmülk» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. – 284.

**216. Mömünə xatın türbəsi** – Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlıq incilərindən biri. 1186-cı ildə Naxcıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Mömünə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında «Atabəy günbəzi» adı ilə qalmışdır. Abidənin baştağında küfi xətti ilə bu sözlər yazılmışdır. «Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar». Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. – 284.

**217. Atabəylər dövləti** – Azərbaycanda Eldəgizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət (1136–1225). Azərbaycan Atabəyləri Dövlətinin əsasını Şəmsəddin Eldəgəz qoymuşdur. Azərbaycan Atabəyləri Dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. –284.

**218. Məhəmməd Cahan Pəhləvan,** Ə b u C ə f ə r H ü s -r ə t ə d d i n (? –1186) – Eldəgəzlər sülaləsinin hökmdarı (1174/75–1186), atabəy. Şəmsəddin Eldəgəzin oğlu. Pəhləvanın dövründə Eldəgəzlər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi. Bir sıra qonşu hökmdarlar M.C.Pəhləvanın vassallığını qəbul etməyə məcbur oldular. M.C.Pəhləvanın dövründə ölkənin iqtisadi həyatı dircəlmiş, Azərbaycan şəhərləri Yaxın Şərqin iri ticarət mərkəzlərinə çevrilmişdi. – 284.

**219. II İlia** (d.1933) – Gürcüstan katalikos - patriarxı, Msxeti – Tbilisi arxiyepiskopu və Putsundı və Suxumi – Abxaziyanın mitropoliti. – 288.

**220. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003-2013-cü illərdə Gürcüstan Respublikasının prezidenti olmuşdur. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 288,291.

**221. Ravil Qaynuddin** (d.1959) – şeyx, Rusiyanın Avropa hissəsinin Dini Müsəlmanlar İdarəsi Rəyasət Heyətinin sədri, Rusiya Müftilər Şurasının sədri, Kazan tatarıdır. İctimai Palatanın üzvü. İslam məzhəblərinin yaxınlaşdırılması ümumdünya assambleyasının həqiqi üzvüdür. – 289.

**222. *bp,*** «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 290.

**223. Devid Vudvord** (d.1946) – neftçi-mühəndis, 1999–2007-ci illər «*bp*–Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Birləşmiş Ərəb Əmirliklərində, Norveç, Rusiya və ABŞ-da *bp* şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail» və «Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 290.

**224. Gela Bejuaşvili** (d.1967) – Gürcüstan siyasi xadimi. 2005–08-ci illərdə Gürcüstan Respublikasının Xarici İşlər naziri olmuşdur. – 291.

**225. «Azəri», «Çıraq» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yatağı. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. «Azəri», «Çıraq» neft yataqları iki əsas lay dəstindən ibarətdir: Fasilə və Balaxanı. Konsorsium əvvəlcə hasilata fasilə layından başlayıb. «Azəri»,«Çıraq»-da hasilat 1997-ci ilin noyabr ayında başlamışdır. – 299,312.

**226. Lerik rayonu** (1938-ciilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub–qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 km$^2$, əhalisi 66,2 min nəfərdir. – 300.

**227. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyətidir. Mənzil-qərargahı Moskvadadır. – 301, 311,312.

**228. Sudan,** S u d a n R e s p u b l i k a s ı – Şimal–Şərqi Afrikada dövlət. Sahəsi 2,5 milyon km$^2$, əhalisi 31 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartumdur. – 302.

**229. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudan hərbi və dövlət xadimi, prezident. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 302.

**230. Kuba,** K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı birpalatalı Milli assambleyadır. Dövlətin və hökumətin başçısı – Dövlət Şurasının sədridir. – 303.

**231. Fidel Kastro,** K a s t r o R u s (d.1926) – 1960–2008-ci illərdə Kuba Respublikası Dövlət Şurası və Nazirlər Sovetinin sədri, 1965-ci ildən Kuba KP MK-nın Birinci katibi və Kuba Silahlı Qüvvələrinin Baş komandanı. 1953-cü ildə Batista diktaturasına qarşı silahlı üsyana başçılıq etmişdir. – 303.

**232. Makedoniyalı İsgəndər,** B ö y ü k A l e k s a n d r, İ s g ə n d ə r Z ü l q ə r n e y n (e.ə. 356–323) – qədim dünyanın ən böyük sərkərdələrindən biri, 336-cı ildən Makedoniyanın çarı. Çar II Filippin oğlu. Aristotelin yanında tərbiyə almışdır. O, Orta Asiyanı və Hindistanı fəth edərək ucu-bucağı görünməyən bir dövlət yaratdı. Makedoniyalı İsgəndərin Azərbaycanda olması haqqında rəvayətlər var. – 304.

**233. Şirvanşahlar** (VI əsr–1538) –Şirvanşahlar dövlət hökmdarları sülaləsi. Ərəb işğalına qədərki Şirvan hakimləri ilk Şirvanşahlar adlanır. – 304.

**234. Sacilər** (IX əsrin sonu – 929) –Sacilər dövləti hökmdarları sülaləsi. Banisi mənşəcə Orta Asiya türklərindən olan Əbu-s-Sac Divdad ibn Yusif əd-Divdastdır. Sacilərin ən qüdrətli dövründə dövlətin sərhədləri Ani şəhərindən Dərbəndə, Xəzər dənizindən Zəncanadək uzanırdı. – 304.

**235. Rəvvadilər** (1116/17)– Rəvvadi hökmdarları sülaləsi. Rəvvadilərin əsasını Vəcna ibn ər-Rəvvad qoymuşdur. Rəvvadilər dövrundə elm, mədəniyyət və memarlıq inkişaf etmişdi. – 304.

**236. Şəddadilər** (X–XII əsrlər) – Şəddadilər dövləti hökmdarları sülaləsi. Banisi Məhəmməd ibn Şəddaddır. Mühüm ticarət və hərbi strateji yolları nəzarət altında saxlayan Şəddadilər dövləti Səlcuqlarla müttəfiqlik sayəsində XI əsrdə Cənubi Qafqazın ən qüdrətli dövlətlərindən birinə çevrilmişdi. – 304.

**237. Qaraqoyunlular** (1378–1468)– Qaraqoyunlu hökmdarları sülaləsi. Banisi Bayram Xocadır. Qaraqoyunlular dövründə ölkənin təsərrüfatı böyük dağıntılara məruz qalsa da, Cahanşahın (1447–1458) hakimiyyəti illərində iqtisadi və mədəni həyat nisbətən canlanmışdı. – 304.

**238. A ğ q o y u n l u l a r** (1370–1503) **–** Ayqoyunlu hökmdarları sülaləsi. Banisi Pəhləvan bəydir. Ağqoyunlular Uzun Həsənin (1453–78) hakimiyyəti illərində ərazicə genişlənmiş, Yaxın və Orta Şərqin ən güclü dövlətlərindən birinə çevrilmişdi. –304.

**239. S ə f ə v i l ə r** (1501–1736)– Səfəvilər dövləti hökmdarları sülaləsi. Banisi I Şah İsmayıldır (Xətai) (1501–24). Səfəvilər dövründə Azərbaycanın Cənub və Şimal torpaqları vahid dövlət çərçivəsində birləşmiş, ölkə iqtisadi, siyasi və mədəni cəhətdən inkişaf etmiş, beynəlxalq əlaqələr xeyli genişlənmişdi. – 304.

**240. Teymurilər –** 1370–1507-ci illərdə Teymurilər dövlətində hakimiyyətdə olmuş sülalə. Banisi Teymur idi. Teymur hələ sağlığında dövləti oğlanları və nəvələri arasında bölüşdürmüşdü. –304.

**241. Oqtay Şirəliyev,** O q t a y K a z ı m o ğ l u (d.1950) – tibb elmləri doktoru, professor. 2005-ci ildən Azərbaycan Respublikasının Səhiyyə naziridir. –316–318.

**242. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. –323.

## Şəxsi adlar göstəricisi

**Abasov İsmət** – 88
**II Abdulla** – 108
**Abdullayev Fərhad** – 114
**Abdullayev Namiq** – 144
**Abutalıbov Hacıbala** – 35,47–48,67,143
**Adulyadey Bhumibol** – 150
**Axundov Mirzə Fətəli** – 105
**Akihito** – 212
**Aqil** – 60
**Al Səud Abdullah ibn Əbdüləziz** – 179,182,184,191,193
**II Aleksi** – 10
**Aras Nurəddin** – 201–202
**Araslı Elman** – 179,193
**Arınç Bülənd** – 189
**Auşev Ruslan** – 30
**Babayev Heydər** – 88
**Badavi Abdulla Əhməd** – 182,192
**Besesku Trayan** – 132
**Bejuaşvili Çeva** – 291
**Berenqaut Julian** – 214–215
**Beskov Boris** – 31
**Bin Səid Qabus** – 103
**Bodanski Cozef** – 100
**Bolkiah Həssənal** – 190
**Buteflikay Əbdüləziz** – 11
**Cahan Pəhləvan Məhəmməd** – 284
**Dəmirəl Süleyman** – 27
**Duş Santuş** – 44
**Elçibəy Əbülfəz** – 6
**Əbdüləziz Əbdülməcid** – 179

**Əbdüləziz Məşəl** – 179
**Əbiyev Səfər** – 231,268
**Əhmədinejad Mahmud** – 149,181,188,270–285
**Əli Həsən Əhməd Cəfər** – 39,40,179,193
**Əl-Bəşir Ömər** – 302
**Əl-Humeydi Bədr** – 135
**Əl-Xəlifə Həməd** – 197
**Əl-Nəhəyyan Xəlifə Bin Zaid** – 133
**Ələkbərov Əvəz** – 88
**Ələsgərov Murtuz** – 154,167–168,169,170
**Əli (həzrəti)** – 34,60
**Əlirza** – 60
**Əliyev Əziz** – 199
**Əliyev Fərhad** – 82,83,84,85
**Əliyev Heydər** – 5,6,7,22,27,31,33,34,35,39,49, 53,55,60,61,74,85,106,109, 113,125,139,148,164,168,169, 170,194,198-199,201,203,209, 210,219,220,221,223,224, 227,228,231,232,236,237, 239,240,241,242,245,247, 248,250,262,266,267,286, 292,294,295,297,305,307, 313,315,321,322,327
**Əliyev Natiq** – 260
**Əliyev Rasim** – 231
**Əliyev Tamerlan** – 199
**Əliyeva Arzu** – 323
**Əliyeva Leyla** – 323
**Əliyeva Mehriban** – 50,51,323
**Əliyeva Zərifə** – 113,199
**Əlizadə Hacı Hikmət** – 33–35
**Əlizadə Qurbanəli** – 58–61
**Ərdoğan Rəcəb Teyyib** – 12
**Əs-Sabah Cabir** – 135

**Əsədov Oqtay** – 168,169,170–175
**Əsgərov Cahangir** – 244
**Halonen Tarya** – 152
**Harniş Rino** – 177–178
**Həbibbəyli İsa** – 167
**Həsən (imam)** – 60
**Həsənquliyev Qüdrət** – 167
**Həsənov Əli** – 88
**Həsənov Yaşar** – 88
**Həsənova Məlahət** – 167
**Hollinqsvort Qay** – 194
**Hökumə (Həzrəti)** – 33
**Hüseyn (imam)** – 35,60
**Hüseynov Rafael** – 167
**İhsanoğlu Ekmələddin** – 182,183,190–191
**II İlia** – 288
**İnsanov Əli** – 82,83,84,85
**İshakov Kamil** – 191
**İslamyusifov Zəki** – 49
**İsmayılov Tofiq** – 89
**Kastro Fidel** – 303
**Kazımlı Xanhüseyn** – 167
**Kərimov Əli** – 84
**Kərzai Həmid** – 189–190
**Koidzumi Dzünitiro** – 213
**Kvasnevski Aleksandr** – 43
**Qasımzadə Həsən** – 56–57
**Qaynuddin Ravil** – 289
**Qələndərov İbrahim** – 57–58
**Qəmbərov İsa** – 84
**Qəzai Əhməd** – 101
**Qorbaçov Mixail** – 85
**Qrammatikas Demian** – 36
**Quliyev Rəsul** – 21,22,83,84,87,261,262
**Ləhhud Emil** – 104

**Leşşinski Mixail** – 31
**Lintner Eduard** – 41
**Loyenberger Moris** – 195
**Makedoniyalı İsgəndər** – 304
**Manqold Klaus** – 141–142
**Merkel Angela** – 137
**Məhəmməd (əleyhüssəlam)** – 180
**Məlikov Əlixan** – 88,253–256,257–261
**Məmmədəliyev Yusif** – 247
**Məmmədov Fazil** – 88
**Məmmədov Ziya** – 143
**Məmmədyarov Elmar** – 270,272
**Mərdanov Misir** – 88,319–322
**Moisiu Alfred** – 126
**Mittal Lakşmi** – 127
**Mottəki Mənuçehr** – 148–149,272
**Mustafayev Kərəm** – 268
**Müşərrəf Pərviz** – 187
**Mütəllibov Ayaz** – 85
**Naxçıvani Əcəmi** – 284
**Nazarbayev Nursultan** – 176,196
**Nuriyev Səxavət** – 49–51
**Obasanco Olisequn** – 200
**Orlova Svetlana** – 97
**Orucov Zahid** – 167
**Oskanyan Vartan** – 309
**Pacapaksa Mahinda** – 136
**Paşazadə Hacı Allahşükür** –5–10,33–35,198,286–287, 288,289,292–298
**Petrova Ada** – 32
**Pirverdiyev Etibar** – 88
**Rəhimov Hacı Kamil** – 51–52
**Rəhman Xalidə** – 191
**Rəhmon İmaməli** – 188–189
**Ruşaylo Vladimir** – 96

**Rüstəmov Elman** – 77,88
**Rza (imam)** – 33
**Rzayev Rafiq** – 54–56
**Rüstəmov Elman** – 77,88
**Saakaşvili Mixeil** – 288,291
**Santuş Duş** – 44
**Sezər Əhməd Necdət** – 12
**Səlimov Təvəkkül** – 52–54
**Sianuk Norodom** – 42
**Simmons Robert** – 129
**Sunin Con** – 130
**Sultanova Ayna** – 143
**Şevalye Pyer** – 131
**Şirəliyev Oqtay** – 316–318
**Şinavatra Taksin** – 151
**Tağıyev Hacı Zeynalabdin** – 211
**Talıbov Vasif** – 216,218–222,242,246–253, 270
**Talvitiye Heyki** – 134
**Tihiç Süleyman** – 128
**Vəzirov Əbdürrəhman** – 85
**Vike-Freyberqa Vayra** – 102
**Vudvord Devid** – 290
**Yusifov Fikrət** – 84
**Zabelin Mixail** – 167
**Zorkin Valeri** – 113

## Coğrafi adlar göstəricisi


**Abşeron (yarımada)** – 64
**Ağdam** – 27,80
**Albaniya** – 126
**Albaniya(Qafqaz)** – 304
**Almaniya** – 137,141–142
**Amerika Birləşmiş Ştatları** – 18,20,21,25,93,100,130,177–178
**Anqola** – 44
**Araz çayı** – 254
**Ayrınc** – 238
**Asiya** – 20
**Astara** – 258
**Avropa** – 15,23,24,25,55,87,117,119, 142,154,156,211
**Babək** – 248
**Badamdar** – 56
**Bakı** – 11,29,30,32,42,43,44,45,46, 47,48,49,52,53,54,55,60,64, 65,66,67,68,70,74,78,102, 103,104,107,108,111,113, 126,128,129,132,133,136, 137,138,139,143–147,150, 151,152,176,190,195,196, 197,200,202,212,213,220, 221,232,236,285,287,288, 289,300,302,303,315,316–329
**Balaxanı** – 54,55,66
**Banqladeş** – 191
**Belçika** – 131
**Bəhreyn** – 197
**Bibiheybət** – 33–35
**Biləcəri** – 49

**Binəqədi** – 49
**Birləşmiş Ərəb Əmirlikləri** – 133
**Bosniya və Hersoqovina** – 128
**Bruney** – 190
**Buta** – 50
**Cəhri** – 248
**Cənubi Qafqaz** – 39,129,134,300
**Ciddə** – 179,193
**Culfa** – 247
**Çeyildağ** – 50
**Dağlıq Qarabağ** – 13,14,15,17,31,38,39,76,131, 164,165,174,183,184,187, 206,207,208,235,265,276, 287,308,309,315
**Əfqanıstan** – 31,189–190
**Əhmədli** – 58,59
**Əlcəzair** – 11
**Ələt** – 50
**Fələstin** – 183
**Finlandiya** – 152
**Gürcüstan** – 18,19,121,122,288,297
**Hövsan** – 57
**Xocahəsən** – 49
**İğdır** – 201– 202
**İordaniya** – 108
**İran** – 39,101,148–149,181,188, 270–285,297,300,311,312
**İsrail** – 183
**İsveçrə** – 195
**Kamboca** – 42
**Kazan** – 12,191
**Keşlə** – 51,52,58
**Kəngərli** – 247
**Kəşmir** – 183
**Kipr** – 26

**Kuba** – 303
**Kürdəxanı** – 54,55
**Küveyt** – 135
**Qafqaz** – 17,33,286,287,292,297
**Qala** – 53
**Qaraçuxur** – 57,58
**Qazaxıstan** – 39,176,196
**Qızıldaş** – 50
**Qırğızıstan** – 122
**Qobustan** – 50
**Latviya** – 102
**Lerik** – 300
**Livan** – 104
**Lökbatan** – 50
**Malayziya** – 182,192
**Maştağa** – 54
**Məkkə** – 40,179,180,182–193,298
**Mərdəkan** – 53
**Mərkəzi Asiya** – 129
**Moskva** – 117
**Müşfiqabad** – 50
**Naxçıvan** – 60,201–202,216–238,240–285,297,300,301
**Naxçıvan MR** – 60,216–285
**Nardaran** – 54
**Nigeriya** – 200
**Ordubad** – 247
**Orta Asiya** – 17,18
**Oman** – 103
**Özbəkistan** – 39
**Pakistan** – 39,183,187
**Pirşağı** – 54,55,56
**Polşa** – 42
**Ramana** – 54
**Roma** – 9

| | |
|---|---|
| **Rumıniya** | – 132 |
| **Rusiya** | – 10,37,96,97,113,138,191, 259,289,297,300,301,311,312 |
| **Sabunçu** | – 54,316–322 |
| **Sahil** | – 50 |
| **Sədərək** | – 248 |
| **Səngəçal** | – 50 |
| **Səudiyyə Ərəbistanı** | – 38,39–40,179–180,182–193, 298 |
| **Sudan** | – 302 |
| **Sulutəpə** | – 49 |
| **Suraxanı** | – 57,58,146 |
| **Şağan** | – 52 |
| **Şahbuz** | – 238,244 |
| **Şərur** | – 248 |
| **Şri-Lanka** | – 136 |
| **Şüvəlan** | – 53 |
| **Tacikistan** | – 188–189 |
| **Tailand** | – 150,151 |
| **Tehran** | – 270 |
| **Türkan** | – 54 |
| **Türkiyə** | – 12–28,98-99,115–125,189, 201–202 |
| **Ukrayna** | – 18,19,121,122 |
| **Uzaq Şərq** | – 191 |
| **Ümid** | – 50 |
| **Vaşinqton** | – 100,177 |
| **Vatikan** | – 9 |
| **Yaponiya** | – 212,213,222 |
| **Yeni Günəşli** | – 57 |
| **Zabrat** | – 316–322,327 |
| **Zığ** | – 57,58 |

# MÜNDƏRİCAT

ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏNİN
MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ AÇDIĞI
İFTAR SÜFRƏSİ MƏRASİMİNDƏ NİTQ
*26 oktyabr 2005-ci il* ........................................................................................5

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA
*26 oktyabr 2005-ci il*........................................................................................11

TÜRKİYƏ JURNALİSTLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ
*28 oktyabr 2005-ci il*........................................................................................12

MDB HÖKUMƏT BAŞÇILARI ŞURASI YANINDA BEYNƏLMİLƏLÇİ
DÖYÜŞÇÜLƏRİN İŞLƏRİ KOMİTƏSİ ƏLAQƏLƏNDİRMƏ
ŞURASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ
*28 oktyabr 2005-ci il*........................................................................................29

BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNDƏ
*31 oktyabr 2005-ci il* .......................................................................................33

BBS KANALININ BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ MÜXBİRİ DEMİAN
QRAMMATİKASA MÜSAHİBƏ VERMİŞDİR
*31 oktyabr 2005-ci il* .......................................................................................36

RUSİYANIN «BİRİNCİ KANAL» TELEVİZİYASININ MÜXBİRİNƏ
MÜSAHİBƏ VERMİŞDİR
*31 oktyabr 2005-ci il*........................................................................................37

MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN
ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNİN
BAŞÇILARI İLƏ GÖRÜŞ
*1 noyabr 2005-ci il*...........................................................................................38

AŞ PA-nın HÜQUQİ MƏSƏLƏLƏR VƏ İNSAN HÜQUQLARI
KOMİTƏSİ SƏDRİNİN MÜAVİNİ EDUARD LİNTNER
İLƏ GÖRÜŞ
*1 noyabr 2005-ci il*...........................................................................................41

KAMBOCANIN KRALI ƏLAHƏZRƏT NORODOM SİAMONİYƏ
*1 noyabr 2005-ci il*...........................................................................................42

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR KVASNEVSKİYƏ
*1 noyabr 2005-ci il*...........................................................................................43

ANQOLA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB JOZE EDUARDU DUŞ SANTUŞA
*1 noyabr 2005-ci il..........................................................................................44*

BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNDƏ ŞƏHƏRƏTRAFI
KƏND VƏ QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA
DAİR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ
*2 noyabr 2005-ci il..........................................................................................45*

YEKUN NİTQİ ..........................................................................................*61*

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK
*2 noyabr 2005-ci il*..........................................................................................69

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR
KABİNETİNİN İCLASINDA NİTQ
*3 noyabr 2005-ci il ..........................................................................................71*

YEKUN NİTQİ ..........................................................................................*77*

BAKI ŞƏHƏRİ 29 SAYLI SƏBAİL SEÇKİ DAİRƏSİNİN
6 SAYLI SEÇKİ MƏNTƏQƏSİNDƏ SƏSVERMƏ
*6 noyabr 2005-ci il..........................................................................................89*

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ
SEÇKİLƏRİN NƏTİCƏLƏRİ İLƏ BAĞLI AZƏRBAYCAN TELEVİZİYASINA
VERDİYİ MÜSAHİBƏ
*7 noyabr 2005-ci il..........................................................................................91*

MDB-nin MÜŞAHİDƏÇİLƏR MİSSİYASININ RƏHBƏRİ,
MDB İCRAİYYƏ KOMİTƏSİNİN SƏDRİ – İCRAÇI KATİB
VLADİMİR RUŞAYLO İLƏ GÖRÜŞ
*7 noyabr 2005-ci il..........................................................................................96*

RUSİYA FEDERASİYASI FEDERAL MƏCLİSİ NÜMAYƏNDƏ HEYƏTİNİN
RƏHBƏRİ, FEDERAL MƏCLİSİN FEDERASİYA
ŞURASI SƏDRİNİN MÜAVİNİ SVETLANA ORLOVA İLƏ GÖRÜŞ
*7 noyabr 2005-ci il..........................................................................................97*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN
MİLLƏT VƏKİLLƏRİ İLƏ GÖRÜŞ
*7 noyabr 2005-ci il..........................................................................................98*

ABŞ-ın STRATEJİ ARAŞDIRMALAR İNSTİTUTUNUN DİREKTORU DOKTOR
COZEF BODANSKİNİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*7 noyabr 2005-ci il..........................................................................................100*

İRAN İSLAM RESPUBLİKASINDA MÜŞAHİDƏÇİLƏR QRUPUNUN RƏHBƏRİ ƏHƏD QƏZAİ İLƏ GÖRÜŞ
*8 noyabr 2005-ci il*........................................................................................*101*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQAYA

*8 noyabr 2005-ci il*........................................................................................*102*

OMANIN SULTANI ƏLAHƏZRƏT QABUS BİN SƏİDƏ

*8 noyabr 2005-ci il*........................................................................................*103*

LİVAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMİL LAHHUDA

*8 noyabr 2005-ci il*........................................................................................*104*

BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 80 İLLİK YUBİLEYİ HAQQINDA

*9 noyabr 2005-ci il*........................................................................................*105*

İORDANİYANIN KRALI ƏLAHƏZRƏT II ABDULLAYA

*10 noyabr 2005-ci il*......................................................................................*108*

KONSTİTUSİYA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*11 noyabr 2005-ci il* ......................................................................................*109*

BAKIDA KEÇİRİLƏN VƏ AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYASININ 10 İLLİYİNƏ HƏSR OLUNMUŞ
«HÜQUQİ DÖVLƏTİN QURULMASINDA KONSTİTUSİYANIN ROLU»
MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARININ
BİR QRUPU İLƏ GÖRÜŞ

*11 noyabr 2005-ci il*......................................................................................*112*

TÜRKİYƏNİN «İHLAS» XƏBƏR AGENTLİYİNİN VƏ «TÜRKİYƏ» QƏZETİNİN
MÜXBİRLƏRİNƏ VERDİYİ MÜSAHİBƏ

*11 noyabr 2005-ci il*......................................................................................*115*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALFRED MOİSİUYA

*14 noyabr 2005-ci il*......................................................................................*126*

DÜNYANIN ƏN NƏHƏNG POLAD ŞİRKƏTİ OLAN «MİTTAL STİİL»
ŞİRKƏTİNİN SAHİBİ LAKŞMİ MİTTAL İLƏ GÖRÜŞ

*17 noyabr 2005-ci il..........................................................................................127*

BOSNİYA VƏ HERSOQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN TİHİÇƏ

*18 noyabr 2005-ci il..........................................................................................128*

NATO BAŞ KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA
ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ ROBERT SİMMONS İLƏ GÖRÜŞ

*18 noyabr 2005-ci il ..........................................................................................129*

AĞ EV ADMİNİSTRASİYASININ SABİQ RƏHBƏRİ, QUBERNATOR
CON SUNUN İLƏ GÖRÜŞ

*21 noyabr 2005-ci il..........................................................................................130*

BELÇİKA XARİCİ İŞLƏR NAZİRİNİN ATƏT-dəki
XÜSUSİ NÜMAYƏNDƏSİ SENATOR PYER ŞEVALYE
İLƏ GÖRÜŞ

*21 noyabr 2005-ci il..........................................................................................131*

RUMINİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TRAYAN BESESKUYA

*22 noyabr 2005-ci il..........................................................................................132*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ
ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*22 noyabr 2005-ci il..........................................................................................133*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ
HEYKİ TALVİTİYE İLƏ GÖRÜŞ

*22 noyabr 2005-ci il..........................................................................................134*

KÜVEYT DÖVLƏTİNİN MALİYYƏ NAZİRİ
BƏDR MƏŞARİ ƏL-HUMEYDİ İLƏ GÖRÜŞ

*23 noyabr 2005-ci il..........................................................................................135*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA PACAPAKSAYA

*23 noyabr 2005-ci il.........................................................................................136*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ
FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ
XANIM ANGELA MERKELƏ

*23 noyabr 2005-ci il .........................................................................................137*

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ ÜZVLƏRİNƏ

*24 noyabr 2005-ci il.........................................................................................138*

ALMANİYA İQTİSADİYYATI ŞƏRQ KOMİTƏSİNİN SƏDRİ DOKTOR KLAUS
MANQOLDUN RƏHBƏRLİK ETDİYİ İŞ ADAMLARINDAN İBARƏT
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 noyabr 2005-ci il.........................................................................................141*

BAKI ŞƏHƏRİNDƏ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİNİN
GEDİŞİ İLƏ TANIŞLIQ

*26 noyabr 2005-ci il.........................................................................................143*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ
MƏNUÇEHR MOTTƏKİ İLƏ GÖRÜŞ

*28 noyabr 2005-ci il.........................................................................................148*

TAİLANDIN KRALI ƏLAHƏZRƏT BHUMİBOL ADULYADEJƏ

*29 noyabr 2005-ci il.........................................................................................150*

TAİLAND KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB TAKSİN ŞİNAVATRAYA

*29 noyabr 2005-ci il.........................................................................................151*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ

*29 noyabr 2005-ci il.........................................................................................152*

ÜÇÜNCÜ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN İLK İCLASINDA NİTQ

*2 dekabr 2005-ci il...........................................................................................153*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*5 dekabr 2005-ci il..................................................................................176*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT PALATASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 dekabr 2005-ci il..................................................................................177*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*6 dekabr 2005-ci il..................................................................................179*

MƏKKƏDƏ ÜMRƏ ZİYARƏTİ ...........................................................................*180*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*7 dekabr 2005-ci il..................................................................................181*

MƏKKƏDƏ İSLAM KONFRANSI TƏŞKİLATININ ÜÇÜNCÜ FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*7 dekabr 2005-ci il..................................................................................182*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*7 dekabr 2005-ci il ..................................................................................187*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏUDİYYƏ ƏRƏBİSTANINA SƏFƏRİ

*8 dekabr 2005-ci il..................................................................................193*

ŞEVRON–AVRASİYA ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU QAY HOLLİNQSVORT İLƏ GÖRÜŞ

*9 dekabr 2005-ci il..................................................................................194*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ–ALİLƏRİ CƏNAB MORİS LOYENBERGERƏ

*9 dekabr 2005-ci il..................................................................................195*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ–ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*9 dekabr 2005-ci il*.......................................................................................*196*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD
BİN İSA ƏL-XƏLİFƏYƏ

*9 dekabr 2005-ci il*.......................................................................................*197*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV
ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT ETMİŞDİR

*12 dekabr 2005-ci il*.....................................................................................*198*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB OLUSEQUN OBASANCOYA

*12 dekabr 2005-ci il*.....................................................................................*200*

TÜRKİYƏNİN İĞDIR BƏLƏDİYYƏSİNİN SƏDRİ NURƏDDİN ARASIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 dekabr 2005-ci il*.....................................................................................*201*

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ
60 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA
NİTQ

*14 dekabr 2005-ci il*.....................................................................................*203*

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*14 dekabr 2005-ci il*.....................................................................................*212*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB DZÜNİTİRO KOİDZUMİYƏ

*14 dekabr 2005-ci il*.....................................................................................*213*

BEYNƏLXALQ VALYUTA FONDUNUN YAXIN ŞƏRQ VƏ MƏRKƏZİ ASİYA
ÜZRƏ DEPARTAMENTİ DİREKTORUNUN MÜAVİNİ
JÜLİAN BERENQAUTUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*15 dekabr 2005-ci il*.....................................................................................*214*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*19 dekabr 2005-ci il*.....................................................................................*216*

NAXÇIVAN ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*19 dekabr 2005-ci il*.......................................................................................*218*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

*19 dekabr 2005-ci il*.......................................................................................*223*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV
NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA

*19 dekabr 2005-ci il*.......................................................................................*231*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR
RESPUBLİKASINDA

*19 dekabr 2005-ci il*.......................................................................................*237*

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNDƏ KEÇİRİLMİŞ
MÜŞAVİRƏDƏ GİRİŞ NİTQİ

*19 dekabr 2005-ci il*.......................................................................................*242*

YEKUN NİTQİ ..........................................................................................*262*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV NAXÇIVAN MUXTAR
RESPUBLİKASINDA

*20 dekabr 2005-ci il*.......................................................................................*268*
İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN NAXÇIVANA
SƏFƏRİ

*20 dekabr 2005-ci il*.......................................................................................*270*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ
MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ

*20 dekabr 2005-ci il* .......................................................................................*271*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA
PREZİDENT İLHAM ƏLİYEVİN VƏ PREZİDENT
MAHMUD ƏHMƏDİNEJADIN BİRGƏ MƏTBUAT
KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI VƏ
JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*20 dekabr 2005-ci il* .......................................................................................*273*

NAXÇIVANA TƏBİİ QAZIN VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*20 dekabr 2005-ci il.......................................................................................280*

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*20 dekabr 2005-ci il.......................................................................................284*

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏYƏ

*20 dekabr 2005-ci il.......................................................................................286*

GÜRCÜSTAN PATRİARXI II İLİA İLƏ GÖRÜŞ

*20 dekabr 2005-ci il.......................................................................................288*

RUSİYA MÜFTİLƏR ŞURASININ SƏDRİ
RAVİL QAYNUDDİN İLƏ GÖRÜŞ

*20 dekabr 2005-ci il.......................................................................................289*

*bp*-nin AZƏRBAYCANDAKI BAŞ TƏMSİLÇİ PREZİDENTİ İLƏ GÖRÜŞ

*21 dekabr 2005-ci il .......................................................................................290*

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ GELA BEJUAŞVİLİ
İLƏ GÖRÜŞ

*22 dekabr 2005-ci il.......................................................................................291*

QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM
HACI ALLAHŞÜKÜR PAŞAZADƏ VƏ BİR QRUP DİN XADİMİ İLƏ GÖRÜŞ

*22 dekabr 2005-ci il.......................................................................................292*

QIŞ AYLARINDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN VƏ ƏHALİNİN ELEKTRİK ENERJİSİ VƏ TƏBİİ QAZLA TƏMİN EDİLMƏSİ MƏSƏLƏLƏRİNƏ VƏ 2006-cı İLDƏ BU SAHƏDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*23 dekabr 2005-ci il.......................................................................................299*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ

*23 dekabr 2005-ci il.......................................................................................302*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB FİDEL KASTRO RUSA

*23 dekabr 2005-ci il.......................................................................................303*

AZƏRBAYCANIN YENİ MANATININ TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ

*28 dekabr 2005-ci il .......................................................................................304*

DÜNYA AZƏRBAYCANLILARINA!

*29 dekabr 2005-ci il.......................................................................................313*

BAKININ SABUNÇU RAYONUNUN ZABRAT QƏSƏBƏSİNDƏ SAĞLAMLIQ MƏRKƏZİNİN TƏMƏLİNİN QOYULMASI MƏRASİMİNDƏ NİTQ

*29 dekabr 2005-ci il.......................................................................................316*

BAKININ SABUNÇU RAYONUNUN ZABRAT QƏSƏBƏSİNDƏ 1176 YERLİK ORTA MƏKTƏB BİNASININ TƏMƏLİNİN QOYULMASINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ NİTQ

*29 dekabr 2005-ci il.......................................................................................319*

BAKIDA, SƏBAİL RAYONU ƏRAZİSİNDƏ «İSR HOLDİNQ» ŞİRKƏTLƏR QRUPUNA DAXİL OLAN 4 ULDUZLU «PARK İNN AZƏRBAYCAN» (KEÇMİŞ «AZƏRBAYCAN») MEHMANXANASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*30 dekabr 2005-ci il.......................................................................................323*

*Q E Y D L Ə R .......................................................................................330*
*Şəxsi adlar göstəricisi.......................................................................................383*
*Coğrafi adlar göstəricisi.......................................................................................388*

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,5. Uçot vərəqi 25,0 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.